AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

## XIX cild

# DASTANLAR

## IX kitab

BAKI – 2010

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*AMEA Folklor İnstitutu*
*Elmi Şurasının qərarı ilə çap olunur*

**REDAKSİYA HEYƏTİ**

**Hüseyn İsmayılov,** filologiya elmləri doktoru, prof. **(sədr);**
**İsrafil Abbaslı,** filologiya elmləri doktoru, professor;
**Teymur Bünyadov,** akademik;
**Tofiq Hacıyev,** AMEA-nın müxbir üzvü;
**Məhərrəm Cəfərli,** filologiya elmləri doktoru, professor;
**Paşa Əfəndiyev,** filologiya elmləri doktoru, professor;
**Oruc Əliyev,** filologiya elmləri namizədi;
**Qara Namazov,** filologiya elmləri doktoru, professor;
**Azad Nəbiyev,** AMEA-nın müxbir üzvü;
**Əziz Ələkbərli,** filologiya elmləri namizədi;
**Ağaverdi Xəlil,** filologiya elmləri namizədi;
**Seyfəddin Rzasoy,** filologiya elmləri namizədi **(məsul katib).**

**TƏRTİB EDƏNLƏR: f.e.d. prof. Hüseyn İSMAYILOV**
**f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**NƏŞRİNƏ MƏSUL: f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru külliyyatı, XIX cild, Dastanlar (IX kitab), Bakı,** "Nurlan" nəşriyyatı, 2010, 384 səh.

Azərbaycan folkloru külliyyatının bu cildində 5 cildlik "Azərbaycan dastanları" kitabının görkəmli folklorşünaslar M.H.Təmasib və Ə.Axundovun tərtib etdiyi 1-ci, 2-ci, 3-cü cildlərindəki və AMEA Folklor İnstitutunun Folklor arxivindəki mətnlərdən istifadə olunmuşdur.

**4603000000**
**A ---------------- Qrifli nəşr**
**N-098-2010**

**©Folklor İnstitutu, 2010**

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QURBANİ

## USTADNAMƏ[1]

Dəli könül, nə divanə gəzirsən?
Bivəfa dilbərdən sənə yar olmaz.
Düz çıxmaz ilqarı, əhdi-peymanı,
Hərcayıda namus, qeyrət, ar olmaz.

Sirr vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə,
Ot bitər kök üstə əsli nə isə,
Yovşan bəsləməklə çəmənzar olmaz.

Vəfalıya əmək çəksən, itirməz,
Bədəsil nəsihət, öyüd götürməz,
Qabaq tağı tər şamama bitirməz,
Göy söyüddə heyva olmaz, nar olmaz.

Təklif olunmamış bir yerə varma,
Nər olmaz meydanda hər bığıburma,
Səryaqıb adama heç yaxın durma,
Xain çıxar, onda düz ilqar olmaz.

Xəstə Qasım[2] günü keçmiş qocadı,
Gələn bəzirgandı, gedən xocadı,
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz.

Ustadlar ustadnaməni bir deməyib iki deyər, biz də deyək iki olsun, düşmənin gözü oyulsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yüz il də olasan bir bağa bağban,
Axır sərəncamı bağ sənə qalmaz.
Nə can qalar cəsədivin içində,
Nə də ki, cəsədin sağ sənə qalmaz.

Mərd olasan, bu meydanda durasan,
Çox pəhlivanları yolda yorasan,
Yüz əlli minarə sən qurdurasan,
Heç birindən bir otaq sənə qalmaz.

Səməd[3], deyilənə baxmaz, yerirsən,
Dağcan olsan qılcan qalmaz, ərirsən,
Daş altında, torpaq üstə çürürsən,
Axır sümüklərin sağ sənə qalmaz.

Ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək üç olsun, düşmənlərin ömrü puç olsun.

Namərdinən mərddən xəbər söyləyim,
Namərd öz könlündə mənlik davalar.
Mərd olan al geysə, yekəlik bilməz,
Namərd şilə geysə, xanlıq davalar.

Ayıb olmaz mərdin heç nərəsindən,
Əslində, bətnində, nə zərrəsində,
Namərd çovuş olsa kənd arasında,
Gedər, o, divandan donluq davalar.

Cümanın[4] göftarı arifə busat,
Mərdinən dolanmaq asanddı, asand,
Namərdin əlinə keçsə bir fürsənd,
Qəpiyin yerinə onluq davalar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ustadlar belə deyirlər ki, baş Xudafərin[5] körpüsü ilə Araz-Kür qovşağı arasında Araz boyu yeddi yüz yetmiş iki ev yaşayırdı. Bunların içərisində bir çox bəylər, bəyzadələr var idi. Ancaq bunların hamısı Dirili Hüseynalı xana baxırdı. Hüseynalı xan çox arxalı, çox varlı, dövlətli bir xan idi.

Hüseynalı xanın atadan-anadan doğma Mirzalı xan adında bir qardaşı da var idi. Mirzalı xan çox yumşaq xasiyyətli bir adam idi. Özünün də züryətdən heç nəyi yox idi. Qardaşlar nə qədər ki, ataları sağ idi, bir yerdə yaşayırdılar. Elə ki, ata öldü, Hüseynalı xan öz oğlanlarına arxalanıb, qardaşı Mirzalı xanı evdən çıxartdı. Atanın var-dövlətindən Mirzalı xana bir çürük cövüz də vermədi. Mirzalı xan hara əl atdısa heç bir yerə əli bənd olmadı. Axırda oturdu öz yoxsul daxmasında.

Günlərin bir günündə Mirzalı xan arvadını çağırıb dedi:

– Arvad, bütün bu işlər ona görə bizim başımıza gəldi ki, bizim züryətimiz, arxa-köməyimiz yoxdu. Deyirlər ki, el duası müstəcəb olar. Bir qurban götür, gedər ocağa, orada nəzir paylayaq, qurban kəsək, verək yetim-yesirə, bəlkə bir övladımız ola.

Sabahı Mirzalı xan nəzir-niyaz, bir dənə də karlı qurbanlıq götürüb getdi ocağa. Nəziri payladı, qurbanı da kəsdi. Allah-taala bunların qurbanını qəbul eylədi. Belə ki, bu işdən bir müddət sonra Mirzalı xanın bir oğlu oldu ki, on dörd gecəlik ay kimi. Mirzalı xana müjdə getdi. Mirzalı xan ac qarınları doyurdu, çıplaq əyinləri geydirdi. Sonra uşağa ad qoymaq istədilər. Bir ağıllı qoca kişi gəlib dedi:

– Oğlanın adını mən qoydum Qurbani. Çünki bunu qurbanla tapıbsınız.

Oğlanın adını qoydular Qurbani, tapşırdılar dayalara. Tainki uşaq yeddi yaşa çatdı, bir kamil molla tapıb uşağı tapşırdılar ona. Molla başladı uşağa dərs verməyə. Bir neçə ilin müddətində uşaq bütün elmlərdən baxəbər oldu. Belə ki, molla dərs deməkdən aciz qalıb, sifariş elədi ki: ey Mirzalı xan, Qurba-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

niyə daha elm kifayət elər. O, bütün elmləri sinə-dəftər eləyib, açarını qoyub cibinə.

Bəli, Mirzalı xan mollanın xələtini göndərib, Qurbanini də evə gətirdi. Qurbani evdə yaşamağa başladı. Mirzalı xan da ki, onun üstündə nanə yarpağı kimi əsirdi.

Bir gün Qurbani qapıda durmuşdu, adamlara baxıb köks ötürürdü. Mirzalı xan onu bu halda görüb dedi:

– Ay oğul, camal səndə, kamal səndə, fərasət səndə, niyə köksünü ötürürsən?

Qurbani dedi:

– Dədə, qulaq as, sana bir ərzim var.

Mirzalı xan dedi:

– Nədi, xeyir olsun?

Qurbani dedi:

– Allah mal-dövlət verəndə bizə bircə öküz də verməyib ki, gedib yerdən-zaddan əkək, bir az azüqə qazanaq. Mən bu işə sirr qalmışam ki, niyə belə olur. Niyə biri varlı olur, biri kasıb olur. Biri mallı olur, biri malsız olur.

Mirzalı xan dedi:

– Oğul, mənim Hüseynalı xan adlı bir qardaşım var idi ki, bünövrədən qolu zorludur. Atamızdan qalan var-dövləti çəkib əlimdən alıb. Gücüm çatmır ki, ondan ata payı alam. Onun üçün də mən belə kasıb olmuşam.

Qurbani dedi:

– Dədə, məni əmimin yanına apar. Təvəqqə eləyim. Bəlkə bizə bir cüt öküz verə, biz də gətirib pərəkardan-zaddan əkək.

Mirzalı xan dedi:

– Oğul, o, çox nainsaf qardaşdı. Mən rəva bilmirəm ki, ondan şey istəyəsən. İstəsən də sözünü yerə salacaq.

Qurbani dedi:

– Yox, dədə, sən məni apar, mən istəyim, qoy verməsin. Zərəri yoxdu.

Mirzalı xan naəlac qalıb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yaxşı. Gedək evinin yerini göstərim. Ancaq sana bir zəy də verməyəcək[6].

Qurbani dedi:

– Sən məni apar, eybi yoxdu, qoy verməsin.

Mirzalı xan Qurbanini qabağına qatdı, aparıb öz qardaşı Hüseynalı xanın evinə saldı, özü də kənarda dayandı. Hüseynalı xan Qurbanini görəndə, baxdı ki, vallah, bir gözəl oğlan gəlib onun yanında dayanıb ki, misli-manəndi dünyada yoxdu. Öz-özünə dedi: «İnsanda da bu qədər gözəllik olarmı? Bu haradan gəlib çıxdı?»

Qurbani baxıb gördü ki, əmisinin evində çox varlı-karlı qonaqlar var.

Hüseynalı xan üzünü çevirib Qurbanidən soruşdu:

– Bala, sən kimsən? Buraya nə mətləbə gəlmisən?

Qurbani dedi:

– Əmi, mən sənin qardaşın oğluyam. Dədəmlə sənin yanına gəlmişəm.

Hüseynalı xan dedi:

– Sənin dədən kimdi? Sən kimin oğlusan?

Qurbani dedi:

– Mənim dədəmi, niyə, tanımırsanmı? Sənin qardaşın Mirzalı xan.

Hüseynalı xan bu sözləri eşidən kimi Qurbaninin gözlərindən öpüb, öz yanında əyləşdirdi və qardaşı Mirzalı xanı da yanına çağırıb dedi:

– Qardaş, sənin ki, belə oğlun var imiş, bəs bu vaxta kimi mana niyə demirdin? Uşağıda belə saxlayarlarmı? Tamam çılın-çıplaqdı ki…

Mirzalı xan dedi:

– Qardaş xatirinə dəyməsin, səndə nə sifət görmüşəm ki, oğlumu da sənə tanış verəydim? Mən sənin yanına gəlmirdim, Qurbani zorla gətirdi.

Hüseynalı xan dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bəs oğlun nə mətləbə gəlib?
Mirzalı xan dedi:
– Özündən xəbər al gör nə mətləbə gəlib. Mən heç zad bilmirəm.
Hüseynalı xan dedi:
– Oğul, nə diləyin var dilə! Qorxma, hər nə istəsən verəcəyəm.
Qurbani dedi:
– Dədəm səndən mənə ayrı cür sözlər danışıb. Onun üçün söz deməyə cürət eləmirəm.
Hüseynalı xan dedi:
– Dədənə fikir vermə! Söylə görüm, nə deyirsən?
Bu danışıq arasında ortalığa yemək gəldi. Yedilər, içdilər, qurtarandan sonra Hüseynalı xan Qurbaniyə dedi:
– İndi sözünü deyə bilərsən.
Qurbani dedi:
– Əmi, bircə cüt öküz üçün gəlmişəm. Camaat hamısı əkin əkir. Biz əlacsız boynu buruq qalmışıq. Yeməyə çörək tapmırıq. Bir boyun öküzümüz olsa yerdən-zaddan əkərdik.
Hüseynalı xan dedi:
– Mənim gözüm üstə! Sənə bir cüt öküz verdim.
Hüseynalı xan əmr elədi, Qurbaniyə bir cüt öküz verdilər. Qurbani öküzləri götürüb, sevinə-sevinə evlərinə gəldi. Gecəni yatdılar, sabahı Qurbani dedi:
– Dədə, mən yer əkməyə gedirəm. Sən də mənə çörək gətirərsən.
Qurbani öküzləri götürüb kövşənə gəldi, qoşub yer əkmək istədi. Amma öküzlər xam idilər, getmədilər ki, getmədilər. Hərəsi bir tərəfə çəkildi. Qurbani nə qədər çalışdı, nə illah elədi, əməl olmadı ki, olmadı. Axırda dedi:
– Allah ki, adamdan üz döndərdi, bəndənin verməyindən bir şey çıxmaz. Görünür ki, biz həmişə kasıb dolanacayıq.
Öküzləri açıb buraxdı. Özü də yıxılıb bir zağada yatdı. Qur-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

baninin göz evi örtülü, könül evi açıq idi. Onun yuxusuna Gəncə şəhərində Ziyad xanın qızı Pəri xanım girdi. Pəri xanımın əlini Qurbaninin əlinə verib, onları bir-birinə buta elədilər. Bu iki aşiq-məşuq yuxuda görüşdülər, alışdılar, verişdilər.

Qurbani yatmaqda olsun, eşit Mirzalı xandan.

Mirzalı xan çaydan-çörəkdən götürüb Qurbaninin dalınca getdi. Ora Qurbani, bura Qurbani, – tapa bilmədi. Baxdı ki, çöldə bir keçəl dana otarır. Mirzalı xan onun yanına gəlib Qurbanini, öküzləri ondan soruşdu. Keçəl dedi:

– Əmi, oğlun o zağanın içərisinə girdi. Öküzlərin birini canavar yedi, biri də bataqlığa batıb öldü. Oğlunun da ürəyi keçib, qalıb zağada.

Mirzalı xan özünü yetirdi zağaya. Gördü Qurbani bərk yuxunun içindədi. Onun o tərəf-bu tərəfinə keçdi, çağırdı, amma çifayda – Qurbani ayılmadı ki, ayılmadı. Mirzalı xan keçəli də çağırdı, Qurbanini köməkli götürüb evə apardılar. Evdə də nə qədər elədilər Qurbanini ayılda bilmədilər. Mirzalı xan çoxbilmiş, dünyagörmüş adamları çağırıb dedi:

– Siz bilərsiniz, mənim oğlumun dərdi nədi? Bu niyə yuxudan ayılmır?

Dedilər:

– Sənin oğlunun dərdini qarılar bilər. Onları çağır.

Mirzalı xan gedib ipək qarını da, köpək qarını da, napak qarını da çağırdı. Əvvəl-əvvəl napak qarı gəldi, Qurbaninin vəzmini* əlinə alıb dedi:

– Oy aman, bununku onnandı…

Dedilər:

– Qarı nənə, onnandı nədi? Nə danışırsan?

Qarı dedi:

– Belə qadanızı alım, onnandı ey!.. Çaydan keçəndə qurbağadan qorxub, ürək-göbəyi düşüb, dəli olub. Tez qaçım, qalxıb

-------------------

*Nəbzini.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məni dalayacaq, mən də sizi dalayacağam, siz də başqalarını dalayacaqsınız, bir tufan qopacaq ki, ulax qovalayıb, keçi başı tutan qalmayacaq.

Qarını döydülər, çölə çıxartdılar. Köpək qarı irəli gəlib, Qurbaninin gözlərinin içərisinə baxdı, geri durdu, dedi:

– Ay aman, bunu tısbağa dalayıb, qudurub. Qalxıb bu saat məni dalayacaq. Mən də sizi dalayacağam. Adamlar hamısı quduracaq. Tez başına kül eləyin, ölsün.

Onu da döyub qovdular. İpək qarı irəli gəldi. Qurbaninin biləyini əlinə aldı, bərk-bərk sıxıb dedi:

– Hə, vəzmi öz yerindədi. Sevda vəzmidi. Mirzalı xan, bunun sağ əli mənim əzizimin başına olsun. İki gün daha yatar layiməst, üçüncü gün qalxar, ya badəsindən söylər, ya sevgisindən. Üçüncü gün olanda bunun başına qırx qız-gəlin yığ. Qalxanda dərdini söyləyəcək.

Bəli, vaxt gəldi keçdi. Qurbani üçüncü gün ayılıb gördü ki, başına çoxlu qız-gəlin yığılıb, dedi:

– Ay dədə, xalxınkı buradadı, bəs mənimki haradadı?

Mirzalı xan dedi:

– Oğul, ölmüsən o dünyadan danış, sağsan bu dünyadan. Səninki, mənimki nədi?

Qurbani dedi:

– Dədə, bir başı limcə*, bir başı çömçə olsa, dərdimi sənə söyləyə bilərəm.

Dədəsi dedi:

– Oğul, bir başı limcə, bir başı çömçə nə deməkdi? Sən mənimlə lap qarğadili danışırsan.

Qurbani dedi:

– Dədə, ona həm dəm, həm də qəm çömçəsi deyərlər. O gahdan dəmə çalar, gahdan qəmə.

-------------------

*Nimçə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, gətirdilər Qurbaniyə bir dənə saz verdilər. Qurbani sazı aldı əlinə, öpüb gözünün üstünə qoydu. Zilini zil, bəmini bəm eylədi, sinəsinə basıb görək nə dedi:

Yatmışdım, üstümə gəldi ərənlər,
Səfil, nə yatmısan, oyan dedilər.
Oyandım qəflətdən, açdım gözümü,
Al, abi-kövsərdən[7] iç, qan dedilər.

Oyandım, qəflətdən, açdım gözümü,
Ərənlər payinə sürtdüm üzümü,
Dindirdilər, haq söylədim sözümü,
Doxsan min kəlməmə bəyan dedilər[8].

Qurbani, batıbsan qəm dəryasına,
Ovçunun məskəni dağ arxasına[9],
Bir siyqəl versənə könlün pasına,
Aşiqi məşuqa qurban dedilər[10].

Mirzalı xan dedi:

– Ay oğul, bir əməlli bizi başa sal, görək nə deyirsən? Biz sənin sözündən heç zad başa düşmürük.

Qurbani atasının cavabında dedi:

– Dədə, qulaq as, bir ağız da deyim, bəlkə başa düşəsən.

Aldı Qurbani:

Bir kimsənə gəldi mənim üstümə,
Yazılı şəninə ya minəl-əta![11]
İmam ola, damad-Əhmədi-Mürsəl[12],
Doldurub camini eylədi əta.

Tərəhhüm eylədi abi-kövsərdən,
Onunçün keçmişəm can ilə sərdən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İstədim mətləbim payi-Qəmbərdən[13],
Kəramət eylədi mənə bir buta.

Eşq əlindən namus-arım qalmadı,
Nə bir səbrim, nə qərarım qalmadı,
Qurbaniyəm, ixtiyarım qalmadı,
Dönmüşəm kamana, qəddimdi düta.

Mirzalı xan dedi:

– Hə, oğul, indi başa düşdüm. Sənə buta veriblər. Ancaq de görüm, butanı sənə harada veriblər və sən haraya gedəcəksən?

Qurbani dedi:

– Dədə, mən Gəncə şəhərinə gedəcəyəm. Gəncəli Ziyad xanın qızı Pəri xanımı mənə buta veriblər.

Mirzalı xan çox elədi, Qurbani razı olmadı. Axırda Mirzalı xan dedi:

– Oğul, səni heç bir yana buraxmaram gedəsən. Gedək, əmin Hüseynalı xanın öküzlərinin cəriməsini ver, sonra danışarıq.

Qurbani razı oldu. Hər ikisi Hüseynalı xanın evinə getdilər. Hüseynalı xan baxdı ki, Qurbani həmin Qurbani deyil. Bunun həm kamalı, həm də gözəlliyi qat-qat artıb. Özü də çiynində bir saz var. Mirzalı xan ağlayıb dedi:

– Sənin qolların sınsın, qardaş! Səni heç səxavət sahibi olmayasan! Sən öküzləri verdin, bu apardı, ondan bəri bəlaya düşüb, dərd-azarını bilmirəm.

Hüseynalı xan Qurbanidən dərdini soruşdu.

– Əmi, qulaq as! Mən dərdimi dillə desəm, dilim yanar, sazla deyim.

Aldı Qurbani:

Haqqım əmr eylədi, gəldim dünyaya,
Gözüm açdım, mayil oldum o burca.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arif oldum, haqq kəlamın oxudum,
Əlif qəddim dal yazılmış o burca[14].

İsmin xəbər aldım, dedi Vəlidi,
Göydə gəzən Cəbrayıldı, Pəridi,
Qapıçısı şahi-Mərdan Əlidi,
Məhəmməd me`raca gedər o burca.

Qurbani der, arayıban tapmışam,
Qırxlar məclisindən bir pay qapmışam,
Kəbədisə mən də birin yapmışam,
Min könüldən bir yol gedər o burca.

Mirzalı xan dedi:

– Qardaş, öküzlərini öldürüb. Bunu heç hara buraxma, getsin. Deyir, bilmirəm, yuxuda mənə badə içiriblər, buta veriblər, gedəcəyəm butamın dalınca.

Hüseynalı xan üzünü Qurbaniyə tutub dedi:

– Oğul, de görək o nə butadı? Nə badədi?

Qurbani dedi:

– Əmi, bu saat deyim.

Qurbani sazı kökləyib dedi:

Könül qalxdı Bərdə sarı yeridi,
Orda bir şəhər var, adı Gəncə hey…
Gözəlləri, məhbubları, xubları,
Xub batıblar mala, mülkə, gəncə hey…

Qurbani bu bəndi qurtaran kimi atası bir odun parçası götürüb, basdı döşünə, dedi:

– İndi ki, belə oldu, qoy bir neçəsini də mən deyim.

Aldı Mirzalı xan:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başına döndüyüm gül üzlü oğul,
Dərd çəkməyə heç kim olmaz məncə, hey!
Gözəl sevib, abdal olub çaşıbsan,
Tayın yoxdu soltanca hey, xanca hey!

Aldı Qurbani:

Qarıncalar yuvasını qayırdı,
Gözəl kəklik balaların doyurdu,
Fələk vurdu gözü yaşlı ayırdı,
Aram düşüb nazlı yardan gencə hey!

Aldı Mirzalı xan:

Yatmaq üçün gözlərinin xabı var,
Dərd çəkməyə mən yazığın tabı var,
Hər adamın tayı, tuşu, babı var,
Tutmaq olmaz hər yetənlə pəncə hey!

Aldı Qurbani:

Qurbani der, vüsalına ermədim,
Əl uzadıb qönçə gülün dərmədim,
İran gəzdim, Turan gəzdim görmədim,
Gözəllikdə, məhbubluqda onca hey!

Aldı Mirzalı xan:

Mirzalıyam, əldən getdi varımız,
Kimlər çəkər namus ilə arımız,
Çünki olduq xeyrə, şərə yarı biz,
Gəlsən bölək, borcu sənnən təncə hey![15]



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Camaat hamısı Mirzalı xana minnət-sünnət eyləyib dedilər:

– Əşi, Qurbani haqq aşığı olub. Qoy məşuqunun dalınca varsın getsin. Ümid var ki, Pəri xanımı götürüb qayıdar.

Hüseynalı xan dedi:

– Qardaş, Qurbani ilə işin olmasın. Qoy getsin. İnşallah, genə salamat qayıdar. O, haqq aşığıdı. Başından bir tükün əskik olsa, mən zamın.

Mirzalı xan oğlunun üzündən-gözündən öpüb ağlaya-ağlaya dedi:

– Oğul, gəl bu daşı ətəyindən tök, məni başı kəsik qoyub getmə.

Qurbani başını bulayıb, sazı sinəsinə basdı, sazla ona cavab verdi.

Aldı Qurbani:

Ey ata, can gedib, qalıbdı nəfəs,
Bu nişanda belə yarı görmüşəm.
Bunca ki, gözəli tapmadı könül,
Ah çəkibən intizarı görmüşəm.

Gözəllikdə kimsə yoxdu təhrində,
Onunçün çəkirəm yarın qəhrin də,
Nə İran, nə Turan, Gəncə şəhrində,
Canlar alan o nigarı görmüşəm.

Ay ata, sən məni etmə günahkar,
Bəsdi, bunca nə elərsən ahuzar?
Qurbani der, əldən gedib ixtiyar,
Xublar şahı o sərdarı görmüşəm.

Atası çar-naçar razı oldu. Qurbani camaatla, atası ilə, qohum-qardaşı ilə, əmisi ilə əltəmən edib ayrıldı, Gəncə şəhərinə getməyin binasını qoydu. Az getdi, üz getdi, dərə-təpə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

düz getdi, Saleh Sövdəyər adında bir adama rast gəldi. Saleh Sövdəyər ondan soruşdu:

– Oğul, haradan gəlib, haraya gedirsən?

Qurbani dedi:

– Əmi, kandan gəlib, məkana gedirəm.

Saleh Sövdəyər soruşdu:

– Sən bir tikə uşaqsan. Nə bilirsən kan nədi, məkan nədi?

Qurbani ona dedi:

– Əmi, kan bu dünyadı, məkan o dünyadı.

Saleh Sövdəyər dedi:

– Sən bu səfərindən məni hali elə görüm hara gedirsən?

Qurbani aldı, görək ona nə cavab verdi:

Əvvəl başdan yerim biməkan oldu,
Görünür gözümə haralar mənim.
Əyyub kimi sinəm şanbaşan oldu[16],
Göründü gözümə yaralar mənim.

İslam olan məzhəbimiz şərifdi,
Dərdli olan bu odları görübdü,
Ala gözlü bir dilbərim gedibdi,
Şahi-Mərdan gəlsə çaralar məni.

Əvvəl başdan qara gəlibdi yazı,
Kimdi olsun bu dünyadan irazı?!
Məhəmməddən bizə qalıbdı yazı,
Qurbaniyəm, işim aralar mənim[17].

Saleh Sövdəyərin buna çox yazığı gəlib dedi:

– Oğul, mən istəyirəm səni bu yoldan qaytaram. Sənin kimi ağıllı, kamallı oğlanın bu qorxulu yola getməyi yaxşı deyil. Məyər bir adam olmadı ki, səni buraxmaya? Sən gəl bu daşı ətəyindən tök, bu yoldan qayıt. Get öz yerində birinin qızını al.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə çox gözəl. Gəncə hara, bura hara? Yoldaca itib öləcəksən. Mənim sözümə baxsan ziyan çəkməzsən, gözəllərdən birini seçib alarsan.

Qurbani ona cavab verdi:

– Əmi, üz vurma! Mən qayıda bilməyəcəyəm.

Saleh Sövdəyər ona bir kağız yazıb verdi, dedi:

– Çünki qayıtmırsan, Arazın qırağındakı ev mənim əmim oğlunun evidi. Adamları Arazdan o taya keçirir. Al bu kağızı, ona ver, sənə kömək elər.

Qurbani ondan kağızı aldı, xudahafizləşib özünü yetirdi Arazın qırağına, Mustafa adlı bir adamın yanına. Saleh Sövdəyərin verdiyi kağızı ona verdi. Mustafa baxdı ki, bu elə bir oğlandı ki, qüdrətin qələmi coşa gələndə əvvəl qələmini buna çalıb. Məyər bunun yiyəsi yoxmuş, nə imiş ki, belə gözəl uşağı çöllərə buraxıb. Dünyanın altında mənim gözümun ağı-qarası bircə qızım var, kaş onu alaydı, başqa yerə getməyəydi.

Qurbani dedi:

– Əmi, mən tələsiyirəm. Məni tez Arazdan o tərəfə keçir. Uzaq səfərim var.

Görək Mustafa ondan nə cür əhval-pürsan olur, Qurbani nə cür cavab verir.

Aldı Mustafa:

Cavan oğlan, nə məkandan gəlirsən,
Səbəb nədi, de, düşmüsən çölə sən?
Gözəl sevib, abdal olub çaşmısan,
Mən baxıram, nabələdsən yola sən.

Aldı Qurbani, cavabında görək nə dedi:

Başına döndüyüm, ay pirü qoca!
Bir pəri salıbdı çöllərə məni,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə günüm günüzdü, nə gecəm gecə,
Bir pəri salıbdı çöllərə məni.

Aldı Mustafa:

Mal istəsən dövlətim var, varım var,
Namusum var, qeyrətim var, arım var.
Oğul olsan, gözüm üstə yerin var,
Bir qızım var, ona həmdəm olasan.

Aldı Qurbani:

Xəbər alsan, budu sözümün düzü,
Sızıldayır yaram, səpmə gəl duzu,
Cavad xan bacısı, Ziyad xan qızı,
O pəri salıbdı çöllərə məni.

Aldı Mustafa:

Mustafa bil, ilqarında bütündü,
Yeri, oğul, mənzilinə yet indi,
Axtarıb Pərini tapmaq çətindi,
Duam budu: sevdiciyini alasan.

Aldı Qurbani:

Qurbaninin dərdi olub ziyada,
Allahı çağırram yetişər dada,
Bir gözəl seçmişəm fani dünyada,
O pəri salıbdı çöllərə məni.

Mustafa tacir baxdı ki, Qurbaninin butası var. O, haqq aşığıdı. Onu yoldan qaytarmaq olmaz. Ona xeyir-dua verdi, kö-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mək edib Arazdan keçirdi, yola saldı.

Qurbani günə bir mənzil, tainki gəlib Bərdə şəhərinə yetişdi. Qəzara Aşıq Valeh də Bərdədə idi. Qurbanini görüb əhval soruşdu. Qurbani başına gələnləri Aşıq Valehə söylədi. Aşıq Valeh dedi:

– Nə cür aşıqsan? Mana bir bağlama söylə görüm haqq aşığısan, yoxsa qondarma aşıqsan? Əgər haqq aşığı olsan, xeyir-dua edərəm gedərsən, muradına çatarsan.

Qurbani bildi ki, ustad aşıqların ağzı faldı, onlar xeyir-dua versə, səfər uğurlu olar. Ona görə də sazı döşünə basıb, ona üç qatar söz oxudu[18].

Aşıq Valeh onun sözlərini çox bəyənib, alnından öpüb dedi:

– Doğrudan da haqq aşığısan. Get, allah işini fərəc versin!

Qurbani Aşıq Valehdən ayrılıb, Bərdə şəhərinin ucqarı ilə gedirdi, birdən bir toy səsi eşitdi. Düz toy olan yerə getdi. Burada toy məclisini keçirən Aşıq Saleh adlı bir adam idi. Adamlar Qurbaninin əlində saz görüb, yuxarı başa dəvət etdilər. Bu, Aşıq Salehə ağır gəldi. İstədi Qurbanini qovsun, camaat yerbəyerdən dedi:

– Xeyr, aşığı qovmaq olmaz. Qoy o da oxusun.

Aşıq Saleh dedi:

– Dərya olan yerdə qətrə nə qələt elər? O mənim qabağımda nə deyəcək? İndi oğuldu, dediyim sözə cavab versin.

Aldı Aşıq Saleh:

Get dolanginən, xamisən hələ,
Püxtə olmağa çox hünər gərək.
Mürği-qafilə həmzəban olub,
Dövrə qalxmağa balü pər gərək.

Qurbani başını bulayıb güldü, dedi:

– Aşıq, qabağındakını uşaq hesab eləmə! İndi qulaq as gör,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mən nə deyirəm. Səni saz dilləndirir. Sən sazı dilləndirmirsən.
Aldı Qurbani:

Dost bizi buyurdu xidmət şərifə,
Dedik ki, baş üstə, kafü lamü kaf!
Fitnə qaşlı, cadu gözlü sevdiyim,
Çoxlarını eyləyib həyyü lamü kaf.

Aşıq Saleh Qurbaninin bu oxumağının qabağında qaldı gözlərini döyə-döyə. Camaat yerbəyerdən qışqırdı:
– Aşıq deyən yaxşıdı. Aşıq, dalın de gəlsin!
Aldı Qurbani:

Sidqi dürüst olan yetişər haca,
Kimsə də kimsəyə etməz iltica,
Peyğəmbər ki, qədəm basdı meraca,
Pişvazinə gəldi mimü lamü kaf.

Mehdi görər qoşununun sanını,
İnsan üçün qurar haqq mizanını,
Bir gün alar Qurbaninin canını,
Bir gözləri cəllad kafü lamü kaf[19].

Aşıq Saleh Qurbaninin sözlərini eşidəndə başı taqqıldadı, qulaqları cingildədi. O, ömründə belə sözlər eşitməmişdi. Çölə çıxmaq bəhanəsi ilə adamların dal tərəfindən yayınıb, başmağının bir tayını da qoyub, bayaq məclisi buraxıb qaçdı. Hay-küy düşdü. Adamlar içərisində çaxnaşma oldu. Dedilər:
– Aşıq Saleh qaçıb. Aşıq, xahiş edirik bir neçəsini də deyəsən.
Qurbani həzaratın sözünü sındırmadı. Sazı döşünə basıb görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İbtida eyləyib girdim meydana,
Aşıqlar ustadı, görün, handadı?
Pünhanı dərdlərim çoxdu canımda,
Dürr-kövhərlərim hələ kandadı.

Nazlı yar əlindən sinəsi dağam,
Sürəyyatək yatmamışam, oyağam,
Şahindən ayığam, qazdan sayağam,
Dü çeşmim gözləyir, sübhü dandadı.

Mənə badə verib həzrət Əli,
O nə ki, buyurub demişəm: – bəli,
Qurbaninin fikri, zikri, xəyali,
Axır ki, mətləbi Pəri xandadı[20].

Qurbanini o gecə qonaq eyləyib, çox hörmət elədilər. Səhər açıldı. Qurbani camaatla xudahafizləşib, buradan yola düşdü, ta ki, gəlib bir bostana çıxdı. Bostançıdan bir yemiş aldı. Oturub yemişi yedi. İstədi durub getsin, bostançı dedi:

– Oğul, sən mənə oğul ol, burada bostan, bağ becərib dolanaq. Aşıqlıqdan nə qazanacaqsan ki, sazı çiyninə salıb kəndbəkənd gəzirsən?

Qurbani başını bulayıb ona cavab verdi:

– Əmi, mən kəndbəkənd gəzən aşıqlardan deyiləm. Mənimki başqadı. Qulaq as, bir neçəsini deyim, onda bilərsən.

Aldı Qurbani:

Başına döndüyüm, ay Pərizadə,
Can içində cana vermərəm səni.
Neynərəm bostanı, neynərəm bağı,
Yüz bağü bostana vermərəm səni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağlarda maralsan, çöllərdə ceyran,
Ordubad, Naxçıvan boyuna heyran,
Tamaşaya gələr cəmi Gülüstan,
Küllü Dağıstana vermərəm səni.

Qurbani der, can içində can gələ,
Yaş yerinə gözlərimdən qan gələ,
Camalın görməyə Süleyman gələ,
Təxti-Süleymana vermərəm səni.

Bostançı bunu belə görüb dedi:

– Sən eşqdən, qızdan, gözəldən danışırsan. Səndən mənə oğul olmaz. Get allah-taala işini fərəc versin!

Qurbani bostançı ilə xudahafizləşib, oradan keçdi. Mənzil aldı, daban bərkitdi, ta ki, gəlib Gəncə yaxınlığında, Şeyx gümbəzinin yaxınına çatdı[21]. Qurbani əvvəl-əvvəl böyük Şeyxin qəbrini ziyarət elədi. Üzünü Şeyxin qəbr daşına sürtdü. Sonra Şeyxin günbəzində oturub bir az dincəlmək istədi. Bir də gördü, budu, üç dərviş peyda oldu. Dərvişlər gəlib Qurbaniyə salam verdilər, əleyk alıb əyləşdilər, Qurbanidən xəbər aldılar:

– Oğul, haralısan? Haradan gəlib, hara gedirsən? Deyəsən qərib adama oxşayırsan.

Qurbani dedi:

– Əmi, Gəncə şəhərinə gedəcəyəm. Burada Şeyxin qəbrini ziyarət eləyirəm.

Dərvişlər bir-birilə himləşdilər ki, biz axşama kimi boğazımızı yırtırıq, beş şahı qazana bilmirik. Bizə hörmət qoyan yoxdu. Camaat aşıqlara hörmət qoyur, çox pul verir. Gəlin bunu da özümüzə yoldaş eləyək. Elə ki, gəzdik, dolandıq, qazandıq, sonra başını batırarıq, pulları götürərik. Bunlar bu fikri eləməkdə qalsınlar, sizə xəbəri kimdən verim, Pəri xanımın əmisi oğlu Mahmud bəydən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mahmud bəy o gün şikara çıxmışdı. Ov gəzə-gəzə gəlib Şeyxin qəbrinin yanına çıxdı. Baxdı ki, Şeyxin qəbrinin üstündə bir dəstə dərviş, içərilərində də bir aşıq var. Mahmud bəy çox sevindi ki, bunu bir az oxutdurub keyfimizi açarıq. Çünki şəhərdə Qara Vəzir çalıb-çağırmağı qədəğən eləmişdi. Elə Mahmud bəy bu fikirdə idi ki, bu tərəfdən dərvişlərin birisi Qurbaniyə dedi:

– Oğul, gəl sən də bizim oğlumuz ol. Bir yerdə kəndlərə gedək, məclis keçirək, pul qazanaq.

Qurbani haqq aşığı idi. O saat başa düşdü ki, dərvişlər onu aldatmaq istəyirlər. Dedi:

– Baba dərvişlər, aman verin sazla bir neçə söz deyim, sonra eybi yoxdu, yoldaş olarıq. Mən də çölçü, siz də çölçü.

Aldı Qurbani:

Fənd eləmə, felli dərviş,
Belə kar eyləmək olmaz.
Yıxıban könül evini,
Mürğü zar eyləmək olmaz.

Mahmud bəy aralarından qulaq asırdı. Gözlədi ki, görsün aşıq gerisini nə cür deyəcək.

Aldı Qurbani gerisini:

Söylə dərdin bilənlərə,
Dərd başına gələnlərə;
Hər üzünə gülənlərə,
Etibar eyləmək olmaz.

Qurbaniyə gətir məzə,
Dərd üstündə dərdim təzə.
Dərd biləni dərd bilməzə,
Giriftar eyləmək olmaz[22].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamama yetən kimi Mahmud bəy atını dərvişlərin üstünə sürüb dedi:

– Tez deyin görüm, bu aşığa nə deyibsiniz ki, o, belə oxuyur? Siz aşığa bir söz deməsəniz, aşıq elə sözlər oxumazdı. Hərgah düzünü deməsəniz, hamınızı qıracağam.

Dərvişlər dedilər:

– Vallah, biz heç zad deməmişik.

Mahmud bəy Qurbanidən soruşdu:

– Bu dərvişlərinki qalsın, indi, aşıq, sən de görüm, haralısan, adın nədi?

Qurbani dedi:

– Qaradağlıyam. Adım da Qurbanidi.

Mahmud bəy dedi:

– Düzünü de görüm, o dərvişlər sənə nə dedilər ki, sən o sözləri oxudun?

Qurbani dedi:

– Şah sağ olsun, onlar fikirləşdilər ki, məni işlətsinlər, sonra da öldürüb qazandığımı özlərinə götürsünlər.

Mahmud bəy dedi:

– İndi mən onların başına oyun gətirim, sən də tamaşa elə. Bu saat onları atın quyruğuna bağlayıb, bu düzü biyanbanda parça-parça eləyəcəyəm.

Qurbaninin insafı qəbul eləmədi. Onları Mahmud bəyin əlindən alıb dedi:

– Qoy çıxıb varıb getsinlər. Necə deyərlər, yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişinin işidi.

Bəli, Qurbani dərvişləri Mahmud bəyin əlindən alıb buraxdı. Mahmud bəy dedi:

– İndi, ay aşıq, bir neçə ağız oxu, əgər xoşuma gəlsə, səni öz evimdə saxlayıb, nə mətləbin var yerinə yetirəcəyəm.

Qurbani sazı döşünə basıb, Mahmud bəyin qulluğunda görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yerlə göy yoxkən bir nəzər qıldı,
Əritdi gövhəri, dürr eylədi şah…
Yox yerdən aləmi bərqərar etdi,
Cismini qəndildə nur eylədi şah.

Gətirdi kəlamı cümlə-cahana,
Qırxları göstərdi əhli-ürfana,
Peyğəmbər xitabın gətdi dəhana,
Həbibin söhbətin şur eylədi şah.

Dirili Qurbani, götür, din indi!
Boynundadı məhəbbətin kəməndi,
Dərya üstdə oynadırdı səməndi,
Özün Cəbrayıla pər eylədi şah[23].

Mahmud bəy dedi:

– Aşıq, sən çox yaxşı oxuyursan. Özün də çox kamil adama oxşayırsan. Ölüncə mən sənə xidmət eləyəcəyəm. Ancaq mənim Pəri adlı bir əmim qızı var. Gəncə xanı Ziyad xanın qızıdı. Özü də dünya gözəlidi. Gəncədə bir əzazil vəzir var ki, adı Qara Vəzirdi. Bu vəzir Pəri xanımı öz oğluna almaq istəyir. Oğlu da bir axmağın biri. Amma hamı Qara Vəzirdən qorxur. Onun qorxusundan bir aşıq oxuyanda Pəri adı çəkə bilməz. İndi mən səni evə aparacağam. Ancaq sənlə bir şərt kəsirəm. Mənim evimdə oxuyanda, gərək elə şey oxuyasan ki, içərisində Pəri sözü olmaya. Əgər Pəri adı çəksən, Qara Vəzir səni də öldürər, mənim də nəslimi kəsər.

Qurbani dedi:

– Yaxşı, şərtlərinə əməl edərəm.

Mahmud bəy dedi:

– Mən deyən kimi oxusan, altımdakı kəhər atı da, bir yaxşı saz da sənə verib, səni dünya malından qəni edəcəyəm. Sənə çox quşum qonub, məhəbbətim yapışıb, indi gəl evə gedək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mahmud bəy Qurbanini ata mindirdi, evə gətirdi. İndi sizə kimdən xəbər verim, Pəri xanımdan.

Pəri xanım həmin axşam yatıb aləmi-vəyğada gördü ki, butası Qurbani Gəncəyə gəlib. Yuxudan sərsəm ayıldı. Çağırdı başında olan qızları, dedi:

– Qızlar, şəhərə düşün! Bu boyda, bu buxunda bir oğlan şəhərə gəlib. Kim onun yerini öyrənib mənə xəbər gətirsə, boyunbağımı ona verəcəyəm.

Qızlardan Mələksuma adlı biri yaman gəzəyən idi. Şəhərdə hər nə olsaydı o saat bilərdi. O, dedi:

– Mən bu saat onun yerini öyrənib sənə deyərəm.

Mələksuma bütün şəhəri gəzdi, Pəri dediyi boyda-buxunda oğlan görə bilmədi. Qız öz-özünə fikirləşdi: «Yaxşı, mən Mələksuma olam, şəhərə bu sifətdə adam gəlsin, mən onu tapmayam? Bu olası iş deyil».

Bu fikir ilə evə gəlirdi, Mahmud bəyin qapısından baxanda gördü ki, Pəri xanımın söylədiyi nişanda oğlan budu buradadı. Dedi: «Mənim qıçım sınsın. Mən hər yeri gəzmişəm, niyə buraya girməmişəm?».

Sevinə-sevinə Pəri xanımın yanına gəldi. Pəri xanım onu görən kimi dedi:

– Ay qız, Mələksuma, bu gün mənim gözlərimin kökü saraldı, ürəyim partladı, de görüm nə xəbər gətirmisən?

Mələksuma dedi:

– Xanım, əvvəl-əvvəl müjdəmi ver, sonra deyərəm. Verməsən, demərəm.

Pəri xanım boyunbağını çıxarıb ona verdi.

Mələksuma gülüb dedi:

– Bunla uşaq aldadırsan?.. Üzüyüm yoxdu, qızıl üzük də ver, sonra deyim. Başmağım yoxdu, başmaq da ver, sonra deyim. Dədəmə də bir dəst paltar, anama da bir çəpkən al, sonra deyim.

Pəri xanım onun dediklərinin hamısını verdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mələksuma xanım gülə-gülə dedi:

– Xanım, sən dediyin oğlan Mahmud bəyin evindədi. İlahi, o kimin yarı olacaqsa, bəxtəvər onun başına.

Pəri xanım çox sevindi. Axşama salıb, bir dəstə qızla gedib Mahmud bəyin evinə girdi, aynanın qabağında dayandı. Bunlar aynaya baxan zaman Mahmud bəy üzünü Qurbaniyə tutub dedi:

– Aşıq, başına dönüm, Şeyx günbəzində sənə tapşırdığımı yadından çıxartma, bir neçəsini oxu, ürəyimiz açılsın.

Qurbani sazı götürüb kökləməyə başladı. Pəri xanımın bir dəstə qızla gəlməsi ona əyan olmuşdu. Sazı sinəsinə basıb görək nə dedi:

Ay ariflər, bu dünyanın üzündə,
Təzəcə açılan güllər sevinsin!
Başı ağ lələkli, gülgəz yanaqlı,
Telləri dağından yellər sevinsin!

Bu vaxt Pərinin üzünə yel dəyib, onun tellərini dağıdırdı. Onun üçün də Qurbani bu sözü deyirdi.

Qurbani aldı gerisini:

Gəlsin bahar fəsli, açılsın yazlar,
Göllərə tökülsün ağ quba qazlar;
Bəynişan oğlanlar, şahzadə qızlar,
Onlarla danışan dillər sevinsin.

Qurbani der, mən yemərəm narıncı,
Yar yara baxarmı belə zarıncı?
Almanı, heyvanı, narı, turuncu,
Onları oynadan əllər sevinsin!

Mahmud bəy dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay aşıq, yaxşı oxudun, bir də oxu! Canla-başla hər nə istəsən, xələtini verəcəyəm.

Qurbani dedi:

– Nə deyirəm, oxuyum da.

Aldı Qurbani:

Bir pərzad görmüşəm sizin ellərdə,
Çün cismü canimin namidarıdı;
Günəş nişanəli, qəmər misallı,
O cahan xubinin cülvədarıdı.

Dost bilsə yarının gəldiyin, neylər?-
Yar yolunda qara bağrını teylər;
Nəsihət qəmzənə ver ki, qan eylər,
Gözəllər şuxinin sitəmkarıdı[24].

Mahmud bəy dedi:

– Aşıq, çox yaxşı oxuyursan. Ancaq nəbadə-nəbadə Pəri adı tutasan.

Pəri xanım kənardan qulaq asırdı. Mahmud bəyin bu sözünü eşidib güldü. Qurbanı Pəri xanımın güldüyünü görüb, sazı döşünə basdı, dedi:

Cəbinin təcəlla, cəmalın günəş,
Külli şeyün halik-allah deyibdi[25].
İki qabi-qovsun, qürrətüleynin[26],
Bilmirəm qanıma nə susayıbdı.

Təbəssüm eyləyir hərdən nazənin,
Mərifət anlayıb, mənasın bilin;
Ya müşk-ənbərdi siyah kakilin,
Ya şəbi-yəldadı, ya rəqayibdi[27].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elmin mədənisən, kərəmin kanı,
Sənsən bu dünyanın dari-imanı;
Qurbani, bəsdi, sən həddini tanı,
Məlayik üzünə durma, ayıbdı!

Qurbani oxumağını qurtaran kimi, Pəri xanım gedib lap pəncərənin qabağında dayandı. Qurbani dövran sürürdü, saz döşündə oynayırdı. Gözünü çevirib gördü ki, Pəri xanım pəncərənin lap qabağına gəlib. Qurbani onu görcək, ürəyi coşa gəldi, sazı sinəsinə basıb, görək nə dedi:

Gecə-gündüz vaqtı-bivaqt ağlaram,
Çeşmim yaşı ceyhun olur, sellənir.
Yaz mövsimi bülbül dil-dil ötəndə,
Bağ-bağçalar nərgizlənir, güllənir.

Qayıtmaq istəməz gözüm gözəldən,
Qayıtsa artırar dərdim təzə əldən,*
Ellərdə qaydadı ruzi-əzəldən,
Gözəllərin şamaması əllənir.

Mərd odur ki, işi tuta mərdilən,
Ər istəsən, keç namərddən, ər dilən,
Rəmz anlayan, söz düşünən, dərd bilən,
Aləmlərdə şöhrətlənir, bəllənir.

Könlüm tələb edib, axtarar yarın,
Xalq içrə zay eylər namusun, arın,
Yar yarına gündə olsa məqarün,
Könülü şad olur, ruhu tellənir.

------------------------
*Yenidən, bir daha.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbaniyəm, dərd çəkmişəm nəhanlar,
Xəyalım sevməkdi səntək cananlar;
Yanaşsa üzünə müştaq dəhanlar,
Nəfəs dəyər, cığaları yellənir.

Dövran qurtardı. Pəri xanım da qayıdıb evlərinə getdi, qızlara dedi:

– Qızlar, muradımı aldım. Allah sizi də muradınıza yetirsin. Qurbaninin üzünü gördüm.

O biri tərəfdən Mahmud bəy də Qurbaniyə dedi:

– Qurbani, axı mən sənə demişdim ki, Pəri adı tutmayasan. Sən genə də şərti pozub, Pəri adı tutdun.

Qurbani dedi:

– Ay Mahmud bəy, vallah sözün qafiyəsi gəlmədi. Onun üçün qafiyə yerinə dilim dolaşdı, bir Pəri sözü işlətdim. Məni bağışla, ta demərəm. Amma burası var ki, mən dediyim Pəri göydəki pərilərdəndi.

Bəli, yatdılar, sabah açıldı. Mahmud bəy dedi:

– Oğul, mən bazara çıxacağam. Nə təmənnan varsa, məndən istə. Xoşuma gəlirsən. Ölüncə səninlə dostam.

Qurbani dedi:

– Səndən heç bir şey istəmirəm. Dünya malı mənə lazım deyil. Ancaq mənə bir adam qoş, gedim sazbənddən bir saz alım.

Mahmud bəy dedi:

– Kəndlərdə mənim yaxşı dostlarım var. Gəl sənin əlinə kağız verim, get kəndlərdə aşıqlıq elə! Səni burada saxlamağa qorxuram. Gəncədə Dədə Yediyar adlı bir aşıq var, eşidər, sazını əlindən alıb, özünü də dustaq elər. İndi səni sazbəndin yanına göndərəcəyəm. Saz alıb, tez kəndlərə çıxarsan.

Qurbani dedi:

– Yaxşı bəy, sən məni sazbəndin yanına göndər, sonrası asandı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mahmud bəy ona bir adam qoşub dedi:

– Apar bunu sazbənd Usta Bədəlin yanına. De ki, buna bir yaxşı saz versin.

Mahmud bəy qoşan adam Qurbanini sazbənd Usta Bədəlin dükanına gətirdi. Salamməleyk, əleykəsalamdən sonra Qurbani ona dedi:

– Usta, mana elə bir saz ver ki, öz-özünə süxənvərlik eləsin.

Ustanın buna acığı tutub dedi:

– Yox, sənə elə bir saz verim ki, gedib özü pul qazansın, gətirib səni də saxlasın. Bu bir tikə uşağın danışdığı sözə bax.

Qurbani dedi:

– Usta, niyə acığın tutur. Bax, o asılan sazı istəyirəm.

Usta qəzəblənib dedi:

– Dədə Yediyar kimi usta aşıq o sazı çala bilmir, indi sən çalacaqsan? Get hələ ağzının qatığını sil!

Qurbani dedi:

– Sən o sazı mana ver, gerisi ilə işin yoxdur.

Usta Bədəl sazı alıb acıqlı-acıqlı Qurbaniyə verib dedi:

– Al, əgər bu sazı dindirə bilsən,pulsuz sənə bağışlaram, dindirə bilməsən, vay sənin gününə!

Qurbani sazı alıb döşünə, zilini zil, bəmini bəm eylədi, saz suxənvərlik eləməyə başladı. Usta Bədəl bunu görəndə lap heyran qalıb dedi:

– Oğul, o sazı sənə bağışladım. Əhsən sənin fərasətinə. Amma götür kirimişcə buradan get. Yoxsa Dədə Yediyar eşidər, aşına zəhər qatar.

Qurbani dedi:

– Yox, usta, anam məni elə öyrətməyib. Sazı kirimişcə apara bilməyəcəyəm. Bir neçə bənd sənin üçün oxuyacağam. Sonra aparacağam.

Usta Bədəl nə qədər elədisə, Qurbani razı olmadı. Götürsün görək, ustaya nə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Usta, bir qız sevdim sizin diyarda,
Cəmi gözəllərin o sərdarıdı;
Maşallah, aydı, həm gündü şöləsi,
Mömin kimsələrin səbəbkarıdı.

Usta Bədəl dedi:

– Oxumağına yaxşı oxuyursan, amma birdən huripəri adı çəkib mənim evimi yıxarsan ha!.. sən allah o adı çəkəcəksənsə oxuma, kirimişcə get!

Qurbani dedi:

– Qorxma mən pəri adı-madı çəkməyəcəyəm.

Aldı Qurbani gerisini:

Canan bilsə gəldicəyim, can eylər,
Canın dost yolundaərğəvan eylər.
Qaşı cəllad, qəmzələri qan eylər,
Mələklər şahinin sitəmkarıdı.

Mənim dərsim əlifdədi, beydədi,
Bir gözəl sevmişəm, cana faydadı.
Desələr: Qurbani, bu nə sevdadı?
Söylə: bir Pərinin yadigarıdı.

Usta Pəri adını eşidən kimi dəxilin dalından çıxıb, Qurbanini itələyə-itələyə bayıra çıxartdı ki:

– Ay qardaş, məni qana calamaq istəyirsən? Mənlə qardaş ki, olmayacaqsan? Yeri get. Bir bölük çolma-çocuğum var, başımı kəsdirib düzlərdə qoyarsan.

Qurbani bir təhər qapının yanında dayanıb dedi:

– Usta, qorxma, heç-zad olmaz, qoy axırını da deyim, sonra gedim.

Usta nə qədər elədisə, Qurbanini sakit eləyə bilmədi. Sazı döşünə basıb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir Pəri sevmişəm, sizin ellidi.
Gözəlliyi hamılara bəllidi;
Şux göz, mina gərdən, incə bellidi,
Gecə-gündüz işim ahu-zarıdı.

Əcayib gözəldi, nə xoş dilbərdi.
Cəmalına cümlə aləm əfzəldi[28];
Ağzında dişləri ləlü gövhərdi,
Sinəsi dağların təzə qarıdı.

Qurbani der, zülfün ucu xəyətdi,
Qurandakı qulhuvəllah əhətdi;
Desələr sərində bu nə halətdi?
De ki, bir Pərinin yadigarıdı.

Usta Bədəl qışqırdı ki:

– Ay aman, bunun ağzından qan iysi gəlir. Bu saat mənim balalarımın başını kəsdirəcək. Mən gedirəm, dükanı da verirəm sənə. Sən ol, dükan olsun, istəyirsən axşama kimi oxu.

Usta Bədəl tələm-tələsik çıxıb getdi. Mahmud bəy qoşduğu adam da nə qədər yalvardı ki: «Qurbani, gəl gedək evə» – Qurbani razı olmayıb dedi:

– Yox, mən evə getməyəcəyəm. Mən şəhərin arasına çıxacağam.

Gəncə şəhərində bir daş mehmanxanası vardı. Kənardan gələn qəriblər, yersiz adamlar hamısı daş mehmanxanasının çayçısında olardı. Qurbani şəhərin arasına çıxıb, bir adamdan soruşdu:

– Qəriblər bu şəhərə gələndə harada qalırlar?

O adam daş mehmanxanasını ona nişan verib dedi:

– Bax, o mehmanxanada qalırlar, get ora.

Qurbani düz daş mehmanxanasına gəldi. Bu adam da birbaşa qaçıb Dədə Yediyara xəbər verdi ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay oğlu ölmüş, nə durubsan? Şəhərə bir cavan aşıq gəlibdi, ta nə təhər? Bu saat daş mehmanxanasındadır.

Dədə Yediyar qəzəbləinib dedi

– Ədə, mən Dədə Yediyar olam, mənim ölkəmə aşıq gələ, bu olası iş deyil! Bu saat gedib onun sazını əlindən alıb, özünü də dustaq eləyəcəyəm.

Dədə Yediyar bayaqdan özünü saldı mehmanxanaya. Camaat hamı yığışmışdı Qurbaninin başına. Pəri xanım qızları çəkib bir kənarda dayanmışdı. Dədə Yediyarı görən kimi ona bir kağız yolladı ki: «Necə ki, sağsan dolanacağını mən verəcəyəm. Sən Qurbanini sındırma. Onunla işin olmasın».

Dədə Yediyar başını bulayıb dedi:

– Belə şeylər mənim başıma girməz. Mən Dədə Yediyaram. Hər yetirən çiyninə saz salıb, mənim yerimdə aşıqlıq eyləyə bilməz. O ki, bura gəlib, iki qoçun başı bir qazanda qaynamaz. Ya bu şəhərdə o, aşıqlıq eləməlidi, ya mən.

Dədə Yediyar meydana girib, Qurbanini öz cənginə dəvət elədi. Qurbani onun yanına gəlib dedi:

– Ağsaqqal kişisən, xatirini saxlayıram. Hərifi uşaq-zad hesab eləmə! İndi baxarıq. De görüm, növbət sənindi, ya mənim.

Dədə Yediyar acıqlı dedi:

– Ədə, nəsən ki, növbətdə sənin olsun?! Bircə kəlmə ilə boğazını qurudub sazını əlindən alacağam, buna bax, mənimlə deyişməyə girişdiyinə bax!

Qurbani dedi:

– Yaxşı, de gəlsin, cücəni payızda sayarlar.

Ustadlar deyirlər ki, bu məclisdə Dədə Yediyar Qurbaniyə üç qatar lap o çətin püxtə sözlərdən dedi. Bu sözlər elə sözlər idi ki, hələ heç kəs aça bilməmişdi. Biri peyğəmbərdən, biri imamətdən, biri də nəmruddan, Şəddaddan idi. Dədə Yediyar heç özü də bu qıfılbəndləri aça bilmirdi. O bunları öz ustadından öyrənib, sinədəftər eləmişdi. Hər yerdə ki, çətinliyə düşdü, bu üç qatarı dalbadal deyib, hərifi bağlardı, sazını əlindən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

alıb yola salardı. Odu ki, indidən bu sözləri Qurbaniyə dedi. Amma Qurbani haqq aşığı idi. Belə sözlərin qabağında aciz qalmazdı. Sözlərin üçünün də mənasını, məxrəcini açdı. Dədə Yediyar da, qulaq asanlar da mat-məhəttəl qaldılar. Yerbə-yerdən ona afərin dedilər. Qurbani sazın zilini zil, bəmini bəm eyləyib basdı döşünə, təzənəni simlərə çəkib elə bir qıfılbənd dedi ki, Dədə Yediyar qaldı gözlərini döyə-döyə. İş bu yerə çatanda Qurbani irəli yeriyib Dədə Yediyara dedi:

– Usta, mənim sənlə işim yoxdur. Sən özün elədin. Mən heç vaxt sənin kimi ağsaqqalın qabağında saz ğötürüb meydana çıxmazdım. Məni bağışla. Usta elə genə də sənsən. İzn versən, mən də özümü sənə şagird billəm.

Dədə Yediyar onun alnından öpüb, dönə-dönə alqışlamaqda olsun, indi sizə xəbər verim Qara Vəzirdən[29].

Qurbaninin gəlib Dədə Yediyarı bağlamağı Qara Vəzirə xəbər verildi. Qara Vəzir çox qəzəblənib dedi:

– Onu boğazından asdıracağam. Onun nə həddi var ki, gəlib mənim şəhərimdə tüğyan eləyir. Dədə Yediyar kimi usta aşığı el içində xar eləyir.

Qara Vəzir əmr elədi, Qurbanini tutub zindana saldılar. Qurbani zindanda qalmaqda olsun, eşit Pəri xanımdan.

O biri tərəfdən Pəri xanım Qurbaninin zindana salınması xəbərini eşitdi. Gözlərinin yaşı ab-leysan kimi qırmızı yanaqları aşağı axmağa başladı. Sonra baş kəniz Şah-Xubanı çağırıb dedi:

– Get, girəvələ, bir təhər zindanbana pul ver, Qurbanini zindandan çıxart, Hatəm bağçasına gətir. Mirvari boyun bağımı, almaz üzüyümü sənə verəcəyəm.

Şah-Xuban o saat zindanbanın yanına gəldi. Zindanbana bir ovuc qızıl verdi. Qızılı görən kimi zindanbanın gözləri işıqlandı. Qurbanini zindandan çıxarıb Şah-Xubana verdi. Şah-Xuban onu bir gizli yerdə pünhan eləyib dedi:

– Mən Pəri xanımın xas kəniziyəm. Sən hələlik burada



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

otur, axşam düşən kimi, Hatəm bağçasına gələrsən. Pəri xanım səni Hatəm bağçasında gözləyəcək.

Qurbani bunu eşidib çox şad oldu. Sazı götürüb Şah-Xubannan Pəri xanıma gör necə sifariş göndərdi.

Aldı Qurbani:

Şah-Xuban, mənim ərzi-halımı,
Əlbət-əlbət nazlı yara deyərsən!
Xəstə düşdüm, qaldım onun kuyində,
Üzü dönmüş sitəmkara deyərsən!

Sənin o görcəyin əlbət dindirdi,
Aşıq məşuqunu oda yandırı,
Dərdim anbar-anbar, dərmanım biri,
Mən qalmışam nə avara deyərsən!

Qazanmadıq bu dünyanın malını,
Geyinmədik yaşılını, alını;
Dirli Qurbaninin ərzi-halını
Yalvara-yalvara yara deyərsən![30]

Sonra Qurbani dillə də dedi:

– Şah-Xuban, sən get! Axşamdan bir saat keçəndən sonra Hatəm bağçasına Pəri xanımın hüzuruna özüm gələcəyəm.

Şah-Xuban gəlib Qurbanini qurtarmağını Pəri xanıma söylədi və onun sifarişini dedi. Pəri xanım çox şad olub axşamı gözlədi.

Bəli, Qurbani axşamı saldı, durub yavaşca üz qoydu Hatəm bağçasına. Ta ki, yaxınlaşıb gördü ki, bağın darvazası bağlıdı. Başladı bağın dörd tərəfini gəzməyə. Heç bir yandan yol tapmadı. Bir qədər də hərlənib, bir su kulufu tapdı. Naəlac qalıb başladı su kulufu ilə içəri girməyə. Qəzadan, bağa bir tülkü dadanmışdı. Ona görə də bağban gətirib həmin kulufun ağzında



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tələ qurmuşdu. Qurbani istədi su kulufundan başını çıxartsın, birdən başı keçdi tülkü tələsinə. Çalışıb bir təhər başını tələdən çıxartdı, girdi bağa. Özünü yetirdi hovuzun başına. Əl-üzünü yudu. Hər tərəfə baxdı, Pəri xanımı görmədi. Hovuzun başında bir sərv ağacı var idi, onun dibində oturdu. Çox qəmləndi. Sazı sinəsinə basıb, gözlərini sim, göz yaşını təzənə eləyib, görək nə dedi:

Qəm əlindən sinə yırtdım, baş açdım,
Hicr əlində dadü bidad eylədim.
Özüm öz əlimlə yıxdım evimi,
Müddəilər evin abad eylədim.

Töxmü həsrət sinəm üstə əkdirdim,
Gözümün yaşıyla bəhrə yetirdim,
Cəfa çəkdim dərd xırmanı götürdüm,
Onun adın töhmətabad eylədim.

Gözlərimdən zərrə-zərrə yaş kəsdim,
Yar yolunda üz döşədim, baş kəsdim,
Şirin sevdim, Fərhad kimi daş kəsdim,
Onu Büsutunda abad eylədim.

Mələklər yığılmış sağü solumda,
Fələk məni qoymuş min dərd əlində,
Qurbani der, bivəfa yar yolunda,
Heyif, cavan ömrüm bərbad eylədim![31]

Qurbani sözünü tamama yetirib, yuxuya getdi. O biri tərəfdən Pəri xanım bağa gəldi. Hər tərəfi gəzdi, Qurbanini tapmadı. Yorulub o da bir ağacın dibində oturdu. Qarabaşı da su gətirməyə göndərdi. Qarabaş gəldi hovuzun kənarına. Elə su doldurmaq istəyəndə baxdı ki, suda bir adam şəkli var. Qa-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yıdıb yuxarı baxanda, gördü sərv ağacının dibində bir oğlan yatıb, elə bir on dörd gecəlik aydı, bulud altından çıxıb. Özünü itirib, qabı boş götürdü, Pəri xanımın yanına qayıtdı. Pəri xanım qabı alanda gördü boşdu. Acığı tutub dedi:

– Çəpəl, mən səni suya göndərmişdim, bəs suyun hanı? Qabı boş gətirmisən.

Qarabaş cavab verdi:

– Xanım, acığın tutmasın. Əgər mən görəni sən görsəydin, özün də bura gəlib çıxmazdın.

Pəri xanım soruşdu:

– Nə gördün?

Qız cavab verdi:

– Hovuzun başında, sərv ağacının dibində bir oğlan yatıb, elə bil Yusifdi Kənandan gəlib.

Pəri bu sözü eşitcək qızları götürüb gəldi hovuzun başına. Gördü öz sevgilisi Qurbanidi burada yatıb. Pəri xanım on iki hörük saçlarından bir tel ayırıb, görək nə dedi:

Şirin yuxusuna qurban olduğum,
Sərasim et, mehribanım, ay oğlan!
Bu həsrət gözlərim baxsın gözünə,
Təzələnsin din, imanım, ay oğlan!

Kənardan baxmaqla doya bilmirəm,
Üzüm üzün üstə qoya bilmirəm,
Xuban yanımdadı, deyə bilmirəm,
Aç gözünü, çıxdı canım, ay oğlan!

Artırma könlümün dərdi-sərini.
Yaxşı var, yaman var, bunda görünü,
Başına dolandır məzlum Pərini,
Aç gözünü, yox təvanım, ay oğlan!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbani Pəri xanımın sözlərindən yuxudan ayıldı. Gözlərini açıb Pəri xanımı başının üstündə gördü. Yerdən qalxıb sazı sinəsinə basıb, görək nə dedi:

Bu gün nə xoş gündü, nə xoş saatdı,
Qədəm basdın Pəri xanım, xoş gəldin!
Ləblərin aşiqə ab-həyatdı,
Təzələdin ruh-rəvanım, xoş gəldin!

Gözlərin nərgizdi, hüsnün mahtaban,
Açılıb gül, süsən, sünbül, ərğəvan,
Zanbağı, yasəmən, bərgi-ireyhan,
Fəsli-bahar gülüstanım, xoş gəldin!

Şad elədin Qurbaninin didarın,
Həsrətin çəkirdim sən kimi yarın,
Saldın bağa küllü cəmi dostların,
Gözəllər şahvarı canım, xoş gəldin!

Qurbani baxıb gördü ki, Pəri xanım saçlarını darayıb, bahar buludu kimi üzünə töküb. Onu görəndə eşqi coşa gəldi, görək onun tellərini nə cür təriflədi:

Gündüzün mehridi, gecənin mahi,
Qüdrət üçün sirri-ilahi zülfün.
Ucun tutan gedər şərhi-behiştə,
Möminlərin püştü pənahı zülfün.

Şəmsi mat elədi camalın şoqi,
Dəridə qalmadı qəmərin zövqi,
Katibin ərşi ki, cənnətin fövqi,
Nurdan sənə çəkmiş külahi zülfün[32].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbani der: gözüm, yuxudan oyan,
O min bir adı, gəl, etgilən bəyan.
Sərasər yazılıb ayeyi-quran,
Katiblər şərh edər, ənahi-zülfün.

Pəri xanım davam gətirə bilməyib, aldı, öz dərdini yarına nə dillə izhar elədi:

Altı yol gəlmişdim, bununla yeddi,
Öldüm bu bağçanı gəzə-gəzə mən,
Dedim: yar sevmişdim, unutdu, getdi,
Öldüm bu bağçanı gəzə-gəzə mən.

Gözüm doymaz sənin kimi canandan,
Cananın itirən tez olar, candan,
İnanmırsan soruş Şahi-Xubandın,
Öldüm bu bağçanı gəzə-gəzə mən.

Pəri sənə qurban, dirili Qurban!
Yolunda fədadı bu baş ilə can!
Bir əlimdə fanus, yanımda Xuban,
Öldüm bu bağçanı gəzə-gəzə mən!

Aldı Qurbani görək onun cavabında nə dedi:

Şəb-nişin eləyib yola düşmüşəm,
Yar, mənim gəldiyimi bilmədinmi sən?
Dərdini çəkməkdən dəli olmuşam,
Yar, mənim gəldiyimi bilmədinmi sən?

Mən qurbanam sənin kimi canana,
Olmuşam dərdindən dəli-divana,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağılsın otağım, ev ilə xana,
Yar, mənim gəldiyimi bilmədinmi sən?

Qurbani deyər: sən sonasan, sona,
Bir zaman görməsəm yanaram, yana,
Qarabaş göndərdim əhdi-peymana,
Yar, mənim gəldiyimi bilmədinmi sən?

Pəri xanım qarabaşları dağıtdı. Şah-Xubanı qaravulçu qoydu. Sonra Qurbanini də götürüb mənzilə gəldi, başladı söhbətə. Tainki sabaha yaxın onları yuxu tutdu. Qolboyun olub yatdılar. Bir zaman Pəri xanım gördü ki, gün çıxıb hər yeri işıqlandırıb. Tez Qurbanini durğuzub dedi:

– Ay aman, tez ol get! Qara Vəzir bilsə səni də öldürəcək, məni də.

Qurbani bunu eşitcək gülümsünüb Pəriyə belə cavab verdi:

Ey Salatın aşıqların sərində,
Sənin zülfün kimi biştab olmaz.
Cəmalına, Pəri, müştaq olalı,
Bidar olan gözlərimdə xab olmaz.

Misir şəhri derlər ona varmışam,
Yusif-Kənan sevdasına girmişəm,
Mən fələk ayını göydə görmüşəm,
Yerdə sənin kimi mahitab olmaz.

Qurbani der: budu səndə nəzərim,
Mən səni sevmişəm gül üzlü yarım;
Ta sən sağ ol, şirin dilli nigarım,
Mən ölsəm bu aləm heç xarab olmaz.

Qurbani sözünü qurtaran kimi, Pəri Qurbaninin əlindən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yapışıb dedi:

– Qurbani, allahı sevirsən get! Vəzir gəlib görər, səni də öldürər, məni də.

Qurbani dedi:

– Pəri, sən allah qulaq as. Bircəsini də deyim, sonra gedim. Qorxma heç zad olmaz.

Pəri çar-naçar razı oldu. Aldı Qurbani, görək nə dedi:

Səhər bülbülləri nə fəğan eylər,
Düşərsə güzarı çəməndən ayrı.
Səhər-səhər qönçəsindən ayrılan,
Şəqayiqlər gülməz səməndən ayrı.

Yanında dayanan yoldaşların var,
Sirrini saxlayan sirdaşların var,
Sənin elin, günün, qardaşların var,
Mənim kimsənəm yox, yar, səndən ayrı.

Dedim, Pəri, nə elərsən məhpara,
Mənim həsrət gözüm heç uymaz xara,
Bir qətrə yaş tökdün bir də dübara,
Əqiqdən, yaqutdan, yəməndən ayrı.

Qurbani der: məgər axır zamandı?
Sevgi sevğisindən ayrı yamandı,
Bağrım dəlik-dəlik, sinəm peykandı,
Mənim üzüm gülməz vətəndən ayrı.

Qurbani sözünü qurtarıb, Pəri ilə öpüşdü, görüşdü, bina qoydu getməyə. O biri tərəfdən Qara Vəzir durub getdi zindana ki, görsün bu Qurbani deyilən necə aşiqdi. Bütün zindanı axtardılar, dustağı tapa bilmədilər. Vəzir ordan birbaş yüyürdü xanın yanına ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Xan, bu gecə Qurbani yox olub.

Ziyad xan bu sözü eşitcək qəzəblənib dedi:

– And olsun allaha, bu gün onu tapdın, canın qurtardı, tapmadın, sənin nəslini yer üzündən kəsəcəyəm.

Vəzirin canına qorxu düşüb dedi:

– Xan, aman ver, harada olsa axtarıb taparam.

Vəzir yola düşüb, Qurbanini axtarmaqda olsun, Qurbani düz birbaş Ziyad xanın yanına getdi. Ziyad xan ondan kim olduğunu soruşdu.

Qurbani dedi:

– Xan, mən Qurbaniyəm. Zindandan çıxıb sənin yanına gəlmişəm. Boyun mənim, qılınc sənin!

Ziyad xan qəzəblənib dedi:

– Nə hədlə mənim zindanımdan qaçmısan! Bu saat səni tikə-tikə doğradacağam! Hələ sənin bu şəhərə gəldiyin bəs deyil, zindandan da qaçırsan! Cəllad!

Cəllad hazır olub dedi:

– Xan, mənim üçün nə buyruq? Kimi deyirsən bu saat öldürüm.

Ziyad xan dedi:

– Bu aşığı bu saat öldürərsən.

Qurbani gördü ölüm vaxtıdı, Ziyad xan onu öldürür, üzünü ona tutub dedi:

– Xan sağ olsun, aman ver bir neçə söz deyim, sonra genə öldürərsən, ixtiyar sənindi; əlindən ki, alan yoxdu.

Ziyad xan icazə verdi. Aldı Qurbani görək nə dedi:

Başına döndüyüm, ay xanlar xanı,
Könlümün mətləbin bil, ondan öldür!
Sən ol tanrı, mənə qəzəbnak olma,
Lütf elə, üzümə gül, onda öldür!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəm əhliyəm, dindirməsən dinmərəm,
Eşq oduna alışmışam, sönmərəm.
Ta ölüncə dediyimdən dönmərəm,
Apar yar qoynuna sal, ondan öldür!

Qurbaniyəm, eşq əlindən büryanam,
Ta ölüncə mən o qıza qurbanam.
Qulluğunda gözü bağlı tərlanam,
Çalış, şikar bəndin al, ondan öldür!

Adamlar yerbəyerdən xana minnət eləyib dedilər:

– Xan, aşığın ah-vəbalı tutar, şəhərimiz viran qalar. Bunu öldürmə. Bu, aşıq olub, məşuqunun dalınca gəzir.

Ziyad xan baxdı ki, doğrudan da Qurbani öldürməli oğlan deyil. Özü də çox ağıllı-kamallı aşıqdı. Ona ürəyi yanıb cəlladı azad elədi, dedi:

– Səni öldurməyib, cavanlığına bağışladım. Get bir də qatırçının qatırını ürkütmə. Tez, bu saat Gəncədən çıx! Əgər Gəncədə qalsan, səni öldürtdürəcəyəm.

Qurbani ondan razılıq eləyib, yanından çıxdı, düz Mahmud bəyin evinə gəldi. Mahmud bəy ona çox hörmət-izzət eləyib dedi:

– Qurbani, doğrusunu de görüm, sən bu Gəncə şəhərinə nə mətləbə gəlmisən?

Qurbani dedi:

– Bəy, mən aşiqəm, məşuqumun dalınca gəlmişəm.

Mahmud bəy dedi:

– Kimə aşiqsən? Düzünü de, heç gizlətmə.

Qurbani dedi:

– Bəy, mən haqq aşiqiyəm. Haqq aşiqi yalan danışmaz. İzn ver, nə mətləbə gəlmişəm, onu sazla deyim.

Mahmud bəy dedi:

– İzndi, deyə bilərsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbani sazı döşünə basıb, zilini zil elədi, görək nə mətləbə gəldiyini nə cür dedi:

Başına döndüyüm Gəncənin bəyi,
Mətləbimdi, Pəri üçün gəlmişəm.
Buyur cəlladlara, töksün qanımı,
Mətləbimdi, Pəri üçün gəlmişəm.

Kiçiklərdən xəta, böyükdən əta,
Mərd iyid odur ki, dediyin tuta,
Şahlar şahı mənə veribdi buta,
Mətləbimdi, Pəri üçün gəlmişəm.

Heç çıxmadım nazlı yarın köşkünə,
Bulanmadım ənbərinə, müşgünə,
Tərəhhüm eylə mən qərib miskinə,
Mətləbimdi, Pəri üçün gəlmişəm.

Qurbani der: diriliyəm, mən diri,
Yolunda qoymuşam can ilə səri,
Axtardığım yardı, şikarım Pəri,
Mətləbimdi, Pəri üçün gəlmişəm[33].

Mahmud bəy dedi:

– Deməli, sən mənim əmim qızı Pəriyə aşiq olmusan? Mən elə bilirdim başqasına aşiqsən. Qurbani, bu çox çətin məsələdi. Pərini sənə verməyəcəklər. Ancaq sənə bir yol göstərəcəyəm, o yolnan getsən, bəlkə əmim Ziyad xanın sənə ürəyi yana, qızını verə. Qurbani, gedib Ziyad xanın qapısında olan elçi daşının üstündə oturarsan. Vəzir ilə Ziyad xan gəlib bazara gedəndə səni görəcəklər. Əmim vəziri yanına göndərəcək ki, get gör aşıq nə istəyir. Vəzir gəlib sənə nə desə, yaxın durma. Dünya malına aldanıb, daşın üstündən qalxma. Elə yerində



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

otur ki, otur. Sonra səni əmim çağıracaq. Onda dərdini əmimə açıb de. Əmim rəhmkar adamdır. Ümidim var ki, haqq aşıqlığına nəzərən, Pərini sənə versin.

Qurbani, Mahmud bəy dediyi kimi, gəldi Ziyad xanın elçi daşının üstündə oturdu. Sabah ertəsi Ziyad xan ilə Vəzir bazara gedirdi, Ziyad xan gördü ki, elçi daşının üstündə bir aşıq oturub. Üzün vəzirə tutub dedi:

– Vəzir, get gör o aşıq nə istəyirsə ver, onu razı yola sal. Bax, deyirəm ha, incitmə. Necə deyərlər: yaxşı saxla aşığı, bədnamçıdı, el gəzər. Elə elə ki, bizdən razı getsin.

Vəzir iki qat olub, düz Qurbaninin yanına gəldi. Axı vəzir Qurbanini görməmişdi, odu ki, onu tanımadı, Qurbani olduğunu bilmədi. Soruşdu ki:

– Aşıq, nə istəyirsən? Nə mətləbə elçi daşının üstündə oturmusan? Mal istəyirsən, mal verim, torpaq istəyirsən, torpaq verim, şəhər istəyirsən şəhər verim. Dur, buradan get!

Qurbani dedi:

– Xeyr, sən dediyin şeyləri istəmirəm. Heç yerə də getməyəcəyəm.

Vəzir hər nə dedi, Qurbani razı olmayıb, elə «xeyr» dedi. Axırda vəzirin acığı tutub dedi:

– Sənin xeyir günün olmasın, bəs sən burda niyə oturmusan ki, heç şey də istəmirsən? İndi ki belədi, lap istəyirsən ölüncə otur.

Vəzir bunu deyib çıxıb getdi. Ziyad xanla axşama kimi bazarda girləndi. Axşam qayıdıb evə gələndə gördü ki, aşıq hələ də elçi daşının üstündədi. Xan qəzəblənib dedi:

– Vəzir, sən o aşığı niyə razı eləyib yola salmamısan? Heç olası işdimi? Aşıq bütün gün elçi daşımın üstündə oturub. Ağanın malı gedər, nökərin canı deyiblər, görməmişdik, onu da gördük. Bəs səhər o aşıq sənə nə dedi, sən ona nə dedin?

Vəzir dedi:

– Xan sağ olsun, dünyada olan bütün şeyləri ona boyun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oldum, istəmədi.

Xan özü Qurbaninin yanına gəlib gördü ki, dünən hüzuruna gələn aşıqdı, dedi:

– Aşıq, məndən nə istəyirsən? Axı mən dünən əmr elədim ki, Gəncədən çıxıb gedəsən. Niyə getməmisən?

Ziyad xanın ağzından bu söz çıxan kimi, Qurbani sazı köynəyindən çıxarıb, görək ona nə dedi:

Bir Pəri sevmişəm sizin ellərdə,
Məni camalına heyran eylədi.
Bunca bir gözəli bulmadı könül,
Gəzdi bu cahanı, seyran eylədi.

Əsli şahzadədi, ismidi Pəri,
Yolunda qoymuşam can ilə səri,
Bir təklif eylədi, getdim içəri,
Dindirdikcə könlüm xəndan eylədi.

Gümüş piyaləlim, altun ayaqlım,
Sürahı gərdənlim, qaymaq dodaqlım,
O ceyran yerişlim, ayna qabaqlım,
Qurbani der: məni candan eylədi[34].

Vəzir çoxbilmiş adam idi. Qurbaninin sözlərini anladı. Onun mətləbini başa düşdü. Üzünü xana tutub dedi:

– Xan sağ olsun, aşıqdı da. Ağzına gələn sözü deyir. Fikir vermə, dur gedək.

Qurbani dedi:

– Xan, izn ver, birini də deyim, gör səndən nə istəyirəm.

Ziyad xan dedi:

– De görək nə istəyirsən?

Aldı Qurbani dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ellər köçdü yaylağına, dayandı,
Sizin dağdan qar almağa gəlmişəm.
Könül quşu dövr eyləyir bu bağda,
Zənbur mənəm, bar almağa gəlmişəm.

Sevgilimin qaşı Kəbə küncüdü,
Mən öləndə kimlər onu yöncüdü?
Ağız süddü, diş dürr, dəhan incidi,
Sərraf mənəm, nar almağa gəlmişəm.

Başına döndüyüm, şahların şahı,
Səni gördü gözüm, çəkmərəm ahı,
Qurbani der: budu sözün kütahı,
Müxtəsəri, yar almağa gəlmişəm[35].

Ziyad xan dedi:

– Vəzir, heç kəs cürət edib mənim gözlərimin içinə bu sözü deyə bilməzdi. Bu aşıq cürət eləyib söylədi. Görürsənmi, o mənim qızımdan ötrü gəlib. De görüm, nə tədbir tökürsən?

Vəzir dedi:

– Xan, fikrini-zadını dağıtma. Burda tədbir-zad yoxdu. Belə deməkdə, sən qızını vermək istəyirsən nədi?

Ziyad xan dedi:

– Mənim fikrim budur ki, bu aşığı buradan boş qaytarmayım.

Vəzir dedi:

– Xan, Pəri kimi qızı aşığa vermək olmaz.

Xan dedi:

– Vəzir, aşığın ah-naləsindən qorxuram. Mən onu buradan boş qaytara bilməyəcəyəm.

Vəzir dedi:

– İndi ki, sənin könlünün quşu uçdu, qoy onu bir imtahana çəkək. Əgər imtahandan çıxsa, görsək ki, həqiqi haqq aşığıdı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qızı verərik, sözüm yoxdu.

Xan razı oldu. Vəzir Qurbanini bir otağa saldı. Gözlərini bərk-bərk bağladı. Qırx cəlladı düzdü, dedi:

– Əlinizi qoyun qılıncın dəstəsinə. Münəccim deyil, rəmdar deyil, nə biləcək?

Cəlladlar vəzirin dediyi kimi elədilər. Vəzir dedi:

– Qurbani, bu saat burada nə var, tap görək?

Qurbani təzənəni simlərə çəkib dedi:

Dedim: könül, sevmə xublar xubini,
Onun hər muyunda yüz min qal olu.
Səni min bəlayə giriftar elər,
Bilmək olmaz qəbzəsində əl olu.

Qurbani bunu tapdı. Vəzir o saat işarətlə cəlladlara qandırdı ki, qılıncın dalını ona tərəf qaldırsınlar.

Cəlladlar qılıncın dalını ona tərəf qaldırdılar. Vəzir nə elədiklərini ondan soruşdu.

Aldı Qurbani, görək nə cür cavab verdi:

Qırxlar məclisində söylənir adım,
Ərşə bülənd olub dadü fəryadım;
Su yerinə qan içici cəlladım,
Bilmək olmaz, üryan qılınc dal olu.

Vəzir baxdı ki, Qurbani bunu da tapdı. O saat qızı Nigarın qulağına dedi:

– Qızım, indi sən tədbir tök!

Nigar dedi:

– Dədə, bu aşığı dolaşdırsam mənə nə verərsən? Elə iş eləyim ki, bu aşıq tapmasın.

Vəzir dedi:

– Qızım, hər nə istəsən verərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız dedi:

– Pəri xanımın çənəsinin iki tərəfində qoşa xal var. Qoy bilsin ki, ürəyimizdən nə keçir. O haradan tapacaq ki, bizim ürəyimizdən Pəri xanımın çənəsində olan dörd xal keçir?

Vəzir Qurbaniyə dedi:

– Qurbani, tap görək indi bizim ürəyimizdən bu saat nə keçir?

Aldı Qurbani sözün gerisini:

Camalı Yusifin-İbni-Yəqubun,
Aləmə şəms olan hüsnü həbibin,
Ala gözlü, şirin sözlü məhbubun,
Zənədxanı dörd şöləli xal olu.

Bu sözdən Nigar lap xırp kiridi. Məhəttəl qalıb dedi:

– Daha mənim bu aşığa sözüm yoxdu. Dədə, sən özünü pis kişi eləmə! Bu haqq aşığıdı. Hər şeyi bilir. Qoy Pəri xanımı versinlər ona.

Vəzir dedi:

– Ay qız, dəli olma! Bəlkə mən öləm, bu aşıq Pəri xanıma sahib ola.

Qurbani vəzirin sözünə gülüb, aldı gerisini, görək nə dedi:

Günəş nə yandırıb, qəmər nə yaxar,
Qətrələr oynayıb, ümmana axar,
Qurbani der: kim şahına kəc baxar,
Onun kəmalına tez zəval olu[36].

Bu imtahanda Pəri xanım da kənarda durub tamaşa eyləyirdi. O, bu işlərin hamısını görürdü. Elə ki, Qurbani vəzirin bu imtahanından çıxdı, o şad olub, şükr elədi. O biri tərəfdən vəzir çox məyus olub, qəm dəryasına qərq oldu. Nigar xanım dədəsini kefsiz görüb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Dədə, qəm yemə! Qurbanini dolaşdırmaq mənim boynuma.

Nigarın da fikri bu idi ki, bir təhər eləyib, Qurbaniyə özü getsin. Nigar bir cövüz ləpəsini bir məcməyiyə qoyub, üstünü bərk-bərk örtdü, gətirib aşığın qabağına qoydu, dedi:

– Aşıq, çörək ye, sonra genə də başlayarsan.

Qurbani dedi:

– Sənin heç payın çox olmasın! Aşıq məclis yaraşığıdı. Aşığı da belə qarşılayarlarmı? Sənin çörəyini mən sazla yeyəcəyəm.

Aldı Qurbani:

Ayın lam içində, sin arasında,
Yar mənə göndərdi bir cövüz indi[37].
Aylar, illər həsrətini çəkdiyim,
Lütf eylə ləbimə bircə üz indi.

Gözəllər yığılıb qıya baxanda,
Zülfü dal gərdəndə qıya baxanda,
Nigar pəncərədən qıya baxanda,
Ömrümün rişəsin bircə üz indi.

Nigar xəlvətcə qızlara dedi:

– Qızlar, daldada gözlərinizə sürmə çəkin. Onu bilməyəcək.

Qızlar daldaya keçib, gözlərinə sürmə çəkməyə başladılar.

Aldı Qurbani:

Gözəllər oturmuş göz bulağında,
Sürmətək qovruldum göz bulağında,
Qüdrət çeşməsində, göz bulağında,
Qurbani, çalxanıb bircə üz indi[38].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbani ikinci imtahandan da qurtardı. Nigar Mahi qarabaşı Pərinin paltarı ilə bəzədi, Pərinin şəklinə saldı, Qurbani olan evə gətirib dedi:

– Apar, get saqini ver öz sevginə! Haqq aşığıdı. Sən onunsan, o da sənin.

Pəri xanım kənarda oturmuşdu, qorxusundan dinə bilmirdi. Ancaq əli göydə dua eləyirdi ki, Qurbani imtahanlardan çıxsın. Mahi qarabaş Qurbaniyə tərəf gələndə aldı Qurbani, görək nə dedi:

Alçaq yerdən duman qalxar,
Dağı dolana-dolana.
Göy üzünü alar bulud,
Mahı dolana-dolana.

Kimi ağa kimi nökər,
Nökər olan cəfa çəkər,
Bülbül ağlar, qan-yaş tökər,
Bağı dolana-dolana.

Pəri xanım davam gətirməyib, istədi yerindən qalxıb, saqini Qurbaniyə versin. Nigar onu yerə basıb qoymadı. Qurbani bunu hiss etdi.

Aldı gerisini:

Qurbani murada yetdi,
Canan gəldi, burdan ötdü,
Nobat gəldi, mana yetdi,
Saqi dolana-dolana.

Qurbani üçüncü imtahandan da qurtarıb, dördüncü imtahana addadı. Nigar bir qoyun kəsdirdi. Pəri xanıma da bir alma verib dedi:

– Al, bu almanı kəs, camaata payla.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pəri xanım almanı doğrayıb camaata paylamaq istəyirdi, birdən fikri dağıldı, barmağını bıçaq kəsdi. Amma özü bilmədi. Əli ilə tellərini geri eləmək istəyəndə birdən barmağının qanı sıçrayıb buxağına düşdü. Bunu onların heç biri bilmədi, ancaq təkcə Nigar gördü. Nigar o saat bərkdən aşığa dedi:

– Aşıq aradan nə keçdi? Onu tapsan bilərəm ki, haqq aşığısan ki, haqq aşığı.

Qurbani dedi:

– Xanım darıxma, bu saat deyəcəyəm.

Aldı Qurbani:

Başına döndüyüm, alagöz Pəri,
İşin qurub otağında saqinin.
Cahar zülfü bir-birinə vurulu,
Qanlar oynar buxağında saqinin.

Nigar baxıb gördü ki, Qurbani bunu bildi. Qoyunun qara bağrından bir qədər götürüb ocağa tutdu. Qurbanidən aradan nə keçdiyini soruşdu.

Aldı Qurbani:

Ay ilə gün bir-birinə çatılı,
Sevdiciyim yağnan bala qatılı,
Doğram-doğram olub gözə tutulu,
Qara bağrım bıçağında saqinin.

Humay kimi dövr eylərəm havada,
Babam öldü, yetim qaldım yuvada,
Bir əli əllərdə, ağzı duada,
Bir əli də ayağında saqinin.

Qurbani der: bu dərd məndə qalınca,
Canım çıxıb yar xətrini alınca;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Payız gecələri sabah olunca,
Çeşmim yağı çırağında saqinin.

Nigar xanım o saat Pəri xanımın çarqatına bircə qırnıq sürmə çəkdi. Bunu ancaq Nigar bildi. Ondan başqa heç kəs bilmədi. Öz-özünə fikiləşdi ki, bunu Qurbanidən soruşacağam, görək biləcək, ya yox?

Qurbani bunu hiss etdi, aldı görək nə dedi:

Nəzakət vaxtında, xublar çağında,
Baxtım yar yanağı sayalanıbdı.
O alma yanağı, büllur buxağı,
O zəhri zülfləri halqalanıbdı.

O zəhri zülfləri, köksündə çəprəs,
Zər zərbab üstündən, ətlası çərkəs,
Yaxası mürəssə, çatqısı Gülgəz.
Çarqatının ucu sürmələnibdi.

Qurbaniyəm, dərdim etdim hekayət,
Kimlərdən eyləyim kimə şikayət?
Pərim bir görünə, edəm ziyarət,
Canım yar yolunda cəfalanıbdı[39].

Vəzir dedi:

– Qurbani, bir şərtim də var. Yerinə yetirsən, Pərini sənə verəcəyik, yetirməsən boynunu vurduracağam.

Qurbani dedi:

– Vəzir, nə qədər şərtin varsa, de gəlsin, razıyam.

Qurbaninin gözlərini tay da bərk bağladılar. Qara Vəzir bir dəstə qız topladı. Başladı qızları bir-bir Qurbaninin qabağından keçirməyə ki, Qurbani onları tapsın.

Qurbani sazı döşünə basıb, başladı qızları bir-bir nişan ver-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məyə.

Nə əcəb sevdaya düşdüm,
Deyin, bundan Pərim gəlsin!
Əcəl şərbətini içdim,
Deyin, bundan Pərim gəlsin!

Dağların başı dumandı,
Didəmin yaşı ümmandı,
Bu gələn Şah-Xubandı,
Deyin, bundan Pərim gəlsin!

Yolunda qoymuşam canı,
Kirpikləri tökər qanı,
Bu gələndə Şəhrəbanı,
Deyin, bundan Pərim gəlsin!

Əyninə geyib qırmızı,
Yalav-yalav[40] yanır üzü,
Bu gələn vəzirin qızı,
Deyin, bundan Pərim gəlsin!

Mən ağlaram zarı-zarı,
Bu zülmü götürməz tarı,
Bu gələn Qurbani yarı,
Əcəb gəlsin, Pərim gəlsin!

Qurbani bu imtahanlardan da çıxdı. Nigar dedi:

– Dədə, mən bunun öhdəsindən gələ bilmədim. Hər nə fənd-fel elədim tapdı. İndi çarə qalıb ki, onu məkrə salam.

Vəzir dedi:

– Nə eləyirsən elə, qızım, axırı ki, bir təhər elə onu şərə sal, öldürdək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Niğar dedi:

– Onu Pəri ilə bir otaqda qoyub gedərəm, sonra onun başına oyun gətirərəm.

Nigar gecə yarını verdi araya, dedi:

– Pəri xanım, sizə zülm elədilər. Sizi biri-birinizdən ayırırlar. İndi mən sizə bir yaxşılıq etmək istəyirəm. Sizi burada tək qoyub gedəcəyəm. Heç olmazsa bir doyunca görüşün, danışın.

Nigar onları aldadıb, aynadan o biri tərəfə keçdi, orada gizləndi. Qurdani ilə Pəri içəridə qaldılar. Qurdani sazı götürüb dedi:

Qəm yemə, qəm yemə, divana könlüm,
Həmişə ruzigar belə dar olmaz!
On bir il çəkmişəm zimistan qəhrin,
O nə güldü, çevrəsində xar olmaz?!

Siyah zülfü daraq ilə dara gör!
Öz könlünü öz dərdinə dara gör!
Gözəllərin neçəsini dərə gör!*
Özgə bağda belə heyva, nar olmaz!

Əgər şahdan bizə qəzəb olmasa,
Qəzəb atəşindən əzab olmasa,
Ortalıqda çuğul, kəzzab olmasa,
Dünya bahar olar, boran, qar olmaz!

Hər bir adam öz yerində oturmaz,
Ağlın zaya verməz, fəhmin itirməz,
İgidlər könlünə şikvə gətirməz,
Necə dağdı quzeyində qar olmaz?!

------------------------

* Bunu «Gözəllərin neçəsində ara, gör!» də oxumaq olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənsən Qurbaninin gül üzlü yarı,
Qalsa qürbət eldə, artar azarı,
Sağ olsun dünyada vəfalı yarı,
Bir mən ölməgilən dünya tar olmaz.

Nigar baxdı ki, onun gizləndiyini Qurbani bilibdi. O saat qapıdan içəri girib dedi:

– Qadanızı alım, mən elə zarafat eləyirdim. İndi çıxıb gedərəm, söhbət eləyin.

Nigar gedib bağda gizləndi ki, görsün bunlar nə cür görüşürlər. Bunu da Qurbani hiss elədi, aldı görək nə dedi:

Ay ağalar, ay qızlar,
Yar yaman allatdı məni,
Əl atdım yarın dəstinə,
Yar kənara atdı məni.

Tor qurdum çeşmim, kölünə,
Qurbanam sona telinə,
Düşdüm dilbilməz əlinə,
Aldı, ucuz satdı məni.

Qurbanidir mənim adım,
Adəm atadı bünyadım,
Şeş atdım, cahar oynadım,
Axır fələk uddu məni.

Nigar baxdı ki, Qurbani onun gizləndiyini genə də bilib, geri qayıdıb dedi:

– Vallah, getmək istəyirəm, amma sizin söhbətinizdən ayrılıb gedə bilmirəm. Məni bağışlayın, daha gedirəm. Lap arxayın söhbət eləyin.

Nigar bu dəfə doğrudan da çıxıb getdi. Amma Pəri ondan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şübhəli idi. Bilirdi ki, Nigar xəbisin, əyyarın biridi, genə də gizlənə bilər. Odur ki, Qurbaninin heç üzünə də baxmayıb bir tərəfdə, üzü də o tərəfə dayandı. Qurbani elə bildi ki, Pəri ondan küsüb. Odu ki, sazı döşünə basıb dedi:

Durub dolanım başına,
Aşığından küsən dilbər!
Gözlərini dik gözümə,
Nə mən dinim, nə sən dilbər!

Mina qəddin zəbərcəddi,
Nə desən cana minnətdi,
El köçüb, otaq xəlvətdi,
Gəlsən alam busən dilbər!

İtirmişəm maralımı,
Bir sinəsi yaralımı,
Günüz səbr-qəralımı,
Gecə yuxum kəsən dilbər!

Qurbani özünə bəydi,
Yar həsrəti qəddin əydi,
Nə dedim xətrinə dəydi,
Bu mən dilbər, bu sən dilbər![41].

Pəri arxayın oldu ki, Nigar çıxıb gedib, Qurbaniyə tərəf döndü. Qurbaninin ürəyi atlandı, başı havalandı, gözləri doldu, alıb dedi:

Yar, səni ədalət bildim,
Mən qapına dada gəldim.
Çox cəfa çəkdim yolunda,
Ömür verdim bada gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ləbin içib çeşmim qanı,
Olmuşam cəllad qurbanı,
Qoynundu əttar dükanı,
Nə əcəb bu dada gəldim[42].

Qurbanidi mənim adım,
Movlamdan aldım muradım;
Sinəndi çarşım, bazarım,
Şəkərə nabata gəldim.

Pəri xanım on iki hörük saçlarından bir tel ayırıb döşünə basdı, görək Qurbaniyə nə dedi:

Dərdin alım, əsmər oğlan,
Dur gəl qoynuma, qoynuma!
Yazıq canım sana qurban,
Dur gəl qoynuma, qoynuma!

Cavabında aldı Qurbani:

Ala gözlü, nazlı Pəri!
Yox, Pərim, gələ bilmərəm,
Sənə qurban canü sərim,
Yox, Pərim, gələ bilmərəm!

Aldı Pəri xanım:

Otağına qədəm basdıq,
Qəsdim budu: qatam dostluq;
Salım döşək, qoyum yastıq,
Dur gəl qoynuma, qoynuma!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qurbani:

Nigar pəncərədən baxar,
Üzüyün barmağa taxar,
Məkr elər, evimiz yıxar,
Yox, Pəri, gələ bilmərəm!

Aldı Pəri xanım:

Mən Pəriyəm, boyum bəstə,
Zülfüm dal gərdəndə dəstə,
Yerin sallam sinəm üstə,
Dur gəl qoynuma, qoynuma!

Aldı Qurbani:

Özüm gördüm ərənləri,
Mənə badə verənləri,
Qurbaninin nadan yarı,
Yox, Pərim, gələ bilmərəm!

Qurbani gedib ayrı otaqda yıxıldı yatdı. Pəri də bu otaqda qaldı. Səhər açıldı, sabahınız xeyir olsun, vəzir qızı Nigarın yanına gəlib dedi:

– Qızım, neylədin? Qurbanini dolaşdıra bildinmi?

Nigar dedi:

– Dədə, mən heç zad eləyə bilmədim. O, haqq aşığıdı, hər nə fənd qursan bilir. İndi özün nə eləyirsən elə.

Bunlar bu danışıqda idilər, bir nəfər gəlib vəzirə dedi:

– Səni Ziyad xan çağırır.

Vəzir durub Ziyad xanın yanına gəldi. Ziyad xan üzünü ona tutub dedi:

– Vəzir, sən güclü adamsan. Gərək ədaləti də nəzərdə tuta-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

san. Qurbaniyə bu qədər zülm elədiyimiz bəsdi. Gəl qızı verək, varıb getsin. O haqq aşığıdı. Biz onun könlünü sındıra bilmərik. Əvvəl-axır qız onundu, sən oğluna ala bilməyəcəksən.

Vəzir dedi:

– Xan sağ olsun, mənim bir imtahanım da var. Gedək onu da eləyək. Tapsa, sözüm yoxdur, verək getsin.

Xan razı oldu. Vəzir əmr elədi Qurbanini gətirdilər bağa. Gözlərini bərk-bərk sarıyıb bir alma ağacının dibinə apardılar. Payızın axırı idi. Bərk soyuq idi. Ağacların yarpaqları töküşmüşdü. Alma ağacının başında bir neçə alma qalmışdı. O biri tərəfdən Pəri xanıma xəbər verdilər ki, Qurbanini bağa aparıblar. Bu dəfə vəzir onu öldürtdürəcək, başına çarə qıl! Pəri xanım qızlardan da bir neçəsini götürüb, ayaqyalın başaçıq özünü yetirdi bağa. Qurbani Pəri xanımın gəlməyini başa düşdü, sazı götürdü, görək nə dedi:

Axşamdan yağan qar çıxıbdı dizə,
Kəsilib bulağdan yolu qızların.
Sənəyin doldurub qoyanda düzə,
Üşüyüb barmağı, əli qızların.

Gözəllər yığılıb hamısı kəndə,
Sənəyin doldurub burdan ötən də,
Şamaxı şəddəli gərdənbənd təndə,
Əyrimcədən keçər beli qızların.

Qurbani der: bu dərdləri biləsiz,
Qohum-qardaş yığılasız, gələsiz,
Adna axşamında bəlgə qoyasız,
Kəsilə qovğası, qalı qızların.

Bu zaman ağacdan yerə bir alma düşdü. Vəzir o saat almanı götürüb gizlədi ki: «Oğuldusa bilsin. Nə biləcək ki, bu vaxt



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

göydən alma düşdü. O yaxşı bilir ki, bu vaxt ağacda alma olmaz».

Aldı Qurbani, görək nə dedi:

Üç ay yay dolanıb payız olanda,
Məst olub sığışmır budağa alma.
Laladan, qonçadan artıq deyilsən,
Versənə nəfsinə qadağa, alma!

Vəzir bir dənə də nar götürüb o biri cibinə qoydu ki, görək indi nə deyəcək.

Aldı Qurbani:

Səni yaradıbdı Cəlilü Cəbbar[43].
Hüsnün kitabının adı gərdiyar,
Özü xırda cana, məməsi gülnar,
Narnan düzüləydin otağa, alma!

Sən ha Qurbaninin canın üzərsən,
Qaş oynadıb, gözlərini süzərsən,
Xəsyətindi, əldən-ələ gəzərsən,
Yoxdu sənə qorux-qadağa, alma![44]

Qurbani sözü qurtarana məcal Pəri əvvəlcə Qurbani ilə görüşən suyun başına gəlib, girələnməyə başladı ki, görsün Qurbaninin başına nə oyun açırlar. Qurbani bunu da hiss etdi. O saat sazı sinəsinə basıb görək nə dedi:

Heç gəlmirsən bulaq üstə,
Gündə üç yol gəlirəm mən.
Üzümə soyuq baxırsan,
Ürəyini bilirəm mən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kaş ki, gözəl olmayaydın,
Saralıban, solmayaydın,
Mənnən aşna olmayaydın,
Ayrılanda ölürəm mən.

Gül dibini xara qoydun,
Bülbülü ah-zara qoydun,
Qurbani biçara qoydun,
Gedirsən get, gəlirəm mən.

Vəzirin əlacı lap kəsildi. Bilmədi ki, neyləsin. Daha heç bir bəhanə tapa bilməyib, qaldı gözlərini döyə-döyə.

O biri tərəfdən də Pəri qızlarla yalandan solmuş bənəfşədən, çiçəkdən yığırdı ki, nə məqsədlə buraya gəldiyini heç kəs bilməsin. Qurbani bunu başa düşüb aldı, görək nə dedi:

Başına döndüyüm, ay qəşəng Pəri,
Adətdi, dərərlər yaz bənəfşəni.
Ağ nazik əllərnən dər, dəstə bağla,
Tər sinəm üstə düz bənəfşəni!

Başına döndüyüm, bağa gəl, bağa!
Üzün hörmətindən bağa nur yağa,
Dəstə-dəstə dərib, taxır buxmağa,
Bənəfşə qız iylər, qız bənəfşəni.

Səhər olcaq nə bülbüllər oxuşdu…
Hökm olundu, süleymanlar yerişdi,
Qurbani der: gülün vaxtı sovuşdu,
Daha iyləmərik biz bənəfşəni[45].

Bəli, ərz olsun, vəzir Qurbanini götürüb bağdan çıxartdı. Onun fikri başqa idi. Aparıb Qurbanini kənarda öldürtmək is-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təyirdi. Pəri xanım onların kələyini başa düşüb, yavaş-yavaş dallarınca getməyə başladı. Qurbani bunu bildi, götürdü, görək nə dedi:

İstəyirsən gəlib mana yetəsən,
Ayaq götür ta ki, yara yetincə.
Ömrüm bağçasının gülün dərərlər,
Dost bağından az kənara yetincə.

Hər iyidin sığındığı başına,
Əl aparmaq olmaz haqqın işinə,
Suyu gəlib çatıb novun başına,
Həsrət çəkir ta ki, pərə yetincə.

Qurbani, sözlərin yara asta söylə!
Sızıldaşır yaram, yar, asta söylə!
Bir ac qarın doydur, yar az tasa eylə!
Nagah-nagah könüllərə yetincə.

Vəzirlə Ziyad xan Qurbanini gətirib Osman adlı bir zatıqırıq bəyin evinə qoydular. Özləri də başqa otağa girdilər.

Vəzir Ziyad xana dedi:

– Gəl, nərtaxta oynayaq! Sən məni uddun, Pəri xanımın ixtiyarı səndədi, ver Qurbaniyə. Yox, mən uddum, onda Qurbaninin də, Pəri xanımın da ixtiyarını ver mənə, nə elərəm elərəm.

Xan razı oldu. Nərtaxta oynadılar. Bir neçə dəfədən sonra vəzir Ziyad xanı uddu. O saat cəlladlara əmr elədi ki:

– Qurbanini bu saat bura gətirin!

Cəlladlar Qurbaninin yerini öyrənib, qapıdan içəri daxil oldular. Bu zaman Qurbani çox şirin yuxuya getmişdi. Cəlladlar ona bir neçə çəkdilər, yuxudan ayıldıb dedilər:

– Dur, vaxtın tamamdı! Ta sana yatmaq yaramaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pəri xanım özünü tez Qurbani olan otağa salıb dedi:

– Zalım cəlladlar, niyə bunu döyüb öldürürsünüz?! Onun məgər pasbanı yoxdu? Siz allahı məgər sevmirsiniz?

Cəlladlar onu geri itələyib, Qurbanini döyə-döyə aparmaq istədilər. Pəri xanım ağlaya-ağlaya cəlladların ayağına yıxıldı, göz yaşı axıtdı, bənəfşə kimi tellərini üzünə tökdü, payız xəzəli kimi yanaqlarını saraltdı, Qurbani bunu görən kimi, eşqi coşa gəldi. Sazı götürüb görək nə dedi:

Xəstə düşüb, qürbət eldə yataram,
Bir kimsənəm yoxdu oyada məni.
O siyah tellərin, şirin dillərin,
Salıbdı sönməyən oy oda məni.

Evinin dalında çeşmədə su var,
Gözüm gördü, könlüm eylədi qubar,
Məndən qeyri bəlkə bir sevgisi var,
Ol səbəbdən salmır o yada məni.

Sənsən Qurbaninin gül üzlü yarı,
Qalsa qürbət eldə artar azarı,
Hərdən oğrun baxır o mənə sarı,
Baxışı yandırar ay oda məni.

Cəllad sözə fikir verməyib, Qurbanini döyə-döyə Qara Vəzirin yanına apardı. Qurbani içəri girəndə gördü ki, Ziyad xan da buradadı. Bir az toxdadı. Vəzir ona dedi:

– İndi toyunu mən tutum, sən də tamaşa elə! Məgər mən ölmüşəm ki, sən mənim oğlumun nişanlısına aşiq olmusan?

Qurbani Ziyad xanın üzünə baxdı. Ziyad xan dedi:

– Oğul, nərtaxtada mənim gücüm buna düşmədi, məni apardı. İndi sən bunun ixtiyarındasan. Ömrünün axır çağında de görüm, bu qədər kamalı, biliyi haradan almısan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qurbani, görək ona nə cavab verdi:

Ləməkan şəhrindən gəldim cana mən,
Canlar əhli bir canana yetişdim.
Əldən-ələ, qabdan-qaba süzüldüm,
Qətrə idim, bir ümmana yetişdim.

Bir gözəlin ələyindən ələndim,
Bəli dedim, bəlasına bələndim.
Yeri, göyü yaradandan diləndim,
Göhəri axtardım, kanə yetişdim.

Qurbani der: göz gözlədim, göz aldım,
Səmağ oldum, ağılmənddən söz aldım,
Düz tərpəndim, mərufumu tez aldım,
Ədəb götdüm, yol-ərkanə yetişdim[46].

Ziyad xan dedi:
– Qurbani, bəlkə sənin atandan, anandan gələn oldu. Söylə görüm, ona nə cavab verim? Vəsiyyətin nədi?
Qurbani dedi:
– Xan, bu saat deyim.
Aldı Qurbani:

Yaralandım ürəyimin başından,
Yara deynən yaralarım bağlasın!
Oxlanmışam kirpiyindən, qaşından,
Mən ölürəm, onu allah saxlasın!

Naşi təbib dərdə dərman etmədi,
Canan gəlib göz evimdən ötmədi,
Həsrət öldüm, əlim yara yetmədi,
Vəzir də mənim tək kamın olmasın!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbaninin dərdi həddən ziyadə,
Çağırsam ağamı, yetişər dadə,
Desələr, necə oldu o binəva, de! -
Mən al geydim, o qaralar bağlasın!

Qurbani sözünü qurtaran kimi, vəzir onu cəlladlara verib dedi:

– Aparın bunu Gəncə çayının üstündə doğrayın, qanlı paltarını da mana gətirin.

O biri tərəfdən Pəri xanım da göz yaşına dəm vermişdi, özünü yeyib tökürdü. Leyli kimi saçlarını dağıdıb üzünə tökmüşdü, dad-fəğan eləyib ağlayırdı. Cəlladlar onun ağlamağına, sıtqamağına baxmayıb, Qurbanini öldürməyə apardılar.

Axşam idi, toran çalmışdı. İtnən qurd bir-birindən güclə seçilirdi. Göyün üzünü qara duman basmışdı. Adamlar ordan-burdan toplanıb, kənardan Qurbaninin aparılmağına tamaşa edirdilər. Qurbani vəzirin evinin yanından keçəndə ayağını saxladı, yalvarıb cəllada dedi:

– Heç olmasa, mənim qolumu bir az boşaldın, üç kəlmə sözüm var, deyim, genə bağlayıb aparın.

Cəlladlar dedilər:

– Əşi, dəli-zad olmamısan ki? Biz səni ölümə aparırıq, ya deyişməyə? Elə də şey olar?

Qurbani dedi:

– Onda, burda öldürün. Mən getmirəm. Ta bir neçəsini deməsəm, getməyəcəyəm.

Cəlladlar dedilər:

– Qolunu boşalda bilmərik. İndi ki, hökmən demək istəyirsən, elə qolu bağlı de.

Qurbani qolu bağlı dedi:

Vəzir, sana qarğayıram,
Haqq diləyin yetirməsin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göydən min bir bəla ensə,
Birin səndən ötürməsin!

Evindən düşəsən qaçaq,
Sağ gözünə batsın bıçaq!
Oğul-uşaq düşsün qaçaq,
İstədiyin gətirməsin!

Oturubsan ağ otaqda,
Qan qusasan laxta-laxta,
Sənin görüm ölən vaxtda,
Dilin kəlmə gətirməsin!

Qurbani qaldı burada,
Çağır, allah yetsin dada;
Meyidin qalsın arada,
El yığılıb götürməsin!

Bu zaman göy guruldadı, bir ildırım şığayıb, vəzirin evinin üstünə düşdü. Ev gurhagurla yerə töküldü. Nərilti, gurultu hər yeri bürüdü. Cəlladlar Qurbanini qoyub qaçdılar. Vəzir evinin, uşağının hayına qaldı. Qurbani yadından çıxdı. Vanəfsə, şivən Gəncə şəhərini tutdu. Bir nəfər gəlib Qurbaninin qolunu açdı. Qurbani buradan öz dostunun evinə getdi. Ara bir qədər sakitləşdi. Qurbani tezdən buradan çıxıb, Pərinin otağına tərəf baxdı. Gördü ki, Pəri kulafirəngidə başını yastığa söykəyib, ağlayır. Qurbaninin dərdi qubar elədi, götürdü sazı, görək nə dedi:

Gözəl Pərim, gəl allahı sevərsən,
Daldalanma, bir də görkəz yara üz!
Astana gör, yarın astanasında,
Qulluq eylə, xidmət eylə yara yüz!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sağdan vurdu, soldan çıxdı sağ ələm,
Sağ qoşundu, sol ləşkərdi, sağ ələm.
Bedahatdı mən bu dərddən sağalam,
Təbib birdi, dərman min bir, yara yüz!

Qurbani der: bura gəldim yar için,
Kəs ciyərim, doğra bağrım, yar için.
Yar odu ki, yardan sonra yar için,
Yaxa yırta, zülf dağıda, yara yüz!

Pəri xanım axşamı araya verib, Qurbanini çağırdı yanına. Sonra bir molla da çağırdı. Gözünün yaşı ilə Şıx oğlu Şaha bir məktub yazdı ki: «Qara Vəzir mana zülm eləyir. Məni sevgilimdən ayırır». Molla Pəri xanımın sözlərini tərsinə, öz istədəyi kimi yazmışdı. Mollanın kağızda yazdığı sözlər Qurbaniyə əyan oldu. Pəri xanım kağızı müşəmmələyib Qurbaniyə vermək istəyəndə o dedi:

– Axund, dayan, qoy bir neçə söz deyim, sonra gedərsən.

Bunu deyib Qurbani aldı sazı:

Gecə-gündüz bulud keçər havalar,
Belə getməz, əlbət gəlir bir də yaz…
Oxuyar bülbüllər muğam, havalar,
Sızıldaşır yaram, aman bir də yaz!

Bulud olan qalxar havada gəzər,
Aşiq olan yarçün bağrını əzər.
Qəvvas olan girər dərində gəzər,
Bir dərin var, bir dərgə var, bir dayaz!

Qurbani güldəstə bağlar oxuna,
Sinəm buta, yarım müjgan oxuna,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir namə yaz hər divanda oxuna,
Görən deyə, var əllərin, bir də yaz!

Molla Qurbaninin sözündən sonra Şıx oğlu Şaha yaxşı bir namə yazdı. Pəri mollanı razı eləyib yola saldı. Naməni Qurbaniyə verib dedi:

– Qara vəzir bizi bir-birimizdən ayıracaq. Onun hələ nə qədər ki, başı qarışıqdı, mən belə məsləhət görürəm ki, sən bu naməni götürüb, özünü Şıx oğlu Şaha çatdırasan. O çox rəhmkar şahdı. Bəlkə allahtaala könlünə rəhm saldı, bizə kömək elədi. Yoxsa heç bir yerdən bizə imdad yoxdur.

Qurbani onun sözlərinə razı oldu, tədbirinə afərin dedi, bircə dənə alması varıdı, onu çıxarıb Pəri xanıma verdi ki:

– Al, bunu yadigar saxla! Şər deməsən xeyir gəlməz, qəzadı, bəlkə yolda öldüm, itdim.

Pəri xanım dedi:

– İnşallah heç zad olmaz. Sən İsfahan kimi yerə gedirsən. Sana çox xərclik lazımdı. Bütün dünyanın malı hamısı məndədi. Hələ mən sana genə də çoxlu qızıl verəcəyəm, yolda xərcləyərsən.

Bu söz Qurbaniyə bərk toxundu. Götürdü, görək nə dedi:

Bir almas göndərdim yara yadigar[47],
Almadı alması, bağrı daş Pəri.
Könül tələb elər məndən nəyim var,
Od tutub cismimi ələtəş, Pəri!

Bülbül ayrılığı sitəmdi gülə,
Gülabatın naxış süsən-sünbülə,
Badilə mintənə, üstdən silsilə,
Sərəndazdan töküb başa-baş, Pəri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gözəlin ələyindən ələndim,
Bəli dedim, balasına bələndim,
Yan çevirdim, hər bir yana diləndim,
Qurbaniynən görüş, halallaş, Pəri!

Qurbani Pəri ilə görüşüb yola rəvan oldu. Bərkitdi çarıqların dabanını, qırdı yerin damarın, günə bir mənzil, Hacı Bulağa tərəf getməyin binasını qoydu. Bu getməkdə olsun, al xəbəri Pəri xanımdan.

Pəri xanımın Mikayıl adlı bir nökəri var idi. Mikayıl Pəri xanım ilə Qurbaninin sirrini bilirdi. Onlar Mikayıldan sirr gizləmirdilər. Qurbani gedəndən sonra Pəri xanım Mikayılı çağırıb dedi:

– Mikayıl, mən özüm də Qurbanini bir sınaqdan keçirmək istəyirəm. Ola bilərmi, bir neçə qızla oğlan paltarı geyinəm, sən də bizimlə gedəsən. Onunla işim var.

Mikayıl dedi:

– Xanım, niyə olmur? Çox yaxşı olar.

Pəri xanım bir neçə qızla bərabər kişi paltarı geyindi. Mikayılı da götürüb Qurbaninin dalınca yola düşdü. Bir müddətdən sonra baxdılar ki, Hacı bulaqda Qurbani bir nar ağacının dibində oturub çörək yeyir. Onlar atlarını düz Qurbaniyə tərəf sürdülər. Qurbani baxıb gördü ki, bir dəstə atlı gəlir. O heç fikir vermədi. Pəri xanım dəstə ilə bir kənarda atdan düşdü. Qızların birini çağırıb dedi:

– Gedib o adama deyərsən ki, bizim padşah xəstədi, rəmmallar onun xəstəliyinə haqq aşığının başını dərman buyurublar. İndi gəlmişik sənin başını kəsməyə.

Qız Qurbaninin yanına gedib Pəri xanımın dediyi sözləri ona dedi.

Qurbani sazı köynəyindən çıxardıb, basdı döşünə, görək qıza nə cavab verdi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sallana-sallana gələn Salatın,
Gəl belə sallanma, göz dəyər sana.
Al-yaşılı geyib qarşıda durma,
Satqın səryağıbdan söz dəyər sana.

Gəl görüm, gəl görüm, kimin yarısan?
Hansı bir iyidin vəfadarısan?
Kölgədə dayanmış dağlar qarısan,
Səhərin günəşi tez dəyər sana.

Qurbani der: heç kəs yarın öyməsin,
Əl uzadım, açım yaxan düyməsin,
Dəstələ zülflərin, yerə dəyməsin,
Yollar qubarlanıb, toz dəyər sana[48].

Qız üzünü çevirib, Pəri xanıma dedi:

– Gör bizə nə deyir? Bu bizi deyəsən qıza oxşadır?

Qız Qurbaninin çiynindən dartıb dedi:

– Tez dur gedək!

Qurbani dedi:

– Öldürəcəksən, öldürəcəksən, qoy bir qatar da deyim, sonra öldür.

Aldı Qurbani, görək nə dedi:

Uçdu, köç eylədi könül karvanı,
Mayalar düzülüb yollara doğru.
Naşı ovçu kəsib ov bərəsini,
Marallar ürküşüb çöllərə doğru.

Alçalsın dağların görünsün köçü,
Cənnəti-məvadı qoynunun içi
Müəttər zülfləri, müsəlsəl saçı,
Hərdəm şitab eylər belələrə doğru.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sevdiyimin iyid imiş atası[49],
Əskik olmaz heç iyidin xatası,
Qaşı kaman, sinəm onun butası,
Qatı yay çəkilir qollara doğru.

Bağçalarda qurudulur barama,
Naşı təbib mərhəm eylər yarama,
Dedim: Pərim, zülflərini darama,
Könül kəştə çıxar xallara doğru.

Qurbaniyəm, naləm yandırır daşı,
Üstümə gəlməsin təbibi-naşı;
Ümmana dönübdü gözümün yaşı,
Qalxıban axışır sellərə doğru[50].

Qız qışqırıb dedi:

– Dur qabağıma düş! Bilmirəm sən bizi nə hesab eləyirsən? Biz arvad-zad deyilik ki, bizə eşq oxuyursan! Bu saat başını bədənindən ayıracağam.

Qurbani dedi:

– Qoy, bir qatar sözüm var, onu da deyim, sonra hara deyirsən, gedərəm.

Qız dedi:

– Tez de, qurtar!

Aldı Qurbani:

Özü xoşsifətdi, adı xoşnişan,
Yeriyir qabaqca Mikayıl, Pərim!
Fəriştə zülflərin tarümar olmuş,
Asılıb gərdəndən həmayıl, Pərim!

Qapına gəlmişəm, sayılam, sayıl,
Haqq verən paylara mən oldum qayıl,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızıl qıtmığından tökdür həmayıl,
Dünya olsun sana nəqail, Pərim!

Qurbani qurbandı şahın dərinə,
Dərviş bilər xirqə nədi, dəri nə?
Ağam qiya baxdı, atdı dərinə,
Yetmiş il bənd etdi Cəbrayıl, Pərim!

Qız bərkdən qışqırıb dedi:

– Dur qabağıma düş sana deyirəm!

Qurbani dedi:

– Qəzəblənmə, bir qatar da sözüm var, onu da deyim, sonra apar!

Aldı Qurbani:

Pərinin bağında seyran eylədim,
Almalı, alçalı yaza rast gəldim.
Almasın, heyvasın dərdim, döşürdüm,
Könül istədiyi naza rast gəldim.

Gözəllər gözəli, gözəllər xası,
Silindi, qalmadı könlümün pası,
Sinəni bənzətdim şonqar yuvası,
Oğlan paltarında qıza rast gəldim.

Qurbaniyəm, görcək nəzər eylədim,
Gözəlləri gördüm, həzər eylədim,
Yeddisiylə bağda bazar eylədim,
Hesabım yanıldım, yüzə rast gəldim.

Söz tamam oldu. Qızlar baxdılar ki, Qurbani onları tanımışdır. Pəri xanım bir xəlvətə çəkilmişdi, mərdana paltarını çıxardıb, zənənə paltarını geydi, sonra Qurbaninin yanına gəldi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görüşdülər, oturub söhbət eləməyə başladılar. Bir qədər söhbətdən sonra Pəri xanım Qurbaniyə xeyir-dua verib yola saldı, atı minib özü də Gəncəyə qayıtdı.

Qurbani mənzilbəmənzil gedib Xudafirinə çıxdı. Bir kəndə çatdı. Kənddən keçmək istəyəndə gördü bir qoca kişi kərpic kəsir.

Qurbani baxdı ki, qoca onun sözlərindən oxuyur. Ancaq düzgün oxumur. Bir kəlmə ordan, bir kəlmə burdan deyir. Kəlmələrin baş-ayağını yeyib, kələ-kötür eləyir. Bu, Qurbaniyə çox əsər elədi, öz-özünə dedi ki: «Adə, bu kişi mənim sözlərimi niyə belə oxuyur. Mən məyər belə demişəm? Mən zəhmət çəkib, düz ağac əkmişəm, bu balta ilə orasını-burasını kələ-kötür eləyir. Bilsəydim mənim sözlərimi belə oxuyacaqlar, heç deməzdim». Qurbani onun yanına gəlib, qəstən onun kərpicinin bir neçəsini ayaqladı, bəzisini əzdi, bəzisini də əyri-üyrü elədi. Qoca qayıdıb Qurbaninin üzünə dik baxıb dedi:

– Oğul, aşıqlar mərifətli olar, mən axı zəhmət çəkib o kərpicləri düzəltmişəm, sən niyə elə əzirsən? Dəli-zad deyilsən ki?

Qurbani dedi:

– Ay əmi, deyəsən acığına getdi?

Kişi dedi:

– Əlbəttə, getdi. Axı mən onların üstündə zəhmət çəkmişəm. Sən mənim zəhmətimi heç eləyirsən.

Qurbani dedi:

– Pəs, a kişi, onda sən mənim sözlərimi niyə pis oxuyursan? Baş-ayağını yeyib, kələ-kötür eləyirsən? Axı o da mənim zəhmətimdi, onu da mən zəhmət çəkib düzəltmişəm.

Kişi diqqətlə Qurbaniyə baxıb dedi:

– Oğul, sən kimsən?

Qurbani dedi:

– Mən Qurbaniyəm.

Kişi dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, yəqin sənin sözlərini pis oxumuşam. Bağışlagilən. Lap yaxşı öyrənib düz oxuyaram. Sən bizim elin dil əzbərisən. Nə dərdin var mana söylə! Mənim kərpic kəsməyimə baxma. Hər nə desən əməl elərəm.

Qurbani dedi:

– Əmi, mənim dərdəm-zadım yoxdu. Ancaq mana bir neçə çörək ver, yol çörəyim qurtarıb.

Kişi dedi:

– Oğul, mənim yaxşı evim, yaxşı oğlanlarım var. Gedək, bu gecə bizə qonaq ol. Yol çörəyi də düzəldim. Gətirib yolda çörək vermək layiq deyil.

Qurbani dedi:

– Yox, çörək gətirirsən, gətir, gətirmirsən, mən gedirəm.

Kişi naəlac qalıb dedi:

– Onda sən bulağın ağzında dur, qoyma su gəlib ləkləri dağıda. Mən bu saat gedib sana çörək gətirirəm.

Bəli, Qurbani bərənin ağzında durdu. Kişi beli ona verib evə getdi. Qurbani bərk yuxusuz olduğundan uzandı. Elə bu uzanmaqla Qurbanini yuxu apardı. Kişi gəlib gördü ki, Qurbani yatıb. Su da ləkləri, arxları dağıdıb. Kişi qıymadı onu yuxudan oyatsın. Bir vədə gözün açanda baxdı ki, axşamdı. Ətrafına göz gəzdirib gördü kişi səssiz-səmirsiz işləyir, dedi:

– Əmi, bəs məni niyə oyatmamısan? Axşam düşüb ki?

Kişi gülüb dedi:

– Nə eləyək axşam düşüb? Xarabalıq-zad deyil ki? Gedərik evə, səhər tezdən səfər eləyərsən.

Qurbani dedi:

– Əmi, qulaq as, bu dağlara bir neçə sözüm var, deyim, sonra gedək.

Qurbani sazını çıxardıb, görək nə dedi:

Duran dağlar, sizlə həmdərd olmaram,
Dağlar, əsirgədiz qarı da məndən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səyrəğibin tənə-tənə sözləri,
Vurdu cida, saldı yarı da məndən.

Bu köynəyin bu yaxası, bu bağı,
Bu sinəmin bu düyünü, bu dağı,
Bağban idim, mən becərdim bu bağı,
Bağban əsirgədi narı da məndən.

Bu dünya dediyin bir boş ələkdi,
Haqqın min bir adı dildə gərəkdi,
Qurbani der: çərxi dönmüş fələkdi,
Cəbrilə ayrıldı Pəri də məndən.

Söz qurtaran kimi kişi dedi:

– Bax, atam sana qurban, belə oxuyurlar. Doğrudan da mən sənin sözlərinin baş-ayağını yeyirmişəm.

Kişi Qurbaniyə yalvar-yaxar eləyib, evinə apardı. O gecə qonaq saxladı, çox hörmət elədi. Sabah açılan kimi Qurbani kişi ilə halal-hümmət eləyib, yola düşdü, İsfahana getməyin binasın qoydu. De günə bir mənzil, bir nençə gündən sonra İsfahana çatdı.

Bir kişidən xəbər aldı:

– Ay qardaş, Şıx oğlu Şahın yanına gedəcəyəm. Namə gətirmişəm. Onu görə bilərəmmi?

Kişi dedi:

– Onu görmək çətindi. Ancaq mən təhrini öyrədərəm, o yol ilə tez gedərsən. Sən buradan düz get mehtərxanaya. Mehtərxanada bir mehtərbaşı var. Bir yaxşı adamdı. Olsun ki, sizi Şıx oğlu ilə tez görüşdürər.

Qurbani kişiyə dua eləyib, mehtərbaşının yanına getdi. Salam-kalamdan sonra mehtərbaşı baxıb gördü ki, bir qəşəng, kamallı qərib oğlandı, soruşdu ki:

– Oğul, nə təmənnayə mənim yanıma gəlmisən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbani dedi:

– Əmi, Şıx oğlu Şaha naməm var. Gəlmişəm məni onun yanına aparasan. Naməni gərək öz əlimlə verəm.

Mehtərbaşı dedi:

– Oğul, Şıx oğlu Şah üç aydan bir atlara baş çəkməyə gəlir. O gələndə mən sənə xəbər verərəm, sən burada durarsan, gəlib buradan keçəndə naməni ona verərsən. Bundan başqa ayrı əlac yoxdu.

Qurbani mehtərxanada qalmalı oldu. Nağılçı dili yüyrək olar. Üç ay gəldi keçdi. Şıx oğlu atlara baxmağa gəlmədi. On bir ay keçdi, genə gəlmədi. On bir aydan sonra bir səhər Qurbani mehtərxananın qapısına çıxmışdı, o tərəf-bu tərəfə baxırdı, bir də gördü ki, budu Şıx oğlu Şah gəlir. Qurbani onun yolunun üstündə dayandı. Şah gəlib keçəndə Qurbani ədəb salamı verdi, naməni ona uzatdı. Padşah naməni alıb, cibinə qoydu. Atlara baş çəkəndən sonra gedib qızıl taxta çıxdı. Naməni açıb oxuyanda gördü ki, Gəncə şəhərindən Ziyad xanın qızı yazıb ki: «Qara Vəzir bizə zülm elədi. Məni öz sevgilim Qurbanidən ayırdı. Göz yaşımla sana namə yazıb, kömək istəyirəm. Ey ədalətli şah, bizə bir əlac elə!»

Şah məktubu oxuyan kimi kərəmi coşa gəldi, o saat mehtərbaşını çağırıb dedi:

– O mana namə verən adamı mənim yanıma gətir.

Mehtərbaşı Qurbaninin yanına gəlib dedi:

– Şıx oğlu Şah səni çağırır, ancaq qorxma, toxdaq ol. Nə dərdin varsa, bitdən-birəyə hamısını söylə.

Bəli, Qurbani yol aldı, gedib padşahın barigahına girdi. Baş əyib, xidmət məqamında əl-əl üstə dayandı. Şıx oğlu Şah baxıb gördü ki, bu bir cavan aşıqdı, dedi:

– Oğlan, nə mətləbə gəlmisən? Dərdin nədi? hamısını mana de, utanıb, çəkinib eləmə.

Qurbani dedi:

– Şah sağ olsun, dərdimi dilimlə desəm, dilim yanar. İzn



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ver sazla deyim.

Şah dedi:

– İzndi, de.

Aldı Qurbani, görək nə dedi:

Mürşüdü kamilim, Şıx oğlu Şahım,
Bir ərzim var qulluğuna, şah, mənim.
On bir aydı sər tovlanda bəklədim,
Olsana dərdimə bir agah mənim.

Şıx oğlu mehtərbaşının üzünə baxdı. Mehtərbaşı mətləbi başa düşüb dedi:

– Şah sağ olsun, bu da bunun baxtındandır. Həmişə üç aydan bir mehtərxanaya, atlara baş çəkməyə gəlirdin. Bu dəfə on bir ay çəkdi. On bir ay bu yazıq mənim yanımda qalıb, sənin yolunu gözləyib.

Şah dedi:

– O yekəlikdə Gəncədə bir adam olmadımı sənin ərzinə qulaq asıb, dərdinə çata? De görüm, kim sana nə eləyib? Mən Qara Vəzirə divan tutacağam.

Aldı Qurbani, dedi:

Dərin-dərin dəryaları boylandı,
Xəncər alıb qara bağrım teylədi,
Oğlu ölmüş Vəzir qəza eylədi,
Getməz damağımdan dudi-ah mənim.

Yığılıban bir araya gəldilər,
Şirin canım eşq oduna saldılar,
Döydülər, söydülər, yarım aldılar,
Axıtdılar göz yaşımı, billah, mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Talib olan dərsin alar pirindən,
Qəvvas olan dürr götürər dərindən,
Gözü yaşlı keçdim Xudafirindən,
Yüküm oldu qəmü hicran, ah mənim[51].

Qurbani fikir elədi ki, mənim buna heç bir töhfəm yoxdu. Mən bundan necə təmənna edim. Elə bildi ki, şahın bir şeyə tamahı var. Şahdı, yanına gedəndə gərək bir hədiyyə aparasan. O götürsün sazı, görək şahdan nə cür üzr istəyir:

Oxuyur bülbüllər, budu, gəldi yaz,
Qurbaninin canı yolunda niyaz,
Sərim sədağadı, üzüm payəndaz,
Candan qeyri yoxdu bir matah mənim.

Şah baxdı ki, bu çox ağıllı, kamallı, çox da kamil bir adamdı, dedi:

– Oğlum, de görüm, mətləbin nədi? Nə istəyirsən?

Qurbani dedi:

Gəncə dağlarından, uzaq yollardan,
Əlbəttə ki, bir murada gəlmişəm.
Eşqin sitəmindən, çərxin əlindən,
Bir şahım var, ona dada gəlmişəm.

Fərağət evimdə otduğum yerdə,
Oxuyub elmimə çatdığım yerdə,
Bir şirin yuxuda yatdığım yerdə,
İçirdiblər mana badə, gəlmişəm.

Bülbül idim, ayrı düşdüm gülümdən,
Fələk vurdu, cida saldı elimdən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbaniyəm, Qara Vəzir əlindən,
Şıx oğluna şikayətə gəlmişəm.

Söz tamam oldu. Qurbani sazla dediyi kimi sözlə də hər nə ki, olub şaha danışdı. Şah bərk qəzəbnak oldu. O saat vəziri Becanı çağırıb dedi:

– Becan, gedərsən, bu aşığın sevgilisini alıb özünə verərsən. Əgər Qara Vəzir oyan-buyan eləsə onun bütün nəslini qılıncdan keçirib, qapısına tikan kolu basarsan. Becan «bə çeşm» deyib, o saat kəcavə qoşdurdu[52], Qurbanini də yanına alıb, Gəncəyə tərəf yola düşdü.

Bunlar Gəncəyə gəlməkdə olsunlar, eşit Qara vəzirdən. Qara Vəzir eşitdi ki, Qurbani gedib Şıx oğlu Şaha şikayət eləyib, o da Becanı göndərib ki, Pərini alıb ona versin. Budu, Becan gəlir. Tez öz qohum-əqrabasını başına yığıb dedi:

– Becan gəlib nəslimizi kəsəcək. Nə qayıraq ki, bəladan qurtaraq?

De tədbir, məsləhət, axırda Vəzir bir erkəci öldürtürüb, humayın ağına bükdürdü, səs saldı ki, bəs Pəri xanım ölüb. Bəli, camaat yığıldı. Gəncənin yaxınlığında bir Mürsəl ocağı var, bunun yanı qəbrsanlıqdı. Erkəci götürüb qəbrsanlığa apardılar. Bir qəbr qazıb basdırdılar, sonra da xeyrat qazanlarını düzdürüb, Mürsəl ocağının yanında xeyrət verməyə başladılar. Mollalar dua, quran oxuyurdular, qız-gəlinlər ağlaşırdı. Halva paylayırdılar ki, Becan gəlib görəndə desinlər ki, Pəri ölüb, o da geri qayıdıb getsin.

Bu tərəfdən də Becan kəcavə ilə gəlib, həmin qəbrsanlığın yanında dayandı. Bir adam qəsdən qabı halva ilə doldurub, Becanın qabağına apardı ki:

– Buyurun, halva yeyin! Hörmətli adamımız ölüb.

Becan xəbər aldı:

– Ölən kimdi?

Dedilər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ziyad xanın qızı Pəri xanımdı. Üç gündü ki, ölüb. İndi onu dəfn edirik.

Becan üzünü Qurbaniyə çevirib dedi:

– Oğul, baxtından küs! Sevgilin ölüb. Başın sağ olsun! İndi de görüm fikrin nədi? Nə eləyək?

Qurbani sazı çıxarıb dedi:

– Becan, izn ver bir neçə söz deyim, sonra özün bilərsən, nə eləyərsən, eləyərsən.

Qurbani sazı döşünə basıb, görək nə dedi:

Fələk, sənlə əlləşməyə, bir belə meydan ola,
Tut əlimi, fürsət sənin, lütf ilə ehsan ola.
Getmiş idim mürşüdümə dərdimə dərman qıla,
Mən nə bilim, mən gəlincə xak ilə yeksan ola.

Kölgəsində zülflərinin bir zaman yatmaq gərək,
Tabutu sərv ağacından, kəfəni yarpaq gərək,
Tez yuyun, tez götürün ki, mənzilə çatmaq gərək,
Bari-ilahım, necə qıydın, bir belə canan ölə.

Bir gülü ki, dərmirsən, dərib xəndan eyləmə!
Bir könül ki, hörəmmirsən, yıxıb viran eyləmə!
Haqq-taladan səda gəldi: Qurbani çox qəm yemə,
Qorxum budu: bu gün burda çoxları peşman ola[53].

Qurbani bu sözləri deyəndə mollalar, camaat hamısı dönüb Qara Vəzirə baxdılar. Becan da Qara Vəzirin üzünə tərs-tərs baxdı. Qara vəzir işi belə görəndə Becana baş əyib dedi:

– Becan sağ olsun, Pəri xanım, budu, üç gündü ki, ölübdü. Biz burada yas qurmuşuq. Mən bilmirəm bu Qurbani nə danışır?

Qurbani dedi:

– Vəzir Becan, üççə kəlmə sözüm var, icazə ver onu da



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyim, sonra ixtiyar sahibisən, özün bilərsən nə eləyərsən.

Becan dedi:

– De!

Aldı Qurbani, dedi:

Zina əhli bihəyalar şərm-həyanı atdılar,
Adam oğlu yoldan çıxıb, bir-birin aldatdılar,
Qazılar rüşvət alıb, şəriəti satdılar.
Bu divan ki, divan deyil, ədalət divan gözəl.

Axşam olcağın məşriqdə batdı şəms, doğdu qəmər,
Yer üzünə qülqülə düşdü ki, oldu ta səhər,
Bir hüsnü camal gördüm mən, ağlım itdi sərasər,
Pərim girib o niqabə, yanında canan gözəl.

Gəl biçarə Qurbani, gərək bu cəbrə dözəsən,
Əl uzadıb o yasəmən bağdan bir gül üzəsən,
Yaşı yetirdin əlliyə, altmışa sən, yüzə sən,
Əslimiz turabdandır, məskənimiz kan, gözəl[54].

Qurbani dedi:

– Becan sağ olsun, düş bu qəbri aç, gör orada dəfn olunan nədi? Əgər Pəri xanim olsa, mənim sazımı alıb, özümü də onun yanına basdırarsan. Yox, əgər Pəri olmasa, onda görərsən ki, mən düz deyirəm, ya yox.

Becan qəbri açdırıb gördü ki, erkəcin cəmdəyini üryan edib, humayın ağına büküb basdırıblar qəbrə. Becan üzün tutdu Qara Vəzirə, bir də Pəri xanımın atası Ziyad xana, dedi:

– Bilmirəm, Pəri xanım yerdədi, göydədi, haradadısa, bu saat gətirirsiniz bura. Yoxsa hər ikinizi öldürtdürəcəyəm.

Ziyad xan bütün günahı Qara Vəzirin boynuna atdı. Qara Vəzir canının qorxusundan o saat Pəri xanımı Becanın hüzuruna gətirdi. Becan vəzir Pəri xanıma dedi:

– Məndən çəkinib utanma. Düzünü de görüm, bu aşığa ge-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dirsənmi?

Pəri xanım dedi:

– Becan sağ olsun, mən öz fikrimi namə ilə Şıx oğlu Şaha yazmışdım. Amanın bir günüdü. Nə eləyirsən elə, məni bu Qara Vəzirin əlindən qurtar!

Becan dönüb Qara Vəzirə dedi:

– Vəzir, budu, sana deyirəm. Bunların xərcini çəkib Qaradağa apararsan. Orada öz xərcin ilə bunlara toy eləyərsən. Əgər dediyimi elədin, canın qurtardı, eləmədin, bütün nəslini kəsəcəyəm. Şıx oğlu Şahın əmridi, gərək yerinə yetirəm.

Qara Vəzir nə qədər elədi, olmadı. Becan ondan toyun xərcini alıb, Qurbaniyə toy eləməyə başladı. Qurbani öz toyunun ilk məclisində aldı, görək nə dedi:

Özün şah, aşikar adın həqayiq,
Önüncə cilovdar Cəbrayıl, Pərim!
Dua əfsunudu firiştə zülfün,
Cəmi bəlalardan təfail, Pərim!

Özün naseh, kəlamındı imamət,
Səcdə elər ona gündə təmamət,
Əcəb norəstədi, xub qəddü qamət,
Əcəb şəhla, əcəb şəmayıl Pərim!

O məhrəm sirrinə əyyarlığım yox,
İqrarıma, bil ki, inkarlığım yox,
Mənim səndən qeyri heç bir yarım yox,
Canü baş yoluna ha qayil Pərim!

Qurbani, girişmişsən, meydanın dərin,
Oxuyanlar bilir dəryanın dürün,
Bir qıya baxanda yandırdı pərin,
Yetmiş min il qaldı Cəbrayıl, Pərim!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbanı sözünü tamam elədi. Toy başlandı, yeddi gün, yeddi gecə yedilər, içdilər, çaldılar, oynadılar, hamısı da Qara Vəzirin hesabına. Səkkizinci gün kəcavələr bəzəndi, Qurbani ilə Pəri Qaradağa yola düşdülər. Karvan yola düşəndə bir aşıq sazını döşünə basıb, Qurbaninin buradakı toyunu bu duvaqqapma[55] ilə qurtardı:

Qaşı qəmər, gümüş kəmər,
Qurşayıb belə yaraşır.
Üzündə xal, dodağı bal,
Xam şəkər dilə yaraşır.
Bir bəri bax, bəyaz buxaq,
Darçına hilə yaraşır.
Dərin kamal, güllü dəsmal,
Al gözəl ələ yaraşır.
Ay qabağa, gül yanağa,
Yanağı gülə yaraşır.

Gözlər ala, başa bəla,
Çəkilib qara qaşları.
Oğrun baxdı, evim yıxdı,
Etmədi çara qaşları.
Zülmü çox, insafı yox,
Aparır dara qaşları.
Huş getdi, məcnun etdi,
Saldı diyara qaşları.
Ağıl zayıl, qıldı sayıl,
Düşməyə çölə yaraşır.

Qaş oynatdı, işvə satdı,
Mayıl oldum gül camala.
Bimürvət, verib ziynət,
Tər əndama, xətti-xala.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İlqar verdi, qəsdə girdi,
Sonra düşdü kəc xəyala.
Sevdim yaman, çəkdim aman,
Əcəb düşdüm qeylü qala.
Hərzə sözü, cadu gözü,
Fitnəyə, felə yaraşır.

Kaman qurub, oğrun durub,
Mənə işvə-naz eyləyir.
Corab toxur, cəh-cəh oxur,
Qumrutək avaz eyləyir.
Yanağı gül, saçı sünbül,
Zimistanı yaz eyləyir.
Dərdim bilir, şirin gülür,
Pozğun kefim saz eyləyir.
Sevdim əzəl, əcəb gözəl,-
Mahala, elə yaraşır.

Qurban ona örtüb cuna,
Görəsən haralıdı bu?
Fal açıb, ovçudan qaçıb,
Dağların maralıdı bu.
Yan-yan baxır, kirpik qaxır,
Qaşları qaralıdı bu.
Dostun atıb, yasa batıb,
Hüseyntək[56] yaralıdı bu.
Ömrün üzür, əcəb süzür,
Sonadı, gölə yaraşır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QURBANİ

*(Ebt uboğo Eysy qj st ykbt ğ)*

Keçmişdə Araz çayı sahilində Diri dağı deyilən yerdə Fərəməz bəy adlı bir bəy olmuş. Bu bəyin çoxlu mal-dövləti olmuş, ancaq züryəti yoxumuş. Fərəməz bəy mal-dövlətinin əksəriyyət hissəsini paylayır yetim-yesirə ki, allah ona bir oğlan versin. Bu işdən sonra allahın ona rəhmi gəlib, qurban günündə ona bir oğul verdi. Uşaq qurban günü olduğu üçün, adın qoydular Qurbani.

Qurbani yeddi yaşından on dörd yaşına kimi molla məktəbində oxuyub, on dörd yaşından sonra isə Fərəməz bəy Qurbanini yanına çağırıb dedi:

– Oğul, sən anadan olmamışdan qabaq əhd etmişdim ki, kaş mənim bir oğlum olaydı, onunla birlikdə Diri dağına çıxaydım. Həmin əhdim yerinə yetib. Gəl bir Diri dağına ova gedək.

Oğul atasının sözünü sındırmayıb, ox, yay götürüb Diri dağına ova getmək istəyəndə onların yanına bir keçəl gəldi, dedi:

– Fərəməz bəy, məni də özünüzlə aparın, nə vursanız, mən götürüm.

Fərəməz bəy və Qurbani keçəlin sözünə baxıb, onu özləri ilə apardılar. Onlar ovda bir dağ keçisini vurdular və onu keçəlin kürəyinə şələyib, yendirdilər Mazannənə deyilən pirə. Axşam düşmüşdü, qaranlıq olduğundan Fərəməz bəy dedi:

– Ay uşaqlar, gətirin bu dağ keçisini bu pirdə kabab edək, yeyək və bu pirdə adama bir niyət tutaq görək yuxuda kim nə görür.

Belə də etdilər.

Fərəməz bəy fikrində tutdu ki, «Ey ilahi, yuxudan durandan sonra ciblərimin hamısı pul ilə dolsun!». Qurbani fikrində tutdu ki, «Ey ilahi, yatım və yuxuda mənə bir buta ver! Uzaq yerdə olsun, çox zəhmətlərdən sonra mən mətli muradıma çatım». Keçəl fikrində tutdu ki, «Ey ilahi, yatım, tezdən durub



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görüm ki, başım tüklənib, bəlkə qonşumuzdakı Pərzad qızı mənə verələr».

Qurbaninin öz arzusuna görə, yuxuda Həzrət Əli ona badə verib dedi:

– Qurbani, al bu badəni, gör haranı görürsən?

Qurbani badəni əlinə alıb, baxdı və dedi:

– Gəncə şəhərini görürəm. Orada bir güllü bağça və güllü bağçanın içində qırx nəfər qız görürəm. O qızların içində bir nəfər qız var, o qədər gözəldir ki, on beş gecəlik ay kimi hər yerə işıq salır.

– Ay oğul, o qız Gəncəli Abdulla xanın bacısı qızı Pəri xanımdır. Onu sənə, səni də ona buta verdim. Çox çəkməz ki, sən öz istəyinə çatarsan. Amma çox çətinliklərə düşəcəksən.

Qurbani badəni nuş etdi. Badənin zərbindən onun ağlı başından çıxdı.

Sabah tezdən Fərəməz bəy yerdən duran kimi əl atdı cibinə, gördü ki, bir şahı pul var idi, o da düşüb itib. Keçəl isə baxdı gördü ki, başında üç tük var o da əlində gəlib. Fərəməz bəy dedi:

– Ay keçəl, görək Qurbani nə haldadır.

Bunlar Qurbaniyə yaxınlaşanda baxdılar gördülər ki, Qurbaninin huşu özündə deyil. Fərəməz bəy qışqırdı:

– Vay, bir oğlum var idi, o da dəli olub.

Fərəməz bəy səs-küy salıb, bütün ətraf camaatı ora tökdü. Gələn adamların içində iki qarı da vardı. Keçmişdə həkim olmadığından xəstə adamların dərdini dünyagörmüş qoca adamlardan soruşurdular. Ona görə də Fərəməz bəy üzünü qarılara tutub dedi:

– Ay qoca nənələr, deyin görüm, mənim oğlumun dərdi nədir?

Qarının biri dedi:

– Bu oğlan qudurub. Bu saat durub məni dalayacaq, mən də qudurub sizi dalayacağam. Balta gətirin, bunun başını əzək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu qarının məsləhətinə heç kim razı olmadı.

İkinci qarı isə belə dedi:

– Oğlanın dərdi eşq dərdidir. Onun üzünə su səpin, qoyun ayılsın, özü dərdini desin.

Bu zaman Qurbaninin məktəb yoldaşları Diri dağının sərin sularından gətirib, onun üzünə səpdilər. Bir azdan sonra Qurbani ayıldı və atasının üzünə baxdı. Atası ondan soruşdu:

– Bala, sənə nə olub ki, belə edirsən?

Qurbani dedi:

– Ata, dilimlə desəm, dilim kabab olar, saz gətirin, dərdimi sizə sazla deyim. Ona tez saz gətirib verdilər. Qurbani sazı alıb, belə başladı:

Yatmış idim xabi-qəflət içində,
Onda gördüm: oyan, oyan, – dedilər.
Oyandım qəflətdən, açdım gözümü,
Min bir kəlmə mənə bəyan dedilər.

Qəflətdən ayıldım, açdım gözümü,
Xaki-övlüyaya sürtüm üzümü,
Dindirdilər, haqq danışdım sözümü,
Al, iç abi-kövsərdən, qan, – dedilər.

Qurbani der: çıxdım dağ səhrasına,
Könlüm qalxdı, düşdü eşq sevdasına,
Bir siqal verdim könlüm pasına,
Məğribdən məşriqə bəyan dedilər.

Qurbani bu sözləri dedikdən sonra yenə huşdan getdi. Üzünə su səpdilər, yenə də ayıldı. Atası dedi:

– Oğul, sən yuxuda kimi görmüsən?

Qurbani dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu gün bir nurani kimsənə gördüm,
Görcəyim çağırdı: ya Murtuza Əli!
Sitqinən çağırsan tez yetir dada,
Dillərdə söylənir: ya Murtuza Əli!

Fərəməz bəy dedi:
– Ay bala, o hansı Əlidir?
Qurbani dedi:

On bir oğlu var idi, bir anası,
Nurula doludu onun əzazı,
Məğribdən məşriqə gəlir sədası,
Dillərdə söylənir: ya Murtuza Əli!

Nurani dediyin nuri-mərfətdi,
Mədinə dediyin bizim tərəfdi,
Qurbani der: ağam əsli ərəbdi,
Ağalar ağası, ya Murtuza Əli!

Fərəməz bəy soruşdu:
– Bala, sənə kimi buta veriblər?
Aldı Qurbani:

Könlüm qalxdı, Bərdə sarı yeridi,
Orda bir şəhər var adı Gəncə hey…
Gözəlləri, məhbubları, xubları,
Xub batıbdı mala, mülkə, gəncə hey…

Tülək tərlan balaların ayırdı,
Ayırıban həm çöllərdə doyurdu;
Fələk vurdu bizi eldən ayırdı,
Biz də düşdük bir digarə, küncə hey…



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fərəməz bəy dedi:

– Ay oğul, bizim bu yerlərdə hansı bəyin, xanın qızını deyirsən sənə alım, təki sən uzağa getmə.

Aldı Qurbani:

Qurbani der: vüsalına varmadım,
Əl uzadıb qönçə gülü dərmədim.
İran gəzdim, Turan gəzdim, görmədim,
Gözəllikdə Pərim təki qönçə hey…

Qurbani saz ilə dediyi kimi, söz ilə deyib, atasını başa saldı, onunla halallaşıb, öz sevgilisindən ötəri yola düşdü[1]. Az getdi, çox getdi, Daşkəsən kəndinin yaxınlığında yolun kənarında bir ağacın dibində oturdu. Qurbanini ağacın dibində yuxu tutdu.

Qurbani yatdığı zaman bir aşıq gəlib bura çıxdı. Aşıq gördü ki, bir gözəl oğlan burada yatıb. Sazı isə əlindən sürüşüb düşüb yerə. Həmin aşıq aldı, görək nə dedi:

Xab içində yatan, ey cavan oğlan!
Söylə görüm, nə məkandan gəlirsən?
Ya hürüsən, ya pərisən, ya qılman,
Ya İsasan, həft asmandan gəlirsən?

Nə olubdu eşq başından aşıbdı?
Nə sevdadı eşq oduna düşübsən,
Yoxsa sən də Qasım kimi yanıbsan?
İndi keçib başü candan, gəlirsən.

Qurbani yuxudan ayılıb, aşığa cavab verdi:

Aşıq, sorma mənim eşqi-halımı,
Baş götürüb, Gəncə deyin gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zülmü qurtarmasın görüm zalımın,
Baş götürüb onca deyin gedirəm.

Aşıq Qasım dedi:

– Oğlan, bilirəm, sən də mən dərdlisən. Söylə görüm haralısan?

Aldı Qurbani:

Ülkardan da göydə o Mars qəlbidi,
İki dünya padışahı bir Əlidi.
İsmim Qurbanidi, kəndim Diridi,
Qaradağdan Qarabağa gedirəm[2].

Qurbani Qasımla əl tutuşub ayrıldı. Az getdi, çox getdi, Daşkəsən kəndindən keçəndən sonra yolun qırağında bir bostançıya rast gəldi. Qurbani bostançıdan çörək istədi, bostançı dedi:

– Otur bostanı gözlə, gedim evdən sənə çörək gətirim.

Qurbani bostanda qalmaqda olsun, bostançı Mahmud qızı Pəri ilə bostana gəldilər. Bu qızın adı Pəri olduğundan Qurbani bunun adına bənd oldu. Pəri Qurbanini nə cürə dilə çəkdisə, az qaldı ki, öz sevgilisini yadından çıxartsın. Bir neçə gündən sonra Qurbani yola düşmək istədikdə qız atasına dedi:

– Ata, oğlana deynən getməsin, qalsın, məni alsın və sənin mal-dövlətinə sahib olsun.

Mahmudun oğlu yoxumuş. Mahmud dedi:

– Qurbani, gəl sən getmə. Mənim qızım Pərini al və mal-dövlətimə sahib ol.

Aldı Qurbani:

Başına döndüyüm, ey Pərizadə!
Can içində cana verməram səni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Neynirəm bostanı, neynirəm bağı,
Yüz bağa, bostana vermərəm səni.

Dağlarda maralsan, düzlərdə ceyran,
Ala gözlərinə mən özüm heyran;
Ordubad, Naxçıvan, Şamaxı, Şirvan,
Güllü Gürcüstana vermərəm səni.

Qurbani der: can içindən can gəlir,
Gözlərimdən yaş yerinə qan gəlir.
Üzünü görməyə Süleyman gəlir,
Külli Süleymana vermərəm səni.

Qurbani getmək istəyəndə qızı atasına dedi:

– Ata, oğlan deyən qalmayacaq, o yediyi yemişin-qarpızın haqqını bundan al.

Qurbani bunlarla razılaşıb yola düşdü, bir neçə gündən sonra Gəncə şəhərinin yaxınlığına çatdı. Altı nəfər gürcü qızına rast gəldi. Bunların ab-havasını öyrənmək üçün qızlara belə dedi:

Sallana-sallana üstümə vardı,
Sataşdı gözümə xalı gürcünün.
Apardı halımı, çəkdi huşumu,
Sataşdı gözümə xalı gürcünün.

Örtüb ağ yanağna qırmızı lalə,
Boy sünbülə bənzər, qaməti dalə,
Bu biçarə aşıq qurbanız ola,
Üzükdən keçərdi beli gürcünün[3].

Qızlar Qurbanini çalıb oxuyan oğlan görüb, bir nəfər qarıya qonaq verdilər. Qurbani qarının evində yeyib içəndən sonra



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qarının öz sarı sifətli qızı ilə davası düşdü. Qız dedi:

– Oğlan gərək mənimlə yata.

Qarı dedi:

– Yox oğlan gərək mənimlə yatsın.

Aldı qarı öz qızını nə cürə pislədi:

Başına döndüyüm, ey cavan oğlan,
Gəl alma qızımı, sarıdır, sarı,
Səndən ötrü bəsləmişəm şirin can,
Gəl alma qızımı, sarıdır, sarı.

Aldı qız:

Başına döndüyüm, gül üzlü oğlan,
Gəl alma anamı, qarıdır, qarı,
Səndən ötrü bəsləmişəm şirin can,
Gəl alma anamı, qarıdır, qarı.

Aldı qarı:

İşvə məndə, qəmzə məndə, naz məndə,
Aşıq öldürməyə gözəl söz məndə.
Öpmək məndə, qucmaq məndə, üz məndə,
Gəl alma qızımı, sarıdır, sarı.

Aldı qız:

Matəm yerdə söhbət olmaz, saz olmaz,
Bir gülünən bahar olmaz, yaz olmaz,
Günü keçmiş qarı gəlib qız olmaz,
Gəl alma anamı, qarıdır, qarı.

Qurbani bunları aldatdı ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən gələndə həyətinizdə bir ağ daş görmüşəm. Onu mənə kim tez gətirsə onunla yatacağam.

Bu sözü eşidən kimi qarı ilə qızı bir-birinə toxuna-toxuna bayıra çıxdılar[4]. Qurbani isə qapını arxadan bağlayıb, özü tək o gecə orada qaldı, sabah açılan kimi qapını açıb onlardan soruşdu:

– Bu şəhərdə sazbənd yoxdurmu, mən orada sazımı düzəldəm?

Qurbani bilirdi ki, saz qayıranlar aşıqlara yaxın olur və bunun vasitəsilə Pəri xanımın yerini bilmək olar. Bunlar sazbəndin evini göstərdilər. Qurbani ora getdi, sazbanddən soruşdu:

Usta, sizin yerdən gözəl qız sevdim,
Cəm gözəllər onun səbəbkarıdı.
Alma yanaqlıdı, laçın caynaqlı,
Şirin can şikarı, şirin sözlüdü.

Sazbənd dedi:

– Bəlkə belə gözəl qız səni sevmədi?

Aldı Qurbani:

Canan bilsə gəldiyimi can eylər,
Canımı canına ərmağan eylər,
Qəzəbkardı qəmzələri, qan eylər,
Mələklər şahidi, sitəmkarıdı.

Qurbani belə deyəndə sazbənd dedi:

– O gözəlin adı nədi?

Aldı Qurbani:

Ala gözlü Pərim zülfü şeydadır,
Quranda oxunan əlif, beydadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Desələr: Qurbani, bu nə sevdadır?
Ala göz Pərimin yadigarıdı.

Sazbənd dedi:

– Oğlan, bəlkə Abdulla xanın bacısı Pəri xanımı deyirsən?

Qurbani dedi:

– Bəli, onu deyirəm.

Sazbənd dedi:

– Sən onda gecikmisən. Qızı üç gündən sonra verirlər Qara Vəzirin oğluna.

Qurbani soruşdu:

– Pəri xanım bu saat haradadır?

Sazbənd dedi:

– Bir saat bundan qabaq qırx nəfər qızla hamama getdilər.

Bu xəbərdən sonra Qurbani getdi, hamamın elə bir yerində gizləndi ki, hamamdan çıxan adam Qurbanini görə bilməzdi, amma Qurbani hər kəs hamamdan çıxsa idi, görə bilərdi. Qurbani burada bir az gizləndikdən sonra gördü ki, yuxuda gördüyü qız telin darıya-darıya hamamdan çıxır. Bu zaman Qurbani coşa gəlib, ona belə dedi:

Sallana-sallana çıxdı hamamdan,
Asta yeri, gözəl, sənə göz dəyər.
Seryağublar tənə-tənə sözləri,
Yayın bədnəzərdən, sənə göz dəyər.

Bu sözü eşitdikdə Pəri xanım başını salıb aşağı tez-tez getməkdə oldu. Bunun zirək getməsinə Qurbani belə dedi:

Yavaş get, yavaş get, kimin yarısan?
Hansı bəxtəvərin xiridarısan?
Kölgədə bəslənmiş quzey qarısan,
Sabahın yelləri tez dəyər sənə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pəri xanım bu sözləri eşidib, qarıxıq girdi kəcavəyə ki, baxsın görək bu sözləri atan kimdir? Bu zaman qarıxdığından saçının bir hissəsi qaldı çöldə. Bunu görən Qurbani belə dedi:

Qurbani der: heç kəs yarın öyməsin,
Açılmasın çarın-çarpaz düyməsin;
Dəstələ telini yerə dəyməsin,
Yer elə tozlanar, toz dəyər sənə.

Qurbani adını eşitcək Pəri xanım tez başını kəcavədən çıxarıb ona sarı baxdı və gördü ki, yuxuda gördüyü oğlan bu sözləri deyir. Pəri xanım düşündü ki, «görən bu Qurbani qorxmur, bu toy qabağı mənə söz atır?» Pəri xanım özlüyündə Qurbanidən küsən kimi oldu.

Aldı Qurbani:

Durum dolanım başına,
Aşığından küsən dilbər!
Ləblərini sal ağzıma,
Qoy bir alım busan, dilbər!

İtirmişəm maralımı,
Dərd çəkməyən saralımı!?
Gündüz kəsən qərarımı,
Gecə yuxum kəsən dilbər.

Qurbaninin fikrinə gəldi ki, bəlkə bu xan nəslindəndi ki, məni eşitmək istəmir.
Aldı Qurbani:

Qurbani özü də bəydi,
Naz-qəmzən canıma dəydi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə dedim xətrinə dəydi,
Bu mən dilbər, o sən dilbər.

Qurbani Pəri xanımla görüşdü. Pəri xanım ona dedi:

– Qurbani, bu şəhərdə mənim adımı çəkmə! Səni öldürərlər. Lakin üç gündən sonra gələrsən darvazanın ağzına, ora saman səpəcəyəm.

Pəri xanımla Qurbani ayrıldılar. Qurbani şəhərdə gəzərkən Pəri xanımın qardaşı Abdulla xan və Qara Vəzir Qurbaniyə rast gəldilər. Bunlar dedilər ki, bu aşıq təzə aşıqdı, bunu oxudaq, əgər yaxşı oxusa uşaqların toyunu elə bu edər. Onlar Qurbanini çağırdılar yanlarına və ona dedilər ki:

– Aşıq, bizim üçün bir az oxu.

Qurbani hamamda Pəri xanımla görüşməyini bunlara belə dedi:

Bu gün bir gözəlin seyrinə vardım,
Əlində şanəsi tel kənarında.
Həlqə-həlqə, qıvrım-qıvrım, çinbəçin,
On dörd hörük gördüm bel kənarında.

Qapıya gəlmişəm, sayılam, sayıl,
Haq verən paylara olaram qayıl;
Pərimin boynunda heykəl-hamayıl,
Ləl bazubənd düzüb qol kənarında.

Qurbani der: mənim sözüm düzgündü,
Yar əlindən yazıq canım üzgündü,
Baxdım yarın gözü mənə süzgündü,
Bir cüt öpüş aldım yol kənarında.

Bu sözləri eşidən Qara Vəzir xənçəlini çıxarıb, Qurbanini öldürmək istədi. Ancaq Abdulla xan işi başa düşüb qoymadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onlar Qurbanini də götürüb, Quru bağa gəldilər. Bu zaman Quru bağda qırx nəfər şagird olan Aşıq Heydər Qurbaniyə sual verdi:

– Bala, sən də şagird olmağa gəlmisən?

Qurbani cavab verdi:

– Mən özüm şagird axtarıram, ona dərs deyəm.

Bunların sözü bir-birinə xoş gəlmədiyi üçün deyişməyə başladılar. Aşıq Heydər dedi:

Səndən xəbər alım, ay bala aşıq,
O nədi ki, göydən haça gəlibdi?
Yüz iyirmi dörd min peyğəmbər haqdı dünyada,
Əfzəli içində neçə gəlibdi?

Aldı Qurbani:

Al cavabın deyim, ey böyük aşıq,
O qələmdi, göydən haça gəlibdi.
Yüz iyirmi dörd min peyğəmbər haqdı dünyada,
Əfzəli yeddidi, neçə gəlibdi.

Aldı Heydər:

O kim idi ərşdə qızdırdı tası?
O kimdi ki, Turda qaldı əsası,
İsmayıla gələn qoçun anası
Hansı ayda, gündə qoca gəlibdi?

Aldı Qurbani:

Həzrət Əli ərşdə qızdırdı tası,
Musa idi Turda qaldı əsası,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İsmayıla gələn qoçun anası
Çərşənbə günündə qoça gəlibdi.

Aşıq Heydərin sözü olmadı. Sazı təhfil verdi Qurbaniyə[5]. Abdulla xan Qurbaninin yaxşı aşıq olduğunu görüb ona belə dedi:

– Üç gündən sonra mənim bacım Pəri xanımın toyudu, gələrsən ora, toy məclisində oxuyarsan və çoxlu da məmər* yığarsan.

Hər ikisi razılaşıb ayrıldılar. Qurbani gəldi Pəri xanım olan yerə və üç gün Pəri xanımla burada söhbət elədilər. Üçüncü gün Qurbani Pəri xanıma dedi:

– Sənin qardaşın Abdulla xan məni sənin toyunu eləməkçün toy məclisinə çağırıb, mən gedirəm ora.

Qurbani toy məclisinə getməkdə olsun, Pəri xanım öz qulluqçusu Şah-Xubana dedi:

– Get, qardaşım Abdulla xandan icazə al, mən də gedim o məclisdə olan yeni aşığa qulaq asım.

Şah-Xuban Abdulla xandan icazə aldıqdan sonra Pəri xanım getdi toy məclisinə.

Qurbani Pəri xanım toy məclisinə gircək ona belə dedi:

İfdidadə qədəm basdı məclisə,
Ustadlar ustadı görüm handadı?
O qızın dərd-səri çoxdu canımda,
Göhərli sözlərim hələ kandadı.

Bu vaxt Qara Vəzir Qurbanini öldürmək istədisə də camaat qoymadı.

Aldı Qurbani:

Həzrət Əli mənə verdi badəni,
Canıma saldılar qovğanı, qanı,

---------------------------
*Nəmər, muzd.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbaninin fikri, zikri, xəyalı,
Deyə bilməm yenə Pəri xandadır.

Bu sözləri eşidən kimi Qara Vəzir lap acıqlandı və onu öldürmək istədi. Abdulla xan onu sakitləşdirib, Qurbanidən soruşdu:

– Qurbani açıq de görək, bu şəhərə nədən ötəri gəlmisən?

Qurbani cavab verdi:

– Abdulla xan, and iç ki, nəyə gəldəyimi verəcəksən deyim.

Abdulla xan and içdi ki:

– Nədən ötəri gəlmisən verəcəyəm aparasan.

Görək Qurbani nədən ötəri gəlib:

Başına döndüyüm, ey Abdulla xan!
Mətləb budu: Pərim üçün gəlmişəm.
Namiyəm, nadanam, həm də cavanam,
Mətləb budu: Pərim üçün gəlmişəm.

Abdulla xan dedi:

– Mənim bacımın bir gizli adı var, onu desən Pərini aparacaqsan.

Aldı Qurbani:

Əyninə geyibdi püst ilə dəri,
Qurbani yolunda qoyub can, səri,
Gizlini Nigardı, aşkarı Pəri,
Mətləb budu, Pərim üçün gəlmişəm.

Bu sözlərə Abdulla xan razı olsa da, Qara Vəzir razı olmadı. Qara Vəzir dedi:

– Qurbanini mən özüm imtahana çəkəcəyəm.

Məclisdəki adamlar dağılıb evlərinə gedərkən Abdulla xan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

düşündü ki, Qurbanini kimə qonaq versə Qara Vəzir onu öldürəcək, ona görə də belə fikrə gəldi ki, onu Qara Vəzirin özünə qonaq versin. Qara Vəzir Qurbanini qonaq saxlamaq əvəzinə onu saldı zindana, qapısına da gözətçi qoydu. Pəri xanım Qurbaninin vəziyyətini öyrənmək üçün Şah-Xubanı ora göndərdi. Şah-Xuban gəlib gördü ki, Qurbanini salıblar zindana və qapısında da gözətçi qoyublar. Qurbani Şah-Xubannan Pəri xanıma belə bir namə yazdı, göndərdi:

Ay Şah-Xuban, mənim ərzi-halımı,
Gedər olsan, nazlı yara deyərsən.
Xəstə qaldım, yandım onun küyündə,
Üzü dönmüş beiqrarə deyərsən.

Axıb-axıb dəryalara dolmuşam,
Saralıban gül rəngi tək solmuşam;
Qurbaniyəm, indi dustaq olmuşam,
Üzü dönmüş xoş Nigara deyərsən.

Məktubu Şah-Xuban gətirib Pəri xanıma verəndə o, məktubu tez açıb oxudu. Pəri xanım Qurbanini qurtarmaq üçün bir neçə havla hazırladı, bu havlaların yarısına behuşdarı qatdı və Şah-Xubana verib dedi:

– Apar bu behuşdarı olmayan havlaları ver Qurbaniyə, behuşdarı olanları da keşikçilərə. Keşikçilər yeyib behuş olan kimi Qurbanini oradan çıxart, gətir mənim yanıma.

Şah-Xuban elə də etdi.

Sabah tezdən Qara Vəzir baxıb gördü ki, Qurbani zindanda yoxdu. Qara Vəzir tez axtarmağa başladı, axır gəlib onu Pəri xanımın yanında tapdı. Qurbani Qara Vəzirə orada belə dedi:

Səni görüm, Qara Vəzir,
Haq işini bitirməsin;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göydən min bir bəla gəlsə,
Birin səndən ötürməsin.

Beş barmağın bıçaq olsun!
Gözlərinə sancaq olsun!
Balaların qaçaq olsun!
Qapında itin hürməsin!

Qara Vəzir dedi:

– Bunun özünə bax, Pəri xanımla bir yerdə oturmasına bax!..

Aldı Qurbani:

Qurbani də çıxdı taxta,
Qan qusasan laxta-laxta,
Əzirayıl gələn vaxtda,
Üstündə quran olmasın.

Qara Vəzirin acığı tutub, şəhər əhalisini ora topladı və başladı Qurbanini imtahan etməyə. Qara Vəzir Qurbaniyə dedi:

– Sənin gözlərini bağlayacağam, Pəri xanımı da üç qızla sənin gözünün qabağından keçirdəcəyəm. Əyər onların içində Pəri xanımı tanısan, bil ki, Pəri xanım sənindi.

Qurbani razı oldu. Onun gözlərini bağladılar. Qara Vəzir öz qızını, axsaq Şah-Xubanı və Pəri xanımın eyni paltarda Qurbaninin yanına gətirdi. Birinci dəfə öz qızını Qurbaninin gözünün qabağından keçirdi.

Aldı Qurbani:

Əyninə geyib qırmızı,
O gündən yandırır bizi,
Bu gələn vəzirin qızı,
Bundan sonra Pərim gəlsin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəzirin qızından sonra axsaq Şah-Xuban gəlib Qurbaniyə yaxınlaşanda belə dedi:

Dağlar başı oldu duman,
Münkürdən heç getməz güman;
Bu gələn axsaq Şah-Xuban,
Qoyun gəlsin, Pərim gəlsin!

Axırda Pəri xanım üzünü tutub Qurbaninin yanına gələndə Qurbani dedi:

Bir quş gəlir zarı, zarı,
Çıxın yollarından barı;
Bu gələn Qurbaninin yarı,
Qoyun gəlsin, Pərim gəlsin!

Belə bir işdən sonra camaat tələb elədi ki, Pəri xanımı versinlər Qurbaniyə. Qurbani Pəri xanımı da götürüb vətənə yola düşdü. Bir az vaxtdan sonra Məhəmməd xan gəlib çıxdı Gəncə şəhərinə. Qara Vəzir tez Məhəmməd xanın yanına qaçıb, Abdulla xandan şikayət etdi və dedi:

– Abdulla xan mənim oğlumun toyunu yarımçıq qoyub, nişanlısını verdi başqa yerdən gəlmiş bir oğlana.

Məhəmməd xan bir neçə atlı düzəldib Qara Vəzir də işçilərində Pəri xanımı qaytarmağa getdilər. Onlar gəlib Qurbanigilə çatdılar. Pəri xanımı zorla geri qaytardılar. Qurbani buna dözməyib dedi:

Başına döndüyüm, ala göz Pəri!
Əlim ətəyindən üzmə sən barı!
Görüm ki, olasan imama zavvar,
Əlim ətəyindən üzmə sən barı!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dirili Qurbani sən də sal yada,
Əməyini vermə, amandır, bada!
Hər ikimiz gəl şərt qoyaq arada,
Əlim ətəyindən üzmə sən barı!

Bu sözlərə baxmadılar, Pəri xanımı qaytardılar geri. Qurbani Pəri xanım gözdən itdikdən sonra allaha belə yalvardı:

Qadır allah, səndən budur diləyim:
Aman allah, imdad eylə bu işə!
Məcnun kimi məni qoyma divana,
Aman allah, imdad elə bu işə!

Bismillah elədim, girdim meydana,
Ümidim bağladım Şahi-Mərdana;
Məcnun kimi məni qoyma divana,
Aman allah, imdad elə bu işə!

Qurbai der: əslim Qaradağlıdı,
Yar üzündən ürək düyün-dağlıdı.
Zülm eyləyən vəzir namərd oğludu,
Aman allah, imdad elə bu işə!

Rəvayətə görə, Qurbani burada yatır, bir vədə oyanır görür ki, Mazannənə pirindədi. Bu işə Qurbani çox təəccüb eləyir, az qalır ki, bagrı çatlasın. Bu zaman onu bir də yuxu aparır. Ona yuxuda deyirlər: «Qurbani, sən gəl Şıx oğlu Şah Abbasın yanına get, vəziyyətini ona söylə. O sənə köməklik edər».

Qurbani yuxudan ayılan kimi Xudafirin körpüsündən addıyıb, gedir İranda Şıx oğlu Şah Abbasın yanına. Vəziyyətini ona belə deyir:

Mürşüdü kamilim, Şıx oğlu Şahım!
Bir ərzimvar, qulluğuna, şah, mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oxu ərizəmi, bil sən dərdimi,
Dərdimdən olgunan bir agah mənim.

Şah Abbas deyir:

– Ay oğul, sən hələ cavansan, axı sənin nə dərdin ola bilər? De görüm, sən haralısan?

Aldı Qurbani:

Bir ah çəkdim, gəldi ahim dərindən,
Ağlım, huşum oynar keçər sərimdən;
Körpü düşdü, keçdim Xudafirindən,
Mürşüdümsən, yetir dərmana məni.

Şah Abbas dedi:

– Ay bala, sənə kim zülm eləyib onu mənə de!

Aldı Qurbani:

Qış gedibən, yaz ayları gələndə
Dağlar damanından qar istər könül.
Hüri, pəri, mələkləri görəndə
Xəstəyəm, onlardan nar istər könül.

Yay olanda gün əritməz qarımı,
Mən sənə bağladım ümüdvarımı;
Əlimdən aldılar Pəri yarımı,
Mürşüdümsən, yetir yarıma məni!

Qurbani sonra ətraflı başına gələn vəziyyətlərin hamısını Şah Abbasa söylədi. Şah Abbas Məhəmməd xanın və Abdulla xanın üstünə bir məktub yazdı ki, Pəri xanımı tez bir zamanda gətirib Mazannənə pirində versinlər Qurbaniyə. Şah Abbas Qurbaniyə də dedi:

– Get Mazannənə pirində öz yarını gözlə. Gətirib onu orada



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verəcəklər sənə.

Qurbani tez yığışıb gəldi Mazannənə pirinə. Bir müddətdən sonra baxıb gördü ki, Soltanlı kəndindən Diri dağına bir dəstə atlı gəlir, Pəri xanım da bunların içindədi. Qurbani bir qənşər yerə çıxıb, onları qarşılamaq istədi. Qurbani bir qəşəng yerə çıxıb, onları qarşılamaq istədi. Bu zaman Qurbanini ilan vurdu. Qurbani ağır xəstələndi və su içmək istədi. O belə fikirləşdi ki, əyər suya getsə gəlib onu tapmayacaqlar. Qurbani sazını Mazannənə pirində qoydu və sazdan başlayıb daş düzə-düzə suya getdi ki, daşın izi ilə gəlib onu tapsınlar.

Pəri xanımı atlılar gətirib Mazannənə pirində qoydular. Qurbaninin sazını oradan götürdülər, dedilər ki, indi bu saat onun özü də gələcək. Atlılar qayıdıb getdilər Gəncə şəhərinə. Pəri xanım tək Mazannənə pirində Qurbanini gözlədi, gözlədi, gəlmədi. Sonra baxıb gördü ki, sazdan başlayıb daş düzə-düzə gediblər. Pəri xanım bu izinən gəlib gördü ki, Qurbani suyun kənarında ölüb. Pəri xanım tez Qurbaninin başını aldı qucağına və başladı ağlamağa. Pəri ağlaya-ağlaya belə dedi:

Mən aşiqəm, sal yana,
Dara zülfün sal yana.
Necəsən bir ah çəkim,
Kür quruya, sal yana.

Mən aşiq, Gəncəm haray!..
Tiflisdən gencəm haray!..
Qurbani öldü, getdi,
Mənə bir əncam, haray!..[6]

Pəri xanım ağladı, ağladı, axırda bağrı çatlayıb Qurbaninin yanında öldü.

Xalq Mazannənə pirində iki qəbir qazıb, bu sevgililərin hərəsin birində dəfn elədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## TAHİR VƏ ZÖHRƏ

### USTADNAMƏ

Gəlin sizə mən ərzimi eyləyim,
Aqil olan, bu dünyada var nədi?
Dünya bir bostandı, pozular gedər,
Çiçək nədi, yemiş nədi, bar nədi?

Bu dünyada çox-çox şirin mal olur,
Tamahkarın halı müşgül hal olur,
Qol burulur, qulaq batır, lal olur,
Qohum nədi, qardaş nədi, yar nədi?

Dəllək Murad, bu yollarda sürünnəm,
İndi gedişimdi, nə vaxt görünnəm?
Altım torpaq, üstümdə daş, hörünnəm,
İsti nədi, soyuq nədi, qar nədi?

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun, düşmənlərin gözü oyulsun.

Fürsət əldə ikən yaxşılıq elə,
Həmişə əlində ixtiyar olmaz.
Gəl güvənmə dövlətinə, malına,
Mala, mülkə, ömrə etibar olmaz.

Dörd yanımız bağca ola, bağ ola,
Sinəm üstə düyün ola, dağ ola,
Bir kiçik ki, böyününə ağ ola,
Düşər el gözündən, bəxtiyar olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ululu Kərimi[1] axtaran tapar,
Bir könülü tikən min Kəbə yapar,
Sən çalış işini haqq ilə apar,
Haqdan qeyri kimsə sənə yar olmaz.

Ustadlar ustadnaməni iki deməz üç deyər, biz də deyək üç olsun, düşmən ömrü puç olsun.

Əzəl başdan sənlə sevda elədim,
Çox da verdim sənə nəsihət, könül!
Əcəl meydanından, can bazarından
Qurtarmaq lazımdı salamat, könül!

Hər məclisdə sən hərcayi söyləmə!
Xançal alıb bağrım başın teyləmə!
Daldalarda lafi-kəzaf eyləmə!
Saxla hərzə dilin amanat, könül!

Bir gün olar xeyir-şərlə seçilər,
Boya görə yaxşı xələt biçilər,
Bu dünyadan o dünyaya köçülər,
Abbas[2] onda elər şikayət, könül![3]

Ustad belə rəvayət edir ki, Qaraman şəhərində[4] iki qardaş var idi. Böyüyünün adı Hatəm Soltan, kiçiyinin adı Əhməd vəzir idi. Hatəm Soltan Qaraman şəhərinin padşahı, Əhməd onun vəziri idi. Mal-dövlətləri bihədd, cah-calalları bihesab idi. Ancaq heç birinin züryəti yox idi ki, öləndə yerlərində qalsın. Əhməd vəzir adil, rəiyyətpərvər idi, amma Hatəm Soltan zalım, xunxarın biri idi. Əhməd vəzir fəqirə, füqəraya həmişə əl tutardı. Ancaq övladı olmadığından həmişə bikef, qəmgin olardı. Günlərin bir günündə Əhməd vəzir yenə də oturub övlad dərdi çəkirdi, bu zaman bir nurani dərviş daxil olub, salam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verdi. Əhməd vəzir salamı cavabını rədd edəndən sonra, qalxıb dərvişin kəşkülünü aldı, içinə bir çəngə əşrəfi qoyub, dərvişə qaytardı. Dərviş qoltuğundan bir alma çıxardıb, Əhməd vəzirə verdi:

– Al, muradın hasil olar,– deyib çıxıb getdi.

Əhməd vəzir almanı o tərəfə, bu tərəfə çevirdi, baxdı ki, ömründə bu gözəllikdə alma görməyib. Heç dünya almasına bənzəmir. Əhməd vəzir axşama kimi almaya tamaşa elədi.

Axşam rəxt-xabə girib yatdı. Gecənin bir aləmində gördü ki, evin bir tərəfindən divar yarıldı, həmin alma verən nurani dərviş içəri girdi. Dərviş üzünü Əhməd vəzirə tutub dedi:

– Ay Əhməd vəzir, dünən sana verdiyim almanı götürüb, gedərsən Hatəm Soltanın hüzuruna. Almanı tən ortasından iki yerə bölərsən. Bir parçasını sən yeyərsən öz arvadın ilə, bir parçasını da Hatəm Soltan öz arvadı ilə yeyər. İnşallah hər ikinizin övladı olar.

Dərviş sözünü qurtarıb qeyb oldu, divar da ağız-ağıza gəlib, bitişdi. O saat Əhməd vəzir hövlnak yuxudan ayıldı. Gördü heç kəs yoxdu, ancaq otaq ətir, ənbər qoxusu verir. Anladı ki, yuxu görüb imiş. Bir qədər fikrə getdi. Aranı dağa apardı, dağı arana gətirdi. Elə fikirdə idi ki, arvadı otağa daxil oldu. Arvad bir o tərəfi iylədi, bir bu tərəfi iylədi, acıqlı-acıqlı dedi:

– Ey Əhməd vəzir, bu nə ətir, ənbərdi? Deyəsən günüz ibadət eləyib, gecələr lotu-potularınan bir yerdə olursan?

Əhməd vəzir cavab verdi ki:

– Arvad, hövsələni yığ! Günah eləmə! Dünən bir nurani dərviş mənə bir alma verdi ki, qardaşımla yeyək, övladımız olsun. Bu ətir haman almanın ətiridi.

Arvad şad olub, hərəmxanaya getdi, Əhməd vəzir də qardaşının hüzuruna gəlib, əhvalatı ona nağıl etdi. Almanı ikiyə bölüb, birini qardaşının bərabarinə qoydu, birini də özündə saxlayıb dedi:

– Ey qardaş, gəl bir şərt qoyaq, ondan sonra almanı yeyək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hatəm Soltan cavab verdi:

– Çox gözəl, nə şərtin var, söyləyə bilərsən.

Əhməd vəzir dedi:

– Qardaş, atanın üstündə övladın üç haqqı var. Birinci tərbiyə, ikinci təlim, üçüncü evləndirmək. Bu üç məsələni vacibdi ata yerinə yetirsin. Burada şərt qoyaq ki, əğər mənim oğlum, sənin qızın olarsa, sən qızını mənim oğluma verərsən, yox, mənim qızım, sənin oğlun olarsa, mən qızımı sənin oğluna verərəm.

Hatəm Soltan vəzirin fikrini bəyəndi, əl-ələ verib, əhd elədilər. Almanı yedilər. Bir müddət gəlib keçdi, hər ikisinin arvadı hamilə qaldı. Əhməd vəzir başladı yetim-yesirə, fəqir-füqəraya ehsan verməyə. Ta ki, doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə tamam oldu. Hər ikisinin arvadı bari-həmli yerə qoydu. Əhməd vəzirin bir oğlu, Hatəm Soltanın bir qızı oldu. Bu uşaqlar hər ikisi bir-birinə o qədər bənzəyirdilər ki, guya bir alma yarı bölünmüşdü. Məclis qurdular, şadlıq keçirdilər, oğlanın adını Tahir, qızın da adını Zöhrə qoydular. Uşaqların hər ikisini kamil dayələrə tapşırdılar.

Nağıl dili yüyrək olar. Vaxt dolandı, il keçdi, oğlanla qız yeddi yaşa doldular. Bunlar elə gözəldilər ki, gözəllikdə bərabərləri yox idi. Əhməd vəzir Hatəm Soltana xəbər göndərdi ki, uşaqların məktəb vaxtıdı. Bir kamil molla tapıb, uşaqları oxumağa qoymalıyıq. Hər ikisi də həmrəy olub, uşaqları kamil bir mollaya tapşırdılar.

Uşaqlar bir yerdə məktəbə gedib gəlirdilər. Bir oturub, bir dururdular. Oyun vaxtı da uşaqlara qatışmayıb, bir küncdə söhbət edirdilər. Məktəbin həyətində bir sərv ağacı var idi. Hansı tez gəlsə, onun dibində oturub, o birini gözlərdi.

Deyirlər ki, bu məktəbdə bir də bir keçəl var idi. Bir könüldən min könülə aşiq olmuşdu Zöhrəyə. Amma nə qədər əlləşirdisə, Zöhrə ona səmt getmirdi. Bir gün yenə də onları bir yerdə görüb, tez özünü verdi mollanın yanına ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Molla, mənə de görüm, bura məktəbxanadı, yoxsa lotuxana? Tahir ilə Zöhrə öpüşün səkkizini bir qara pul eləyiblər, onu da alıb satan yoxdu.

Molla bunu eşidən kimi ayağa qalxdı, daban alıb düz Hatəm Soltanın yanına getməkdə olsun, sizə xəbəri Tahirlə Zöhrədən verim. Tahirlə Zöhrə vədə yerində şirin-şirin söhbət eləyirdilər. Molla özünü Hatəm Soltanın yanına salıb, Tahirlə Zöhrənin sevişdiyini ona xəbər verdi, üstəlik də dedi ki:

– Qızınız yekəlib, həddi-büluğa çatıbdı. Onu bir də məktəbə buraxmayın. Mən gəlib evdə ona dərs deyərəm.

Hatəm Soltan mollanın sözünə inandı. Elə ki, Tahir ilə Zöhrə evə qayıtdılar, Hatəm Soltan qızını qulluğuna çağırıb dedi:

– Qızım, bir də sən məktəbə getməzsən. Molla gəlib evdə sənə dərs deyəcək.

Zöhrə atasına heç bir söz demədi, amma batində ürəyinə qan damdı. Elə ki, mənzilinə getdi, dizini qucaqlayıb fikir eləməyə başladı. Anası evə gəlib, gördü qızı fikir dəryasına cumub, soruşdu:

– Qızım, niyə bikefsən?

Zönrə cavab verdi ki:

– Ana, xəstələnmişəm, başım ağrıyır.

Anası Zöhrəyə təsəlli verməkdə olsun, sizə kimdən xəbər verim, Tahirdən. Sabah açıldı. Tahir Zöhrənin eşqilə yerindən qalxıb, əl-üzünü təmiz-təmiz yudu, heybəsini alıb məktəbə tərəf yönəldi. Elə ki, vədə yerinə gəldi, Zöhrəni görmədi, dizlərini qucaqlayıb, sərv ağacının dibində oturdu, Zöhrənin yolunu gözləməyə başladı. Nə qədər gözlədisə, Zöhrə gəlmədi. Tahirin xəyalına gəldi ki, bəlkə əmim qızı məni sınamaq üçün özü qəsdən tək məktəbə gedib. Durub məktəbə gəldi. Gördü Zöhrə məktəbdə də yoxdu. Tahir Mirzənin bir qardaşlığı varıdı, adı Xanlar xan idi. Özün yetirib onun yanına, saz yerinə sinəsinə bir ağac basdı, aldı, görək Zöhrəni ondan nə cür soruşur:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başına döndüyüm, Xanların xanı,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?
Haqq götürsün ortalıqdan yamanı,
Nədən hamı gəldi, Zöhrəm gəimədi?

Axşam oldu, biz də keçdik adalar,
Könül dost yolunda salmış cidalar,
Məktəb uşaqları, mollazadalar,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Başına örtübdü gülnaz şalını,
Tərk eyləyib məktəbxana yolunu,
Xudam lal eyləsin molla dilini,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?[5]

Bu zaman molla içəridə idi, səsi eşidib ürəyində dedi: «yaxşı, oxu, bu saat gəlib atana od vuracağam».

Molla tez gəlib soruşdu:

– Kim idi oxuyan?

Keçəl ayağa qalxdı, mollaya göz basdı, barmağı ilə Tahiri göstərdi. Özünü bildirməmək üçün zahirən dedi:

– Mən idim.

Molla əmr elədi, falaqqa-çubuğu hazır elədilər. Amma keçəl nə qədər şuluğ idisə, molla o qədər küt idi. Keçəlin işarəsini başa düşməyibmiş. Elə bildi ki, doğrudan da oxuyan keçəl imiş. Keçəlin ayağını falaqqaya salmaq istəyəndə Tahir dedi:

– Molla əmi, falaqqanı qoy dursun. Oxuyan mən idim. Pis oxudumsa, izn ver birini də oxuyum.

Mollalar mollası, alimlər xası,
Bir ala gözlüyə aşiq olmuşam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Silinibən getməz könlümün pası,
Bir ala gözlüyə aşiq olmuşam.

Tiği-qəmzələrin qəsd etdi cana,
Nola rəhm eyləsən məni tiflana.
Adı Zöhrə, özü yaşılbaş sona,
Bir ala gözlüyə aşiq olmuşam.

Tahir Mirzə, yerin olubdu gülşan,
Bad əsdi, zülflərin oldu pərişan.
Ağ üzündə tamam xallar xoşnişan,
Bir ala gözlüyə aşiq olmuşam[6].

Molla əmr elədi, Tahirin ayağını qoydular falaqqaya. Molla dedi:

– Kim istəyir vursun?

Keçəl dedi:

– Mən.

Keçəl falaqqa– çubuğuynan Tahirin ayağına o qədər vurdu ki, ayağının altı qabıqdan çıxdı. Keçəl əlini dayandırıb dedi:

– Tahir, bir də keçəlin yarının adını tutmazsan.

Tahir Mirzə yenə özünü sərv ağacının dibinə saldı. Əlini alnına verib, fikir eləməyə başladı. Elə bir az oturmuşdu, Zöhrə özünü ona çatdırdı. Yeddi hörük saçından bir tel ayırdı, sinəsinin üstünə basıb, görək nə dedi:

Mollamız getdi xavara,
Nə deyərsən, əmim oğlu?!
Atam çəkər bizi dara,
Nə duyarsa əmim oğlu?!

Xəbərin yoxdu xəbərdən,
Getdi işləri dəbərdən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə əmirsən ləb-şəkərdən,
Nə qanarsan, əmim oğlu?!

Başımdakı tirmə şaldan,
Üzümdəki qoşa xaldan,
Nə əmirsən ləbi-baldan,
Nə qanarsan əmim oğlu?!

Səni məndən ayırdılar,
Dərdü qəmə doyurdular,
Səni sürgün buyurdular,
Sən gedərsən, əmim oblu!

Hicran kotanın əkərsən,
Biçib xirmənə tökərsən,
Ah çəkərsən, yaş tökərsən,
Qəm çəkərsən, əmim oğlu!

Mən Zöhrəyəm, qələm qaşlı,
Gərdənim də qarğı saşlı,
Mən yazığı gözü yaşlı.
Sən qoyarsan, əmim oğlu![7]

Zöhrə sözünü tamama yetirib dedi:

– Əmim oğlu, qəm yemə, inşallah kama çatarıq.

Bəli, bunlar ayrıldılar. Tahir ayağa qalxıb, axsaya-axsaya özünü yetirdi evlərinə. Qonaq otağının açarı cibində idi. Otağı açıb, daxil oldu otağa, üzüquylu yıxılıb, ağlamağa başladı, ta ki, axşam oldu. O biri tərəfdən atası, anası gördülər ki, Tahir gəlmədi. Başladılar onu axtarmağa. Hər nə qədər axtardılarsa Tahirdən bir nişana tapa bilmədilər. Axırda anasının yadına xaraba qonaq otağı düşdü. O saat otağa girdi, nə gördü: Tahir ağlayır. Anası sual elədi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, nə üçün ağlayırsan?
Tahir dedi:
– Ana sazımı mana ver. Dərdimi sana dil ilə desəm, dilim od tutub yanar, saz ilə deyim.
Aldı Tahir, görək anasına nə dedi:

Canım ana, gözüm ana,
Ana, mən qanlar ağlaram!
Südün əmdim qana-qana,
Ana, mən qanlar ağlaram!

Onunla keçirdi dəmim,
Artırdı dərd ilə qəmim;
Gedibdi Zöhrə həmdəmim,
Ana, mən qanlar ağlaram!

Tahir ağlar yana-yana,
Yana-yana yetdim cana;
Ahım çıxıb asimana,
Ana, mən qanlar ağlaram![8]

Bu vaxt Əhməd vəzir gəlib çıxdı. Oğlunun ağlamağının səbəbini bilib dedi:
– Oğul, nə fikir eyləyirsən? Qız elə sənindi. Sabah gedərəm, başına bir yaylıq örtərəm, barmağına bir üzük salaram, qurtarar gedər.
Tahir sakitləşib, sabahın intizarını çəkməyə başladı. Elə ki, sabah açıldı, Əhməd vəzir yerindən qalxıb, üz qoydu qardaşının yanına getməyə. Gəlib gördü hələ qardaşı yerindən durmayıb. Onun yanında əyləşdi.
Hatəm Soltan soruşdu:
– Qardaş, belə tezdən gəlməkdə məqsədin nədi?
Əhməd vəzir cavab verdi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş, özünə məlumdu ki, bizim uşaqlarımız barədə üç şərtimiz var idi. Şərtə də vəfa etmək vəzifəmizdi. İndi oğlan da, qız da yetişiblər. Qızını ver oğluma, əhdimiz yerin alsın.

Bu sözü eşitcək Hatəm Soltan qəzəblənib dedi:

– Qardaş, elə xam xəyallara düşmə! Yeddi it küçüyüm olsa, birini də Tahir Mirzəyə vermərəm.

Elə ki, Əhməd vəzir bunu eşitdi, heç bir söz danışmayıb, bikef otaqdan çıxdı. Fikir eləyə-eləyə evinə gəldi. Tahir atasının bikefliyini görüb, özün saldı mənzilinə, hönkür-hönkür ağlamağa başladı. Bunu ağlamaqda qoyaq, bir neçə kəlmə Hatəm Soltandan danışaq.

Hatəm Soltan Əhməd vəzir gedəndən sonra fikir elədi ki, Əhməd vəzirin hörməti xalq arasında məndən çoxdu. Tədbir ilə görülən iş güc ilə görülə bilməz. Mən onu incitdim, gedib xalqı başına toplar, qızımı da, səltənətimi də əlimdən alar. Ona görə, gərək hiylə ilə Əhməd vəziri də, Tahiri də öldürəm, ondan sonra rahatca hökümdarlığımı eləyəm. O saat qapıçını çağırıb, əmr elədi:

– Get, qardaşım Əhməd vəziri bura çağır!

Qapıçı gedəndən sonra cəllad Qasımı çağırıb dedi:

– Qapının dalında durarsan. Əhməd vəzir içəri girəndə boynun elə vurarsan ki, bir qətrə qanı da yerə düşməz.

Cəllad Qasım qılıncı alıb, qapının dalında durdu. Amma çox keçmədi ki, cəllad Qasımın ürəyinə dağdağa düşdü. Özü-özünə fikir elədi ki: «Qasım, sən dəlisən, nəsən? Bəlkə padşahın bu gün acığı tutub, sabah da acığı soyuyacaq. Onda deyər ki, mənim acığım tutmuşdu dedim, sən niyə qardaşımı öldürdün? Onda şaha nə cavab verərəm? Yaxşısı budu, mən Əhməd vəziri öldürməyim, qoy özü öldürsün». Bu vaxt Əhməd vəzirin özü gəldi, sağ-salamat keçdi Hatəm Soltanın otağına. Hatəm Soltan qardaşını sağ-salamat görəndə az qaldı od tutub yansın. Paltarı geymək bəhanəsi ilə göydən xəncəri aldı, özün Əhməd vəzirə yetirib onu fürsətdən salmaq üçün dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş, qız alanın ya gərək bir çuval zəri ola, ya da zoru. Mən bir söz deməklə sən nə üçün küsdün? Get şərbət ehtiyatı gör, qızımı verəcəyəm sənin oğluna.

Belə deyib, lap yaxına getdi, Əhməd vəzirin ürəyinin başından elə sancdı ki, qılınc iki barmaq kürəyinin ortasından çıxdı. Əhməd vəzir o saat canını tapşırdı, Hatəm Soltan cəllad Qasımı çağırıb dedi:

– Apar, bunun leşin at dənizə! Sonra da Tahir ilə anasını öldür, başın mənim yanıma gətir.

Cəllad Qasım Əhməd vəziri aparıb dənizə atdı, özünü yetirdi Tahir Mirzənin qulluğuna. Əl atıb onun yaxasından yapışdı, istədi boynunu vursun. Tahir dedi:

– Ey cəllad, cəlladda da bir rəhm olar. Atamın çörəyin unudursan, barı mənim cavan, nakamlığıma qıyma.

Aldı görək nə dedi:

Aman cəllad, gəl rəhm elə,
Dərd məni alacaq oldu.
Malım, mülküm, külli varım
Kimlərə qalacaq oldu?!

Qardaşım yox deyə sözüm,
Anam yoxdu çəkə nazım,
Bu üstü sədəfli sazım
Bə kimlər çalacaq oldu?!

Mən Tahirəm, budu sözüm,
Belə dərdə necə dözüm?
Zöhrə xanım iki gözüm,
Bə kimlər alacaq oldu?!

Cəllad Qasımın Tahir Mirzəyə rəhmi gəlib, onu öldürmədi, buraxdı. Gəlib şaha dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Tahir Mirzə eşidib ki, atasını öldürmüsən, qaçıb gizlənib.

Padşah car çəkdirdi ki:

– Hər kəs Tahir Mirzənin başını mənə gətirsə, onu dünya malından qəni eləyəcəyəm.

Bunlar Tahiri axtarmaqda olsun, görək Tahir başına nə çarə qıldı.

Tahir qaçıb atasının xanə bağçasında gizləndi. Bir neçə gündən sonra gördü ki, acından ölür. Durub bağçanın kənarına gəldi ki, görsün bir qədər çörək ələ gətirə bilərmi? Nə qədər baxdısa ağlı kəsən bir adama urcah olmadı. Bir də gördü bir neçə adam yolla gedir. Adamlar Tahir Mirzəni tanıdılar. Bir qocanın ona rəhmi gəlib dedi:

– Oğlum, Tahir, sən gəl Zöhrədən əl çək, bir başqasını al. Əgər əl çəkməsən, padşah səni öldürdəcək.

Tahir aldı, görək ona nə cavab verdi:

Əlləri hənalı bayram günündə,
Dostum bir nayranlıq verdi, hazarat!
Yardan ayrılmağı nəsihət etdi,
Bizə nə bayramlıq verdi hazarat?!

Məni şəddə kimi belə dolasan,
Ayrılmaram tikə-tikə doğrasan,
Yarıma qurbanam, əgər sorasan,
Ağ günü toranlıq verdi hazarat!

Dedim: Zöhrə, bax nə qara qaşın var…
Dedi: Tahir, bax nə müşgül işin var…
Dedim: mən xəstəyə nə yemişin var?
Bir cüt nar dərmanlıq verdi hazarat![9]

Gördülər Tahir haqq aşığıdı, dedilər:

– Allah səni sevgilinə çatdırsın!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunlar Tahirdən ayrılıb getdilər. Az keçdi, bir də baxdı ki, budu, atasının xərkanı bir neçə ulaq yük aparır. Sevinib xərkanı səslədi. Xərkan ona yavuq gəldi. Tahir Mirzə atasının duz-çörəyinə and verib dedi:

– Məni gördüyünü bir yerdə demə. Bir də mənə bir qədər çörək tap.

Bunu deyib xərkana bir avıc da əşrəfi verdi. Xərkan şad olub, çörək dağarcığını Tahirə verdi. Xərkan çox cuğul adam idi. Tahirdən ayrılan kimi düz padşahın qulluğuna gəlib dedi:

– Qibleyi-aləm, nə verərsən Tahirin yerini sənə desəm.

Padşahın əmri ilə xərkanın dağarcığını qırmızı qızıl ilə doldurdular. Xərkan çox şad olub macəranı şaha bəyan elədi. Şah o saat cəllad Qasıma əmr elədi ki, gedib Tahirin başın kəsib gətirsin. Cəllad Qasım özünü yetirdi xanabağçaya. Baxdı ki, Tahir sağında Məhəmməd, solunda Əhməd adlı qulamları ilə oturub çarhovuzun başında, quru çörəyi suda isladıb yeyir. Cəllad Əhmədlə Məhəmmədin yaxasından yapışdı, hər ikisinin başını toyuq başını kəsən kimi kəsdi. Ondan sonra istədi Tahir Mirzəni özü öldürsün, Tahir dedi:

– Ey cəllad, sən mənim atamın çörəyini yemisən, mənim nahaq qanıma girmə! Məni apar Hatəm Soltan özü öldürsün.

Cəllad Qasım Tahirin yaxasından əl çəkdi, hər iki qolunu qısqıvraq arxasında bağlayıb, qatdı qabağına, düz Hatəm Soltanın hüzuruna gətirdi. Hatəm Soltan Tahiri görcək, əmr elədi ki:

– Tez bunu dara çəkin, ta ki, gözüm Tahir adlı insanı görməsin.

Tahir ağlaya-ağlaya dedi:

– Əmi, izn ver, bir neçə söz deyim, ondan sonra məni öldürsünlər.

Padşah dedi:

– Tez ol, de görüm nə deyirsən?

Aldı Tahir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zalım cəllad qollarımı bağladı,
Aman allah, imdad elə bu işə!
Xun cigərim çalın-çarpaz dağladı,
Aman allah, imdad elə bu işə!

Dörd tərəfim qara qanlar alıbdı,
Üstümüzdə şahlar şahı durubdu,
İndi bildim Əhməd vəzir ölübdü,
Aman allah, imdad elə bu işə!

Gedin deyin Zöhrə gəlsin yanıma,
Bu kafırlar susuyubdu qanıma,
Gətirdilər Hatəm Soltan yanına,
Aman allah, imdad elə bu işə!

Mən Tahirəm, viran oldu güllərim,
Dostum yoxdu sora halımı mənim,
Sağımda, solumda öldü qullarım,
Aman allah, imdad elə bu işə![10]

Tahir baxıb gördü camaat yığışıb, məktəb uşaqları da, Zöhrə də gəlib, bir tərəfdə dayanıb. Amma bir gölə yaş da axıb, Zöhrənin gül yanağında durubdu. O saat aldı sazı, görək nə dedi:

Tayım, tuşum yığılıbdı yanıma,
Taqsırım yox, beygünaham, xan əmi!
Zalım cəllad nə susayıb qanıma,
Qəhrdən bükülüb belim, xan əmi!

Bu meydanda zülm həddən aşıbdı,
Atasız oğulun bağrı bişibdi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızıl gül üstünə şəbnəm düşübdü,
Mürğzar olubdu yollar, xan əmi!

Genə bizə zülm olundu xudadan,
Fəryadıma yetişmədi yaradan,
Tahir ağlar: nakam getdim dünyadan,
Yaman olub indi hallar, xan əmi![11]

Hatəm Sotan qışqırdı:

– Artıq bunu söylətməyin! Tez işini görün!

Məktəb uşaqları və camaat qül-qülə eləyib dedilər:

– Ey padşah, ədalətinə güc eləmə! Bu nahaq qanı bizim üstümüzə tökmə! Nahaq qan tökülən yerdə ot bitməz, su axmaz. Qızını vermirsən vermə. Atasın öldürdün, ta özünü öldürmə! Yox, istəmirsən burda qala, qılıncın işləyən yerdən kənar elə! Daha bu nahaq qanı bizim üstümüzə tökmə!

Hatəm Soltan gördü ki, camaat qoymayacaq Tahiri öldürsün, naəlac qalıb dedi:

– Çox gözəl, sizin xatiriniz üçün onun qanından keçdim. Ancaq mənim hökmüm cari olan torpaqda gərək durmasın.

Çağırıb cəllad Qasıma tapşırdı:

– Tahir Mirzəni aparıb mənim qılıncım işləyən yerdən çıxardarsan.

Xəlvətcə də bərk-bərk tapşırdı:

– Öldürüb, qanına köynəyini bulayıb, mənə gətirərsən.

O tərəfdən Zöhrə xanım bir kisə əşrəfi cəllad Qasıma göndərib, siafriş elədi ki: Tahir Mirzəni aparanda mənim otağımın qabağından keçir, bir boyuna doyunca baxım, ondan sonra hara istəyirsən apar.

Cəllad Qasım yapışıb Tahirin əlindən, başladı Zöhrə xanımın imarətinin yanından keçən yol ilə aparmağa. Elə ki, Zöhrə xanımın otağının bərabərinə yetişdilər, nə gördülər? Zöhrə xanım yaralı ahu kimi külafirəngidə boynunu büküb,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahirin yolun gözləyir. Zöhrə dedi:

– Cəllad, səni and verirəm allaha, bir qədər Tahir Mirzəni saxla, bir neçə sözüm var, deyim, ta ki, ürəyimdə niskil qalmasın.

Bir qədər əşrəfi cəllad Qasıma tərəf atdı. Dünya tamah dünyasıdı. Cəllad Qasım başladı qızılı yıgmağa. Zöhrə xanım qara saçlarından iki tel ayırıb, şəkər məmələrinin üstünə basdı, öz dərdi-dilini görək nə cür izhar elədi.

Aldı Zöhrə:

Zalım atam ol atanı öldürdü,
Ala gözlü xan Tahirim, yar, yeri!
Səni bu ölkədən sürgün buyurdu,
Qoy çəksin Zöhrə xan ah-zar, yeri!

Tahir Zöhrəni görən kimi ürəyi qana döndü. Sazı sinəsinə basıb, cavabında dedi:

Atam öldü, bir iş gəlməz əlimdən,
Heç ağaclar gətirməsin bar, yeri!
Mən bülbülü ayırdılar gülündən,
Qoyma gəlsin gül yerinə xar, yeri!

Aldı Zöhrə:

Dolansın, dolansın, peymana dolsun!
Saralıb heyvatək gül rəngim solsun!
Atam özü zalım əlində qalsın!
Görüm olsun taxtın tarımar, yeri!

Bu vaxt yel vurdu Zöhrənin ənbərçəsini tərpətdi, Tahirin gözü Zöhrənin ağ sinəsinə sataşdı. Dərdi coşa gəldi, aldı, görək bu münasibətlə nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anadan olalı gülmüyüb üzüm,
Qürbət ölkələrdə mən necə dözüm?
Ənbərçin altından sataşdı gözüm,
Sinən ağdı, Savalanda qar, yeri!

Zöhrə xanımın fikrinə gəldi ki, bəlkə Tahir Mirzə ənbərçəni nişan istəyir. Aldı cavabında dedi:

Gedər oldun, ənbərçəni apar sən,
Elə bil ki, Kəbə evin yaparsan.
Ölkələrdə gözəl çoxdu, taparsan,
Qoy çəkər Zöhrə xan ahu zar, yeri!

Aldı Tahir:

Ağlaram, gözümdən tökərəm qanı,
Fəryadıma yetsin xanların xanı,
Tahir seçib Zöhrə kimi tərlanı,
Qorxum budu: qucaqlıya sar, yeri![12]

Zöhrə ənbərçəsini çıxardıb, Tahirə uzatdı:
– Al, bu ənbərçəni yadigar saxla! – dedi.
Tahir ənbərçəni ondan aldı, görək Zöhrə ilə nə cür halallaşdı:

Mən gedirəm, allah səni saxlasın,
Ağlaya-ağlaya qal innən belə!
Amanətin neçə-neçə məndədi,
Saxlaya bilmənəm, al innən belə!

Didərginəm, gəlməm mən buralara,
Axıb didəm yaşı, dönüb sulara,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Canım düçar olub çox bəlalara,
Hərdən-hərdən yada sal innən belə!

Tahir deyər: işim ahu zar oldu.
Qaralandı gözüm yaşı, car oldu,
Dağıldı dövlətim tarımar oldu,
Atanı duzəxə sal innən belə![13]

Cəllad Qasım istədi Tahir Mirzəni aparsın, Zöhrə xanım ona dedi:

– Sən allah, Tahiri incitmə. Qoy bir bura çıxsın, sonra aparарsan.

Cəllad Qasım Tahirin qollarını açıb, Zöhrənin yanına çıxartdı. Tahir özünü Zöhrəyə yetirdi. Hər ikisi baş qoyub bir-birinin çiyninə, bir-birinin gözlərinə baxıb ağlaşdılar. Cəllad Qasımın bunlara rəhmi gəlib dedi:

– Xanım, atan əmr eləyib ki, Tahiri öldür, köynəyini qanına bulaşdır, mənə gətir. Bəs mən nə eləyim?

Zöhrə xanım bu sözü eşitcək içkəmiş maral kimi səksənib, özün saldı cəllad Qasımın ayağının altına. Əl atıb ətəyindən tutdu, yalvarmağa başlayıb dedi:

– Aşiqin göz yaşına rəhm elə! Bizə zülm eləmə! Mən Tahirə bir dəst təzə libas verim, bir qədər də sənə pul verim, sən bir qoyun al, başını kəs, Tahirin köhnə libasını qoyunun qanına bulaşdır, atama gətir. Tahiri də bir başqa məmləkətə burax.

Cəllad Qasım bu tədbirdən şad olub, bir dəst libas, bir kisə də qızıl götürüb, yola düşdülər. Gecə-gündüz yol gedib, Hatəm Soltanın qılıncı işləyən yerdən çıxıb, başqa bir vilayətə yetişdilər. Bir meşənin kənarı ilə gedirdilər, bir sürü qoyuna urcah oldular. Tahir Mirzə dedi:

– Bərəkətli olsun, ay çoban! Bizə bir qoyun satarsanmı?

Çoban baxdı, gördü bunlar bir abırlı adamdılar. Cavab



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verdi:

– Mənim qoyunum hamısı sizə peşkəşdi.

Çobandan bir qoyun aldılar, girdilər meşənin içərisinə. Bir çala qazdılar, qoyunu kəsib, qanın çalaya tökdülər. Ondan sonra cəllad Tahir Mirzənin köhnə libasını çıxarıb xəncərin ucu ilə parça-parça elədi. Qoyunun qanına bulaşdırıb götürdü. Qoyunun ətini də kabab çəkib yedilər. Sonra Tahir Mirzə ilə öpüşüb, vidalaşıb, ağlaya-ağlaya üz qoydu Qaramana, Hatəm Soltanın qulluğuna. Tahir üz qoydu qürbət elə. Bir müddət dolandıqdan sonra gəlib bir xanabaxçaya çıxdı. Çox yorulmuşdu. Daxil olub xanabaxçaya, əyləşdi çarhovuzun başında. Bu xanabağça kimin olsun, Xanverdi sövdəgərin. Xanverdi sövdəgər o Xanverdi sövdəgər idi ki, qırx tacirin başı olub malı, dövləti həddən ziyad idi. Özünün də gözünün ağı-qarası Nərgiz xanım adlı bir qızı var idi.

Nərgiz xanımın on səkkiz yaşı var idi. Sövdəgər öz evində, başını qızı Nərgiz xanımın dizi üstə qoyub yatmışdı. Tahir Mirzə xanabaxçaya girib, baxçanı seyr eləyəndən sonra Zöhrə xanımla keçirdiyi günlər bir-bir yadına düşdü, dərdi tüğyan elədi, sazını sinəsinə basıb dedi:

Cida düşdüm vətənimdən,
Qan ağlar ellərim mənim.
Bülbülüm yox dallar üstə,
Boş qalıb güllərim mənim.

Ağır ellərim çəkildi,
Cavankən belim büküldü,
Nişansız üzə töküldü,
Pərişan tellərim mənim…

Tahir Mirzənin bu naləsi Nərgiz xanımın qulağına yetişəndə başladı ağlamağa. Nərgiz xanım özün unutdu, birdən onun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir gilə göz yaşı atasının üzünə düşdü. Xanverdi sövdəgər diksinib, yuxudan ayıldı. Gördü qızı Nərgiz xanım ağlayır. Qızından soruşdu:

– Qızım, nə üçün ağlayırsan?

Nərgiz xanım cavab verdi:

– Ata, çarhovuz tərəfdən kimsə yanıqlı-yanıqlı oxuyur. Onun üçün ürəyim durmur, ağlayıram.

Xanverdi sövdəgər də qulaq asıb, gördü ki, qızı doğru deyir, oxumaq səsi gəlir:

Fələk, mana sitəm oldu,
Saralıb, gül rəngim soldu.
Sağımda, solumda öldü,
Nocavan qullarım məni.

Xanverdi sövdəgər qızı Nərgiz xanımı götürüb, çarhovuza tərəf gəldi. Nə gördü, on dörd keçəlik ay kimi bir oğlandı, əyləşib çarhovuzun başında oxuyur:

Tahir Mirzə bu çağında,
Sinəsi Zöhrə dağında,
Qaldı hovuz ayağında
Sonalı göllərim mənim…[14]

Təhir Mirzə bunları görən kimi ayağa qalxdı. Üz tutub, Xanverdi sövdəgərə dedi:

– Əmi, məni bağışla! Yorğun idim, bağçanıza iznsiz girdim.

Nərgiz xanım Tahirin qəddi-qamətinə, gul camalına nəzər yetirib, aşiqi-divanə oldu. Xanverdi Tahirdən soruşdu:

– Oğlan, de görüm sən nəçisən, kimsən ki, mənim bağçama biizn giribsən, gecənin bu vaxtında belə yanıqlı-yanıqlı oxuyursan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahir Mirzə öz şərhi-halın buna belə bəyan elədi:

Hatəm Soltan əvvəl atam öldürdü,
Viran oldu taxti-taracım mənim…
Məni o ölkədən sürgün buyurdu,
Sizlərə qalıbdı əlacım mənim…

Xanverdi sövdəgər dedi:

– Cavan, gedərsənsə, mən səni öz atamın ölkəsinə apararam!

Tahir Mirzə başını bulayıb, belə cavab verdi:

Gedə bilməm, bir iqrara bağlıyam,
Çar tərəfdən dügünüm var, dağlıyam.
Qaramanlı Əhməd vəzir oğluyam.
Yeddi eldən gəlir xəracım mənim.

Xanverdi sual elədi:

– Sürgün olmağına səbəb nə oldu?

Tahir Mirzə bütün əhvalatı Xanverdi sövdəgərə bəyan elədi. Xanverdi sövdəgər Tahir Mirzəyə təsəlli verib dedi:

– Səni mənə allah yetirib. Mənim oğlum yoxdu. Bircə qızım var, Zöhrədən min dəfə gözəl. Onu alarsan, özün də mənə oğul olarsan.

Nərgiz xanım öz könlündə yeddi qurban nəzir elədi. Görək Tahir Mirzə ona nə cavab verir:

Tahir Mirzə vəsmə yetirdi sözün,
Anadan olalı gülmüyüb üzüm.
Bu qarşımda duran vəfalı qızın,
Şahlar şahı bilir, o bacım mənim![15]

Nərgiz xanım bu sözü eşitcək qiyamət başına qopdu. Genə özünü sındırmamaq üçün ayağından başmağı çıxarıb atdı, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Çox fikir eləmə. Mənim ayağım çirk olsa, yenə də sənin üstünə sürtmərəm.

Xanverdi Tahir Mirzəyə dedi:

– Oğul, indi ki, mənim qızımı özünə bacı elədin, sən oldun mənim həqiqi oğlum. Gedək evimizə, kimi istəyirsən, sənə alacağam.

Elə həmin günün sabahı Xanverdi Tahiri götürüb bağa getdi. Tahirin əlinə bir bel verib dedi:

– Mən suyu bərədən buraxım, sən ağacların dibini kəs.

Tahir birinci dəfə idi əlinə bel alırdı. Təbi coşa gəldi, aldı, halına münasib görək nə dedi:

Ay ağalar, gəlin sizə söyləyim,
Gör necə yad oldu ellər mənimlə.
Beli də veribsən mənim dəstimə,
Xub oynar dəstimdə bellər mənimlə.

Bağı gördüm, ağrı qalxdı başımdan.
Üzüm bar bağladı gözüm yaşından.
Qohum, qardaş, el dağıldı başımdan,
Gör necə yad oldu ellər mənimlə.

Mən Tahirəm, düyünlüyəm, dağlıyam.
Qürbətdə dərdimi kimə ağlıyam?
Aləm bilir, Əhməd vəzir oğluyam,
Tüğyan olub gedir sellər mənimlə.

Xanverdi sövdəgər Tahir Mirzəni də götürüb evinə gəldi. Nə qədər açar kilidi vardı, Tahir Mirzəyə tapşırdı. Belə ki, Tahir Mirzə evin oğlu, sahibi-ixtiyarı oldu. Bir neçə gün keçdi. Bir gün Xanverdi sövdəgərin yoldaşları onun yanına gəlib dedilər:

– Ayə, Xanverdi, biz malımızı yeyib, mayaya də əl atmışıq.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Daha durmağın yeri deyil. Bir tərəfə gedib, bir qədər sövdə eləməliyik. Tay nə qəmin var, allah sənə oğul da yetirdi.

Xanverdi vaxtı təyin elədi. Tacirlər getdilər öz işlərinə. Xanverdi səfər tədarükünü qurtardıqdan sonra qızı Nərgiz xanımı çağırıb dedi:

– Qızım, mən yeddi ayın vədəsinə səfərə gedirəm. Bütün açarları tapşırmışam Tahir Mirzəyə. Al, bu bahar bağının açarıdı. Bunu özün saxla. Nəbada Tahir Mirzənin əlinə düşə. Ehtiyatlı ol! Əgər Tahir Mirzənin əlinə düşsə, bir də bu diyarda durmaz.

Sonra bütün qulamlarla, kənizlərlə, Tahir Mirzə ilə vidalaşıb, yeddi ayın səfərinə çıxdı. Atası gedəndən sonra Nərgiz xanım fikir elədi ki, indi yaxşı girəvə yeridir. Tahir Mirzəni ələ gətirib, buna getməliyəm.

Nərgiz xanım yeri gəldikcə Tahir Mirzəyə qaş-göz atmaqdan, işarələr vurmaqdan geri durmurdu. Ancaq Tahir Mirzə özün anlamamazlığa vururdu. Xülasə, Nərgiz xanım nə fənd qurdusa, Tahir Mirzənin bu kəmiltifatlığından bezar oldu; dərd, qəmin dağıtmaq üçün hər gün kənizlərin birini evdə qoyurdu, özü qırx incə qıznan seyrə çıxırdı.

Genə günlərin bir günündə Nərgiz xanım seyrə çıxmışdı. Bahar bağçasının açarını da bir kənizə verib, evdə qoymuşdu ki, evin işlərini düzəltsin. Kəniz evdə dolananda açar yaxasından yerə düşdü. Tahir Mirzə gəlib keçəndə açarı yerdən götürdü. Baxıb gördü ki, işlək açardı. Kənizi çağırıb soruşdu:

– Bu necə açardı məndən gizləyirsiniz? Məgər məndə nə əyrilik görmüsünüz?

Kəniz fikir elədi ki, Tahir Mirzəni allatmaq lazımdı. Bir qah-qah ilə gülüb dedi:

– O köhnə, sınıq açardı. Özümüz qəsdən bura atmışıq.

Tahir Mirzə əl atdı kənizin yaxasından yapışıb dedi:

– Çəpəl, düzünü deginən, yoxsa əlimdən salamat qurtarmazsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəniz qorxusundan əhvalatı Tahir Mirzəyə nağıl elədi.
Tahir edi:
– Bu saat bahar bağın mana nişan ver!
Kəniz naəlac qalıb, Tahir Mirzəni götürdü, bahar bağının qapısına gəldi. Tahir qapını açıb içəri daxil oldu. Nə gördü? Bura bir bağdı ki, deyirsən behiştin bir guşəsidi, Gülüstani-baği-İrəmdən nişan verir. Bülbüllər cəh-cəh, güllər bəh-bəh deyir, hər kəs öz dilincə, öz məhbubu ilə razi-niyaz eləyir. Tahir Mirzə bağı dolanırdı, gördü bir bülbül gülün yarpağını üzüb çəkir göyə, ordan buraxır; bülbül şığıyır yarpaq göydə ikən yenə tutur. Tahir tamaşa eləyirdi, bülbül yarpağı bir də çəkib buraxdı. Gül yarpağı bir qara tikan kolunun üstə düşdü. Bülbül daldan şığıyıb onu götürmək istəyəndə ürəyindən sancıldı qaratikan qələməsinə. Gedib, başını sürünə-sürünə gülün yarpağının üstünə qoydu, can verməyə başladı. Tahir bir ah çəkib, özünü yetirdi bülbülün başı üstünə. Onu o tərəfə, bu tərəfə aşırıb gördü ki, başı yarpağın üstündə, canını gülə tapşırıb. Tahir kədərlənib dedi:
– Heyhat!... bir bülbülcən də olmayasan?! Vəfalı bülbül öz canının məhbubu yolunda fəda elədi! Sən diyarbadiyar gəzirsən. Yox olsun o baş ki, məhbubu yolunda kəsilməyə.
Tahir bülbülün yanında diz çöküb, gözlərinin yaşını tökdü. Qəmi coşa gəldi, sazı sinəsinə basıb, görək nə dedi:

Yaz olanda bağçalarda
Sən çalırsan tarı, bülbül!
Oxudun, dərdim artırdın,
Oldun mənnən yarı, bülbül!

Bülbül, sənin işin qandı,
Aşıqlar oduna yandı;
Nədən hər yerin əlvandı,
Köksün altı sarı, bülbül!?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bülbül, sən dala səkərsən,
Göz yaşın gülə tökərsən,
On bir ay həsrət çəkərsən,
Bir ayı də zarı, bülbül.

Bülbül, geyinmisən yaşıl,
Qolların boynumdan aşır;
Ağlamaq mənə yaraşır,
Qoy ağlayım barı, bülbül!

Bülbül, sən məni qandırdın,
Gülşən bağı dolandırdın,
Axır oduna yandrdın,
Yazıq xan Taharı, bülbül![16]

Tahir Mirzə sözünü bitirib, öz-özünə dedi: «Ey dadi-bidad! Bir bülbülcən də olmayasan? O öz məhbubu yolunda mərd-mərdana canını fəda elədi, sən canını qorumaq üçün diyar-badiyar gəzirsən».

Ayağa qalxıb, üz qoydu öz vilayətlərinə tərəf getməyə. Bu vaxt Nərgiz xanım seyrdən qayıdırdı. Tahir Mirzəyə rast oldu. Tahir Mirzənin vilayətlərinə getmək qəsdində olduğunu bildi. Nə qədər yalvardı, göz yaşı tökdü, qoymaq istəmədisə də, mümkün eləyə bilmədi. Naəlac qalıb, iki yeyib yatmış kənizə əmr verdi ki, onu götürüb, evə aparsınlar. Kənizlər Tahir Mirzəni evə apardılar.

Ancaq Tahirin könlü açılmadı, üzü gülmədi. Bülbül onun gözünün qabağında idi. Aldı, öz halına münasib görək nə dedi:

Fələk, səndə nə adətdi,
Ayırmaq yarı yarından?
Göz ilə görməmiş həmin,
Könül yox ola varından!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəqib, evin bərbad olsun!
Saralıb güllərin solsun!
Ayrılan necə şad olsun!
Belə sərxoş nigarından!

Eylərəm yüz min xəyalı,
Pərişandı könül halı;
Gecə-gündüz yar camalı
Getmir gözüm kənarından!

Mən Tahirəm, baxt itirdim,
Dərdimi həddən ötürdüm,
Cəfa çəkdim, bağ bitirdim,
Dərmədim bircə barından!

Nərgiz onun üstünə acıqlanıb dedi:

– Heç dara-bara eləmə. Səni mən heç yerə buraxmayacağam. Nə Zöhrəbazlıqdır?

Tahir Mirzə bir ah çəkib, görək Nərgizə nə dedi:

Budu, gəldi bahar fəsli,
Açılıbdı lala, nərgiz!
Ağız süddü, dodaq qaymaq,
Dilin batıb bala, Nərgiz!

Gedərsən Çinə, Maçinə,
Müşk, ənbər səpdin saçına;
Bənzəyirsən ağ laçına,
Hey cumursan gölə, Nərgiz!

Alayıbsan, alayıbsan,
El-obanı talayıbsan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İpək şəddə dolayıbsan
Şal üstündən belə, Nərgiz!

Ha deyərəm: xanım, xanım,
Od tutdu cəsədim, canım:
Töhmət altda çıxdı canım,
Rəhmin gəlsin mənə, Nərgiz!

Kəsibsən aşığın yolun,
Qırıbsan qanadın, qolun,
Tuti kimi oxur dilin,
Dönübsən bülbülə, Nərgiz!

Uca-uca dağlar qaldı,
Gülü solmuş bağlar qaldı,
Zöhrə yarım ağlar qaldı,
Dur sal məni yola, Nərgiz!

Sən Tahiri küsdürürsən,
Qorxudub, qan qusdurursan.
Dar quruban asdırırsan.
Zülüm olmaz belə, Nərgiz![17]

Nərgiz gördü ki, Tahir Mirzəni saxlaya bilməyəcək, dedi:

– Oğlan, get, allah səni sevgilinə çatdırsın! Ancaq məni yaddan çıxartma!

Nərgiz ona bir kisə cavahir, bir xurcun çörək verdi. Tahir Mirzə Nərgizlə görüşüb, yola düşdü. Bu, getməkdə olsun, eşit Xanverdi sövdəgərdən.

Xanverdi sövdəgər evə gəlib gördü ki, Tahir Mirzə yoxdu. Nərgizdən soruşdu. Nərgiz bütün əhvalatı ona nağıl elədi. Xanverdi atını minib, Tahirin dalınca getdi. Tahirə çatıb dedi:

– Nəməkbəharam, haraya qaçırsan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahirin rəngi saraldı, gözləri yaşla doldu. Əli titrəyə-titrəyə sazını bağrına basdı, görək Xanverdiyə nə dedi:

Könül qalxdı vətən sarı yeridi,
Bir sözüm var sənə, Xanverdi, deyim.
Duz-çörəyin halal elə, gedirəm,
Düxtər öz əlindən nan verdi yeyim.

Mən qanmışam o maralın sözündən,
Almamışam busasını üzündən,
Ya el tənəsindən, ya öz-özündən,
Zöhrə bəlkə məndən yan verdi, deyim.

Tahir Mirzə, sözün şana düzüldü,
Xumarlanıb ala gözlər süzüldü.
Zaği vurdu, gül yarpağı üzüldü,
Bülbül gül yolunda can verdi, deyim[18].

Xanverdi gördü Tahir haqq aşığıdı, onu geri döndərə bilməyəcək, halal-hümmət eləyib, geri qayıtdı.

Tahir Mirzə üz qoydu yarı olan diyara tərəf, ta ki, gəlib çıxdı Hatəm Soltanın vilayətinə. Gördü bir çoban qoyun otarır, özü də başdan ayağa qara geyinib. Salam verib dedi:

– Çoban qardaş, niyə qara geyinibsən?

Aldı çoban, görək ona nə cavab verdi:

Başına döndüyüm, a cavan oğlan,
Ağam üçün mən qaranı geymişəm.
Dolanım başına, mən alım qadan,
Ağam üçün mən qaranı geymişəm.

Düşmən bizə düşmənliyin bildirdi.
Ağlayıban didəm yaşın sildirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hatəm Soltan Əhməd vəziri öldürdü,
Onun üçün mən qaranı geymişəm.

Səhər-səhər doğan dan ulduzudu,
Aşıqların söhbətidi, sazıdı,
Adı bəlli – Hatəm Soltan qızıdı,
Zöhrə qara geyib, mən də geymişəm.

Çobanın adı Şahqulu idi. Şahqulu Tahir Mirzəni tanıyıb, əl-ayağına düşdü, onu evlərinə apardı. Anasını çağırıb dedi:

– Mən qoyunu arxaca yığıb gələnə kimi xörəyi hazır elədin, canın qurtardı, əgər eləmədin, and olsun allaha, bu ağac ilə səni öldürəcəyəm.

Arvad canının qorxusundan o saat xörəyi bişirib, dəmə vurdu. Şahqulu da qoyunu arxaca yığandan sonra qayıdıb gəldi. Qarı qalxıb əlüstü sırfa saldı, xörəyi qablara çəkdi, gətirib ortaya qoydu. Şahqulu anasına dedi:

– Ana, bir bax gör bu oğlan kimə oxşayır?

Qarı diqqətlə baxıb dedi:

– A bala, rəhmətlik Tahir Mirzəyə oxşayır.

Şahqulu dedi:

– Arvad, rəhmətlik niyə? Diqqətlə bax, Tahir Mirzə özüdü.

Qarı o saat özünü Tahir Mirzənin üstünə atdı, boynunu qucaqlayıb, başladı şadlığından ağlamağa.

Tahir Mirzə bütün başına gələnləri onlara nağıl elədi.

Şahqulu işdən halı olandan sonra anasına dedi:

– İndi, ana, mən gedirəm qoyunu yaylıma aparam. And osun allaha, gələm görəm Tahir Mirzəni Zöhrəyə yetirməyibsən, bu ağacla belini qıracağam.

Arvadın canına titrəmə düşüb dedi:

– Ay bala, mən necə görüşdürüm?

Tahir Mirzə dedi:

– Ana, qəm çəkmə. Al bu pulu, get ikidəst arvad paltarı al,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gətir geyinək. Tut mənim əlimdən apar Zöhrənin qapısına. Deginən bu mənim qızımdı, əri ölüb, neçə vaxtan bəri bütün olan malı-dövlətini yeyib qurtarıb, indi bunu sənə qulluqçu vermək istəyirəm. Ondan sonrası ilə işin yoxdu.

Arvad o saat bazara getdi. Tahir Mirzə dediyi kimi iki dəst arvad paltarı aldı, evə gətirdi. Birini özü geydi, birini də Tahir Mirzəyə geydirdi. Tutub onun əlindən Zöhrənin qapısına yetirdi. Gördü dayə başında məcməyi deyinə-deyinə Zöhrəyə xörək aparır. Qarı dayəni çağırıb dedi:

– Bu mənim qızımdı. Hər işdən başı çıxır. Sən allah, Zöhrə xanıma de, gör bunu qulluqçu saxlaya bilərmi?

Dayə şadlığından bilmədi nə eləsin. Çünki ümid eləyirdi ki, özünə köməkçi olacaq, dedi:

– Al, sən bu məcməyini götür, mən də qəndabı götürüb gəlim, Zöhrə xanımın qulluğuna gedək.

Dayə getcək Tahir Mirzə çobanınn anasına dedi:

– Ana, sən daha işini qurtardın, gedə bilərsən.

Qarı geri qayıtdı. Tahir Mirzə Zöhrənin otağına girdi, sandığın dalında gizləndi. İndi bunlar burada qalsınlar, sizə Zöhrə xanımdan xəbər verim.

Həmin gün Zöhrə xanımın əhvalı çox pərişan idi. Tahirlə keçirdiyi vaxtları yadına salmışdı. Gözlərinin yaşını tökə-tökə aldı, görək halına münasib nə dedi:

Qızlar, gəlin sizə halım söylüyüm,
O keçən günlərim yadıma düşdü.
Tahirin yanında məktəbxanada
Yarla oxuduğum yadıma düşdü.

Səhər-səhər Tahir evə gələrdi,
Şirin-şirin söhbət açıb gülərdi,
Ürəyimi alıb, eynim silərdi,
Gülüb danışdığım yadıma düşdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən Zöhrəyəm, beli incə, boy bəstə,
Zülfün dal gərdəndə çin, dəstə-dəstə;
Yerin salardım mən bu sinəm üstə,
Zarafatlaşdığım yadıma düşdü.

Sözü tamama yetirib, öz xas kənizi Mələksumaya dedi:

– Ay Mələksuma, aşxana aşı yeməkdən cana gəlmişəm. Dur, bir qədər yağ, düyü gətir, özüm bişirib, özüm yeyəcəyəm.

Yağ, düyü hazır oldu. Zöhrə xanım biləklərini çirmədi, özü aşı bişirib siniyə çəkdi. Mələksumanı çağırıb dedi:

– Sən allah, sən də otur, mənimnən çörək ye.

Mələksuma dedi:

– Təsəddüqün olum, mənim nə həddim var ki, səninnən çörək yeyəm?

Zöhrə dedi:

– Mən sana deyirəm otu, otu…

Mələksuma oturub, əlini xörəyə uzadanda dedi:

– Xanım, allahın altında indi Tahir Mirzə birdən gəlib bura çıxa.

Söz Mələksumanın ağzından qurtarmamış, Zöhrə xanımın halı dəyişdi. Abi-leysan kimi göz yaşı axıda-axıda dedi:

– Tay bu çörək mənə haram oldu, yığışdır!

Zöhrə ağlaya-ağlaya yatağa girib yatdı. Mələksuma da dediyinə çox peşiman oldu, götürüb xörəyi yığışdırdı. Bu əsnada Tahir o biri otaqda arvad paltarını çıxardıb, öz paltarını geyindi, içəri daxil oldu. Mələksuma Tahir Mirzəni görcək, özün saldı onun üstünə, üzündən, gözündən öpəndən sonra and verib dedi:

– Tahir Mirzə, qoy Zöhrə xanımı mən oyadım, tainki bir müjdə alım.

Tahir dedi:

– Oyat!

Mələksuma gəldi Zöhrənin yanına, saçlarından iki tel ayırıb basdı sinəsinə, görək Zöhrə xanımı necə oyatmağa başladı:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xab içində yatan Zöhrə,
Oyan, Zöhrə, yarın gəldi!
Qəm-qüssəyə batan Zöhrə,
Oyan, Zöhrə, yarın gəldi!

Əl yetməz sazı yendirim,
Sinəmin üstə mindirim.
Qorxuram səni dindirim,
Oyan, Zöhrə, yarın gəldi!

Qaşa, gözə düşdü həmə,
Mən dərdimi deyim kimə?
Sana qurban Mələksuma,
Oyan, Zöhrə, yarın gəldi![19]

Tahir Mirzə səbr edə bilməyib dedi:
– Sən allah, qoy müjdəni mən verim, yarımı özüm oyadım.
Sazı mindirdi sinə sandığına, görək nə dedi:

Dan yerinə yenə düşdü nişana,
Oyan, gözlərinə qurban olduğum!
Uçdu şeyda bülbül, qondu gülşana,
Oyan, gözlərinə qurban olduğum!

Kəsdirmişəm nazbalışın yanını,
Tuta idim kirpiklərin sanını,
Nə tapıbsan bu yuxunun kanını?
Oyan, gözlərinə qurban olduğum!

Bağrım başı bar götürməz xəzəldən,
Göz kəsmərəm sənin təki gözəldən.
İkimiz də həmdərs idik əzəldən,
Oyan, gözlərinə qurban olduğum!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə vaxtandı gözün yolda qalıbdı,
Saralıbdı gül irəngin, solubdu,
Oyan, Zöhrə, xan Tahirin gəlibdi,
Oyan, gözlərinə qurban olduğum![20]

Tahir dedi:

– Ay qız, qolbağını, üzündən ənbərçəsini aç, bəlkə oyana.

Mələksuma onun qolbağını və üzünün ənbərçəsini açdı, Zöhrə yenə oyanmadı. Aldı Tahir, görək nə dedi:

Nə vaxtdan gəldik otağa,
Yatıb, oyanmaz, oyanmaz!
Canım yolunda sadağa,
Yatıb, oyanmaz, oyanmaz!

Yığın otağın xalısın,
Neynərəm dünya malısın.
Ağ qolundan qolbağısın,
Açıb, oyanmaz, oyanmaz!

Tahirəm neçə neçəsin,
Sevmədim türkmən beçəsin.
Ağ üzündən ənbərçəsin
Atıb, oyanmaz, oyanmaz!

Zöhrə qurcalanıb dedi:

– Ağız, burdan saz səsi gəlir, deyəsən oxuyan var. O kimdi?

Mələksuma cavab verdi:

– Xanım, əynindəki paltar mənim muştuluğum, gözlərini aç gör kimi görürsən?

Tahir o saat sazını divara söykəyib, özü daldada gizləndi. Zöhrə gözlərini açanda, sazı gördü, aldı görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yarım gəlib bu otağa,
Saz sahibi yar necoldu?
Canım yolunda sadağa,
Saz sahibi yar necoldu?

Hər nə oldu mənə oldu.
Saralıb bənizim soldu.
Bağ pozuldu, bülbül öldü,
Saz sahibi yar necoldu?

Beqafildən çıxdı xəbər,
Yaralarım qabar-qabar;
Xan Zöhrəyə doğru xəbər,
Saz sahibi yar necoldu?

Mələksuma danışmaq istəyəndə Zöhrə dedi:
– Ay qız, Mələksuma, qoy birini də deyim, sonra:
Aldı Zöhrə:

Yatmışdım guşuma gəldi bir səda,
Ala gözlərinə qurban olduğum!
Bir dərdə düşmüşəm, olunmaz çara,
Ala gözlərinə qurban olduğum!

Kimdi mənim kimi qara bağlayan,
Sinəm üstün çalın-çarpaz dağlayan,
Gecə-gündüz Tahir deyə ağlayan,
Ala gözlərinə qurban olduğum!

Bayram ayı demək olmaz hər aya.
Yazıq məzlum kimə getsin haraya?
Deyən, ay qız, Tahir gəlib buraya,
Ala gözlərinə qurban olduğum!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahir gizlindən çıxdı. Bir-birinin boynuna sarıldılar. Tahir onu bağrına basıb, ipək saçlarını tumarlaya-tumarlaya dedi:

Mən səni ədalət bildim,
Yar, qapına dada gəldim.
Yolunda çox cəfa çəkdim,
Ömrü verdim bada, gəldim

Aşiqlərdə budu adət.
Cavan ömrüm oldu qarət.
Xaki-payını ziyarət
Elədim, murada gəldim.

Mən Tahirəm, yana-yana
Naləm çıxdı asimana;
Necə qoç quzu qurbana,
Mən sənə qurbana gəldim[21].

Zöhrə on iki hörükdən bir tel ayırıb sinəsinə basdı, görək onun cavabında nə dedi:

Xoş gəlibsən, gözüm üstə,
Sana peşgəş elim, oğlan!
Gəl üzün qoy üzüm üstə,
Əm dodağım, dilim, oğlan!

Nə baxırsan yana-yana,
Əm ləbimdən qana-qana,
Çəkilək başqa bir yana,
Sarmaşaq, quc belim, oğlan!

Zöhrənin baxtı açıldı,
Boyuna xələt biçildi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bağlı dükanım açıldı,
Gəl, ol dükandarım, oğlan!

Aldı Tahir görək nə dedi:

Bahar gələr, yaz açılar, bülbüllər,
Cəh-cəh vurub oxuyarlar, əmqızı!
Gəl ikimiz bülbül olaq, gül olaq,
Biz də edək o xəyallar əmqızı!

Sən bir gül ol, mən də bülbüli-şeyda,
İlqar qoyaq hər ikimiz arada;
Biz də yetək gül fəslində murada,
Canım alır qoşa xallar, əmqızı!

Mən Tahirəm, sirrim sana əyandı,
Sevgi sevgisindən doymaq yamandı.
Ürək sözüm sən Zöhrəyə bəyandı,
Dərman mana düşdü narlar, əmqızı!

Zöhrə saçlarından üç tel ayırıb, sinəsinə basdı, aldı cavabında görək nə dedi:

Əmim oğlu, o nə sözdü deyirsən?
Canımı canına heyran elərəm.
Hər dəqiqə sən ki, mənim yarımsan,
Gecə-gündüz səni mehman eylərəm.

Bağça sənin, bağban sənin, bar sənin,
Bağda olan alma, heyva, nar sənin,
Peşkəşindi qoşa xallar, yar, sənin,
Bir söz var ki, onu pünhan eylərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zöhrənin də budu sana son sözü,
Qurban sana dil-dodağı, qaş-gözü;
Mən də sənin kimi aşiqəm, düzü,
Dərya kimi mən dəümman eylərəm.

Zöhrə xanım sözü tamam eyləyib, Mələksumaya dedi:

– O xörəyi gətir bura, indi üçümüz bir yerdə yeyək.

Mələksuma xörəyi gətirib qoydu qabağa, dedi:

– Xanım, gördünmü mənim niyyətimi?!

Hər üçü başladılar xörəyi yeməyə. Xörəkdən sonra Zöhrə xanım Mələksumanı qapıda qaraulçu qoydu, özü Tahir ilə qol boyun olub yatdı. Bir qədər oturduqdan sonra Mələksumanın yuxusu gəldi, dirsəyinə dayanıb, ordaca yatdı. Bu biri tərəfdən dayə xidmət üçün içəri girib gördü ki, paho, Tahir ilə Zöhrə qol-boyun olub yatıblar. İstədi qayıtsın, Zöhrə oyanıb dayəni geri çağırdı, dedi:

– Dayə nənə, sirr kimin olar, saxlayanın. Al bu bir ovuc əşrəfini, bu sirrimi heç yerdə açma.

Dayə əşrəfləri alıb dedi:

– Çox yaxşı.

Ancaq pilləkandan yenə-yenə öz-özünə mırtdanıb dedi:

– Heç yerdə açmayacağam. Bir toyda deyəcəyəm, bir bayramda. Gözümüz aydın, indiyə qədər birinə qulluq eləyə bilmirdik, indi iki oldu.

Dayə üz qoyub Hatəm Soltana tərəf getdi. Zöhrə xanım dayənin qımırını başa düşüb, başladı Tahir Mirzəni oyatmağa.

Aldı Zöhrə:

Beiman getdi xəbərə,
Nə yatıbsan, Tahir Mirzə?!
Çəkəcəklər səni dara,
Nə yatıbsan, Tahir Mirzə?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Danışırıq biz qeyibdən,
Xəbərin yoxdu eyibdən.
Qorxuram mən səyrəğibdən,
Nə yatıbsan, Tahir Mirzə?!

Xəyal toxumun əkərsən,
Bica əzablar çəkərsən,
Ağlarsan, qan-yaş tökərsən,
Nə yatıbsan, Tahir Mirzə?!

Mən Zöhrəyəm, qələm qaşlı,
Ala gözlü, siyah saçlı.
Qoyma məni gözü yaşlı!
Nə yatıbsan, Tahir Mirzə?!

Tahir oyanıb gördü Zöhrə xanım ağlayır. Boynun qucaqla-yıb, ala gözlərindən bir busə alıb dedi:

– Nə üçün ağlayırsan?

Zöhrə xanım əhvalatı ona söylədi. Tahir dedi:

– Qorxma, səni məndən ayıra bilməzlər. Bizi bir-birimizə qismət eyləyən var.

İndi eşit Hatəm Soltandan. Hatəm Soltan əhvalatı eşidib, bərk qəzəbləndi, Tahiri hüzuruna apartdı. O saat cəllada əmr edib dedi:

– Gözümün qabağında bunun boynunu vur, ürəyim sakit olsun.

Cəllad Tahiri yaxalayanda camaat Hatəm Soltanın əl-aya-ğına tökülüb dedi:

– Bu nahaq qanı bizim ölkəyə tökmə!

Hatəm Soltan camaatın töhmətindən, narazılığından qor-xub, əmr elədi ki, onu bir böyük sandığa qoyub dəryaya atsın-lar. Bəli, bir böyük sandıq qayırdılar. Tahiri sandığın yanına gətirdilər. Tahir baxıb gördü Zöhrə kənarda durub, gözünün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaşını abi-neysan kimi tökür. Tahir sevgilisinin ahu zarını görüb, sazı sinəsinə basdı, görək nə dedi:

Başına döndüyüm ala göz xanım,
Qoy aparsın görüm, sel mənə neylər?!
Sana qurban olsun bu şirin canım,
Qoy aparsın görüm, sel mənə neylər?!

Əmib-əmib ləblərindən qandığım,
Pərvanətək şam oduna yandığım,
Müşənbələ, at dəryaya sandığım,
Qoy aparsın görüm, sel mənə neylər?!

Tahir deyir: nə edirsən əndişi,
Əlbət belə imiş qəzanın işi,
Yusifi quyudan çıxardan kişi
Saxlasa sandığı, sel mənə neylər?![22]

Tahir Mirzə sözün qurtaran kimi onu sandığa saldılar, sandığın ağzını bərk-bərk müşənbələyib, dəryaya atdılar.

Dərya sandığı apardı, hərləyib, Zöhrə xanımın otağının qabağına vurdu. Zöhrə xanım bunu görüb, aldı, görək dəryaya necə yalvardı:

Qanlı dərya, nə axarsan selavda,
Axıb-axıb nə məkana gedərsən?
Qoymagilən sandıq qala girdabda,
Götür apar, hər bir yana gedərsən!

Ağlaram gözümdə tökərəm qanı,
Fəryadıma yetiş, xanların xanı!
Göz yaşım kaş qurudaydı dəryanı,
Götür apar, Həştərxana gedərsən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən Zöhrəyəm, Tahir Mirzə qəmində,
Heç olmadım söhbətində, dəmində,
Nə çalxalanırsan Gilanzəmində?
Bağışlarsan Süleymana, gedərsən[23].

Elə ki, Zöhrə xanım sözünü bitirdi dərya sandığı götürüb başladı aparmağa. Tainki sandıq gözdən qeyb oldu, Zöhrə xanımın ürəyi qana döndü, göz yaşını tökə-tökə görək nə dedi:

Nə axarsan, qanlı dərya?!
Getdi mənim yarım səndə.
Əlim çatmaz, ünüm yetməz,
Bir ahilən zarım səndə.

Onunla keçirdi dəmim,
Artırdın dərd ilə qəmim;
Bad əsdi, döndərdi dəmim,
Getdi küllü varım səndə.

Başıma qara bağlaram,
Sinəmi çarpaz dağlaram,
Zöhrəyəm, qanlar ağlaram,
Getdi mənim yarım səndə![24]

Zöhrə davam gətirmədi, gözlərinin yaşını axıda-axıda yenə dedi:

Tahiri apardı dərya,
Getdi, xan Tahirim getdi…
Xıdır çıxarsın quruya,
Getdi, xan Tahirim getdi…



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahiri atdılar suya,
Qolunda bazibənd dura,
Kimlər tapa, kimlər yuya,
Getdi, xan Tahirim getdi…

Tahir getdi axa-axa,
Zöhrə qaldı baxa-baxa,
Qabaqda ildırım çaxa,
Getdi, xan Tahirim getdi…

Zöhrə xanımı Tahir Mirzənin dalınca ağlar qoyaq, görək Tahir Mirzənin başına nə gəldi.

Tahir Mirzə qırx gün dəryada üzəndən sonra çıxdı Həştərxan vilayətinə. Dəryadan paşalıq bağçasına bir böyük sərdəhnə axırdı. Sandıq bu dəhnə ilə buruldu bağa tərəf.

Qəzara o gün paşanın qızı Sona xanım qırx incə qızınan bağa səyahətə çıxmışdı. Gördülər bir şey su ilə qarala-qarala gəlir. Paşanın qızı dedi:

– Qızlar, bəlkə bu gələn sandıq oldu? Gəlin onun içindəkinə şərt qoyaq. Hər kim deyən olsa, onun olsun.

Hamısı buna razı oldu. Vəzirin qızı dedi:

– Əgər pul olsa mənim.

Vəkilin qızı dedi:

– Əgər mal olsa mənim.

Paşanın qızı dedi:

– Əgər oğlan olsa mənim.

Sandıq gəlib yetişdi. Sandığı tutub çıxartdılar qırağa. Ağzın açıb gördülər bir oğlandı ki, on dörd gecəlik aya bənzəyir. Bir tərəfində saz, bir tərəfində də bir qədər çörək var. Amma özü bihuşdu. Sona xanım dedi:

– Allah mənimkin yetirdi. Özü də nəcibzadəyə oxşayır. Əldən qoyası deyiləm.

Vəkilin, vəzirin qızları dedilər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu olmaz. Dövlət də sizdə, şadlıq da sizdə, gözəllik də sizdə. Daha bu oğlanı qoymarıq aparasan.

Sona xanım gördü ki, xeyr, qızlar iqrarlarından döndülər, dedi:

– Eybi yoxdu. Gəlin adama bir söz deyək. Hər kimin sözündə oğlan ayılsa, onun olsun.

Hamısı razı oldular.

Aldı vəzirin qızı:

Əcəm oğlan, nə yatmısan burada,
Əcəm oğlu, sandığından dur, yeri!
Bəs nə yaxşı qərq olmadın dəryada?
Əcəm oğlu, sandığından dur, yeri!

Aldı vəkilin qızı:

Haradan gəlirsən, nə səhmanlısan?
Cavahir ülkəli, dür məkanlısan.
Atıblar dəryaya, məgər qanlısan?
Əcəm oğlu, sandığından dur, yeri!

Aldı Sona xanım:

Evdən çıxdın, xarab qoydun xananı,
Yandırdın odlara ata-ananı.
Gəl yandırma paşa qızı Sonanı,
Əcəm oğlu, sandığından dur, yeri!

Sona gördü ayılmır. Sözün dalısın görək nə cür dedi:

Başına döqdüyüm, qurban olduğum,
Əcəm oğlu sandığından dur, yeri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Alışıb oduna büryan olduğum,
Əcəm oğlu, sandığından dur, yeri!

Dərin-dərin dəryalara dalmısan,
Şirin canım eşq oduna salmısan,
Nə müddətdi bu dəryada qalmısan.
Əcəm oğlu, sandığından dur, yeri!

Mən Sonayam, köksüm bəndin açaram,
Canına eşqimin odun saçaram;
Nə edim ki, mən bu işə naçaram,
Əcəm oğlu, sandığından dur, yeri![25]

Oğlan bu sözdən asqırıb, ayağa qalxdı. Vəzir, vəkil qızlarının gözü Tahirin gül camalına sataşanda ixtiyar əllərindən getdi, biri sağ qolundan, biri də sol qolundan yapışıb, paşanın qızına dedilər:

– Ola bilməz ki, allah padşahlığı da sizə versin, hər yetirən göyçək oğlanı də. Biz öləcəyik, bu oğlanı sana verməyəcəyik.

Sona xanım Tahirə dedi:

– Oğlan indi ixtiyar sənindi. Götür sazını, oxu! Hər kəsi ki, könlün tutur, onun adını söylə, onun ol!

Aldı Tahir:

Başına döndüyüm, qurban olduğum,
Tanrı məni sizə qurban eyləsin!
Yanıb odlarına büryan olduğum,
Tanrı məni sizə qurban eyləsin!

Eşq əhlinin dərdin bilib anarlar,
Əmib-əmib ləblərindən qanarlar;
Boyu uzun, beli mina kəmərlər,
Tanrı məni sizə qurban eyləsin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qulaq asın Tahir Mirzə sözünə,
Gecə-gündüz yuxu getməz gözünə.
Mən aşiqəm Hatəm Soltan qızına,
Tanrı məni sizə qurban eyləsin![26]

Qızlar başladılar bir-biriynən dava eləməyə. Hər biri başladı ki, mənə işarə edir. Bağban bunların bu davasını görüb, yaxına gəldi, əhvalatdan xəbərdar olub, dedi:

– Oğlan, allah səni mana yetirib. Al bu beli, ağacların dibini boşalt.

Tahir sazı döşünə basıb, görək nə dedi:

Allah, mən nə yaman sevdaya düşdüm,
Mən getdikcən gedər yollar mənimlə.
Bilmədim yolumu, bu çaya düşdüm,
Axa-axa gedər sellər mənimlə.

Mənim sevdiyimin qaradı qaşı,
Deyirlər bülbüldü, gülün sirdaşı.
Gözlərimin axar hey qanlı yaşı,
Çalxanar çeşmələr, göllər mənimlə.

Tahir Zöhrə sevdi, cana yetişdi,
Gəldi işi ah-fəğanə yetişdi.
Axır ömrü bir bağmana yetişdi.
Dəstimdə oynuyur bellər mənimlə[27].

Sona xanım gördü nə qədər oxuyur, bunların birinin də adına işarət eləmir, hamısında elə Zöhrə deyib, ağlayır. Götürüb, Tahiri apardılar paşanın yanına, əhvalatı ona söylədilər. Paşa Tahirə dedi:

– Ey oğlan, səni nə üçün dəryaya atıblar? Başına gələn qəzavü-qədəri bəyan elə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahir Mirzə başına gələni paşaya nağıl elədi. Əhvalatı eşidəndə paşanın ciyəri yanıb dedi:

– Tahir, indi fikrin nədi?

Aldı Tahir görək nə dedi:

Paşa, mən qapına dada gəlmişəm,
Nola yetirəsən canana məni?!
Hatəmin qızına aşiq olmuşam,
O atdı dəryayi-ümmana məni.

Bir ala gözlünün oduna düşdüm.
Oxuyub könlümün dəftərin açdım,
Hər zamankı nəzərinə sataşdım,
Buyurdu cəllada, fərmana məni.

Uşaq ikən beşiyini yırğadım,
Çörəyimi zəhərlərə doğradım.
Hatəm Soltan qəzəbinə uğradım,
Atdı seldən-selə, ümmana məni.

Tahir ərzi-halın şaha bildirir,
Ağlayıban göz yaşını sildirir.
Zöhrə dərdi xan Tahiri ödürür,
Təbibim ol, yetir dərmana məni[28].

Paşa bir qədər fikir eləyəndən sonra Tahirdən sual elədi:

– Tahir, sən o qıza aşiq olan kimi, o qız da sana aşiqdirmi?

Tahir cavab verdi:

– Bəli, qibleyi-aləm!

Paşa əmr elədi, böyuk qoşun cəm oldu. Gecə öz qızı Sona xanımı, vəzir, vəkilin qızlarını, Tahiri də bərabər yanına alıb, yola rəvan oldu. Günə bir mənzil, teyyi-mənazil, taki yetişdi Qaraman vilayətinə. Şəhəri dörd tərəfdən əhatə elədilər. Paşa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qızı Sona xanımı, vəzirin, vəkilin qızını çağırıb dedi:

– Gedərsiniz, Zöhrədən əhval bilərsiniz. Əgər onun Tahirə könlü varsa, onu Tahirə alıb, Hatəm Soltanın də başını kəsdirəcəyəm, yoxsa, bu məsələni açmayıb, geri qayıdacağam.

Sona xanım Tahiri çağırıb dedi:

– Mən gedirəm Zöhrənin yanına. Əgər məndən gözəl olsa, sən mənim qardaşımsan, Zöhrə yarın. Yox, gözəl deyilsə, sən ilə özüm hesablaşaram.

Tahir cavab verdi:

– Razıyam. Ancaq alın bu sazı, aparın, bəlkə Zöhrə sizə inanmadı.

Sona xanım sazı alıb, vəzirin, vəkilin qızı ilə bərabər üz qoydular Zöhrə xanımın yanına. Zöhrə xanım əhvalatdan xəbərdar oldu, o saat evi düzəldib, qonaqlarını qəbul elədi. Sona xanım gözünün altınca Zöhrəyə baxıb gördü həqiqətən gözəllikdə tayı yoxdu. Öz könlündə dedi: «Əhsən Tahir Mirzəyə». Zöhrə xanım baxdı ki, Tahirin sazı bu qızın əlindədi. Saçından bir tel ayırıb, bağrına basdı, dedi:

Deyin, qurban olum sizə,
Saz yeyəsi yar necə oldu?
Qızıl güllər üzə-üzə,
Saz yeyəsi yar necə oldu?

Aldı Sona xanım:

Zöhrə, xəbər verim sizə:
Saz yeyəsi yarın gəldi.
Qızıl güllər üzə-üzə,
Saz yeyəsi yarın gəldi.

Aldı Zöhrə xanım:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağlar başı qar olubdu.
İşim ah-zar olubdu,
Hansınıza yar olubdu,
Saz yeyəsi yar necə oldu?

Aldı Sona xanım:

Dağlar başı qar olubdu,
Qaşın gözə tuş olubdu,
O bizə qardaş olubdu,
Saz yeyəsi yarın gəldi.

Aldı Zöhrə xanım:

Başıma qara bağlaram,
Sinəmi çarpaz dağlaram.
Zöhrəyəm, qanlar ağlaram.
Saz yeyəsi yar necə oldu?

Aldı Sona xanım:

Başına qara bağlama!
Sinəni çarpaz dağlama!
Sona deyir: qan ağlama!
Saz yeyəsi yarın gəldi.

Söz tamam oldu. Sona xanım əhvalatı Zöhrəyə nağıl elədi. Üstəlik atasının sifarişini də deyib, nə üçün buraya gəldiklərini danışdı. Bu barədə onun fikrini soruşdu. Zöhrə xanım Tahirin sazını bağrına basıb dedi:

Xoş gəldiz, əziz qonağlar,
Cəbr elədi atam mənə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Axar gözümdə irmaqlar
Cəbr eylədi atam mənə.

Aldı Sona xanım:

Gözəllikdə tayın yoxdur,
İllah sənin qaşın, Zöhrə.
Tahir kimi yarın vardır,
Bəxtəvərdi başın, Zöhrə.

Aldı Zöhrə xanım:

Gəlmisiz, ağır oturun,
Paşaya xəbər yetirin;
Ölürəm Tahirdən ötrün,
Cəbr eylədi atam mənə.

Aldı Sona xanım:

Dolanırdm sola-sağa,
Məcnun kimi düşdüm dağa.
Sandıq çıxdı bizim bağa,
Uvand oldu işin, Zöhrə!

Aldı Zöhrə xanım:

Başıma qara bağlaram,
Sinəmi çarpaz dağlaram.
Zöhrəyəm, qanlar ağlaram,
Cəbr eylədi atam mənə.

Aldı Sona xanım:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sona deyir: gəl bəsləşək,
Görək kimdi kimdən qəşəng;
Arxayın ol, Zöhrə, bişək.
Gətirmişəm qoşun, Zöhrə[29].

Sona xanım Zöhrəni arxayın eləyəndən sonra vəzirin, vəkilin qızını da götürüb, atasının qulluğuna gəldi. Salam verib, ərz elədi:

– Ata, Zöhrə də Tahir də hər ikisi haqq aşiqidirlər.

Paşa bu xəbərdən şad olub, Hatəm Soltanın yanına elçilər göndərdi, sifariş elədi ki, ya Qızı Tahir Mirzəyə versin, ya da davaya hazırlaşsın. Hatəm Soltan cavab verdi:

– Paşa qızımı özgəyə istəsə verərəm, ancaq yeddi it küçüyüm olsa, birini də Tahir Mirzəyə verməyəm.

Paşa bu sözdən qəzəbnak olub, əmr elədi, qoşun atlanıb meydanda səf çəkdi. O biri tərəfdən Hatəm Soltanın qoşunu könülsüz-könülsüz bunların qarşısında səf çəkib durdular. Tahir Mirzə bu halı görüb, özünü paşanın qulluğuna yetirdi. Yeddi yerdə gərnuş eləyib dedi:

– Paşam, bu camaat mənə bir şey eyləməyib. Mənə nə eləyibsə, əmim eyləyib. Nahaq qana girmə! İzn ver, mən meydana girim, əmimi dəvət eləyim. Ya o məni öldürər, ya da mən onu öldürüb, atamın qanını özüm almış olaram.

Paşa istədi Tahiri qoymasın, amma Tahir əl götürmədi. Axır izn hasil edib, girdi meydana. O vaxt adət belə idi: iki padşah müharibə edəndə ya iki aşıq çıxardardılar, deyişərdi, yaxud iki pəhlivan gürş tutardı. Hansı tərəfin adamı qalib gələrsə, o tərəf qalib gəlmiş hesab olardı. Tahir meydanın ortasında durub, uca səslə əmisinə dedi:

– Ey Hatəm Soltan, nahaq qan tökmək lazım deyil. Bu dava sənlə mənim üstümdədir. Ona görə gir meydana. Hansımız hansımızı öldürsə, o tərəf qalib gəlmiş hesab olunar.

Hatəm Soltan bu sözdən qəzəbləndi, at istəyib, meydana



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

atıldı. Başladılar bir-birinə hücum etməyə. Qızğın vuruşduqları halda Tahirin gözü Zöhrənin yaşlı gözlərinə düşdü. Gördü Zöhrə əl duaya qalxızıb deyir:

– Allah, sən əmim oğlunu cavanlığına qıyıb, bu kafirin əlində aciz qoyma!

Tahir bunu gördükdə qan gözünü bürüdü, atı Hatəm Soltanın üstə saldı. Bərk nərə çəkdi.

– Al məlun, atamın intiqam günüdü!

Hatəm Soltan Tahirin hücumunu gördükdə ölümünü yəqin edib, karıxdı. Qalxanı nizənin qabağına verə bilmədi. Tahir Mirzə nizəsini onun sinəsinə elə vurdu ki, ucu arxadan bir çərək kənara çıxdı. Tahir nizəyə təkan verib, əmisinin bədənini atın belindən alıb, meydanın ortasında yerə çaldı. Yerdə qan nəqşə bağladı. «Afərin!» hər iki qoşundan ucaldı. Şadlıq nağarasını hər iki qoşun nəvazişə gətirdi. Paşa əmr elədi şəhəri çırağban elədilər. Qırx gün, qırx gecə toy eyləyib, Zöhrəni Tahirə verdilər. Hər iki həsrət aşiqləri bir-birinə qovuşdurdular. Paşa Tahiri orada padşah eləyib, özü ona qırx gün qonaq qalandan sonra Tahir ilə vidalaşıb öz vilayətinə qayıtdı. Tahir təzədən özünə toy elədi. Onun toyuna çoxlu aşıq yığışmışdı. Aşıq o aşiq-məşuqun əllərini bir-birinə verdi, mübarəkbadlıq elədi. Sonra ustad aşıq sazı döşünə basıb, bu duvaqqapma ilə onun toyunu başa verdi:

Həzərat, bircə baxın,
Canlar alandı bu gələn,
Gözləri cəlladə dönüb,
İsmi Qaytandı bu gələn.
Özü bir səxa kanı,
Adildivandı bu gələn.
Özü gül, saçı sünbül,
Yaqut-yəməndi bu gələn.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaquta bənzər yanaq,
Mərmərə bənzər buxaq,
Bir aya bənzər qabaq,
Kovsərə bənzər dodaq,
Ağ gülə bənzər ayaq,
Qoy bassın gözüm üstə,
Qucmalı candı bu gələn.

Bağlayıb gümüş kəmər,
Üstü tamam danənişan.
Geyinib qəddi dala,
Tər libası tər yaraşan.
Ağ əndamı başdan başa,
Ətirli gül, müşk-fəşan.
Al yanaq, ayna qabaq,
Siyah zülfü ənbərəfşan.
Həm didarı şirindi,
Həm gövtarı şirindi,
Bağça-barı şirindi,
Qoşa narı şirindi,
Bir belə bəşər olmaz,
Huri, qılmandı bu gələn.

Axşam, sabah mən dolanım
Belə gözəlin başına!
Vəsməni çəkib gözünə,
Sürməni yaxıb qaşına.
Keçirib qızıl tananı
Nazik əliynən guşuna.
Canını qurban edəsən
Bir belə cənnət quşuna.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Götürüb setarəni*,
Basıb mərməri döşünə.
    Döşündə məməsi var,
    Qızıldan düyməsi var.
    Nə şirin həvəsi var.
    Kəklik kimi səsi var.
    Bir ağır ölkəsi var.
Ölkəsinə qurban olum,
Misrə sultandı bu gələn.

Gecə-gündüz əməsən
Ləblərindən misli-gulab,
Eşqinə düşənlərin
Canında qalmayıbdı tab.
Nə yatım, nə dicəlim,
Gözlərimdə olmayır xab,
Bir miskin gədəsi ola,
Mənim kimi xanəxərab.
Zəhər versən içərəm,
Nə ki, əllərinlə şərab.
    Nazik əlinə qurban,
    Qara telinə qurban,
    İncə belinə qurban,
    Danış, dilinə qurban,
    Gələn yoluna qurban.
Bu gəlişdə insan olmaz
Nuşirəvandı bu gələn.

Biçarə Aşıq Hüseyn,
Bax, yar nə nazınan gəlir.
Geyinib qəddi-dala,

-----------------------
*Çalğı aləti.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Küləcə xəzinən gəlir.
Yığıbdı gözəlləri,
Qırx incə qızınan gəlir.
Götürüb setarəni,
Söhbəti sazınan gəlir.
Deyəsən şeyda bülbüldü,
Baharı yazınan gəlir.
İçməmişəm ayılam,
Ağıl gedib, zayılam;
Camalına mayılam,
Hər nə desən qayılam,
Qapınızda sayılam.
Mənə inayət eləsin,
Dərdə dərmandı bu gələn.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AŞIQ QƏRİB

### USTADNAMƏ

Bu dünyanı mən təcrübə eylədim,
Namərd körpü salsa, onda ad olmaz.
Bir mərd ilə ağı yesən – şirindi,
Yüz namərdlə şəkər yesən – dad olmaz.

Yadın oğlu yağlı aşa mehmandı,
Dar günündə baxarsan ki, usandı,
Düşən günü düşman elə düşmandı,
Yüz il keçsə, qohum səndən yad olmaz.

Ələsgərin sözün yetir nisaba,
Sərf edənlər səbt eləsin kitaba,
Heç namərdin adı gəlməz hesaba,
Mərd bir olur, onda iki ad olmaz.

Ustadlar ustadnaməni bir deməyib, iki deyər, biz də deyək iki olsun.

Açma mətahını naşı tüccara,
Qiymətini bilib, xiridar olmaz;
Bədöyün qocası olsa da arıx,
Sürsən mənzil kəsər, kəmhünər olmaz.

Qışın firqətindən dağlar qaralı,
Üç hərfdi yerin, göyün qəralı,
Misə qalay vursan axır qaralı,
Nə lələ bənzəməz, nə gövhər olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hüseynəm, sinəmdə haqqın baratı,
Yaxşı iyidin olar sözü, söhbəti,
İyidin olmasa binədən zatı,
Tanınıb heç yerdə aşikar olmaz.

Ustadlar ustadnaməni iki yox, üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun!

Göydə uçan o boz quşlar
Telin qədrini nə bilər?!
Öz qədrini bilməyən
Elin qədrini nə bilər.

Cüt sürüb, əkin əkməyən,
Sufraya nanı tökməyən,
Arının qəhrin çəkməyən,
Balın qədrini nə bilər?!

Koroğlu der: hay olanda,
Dərəyə aslan dolanda,
Qara zağ bülbül olanda,
Gülün qədrini nə bilər?!

Sizə kimdən və haradan danışım, Təbriz vilayətindən. Təbriz vilayətində Məmməd sövdəgər adında bir kişi vardı. Bunun bir qızı, iki oğlu vardı. Böyük oğlunun adı Rəsul, kiçiyinin adı Heydər, qızının adı da Nərgiz xanım idi.

Günlərin bir günündə Məmməd sövdəgər bərk xəstələndi. Nə qədər dava-dərman elədilərsə, çarə olmadı. Günün birində arvadı Banu xanımı yanına çağırıb dedi:

– Arvad, ölüm ki var – yuxu kimi bir şeydi. Kim bilir, bəlkə bu xəstəlikdən qalxa bilmədim, öldüm. Sənə deyəcək iki vəsiyyətim var. Birincisi budur ki, oğlanlarıma varlı yerdən qız



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

alma! İkinci vəsiyyətim budur ki, qızımı varlı yerə vermə! Çünki onlar çox bietibar olurlar.

Məmməd sövdəgər vəsiyyətini tamam eləyəndən sonra ömrünü övladlarına bağışladı. Sonra ağladılar, qara geyindilər, el qaydasıynan Məmməd sövdəgəri dəfn elədilər. Rəsul başladı ehsan verməyə. Bu ehsan verməkdə olsun, sizə kimdən, haradan danışım, İsfahan lotularından. İsfahan şəhərində qırx lotu vardı. Neçə vaxt idi bu qırx lotunun əlinə heç bir ov keçmirdi. Bir gün lotubaşı öz tay-tuşuna dedi:

– Gəlin, gedək padşahın xəzinəsini yaraq.

Lotular bu niyyətlə evdən çıxıb, padşahın imarətinə tərəf getməkdə olsunlar, yolda gördülər bir keçəl əlində qovun gedir. Lotubaşı keçəli tutub, qovunu əlindən aldı. Keçəl ha ağladı ki, qovunu ver, lotubaşı vermədi, axırda keçəl dedi:

– Lotubaşı, sən gəl qovunu ver, mən sənə bir xeyirli söz deyim.

Lotubaşı dedi:

– O necə sözdü?

Keçəl dedi:

– Təbriz şəhərində, Məmməd sövdəgər deyilən bir tacir varıdı. O bu günlərdə vəfat eləyib. Oğlu Rəsul atasının varını-yoxunu fağır-füğəraya paylayır.

Lotubaşı keçəlin qovununu verib, yoldaşlarına dedi:

– Uşaqlar, padşahın xəzinəsindən bizə bir şey çıxmaz. Kim bilir, bəlkə tutulduq. Amma Təbrizə getsək, Rəsulu aldadıb, var-yoxunu ələ keçirdə bilərik. Gəlin gedək Təbriz şəhərinə.

Lotular razılaşdılar. Biri axund, biri molla, biri məşədi, biri tacir libası geyinib gəldilər lotubaşının yanına. Lotubaşı baxıb gördü ki, yoldaşları hazırdı, dedi:

– Uşaqlar, yolçu yolda gərək.

Qırx lotu bir-birinə qoşulub, Təbriz deyib yola düşdülər. O zaman gəlib çıxdılar ki, Rəsul atasının qırxını verirdi. Axşam əzanı Rəsul bir də gördü qapı döyülür. Tez durub çıxdı bayıra.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qapını açıb, gördü bir dəstə adamdı, biri molla, biri tacir, biri məşədi – qapıda hazır durublar. Rəsul xəbər aldı:

– Kimsiniz? Kimi istəyirsiniz?

Lotubaşı dedi:

– Biz mərhum atan Məmməd sövdəgərin yaxın dostlarındanıq. Atovun ölümünü eşidib gəlmişik başsağlığı verək.

Lotular elə qapıda başladılar ağlamağa. Rəsul baxıb gördü ki, bunlar gözlərindən yaşı bahar buludu kimi axıdırlar. Rəsul bunları əsil allah bəndəsi bilib evə apardı, qabaqlarına süfrə saldı. Hər cür yeməkdən-içməkdən gətirdi. Lotular o ki vardı yedilər. Qurşaqlarının altını bərkidənnən sonra fatihə deyib, əllərini süfrədən çəkdilər. Süfrə yığıldı, araya çay gəldi. Bu vaxt lotubaşı əlini cibinə salıb, bir dəstə qumar kağızı çıxartdı, araya atdı. Rəsul lotubaşıdan xəbər aldı:

– Əmi, bu kağızlar nə olan şeydi?

Lotubaşı dedi:

– Bu kağızların adına qəmdağıdan kağız deyirlər. Mərhum atovun ehsan məclisində çox ağlayıb, göz yaşı tökmüşük. Ürəyimiz sıxılıb, indi bir qədər də bu kağıznan oynayaq ki, bəlkə ürəyimiz açılsın.

Rəsul xəbər aldı:

– Əmi, bu kağızı nə cür oynayırlar?

Lotubaşı dedi:

– Pulnan, malnan oynayırlar. Razısansa, gəl oynayaq, qəmimiz dağılsın.

Rəsul dedi:

– Razıyam, ancaq bacarmıram.

Lotubaşı dedi:

– Nə eybi var? Öyrədərik, bacararsan.

Başladılar Rəsula qumar oynamağı öyrətməyə. Rəsul qumar kağızlarını tanıyıb öyrəndi, gedib anasından bir qədər qızıl pul aldı, başladı lotularla oynamağa.

Lotular şirə verdilər, bir neçə dəfə bilə-bilə öz pullarından



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəsula uduzdular. Oyun Rəsulun çox xoşuna gəldi. Başladı şirin-şirin oynamağa. O vaxta qədər oynadı ki, bir vədə yan-yörəsinə baxıb gördü atasının nə ki pulu vardı, hamısını uduzub, səhər çörək almağa bir qara quruş da qalmayıb.

Rəsul durdu ayağa, qonaqlarına yer saldı, özü də öz otağına keçib yatdı.

Sübh açılmış lotubaşı yuxudan ayıldı, yoldaşlarını səsləyib dedi:

– Uşaqlar, bu fərasətsizdə pul qalmadı, gəlin səhər açılmamışkən yayınaq.

Lotular qalxdı, hərə öz yorğan-döşəyini, evdə olan ağırdan-yüngüldən nə vardısa yığışdırdı, İsfahan deyib yola düşdülər.

Elə ki, səhər açıldı, Rəsul durdu ayağa, əl-üzünü yuyub dedi:

– Gedim, bir qonaqlara baş çəkim.

Qonaq otağına gəlib nə gördü, qapı açıqdı, qonaqlar da yoxdu. Bir o yana, bir bu yana baxıb gördu bu zalımlar, ev şeylərini aparmaq bir yana qalsın, üstəlik yatdıqları yorğan-döşəyi də aparıblar. Kor-peşiman anasının yanına gəlib, işdən anasını halı elədi. Anası çox kefsiz olub dedi:

– Oğul, onlar İsfahan lotuları imiş. İşdi, gərək olmayaydı, indi ki olub, sən də get, bir sənətə qurşan. Nə eləyək? Fələk yazımızı belə yazıbmış.

Rəsul anasının bu sözündən sonra evdən çıxdı, bir baş bazara gəldi; istədi dəmirçilik sənətini öyrənsin, xoşuna gəlmədi. Bir az irəli gedib gördü bir kişi qabağına bir qədər taxta yığıb, dülgərlik eləyir. Bu sənət də onun xoşuna gəlmədi. İstədi pinəçiliklə məşğul olsun. Bir saata kimi pinəçi dükanının qabağında durdu, pinəçilərə baxdı. Bu sənət də xoşuna gəlmədi.

Rəsul bir baş bazarnan yuxarı getməyə başladı. Gördü ki, bir qoca kişi balaca bir dükanda oturub papaq tikir. Rəsul dayanıb dükanın qabağında diqqətlə papaqçıya baxırdı. Qoca



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

papaqçı başını qaldırıb gördü ki, dükanın qabağında bir nəfər cavan oğlan dayanıb. Papaqçı xəbər aldı:

– Oğul, nə istəyirsən?

Rəsul dedi:

– Əmican, iş axtarıram.

Papaqçı dedi:

– Bala, mənə şəyird durarsanmı?

Rəsul dedi:

– Nə üçün durmuram? Aylığım necə olacaq?

Papaqçı dedi:

– Əlivün qabiliyyətinə baxaram.

Rəsul razı oldu, başladı papaqçının yanında işləməyə.

Bir cümə axşamı Rəsul ustadından izn aldı, qəbristana yollandı. Atasının qəbrinin yanında oturub olub-keçənləri yadına saldı, o qədər ağladı ki, axırda yorulub elə oradaca yuxuya getdi.

Rəsul yatmışdı, yuxuda gördü ki, Tiflis şəhərində behişt misallı bağdadı, bunun başının üstündə ceyran misalı gözəl bir qız var. Qız nə qız – qaş kaman, gözləri qan piyaləsi, burun hind fındığı, sinə də Səmərqənd kağızı. Baxanın ağlını aparır. Rəsul bir də baxıb gördü bu qızın yanında bir dərviş var.

Dərviş qızın əlini Rəsula uzadıb dedi:

– Rəsul, bu qız tiflisli Xoca Sənanın qızı Şahsənəmdi. Bunu sənə buta verirəm. Çox çəkməz bir-birinizə çatarsız.

Dərviş badəsini oğlanla qıza içirdəndən sonra yox oldu. Rəsul dəli kimi yuxudan ayılıb gördü ki, qəbristandadı, amma yanında heç kim yoxdu. Rəsulu vahimə aldı, bədəninə qorxu düşdü. Bir baş evlərinə tərəf qaçmağa başladı. Anası Banı xanım oğlunu bu halda görüb xəbər aldı:

– Oğul, bu nə gündü düşübsən? Sənin üst-başuvu kim cırıb?

Rəsul anasının sualına cavab verməyib hönkür-hönkür ağlamağa başladı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəsulun səsinə ətrafdan qonşular yığılıb xəbər aldılar:

– Nə var, nə olub?

Rəsul dedi:

– Mən dərdimi dil ilə desəm, dilim alışıb yanar, mənə bir saz verin, dərdimi sazla deyim.

Haman saat Rəsula bir saz gətirdilər. Rəsul ürəyi alışa-alışa sazı sinəsinə basıb, görək nə dedi:

Qadir haqdan mən bir dilək dilədim[1],
Şükür, muradımı verdi şah mənim.
Cümə axşamında, qəbir üstündə,
Ərənlər yeridi, nəzərgah mənim.

Gənc yaşımda gördüm dünya qəmini,
Bu zalım fələyin sərəncamını,
Nuş etdim röyada eşqin camını,
Göründü gözümə doğru rah mənim.

Vağyada Rəsula buta verdilər,
Doldurdular camı, tuta verdilər,
Tiflisdə Şahsənəmi buta verdilər,
İşim oldu zikri-illəllah mənim.

Rəsul sözünü tamam eləyib, zar-zar ağladı. Anası Banı xanım oğlunun boynunu qucaqlayıb dedi:

– Oğul, heç bir şey başa düşə bilmədim, açıq de görüm. Nə demək istəyirsən?

Rəsul sazını sinəsinə basıb, anasını başa salmaq üçün görək nə dedi:

Başına döndüyüm, gül üzlü ana[2],
Ana, mən Tiflisə varmalı oldum.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir dilbərin eşqi düşdü başıma,
Ana, mən Tiflisə varmalı oldum.

Əlimə almışam sədəfli sazı,
Fələk yazdı mənə belə yazı;
Yuxumda görmüşəm bir ala gözü,
Ana, mən Tiflisə varmalı oldum.

Rəsulam, ahıma dağlar dayanmaz,
Dərdim çoxdur mənim, kimsələr qanmaz,
Dərd çəkməkdən dəli könül usanmaz,
Ana, mən Tiflisə varmalı oldum.

Anası dedi:

– Oğul, yenə də başa düşmədim. Əməlli de görüm, dərdin nədi.

Rəsul dedi:

– Ana, qulaq as birini də deyim, başa düşərsən.

Aldı Rəsul, görək nə dedi:

Dün gecə yuxuda mana[3],
Ana, Tiflis diyarında.
Bir cam içdim qana-qana,
Ana, Tiflis diyarında.

Bu sövda yandırdı bizi,
Aya, günə bənzər üzü,
Adı Sənəm, Xoca qızı,
Ana, Tiflis diyarında.

Kağızda gördüm surətin,
Xudam veribdi baratın,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çəkərəm dünya ləzzətin,
Ana, Tiflis diyarında.

Adı Sənəm, özü Sona,
Vuruldum bir şirin cana,
Rəsul ağlar yana-yana,
Ana, Tiflis diyarında.

Əlimə verdilər əta,
Saçı topuğundan ötə,
Rəsula verdilər buta,
Ana, Tiflis diyarında,
Bacı, Tiflis diyarında,
Bilin, Tiflis diyarında.

Anası dedi:

– Başa düşdüm. Oğlum sən hara, Tiflis hara? Gəl sən bizi gözü yaşlı qoyub getmə.

Rəsul dedi:

– Anacan, dayanmağa halım yoxdu. Gərək mən gedəm.

Anası dedi:

– Oğul, indi ki gedirsən, bizi də özünlə apar.

Rəsul razı oldu. Anasını, bacısını, bir də kiçik qardaşı Heydəri yanına aldı, dost-aşnası ilə halal-hümmət elədikdən sonra Təbriz şəhərindən çıxdı, Tiflisə yol başladı.

Bir müddət yol getmişdilər ki, bərk boran düşdü; hara getdiklərini bilməyib, çaşıb qaldılar. Rəsul gördü ki, kiçik qardaşı ağlayır, bacısı Nərgiz bihuş halda yerə yıxılıb. Onun qəmi artdı. Sazını sinəsinə alıb, görək nə dedi:

Vətənimdən etdin məni didərgin,
Çərxin dönsün, fələk, Heydərim ağlar!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu duman, bu çiskin, bilməm ki, nədi,
Çar* tərəfin nədən qar alı, dağlar?!

Göydən enir yerə ləpə-ləpə qar,
Bacı, qardaş, ana mənə baxarlar,
Biz ölsək burada, sənsən günahkar,
Yar düşübdü məndən aralı, dağlar!

Kimimiz var burda bizi dindirə,
Kimsənə yox halım yara bildirə,
Qorxum budu, tufan bizi öldürə,
Rəsul qala burda yaralı, dağlar!

Söz tamama yetən kimi boran dayandı. Başladılar yol getməyə. Uzaqdan uca dağlar və şəhər göründü.

Aldı Rəsul, görək nə dedi:

Tiflisin uca dağları,
Görünərmi, görünməzmi?
Şahsənəmin otaqları,
Görünərmi, görünməzmi?

Çağırram, şahların xası,
Silinsin könlümün pası,
Sənanın məzar qalası,
Görünərmi, görünməzmi?

Rəsulun vəfalı yarı,
Götür könlümdən qubarı,
Ağam deyər yar diyarı,
Görünərmi, görünməzmi?

-----------------------
* «Çahar» sözünün təhrif olunmuş şəklidir. «Dörd» deməkdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamam oldu, yola davam elədilər. Ustad dili, yüyrək olur. Rəsul, anası, bacısı, bir də kiçik qardaşı Heydər sağ-salamət çatdılar Tiflis şəhərinə. Bunlar qərib idilər, heç yeri tanımırdılar. Bir qədər getdikdən sonra bir qarının daxmasının qabağına çatdılar. Bu dəmdə də qarı çıxdı bayıra. Rəsul qarını görən kimi sazı sinəsinə basıb, görək ondan nə xəbər aldı:

Başına döndüyüm, qurban olduğum[4],
Şəhri-Tiflis dedikləri budumu?
Sənəm burda mərhəm eylər yaraya,
Şəhri-Tiflis dedikləri budumu?

Qarı baxıb gördü ki, bular qəribdilər. Bu tərəfdən də Sənəmin adını çəkdi. Alıb, Rəsula görək nə cavab verdi:

Gəzə-gəzə siz gəldiniz buraya,
Şəhri-Tiflis eşitdiyin buradı.
Sənəm burda mərhəm eylər yaraya,
Şəhri-Tiflis eşitdiyin buradı.

Aldı Rəsul:

Baxça burda, bağman burda, bar burda,
Heyva burda, alma burda, nar burda,
Xoca deyən bir qohumum var burda,
Şəhri-Tiflis dedikləri budumu?

Aldı qarı:

Baxça desən, bağman desən, var burda,
Cana min cür dərman desən, var burda,
İndi bildim, oğlan, getmə qal burda,
Şəhri-Tiflis eşitdiyin buradı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Rəsul:

Rəsulam, silinməz könlümün pası,
Sərimdə dolanır eşqin sövdası,
Tiflis əhli, Şahsənəmin atası,
Şəhri-Tiflis dedikləri budumu?

Aldı qarı:

Məryəməm, qurbanam mərdlər sərinə,
Hər axşam Şahsənəm çıxar seyrinə,
Qorxma, oğlan, verrəm əlin əlinə,
Şəhri-Tiflis eşitdiyin buradı.

Söz tamama yetişdi. Dünyada ustadlar dilində iki cür qarı var – biri köpəyi qarı, biri ipəyi qarı. Bu qarı ipəyi qarılardandı. Xoş sifətnən Rəsula dedi:

– Oğul, sən qal burda, mən gedim Sənəm xanımı muştuluqluyum.

Rəsul dedi:

– Qarı nənə, tələsmə.

Qarı dedi:

– Ay oğul, niyə tələsməyim? Düz bir ildir ki, Şahsənəmin nə gecəsi gecədir, nə gündüzü gündüz. Hələ mənim özümü burda aylıqçı qoyub ki, Tiflis şəhərinə gələn qəriblərin xəbərini ona yetirim. İndi, şükür olsun ki, sən özün öz ayağınnan gəlib çıxmısan. Mən də kasıb bir arvadam. Mənə də bir xələt çatar.

Rəsul dedi:

– Qarı nənə, bu yaxınlarda qəhvəçi dükanı var, ya yox?

Qarı dedi:

– Niyə yoxdur? Var, bax, odu, qərib oğlan.

Qərib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ana sən ki mənə qərib dedin, mən də adımı elə Qərib qoydum.

Qarı qəhvəxananı göstərib, özü Şahsənəmə muştuluğa getdi. Qərib ana-bacısını aparıb məscidin həyətində qoydu. Özü getdi Xoca Əhməd adlı bir karvansaraçının yanına, ondan mənzil istədi.

Xoca Əhməd dedi:

– Mənzil yoxdu.

Aldı görək Qərib ana-bacasının məscid həyətində qaldığını Xocaya nə cür bildirdi:

Başına döndüyüm gül üzlü xoca,
Canım xoca, nənəm camedə qaldı.
Nə gündüzüm gündüz, nə gecəm gecə,
Canım xoca, nənəm camedə qaldı.

Mən də gəlmişəm bir yer verəsən,
Qəriblərin halın görüb biləsən,
Nənəm ölsə şurüzümmə qalasan,
Canım xoca, nənəm camedə qaldı.

Yağar bir tərəfdən yağmur ilə qar,
Nənəm, həmşirəm hey yaman baxar,
Yağmurun altında əziyyət çəkər,
Canım xoca, nənəm camedə qaldı.

Söz ona kar eləmədi, qəribə ürəyi yanmadı, ona yer vermədi. Qərib geri qayıtdı ana-bacısını, qardaşını götürüb, birbaş Dəli Mahmudun qəhvəxanasına getdi. Dəli Mahmud qonaqpərəst, mərd bir adam idi. O, Rəsulun anasını, bacısını arvadlara məxsus olan otağa apardı. Qayıdıb Rəsuldan xəbər aldı:

– Ey qərib oğlan, hardan gəlib, hara gedirsən?

Rəsul dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Təbrizdən gəlirəm.
Dedi:
– Adın nədi?
Cavab verdi:
– Adım Qəribdi.
Qəhvəxanada oturanlar Təbriz adını eşidən kimi yerbəyerdən dedilər:
– Qərib, görürük aşıqsan, Təbrizdən bir neçə söz oxu.
Rəsul sinə sazı alıb, görək Təbrizi necə tərif elədi:

Ay ağalar, gəlin sizə söyləyim[5],
Açılır baharda gülü Təbrizin.
Toyda, bayramlarda atlaz geyərlər,
Kəsilməz yaşılı, alı Təbrizin.

Təbrizin ətrafı dağdı, meşədi,
İçində oturan bəydi, paşadı,
Səkkiz min məhəllə, beş min guşədi,
Çarşusu, bazarı, yolu Təbrizin.

Pəhləvanlar kisvət geyər yağlanar,
Cümlə bəzirganlar burda əylənər,
Üç yüz altmış yükü birdən bağlanar,
Əldən-ələ gəzər malı Təbrizin.

Pirlərin tasını içdim söylərəm,
Yenib eşqin dəryasına boylaram.
Mən qəribəm, vətən mədhin eylərəm,
Mənəm indi Rüstəm-Zalı Təbrizin.

Söz tamam olan kimi, yerbəyerdən aşığa afərin dedilər.
Bu qəhvəxanada Güloğlan deyilən birisi vardı. Bu mağamda o, əli sazlı gəlib qəhvəxanaya çıxdı. Ellik yerbəyerdən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qalxıb dedilər:

– Güloğlan, sazını vur qoltuğuna, var get. Sən Qəribin qabağında heç bir iş görə bilməzsən.

Güloğlan soruşdu:

– Hanı o Qərib?

Belə deyəndə Qərib çıxdı qabağa, alıb sazını sinəsinə, dedi:

– Güloğlan, dörd yarpaq söz deyəcəyəm. Cavabın verə bilsən, mən burdan birbaş Təbrizə qayıdıb, aşıqlıq adını da üstümdən götürəcəyəm.

Əhli-məclis razı oldu. Qərib aldı sazı, görək nə dedi:

Bir xəbər ver mənə, ay usta başı,
Əlsiz telli sazı necə çalırsız?
Əzəl mənə ulduzların halın de,
Ver cavabın, qalsın başın ağrısız.

Güloğlan cavab verə bilmədi. Alıb Qərib ikinci yarpağın görək, necə dedi:

O necə şeydi ki, dolar boşalar?
Ruzgar əsdikcə yerində qalar?
Geyibən yaşılı, gələr boşalar?
Ver cavabın, qalsın başın ağrısız.

Qərib gördü ki, Güloğlan qaçmaq istəyir, dedi:

Qərib deyər: siz ey ariflər xası,
O nə cür binadı qüdrət yapası,
O dəni ki, var on iki qapısı,
Siz də bir gün ordan yol salarsız?

Söz tamam oldu. Güloğlan cavab verə bilmədi. Məclisdə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kilər dedilər:

– Aşıq, cavabını özün de, Güloğlan bilmir.

Aldı Qərib, görək öz kilitləməsinin cavabını özü nə cür deyir:

Əgər arifsənsə, usta, xəbər bil,
Əlsiz saz çalmağa kaman demişlər,
Göydəki ulduzlar mənim davarım,
Ərənlərim aya, çoban demişlər.

Meydani-hünərdə əsla basılmam,
Arayan qismətin tez bulur tamam,
Qırx səkkiz həftədi ilimiz müdam,
Ağıl tərazisin mizan demişlər.

Dinləyin Qəribdən siz bu nidanı,
Kafi Nundan xuda qurdu binanı,
On iki qapıdı, sorma dünyanı,
Ömrümüz keçməkdə haman demişlər.

Güloğlan baxıb gördü ki, bunun qabağında dayanmağa halı yoxdur. Sazın vurub qoltuğuna, çıxıb getdi.

Məclis dağılandan sonra, Dəli Mahmud Qəribdən nə üçün gəldiyini xəbər aldı. Qərib başına gələni Dəli Mahmuda danışıb, Şahsənəmin ona buta verildiyini söylədi. Mahmud dedi:

– Qərib, qəm yemə, nə qədər bu bədənimdə can var, Sənəmi sənə yetirməyə çalışacağam.

Qərib burda qalmaqda olsun, sənə xəbər verim Şahsənəmdən. Necə ki, Qəribin yuxusuna girib ona Şahsənəmi buta vermişdilər, elə də Şahsənəmin yuxusuna girib, Qəribi ona buta vermişdilər. Şahsənəm o gündən Qərib deyib, dəli-divana olmuşdu. Bu tərəfdən qarı özünü saxlaya bilmədi, gedib Şahsənəmə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Xanım, gözlərin aydın olsun, Qərib gəlib çıxdı.

Şahsənəm sevindi, qarıya bir ovuc qızıl verib dedi:

– Qarı nənə, göz-qulaqda ol, Qərib bu tərəflərə gəlsə, tez mənə xəbər verginən.

Qarı «baş üstə» deyib, çıxıb getdi.

Bəli, Şahsənəmin atası eşitdi ki, Dəli Mahmudun dükanına bir Qərib aşıq gəlib, çalıb oxumaqda ona tay tapılmır. Dəli Mahmuda xəbər göndərdi ki, qonağını göndərsin onun yanına.

Dəli Mahmud Qəribi işdən hali elədi, hər ikisi Xocanın evinə getdilər. Şahsənəmin atası Qəribi xoş sifətlə qəbul elədi, bir qədər söhbətdən sonra dedi:

– Qərib, bizə bir-iki söz oxu, feyziyab olaq.

Qərib alıb sazı, kökləməyə başladı. Bu tərəfdən də Şahsənəmin qulluqçusu Ağcaqız gəlib keçəndə Qəribi gördü, gözü Qəribə düşüb dayandı, qapının arasından başladı tamaşa eləməyə. Qərib onu görüb, hər iki tərəfdən dərdi cuşə gəldi, aldı görək nə dedi:

Bir səninçün eldən-elə atıldım[6],
Bu qərib ellərdə yaxdı nar məni!
Həsrətin oduna, yandım, kül oldum,
Ahu gözlüm, nə haldayam, gör məni!

Səbrə taqətim yox, gəlməz qərarım,
Ərşə bülənd olub ah ilə zarım,
Bəlli deyildimi sənə əhvalım?
Çox çəkməz ki, xəndan elər xar məni!

Qərib belə oxuyanda Ağcaqız istədi gedib Şahsənəmə xəbər versin. Qərib onun getdiyini görüb, aldı sözün o biri bəndini:

Qərib deyir: getmə, könül oğrusu,
Heç keçməz başımdan sövda ağrısı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənə mən söyləyim sözün doğrusu,
Bu qürbət ellərə saldı yar məni!

Söz tamama yetdi. Şahsənəmin atası Qəribin belə oxumasından çox xoşlanıb dedi:

– Qərib, bu axşam mənə qonaqsan.

Qərib razı oldu. Xacə durub tədarük görməyə getdi, indi sənə deyim Ağcaqızdan. Ağcaqız özünü yetirib Şahsənəmin yanına, dedi:

– Atovun bir Qərib adında qonağı gəlib. Səhərdən bəri elə oxuyur, gəl tamaşa elə.

Şahsənəm bir qaravaş da götürdü, gəldilər pəncərənin qabağına. Qərib bunları görən kimi alıb sazı, görək nə dedi:

Pəncərədən mayıl-mayıl baxan yar[7],
Üç gözəlin birisinə mən qurban.
Şirin canım eşq oduna yaxan yar,
Üç gözəlin birisinə mən qurban.

Ağcaqız dedi:

– Xanım, bu mənim üçün oxuyur. Bayaq da məni görən kimi oxudu.

Şahsənəm Qəribi görən kimi bildi ki, öz butasıdır, Ağcaqıza cavab vermədi. Ağcaqız bir az da özünü qabağa verdi. Qərib dedi:

Birisinin ayağında məsti var,
Birisinin can almağa qəsdi var,
Birisinin burda yaxın dostu var,
Üç gözəlin birisinə mən qurban.

Ağcaqızın ayağında məsti vardı. Odu ki, məst adı eşidən kimi dedi:

– Gördün mənim üçün oxuyur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qərib aldı, axır yarpağı görək necə tamamladı:

Üç gözəlin biri bizə qohumdu,
O birisi əl dəyməmiş qovundu,
Aşıq Qərib, biri sənin ovundu,
Üç gözəlin birisinə mən qurban.

Söz tamama yetdi. Ağcaqız dedi:
– Xanım, gördünmü mənim üçün oxuyur.
Qərib gözünü çevirib gördü, Şahsənəm pəncərədən maral kimi boylanıb ona baxır. Ürəyi qubar elədi, aldı, görək nə dedi:

Hayıl-mayıl pəncərədən baxan yar[8],
Elə baxdı məni başdan elədi.
Saldı məni zalım yüz min bəlaya,
Yaman cismim od-ataşdan elədi.

Bağban olan sevir güllü bağını,
Əməydim dilini, bal dodağını,
Necə bulud kəsir ay qabağını,
Sevdiyim, örtüyün saçdan elədi.

Qərib, gülün dəstə-dəstə dərmişlər,
Dəribəni sinə üstə sərmişlər,
Əcəb vaxtda ixtilata gəlmişlər,
Ayırdı çörəkdən, aşdan elədi.

Belə deyəndə Şahsənəm əlindəki aynanı üzünə tutub, gözlərindən bahar buludu kimi yaş axıtdı. Qərib butasını belə görəndə sazı alıb, görək nə dedi:

Sərxoş-sərxoş baxır yar aşnasına,
Şahsənəm, əlində aynası gözəl.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cümlə aləm gəlir tamaşasına,
Büllur piyaləsi, sağısı gözəl.

Yar məni dindirir şirin dil ilə,
Gözəl sürmə çəkir, gümüş mil ilə.
Otağı bəzənib qızıl gül ilə,
Süsəni, sünbülü lalası gözəl.

Alışan otaqlı, xoş imarətli,
Gözəllər içində qəddü-qamətli,
Ahu baxışlıdı, laçın sifətli,
Uçmağa, qonmağa cığası gözəl.

Aşıq Qərib sözün deyər avaznan,
Dindirəndə canım olar o naznan,
Yarım eyvanında, cüt qoşa qıznan,
Şahsənəm əladır, hamısı gözəl.

Söz tamama yetdi, Şahsənəm bir qədər toxtayıb, qızlarnan öz otağına çəkildi.

Xacə gəlib çıxdı, bir qədər şirin söhbətdən sonra məclis quruldu. Tiflisin yaxın-uzaq yerlərindən Qəribin məclisinə axışıb gəldilər. Xacə dedi:

– Qərib, mənə Ərzrumu tərif elə, səsin mənə çox xoş gəlib.

Xacə belə deyəndə aldı Qərib, görək nə dedi:

Ağalar, ərzimə bir qulaq verin[9],
Dastandır dillərdə şanı Ərzrumun.
Bir belə səfalı yer görünməyib,
Söylənir cahanda sanı Ərzrumun.

Səfalı olur o yerlərin havası,
Çar tərəfdən gəlir bülbül sədası,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ahular yığnağı, laçın yuvası,
Bənzər gülə hər bir yanı Ərzrumun.

Qərib xoşhal idi gözəl vətəndə,
Qəriblik yamandı ora yetəndə,
Əyan olur qərib bülbül ötəndə,
Gülü gülzardı məkanı Ərzrumun.

Qərib sözünü tamam elədi, qonaqlar yeyib içəndən sonra hərə öz mənzilinə getdi, Qəribə Xacə yer saldırıb, otaqların birində onu rahat elədi.

Şahsənəm gecəni araya salıb, Ağcaqızı Qəribin dalınca göndərdi, özü də düşüb bağda gəzməyə başladı.

Ağcaqız qalxıb Qəribin yatdığı otağın qabağına gəldi. Qərib yatmamışdı. Ağcaqız pəncərədən onu səslədi. Qərib pəncərədən boylanıb, gördü gələn Ağcaqızdı. Xəbər aldı:

– Nə üçün gəldin?

Dedi:

– Qərib, Şahsənəm səni bağda gözləyir.

Qərib Şahsənəm adını eşidən kimi özün pəncərədən atıb, Ağcaqıznan bağa getdi.

Şahsənəm, üç gecəlik ay kimi ağacların arasından çıxıb, yaşılbaş sona kimi bulaq başında Qəribin yolunu gözləyirdi. Qərib özünü yetirib gördü ki, butası bulaq başında dayanıb, siyah saçlarını hörür, dedi:

– Ey dili-qafil, buna təkcə dil ilə yox, gərək sazla da cavab verəm.

Alıb sinə sazını, görək nə dedi:

Bulağın başında, saçın hörəndə[10],
Göründü gözümə maya qaşların.
Gör necə düşübdür sulara şoqun,
Bənzəyir üç günlük aya qaşların.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hüsnünün düşübdür cahana şoqi,
Artıbdır baharda bülbülün zoqi,
Yandırıbdır məni camalın şoxi,
Ağlımı eylədi zay, a qaşların.

Qaşların bəzirgan, gözlərin xoca,
Baxışın peykandı, rüxlərin uca,
Sevindir Qəribi bari bir gecə,
Könlümü salıbdır vaya qaşların.

Söz tamama yetdi. Şahsənəm dönüb, Qəribi dalı qatında gördü. İki aşiq sarmaşıq kimi sarıldılar bir-birinə.

Səhərin təmiz yeli dəyib onları ayıltdı. Qərib dedi:

– Ey mənim gözümün işığı gedirsən, nədir?

Şahsənəm dedi:

– Bəli, gedirəm. Məni atamdan istə. Atam məni sənə verər, verməsə, mən heç kimə getməyəcəyəm.

İki həsrətli əhd-peyman eliyib ayrıldılar.

Qərib Şahsənəmdən ayrılıb, anasının yanına gəldi, dedi:

– Ana, get elçilik elə, Şahsənəmi mənə istə.

Qəribin anası Dəli Mahmudu götürüb, Xacənin yanına gəldilər.

Qəribin anası Şahsənəmi ədəb-qayda ilə oğluna istədi. Xacə dedi:

– Nə eybi var, razıyam. Ancaq oğlun qırx kisə qızıl başlıq verməlidir.

Qəribin anasının boğazının yolu qurudu, birbaş oğlunun yanına gəlib dedi:

– Oğul, Xacə qırx kisə qızıl istəyir.

Qərib dedi:

– Ana, eybi yoxdu, mən qırx kisə qızılı qazanaram.

İndi sənə kimdən deyim, Şahvələddən. Şahvələd Şahsənəmin əmisi oğlu idi. Eşitdi ki, əmisi qızını Qərib adında birisi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

istəyir. Qızın da ona meyli var. Elçi göndərdi əmisinin yanına. Xacə razılıq verdi. Qızı Şahvələdə nişanladılar. Elçilər «mübarək olsun» deyib, gedib bu şad xəbəri Şahvələdə yetirdilər.

Şahsənəm eşitdi ki, atası Qəribin elçilərini rədd edib, Şahvələdə söz verib. Şahsənəmin günü oldu qara, gecə-gündüz Qərib deyib ağlamaqda olsun, bu tərəfdən Şahvələd gözəl bir xonça tutub, bir imansız qarı tapdı, xonçaları qarı ilə göndərdi Şahsənəmə.

Qarı Şahsənəmin yanına gəlib, xonçanı qoydu qabağına. Şahsənəm xəbər aldı:

– Qarı nənə, bu xonçanı kim göndərib?

Qarı dedi:

– Bıy, qadan alım, necə kim göndərib? Sənin nişanlın Şahvələd.

Şahsənəm Şahvələdin adını eşidən kimi xonçanı tulladı çölə. Ağcaqıza tapşırdı ki, «Bu köpək qarını atın pilləkandan aşağı, itilib getsin cəhənəmə». Ağcaqız qarını itələyib saldı pilləkandan aşağı. Qarı donquldana-donquldana, ombasını çəkə-çəkə özünü yetirdi Şahvələdə. Şahvələd qarını bu halda görüb, xəbər aldı:

– Qarı nənə, necə gəldin?

Qarı dedi:

– Ağrın ürəyimə, necə gələcəm?! Nişanlın Şahsənəm xonçanı götürüb həyətə tulladı, özü də məni o qədər döydü ki, rəhmətlik nənəmin adı yadımdan çıxdı.

Şahvələd dedi:

– Qarı nənə, sən dünya görmüş bir adamsan, biz nə eləyək ki, Qərib Tiflisdən rədd olsun.

Qarı dedi:

– Nə bilim, mən sizin işinizə qatışa bilmərəm.

Şahvələd əlini cibinə salıb, bir çəngə pul çıxartdı, qarının ovcuna basıb dedi:

– Qarı nənə, fikirləş görək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı pulu görən kimi gözləri işıqlanıb, dedi:
– Mənim gözüm üstə!
Qarı ayrılıb Şahvələddən, Qəribi axtarmaqda olsun, bu tərəfdən Şahsənəmin Qəribə aşiq olması və Şahvələdin adamını qovması xəbəri qızın atasına yetişdi. Xacə Sənan öz arvadını Şahsənəmin yanına göndərdi ki:
– Get, qızına öyüd ver, bizi biabır eləməsin. Qərib kasıb bir oğlandı. O bizə tay deyil.
Anası durub qızının yanına gəldi, ərinin dediyini qızına söylədi. Şahsənəm başın salıb aşağı, bahar buludu kimi gözündən yaş axıda-axıda görək anasına nə cür cavab verir:

Başına döndüyüm, gül üzlü ana,
Ana, mən yazığı nə danlayırsan?!
Südünü əmmişəm mən qana-qana,
Ana, mən yazığı nə danlayırsan?!

Sarılıqdan heyvalardan sarıyam,
İsmim pakdır, lap sudan da duruyam,
Verməsən də, mən Qəribin yarıyam,
Ana, mən yazığı nə danlayırsan?!

Şahsənəm belə deyəndə anası onun ağzına bir sillə vurub dedi:
– Mən deyirəm bizi biabır eləmə, sən deyirsən mən Qəribin yarıyam.
Şahsənəm dedi:
– Ana, qulaq as!

Qaynasın, qaynasın, peymanə dolsun,
Saralsın gül təki qoy rəngim solsun,
Bu işə pəl vursan, Şahsənəm ölsün,
Ana, mən yazığı nə danlayırsan?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahsənəm qurbandı oğlun həbibə,
Məni salmagilən qeyri təbibə,
Ana, razı olun gedim Qəribə,
Ana, mən yazığı nə danlayırsan?!

Söz tamam oldu, anası durub çıxıb getdi. Şahsənəm oturub ağlamaqda, Qəribin yolunu gözləməkdə olsun, sizə deyim Şahvələdin qarısından.

Qərib oturmuşdu daş üstə, vətənə doğru baxırdı. Qarı Qəribə yaxınlaşıb, özünü tanımamazlığa vurub dedi:

– Oğul, bu aralarda təbrizli Qəribin evi haradadı?

Qərib xəbər aldı:

– Nəyinə gərəkdi, qarı?

Qarı dedi:

– Məni Şahsənəm göndərib.

Qərib Şahsənəm adını eşidən kimi qalxıb dedi:

– Nənə, Qərib mənəm. Tez de görüm, Şahsənəm nə xəbər göndərib?

İmansız qarı özünü yerə vurub, gözünün yaşını axıda-axıda dedi:

– Oğul, mənim sənə yazığım gəlir. Sən Şahsənəm deyib Təbrizdən buraya köç-külfətnən gəlmisən. Amma Şahsənəm sənə çox vəfasızlıq elədi.

Qərib xəbər aldı:

– Necə?

Qarı dedi:

– Necəsi yoxdu. Odu, Şahsənəm əmisi oğlu Şahvələdə nişanlıdı. Bugün-sabah da toyu olacaq. Özü də məni göndərdi ki, sənə deyim, ta bir də sən Şahsənəm adın çəkmiyəsən.

Qərib qarıdan belə eşidəndə ürəyi dəmirçi kürəsi kimi od tutub yandı. Sazını əlinə alıb Şahsənəmin bağına gəldi. Qərib bağa girib, gördü ki, Şahsənəmin həmişə gəzib dolandığı bağ bu gün elə sakitlikdi ki, gəl görəsən. Bağın hər tərəfindən qəm



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qara yağış kimi yağır. Bir qədər də Şahsənəmin yolunu gözləyib gördü ki, gəlib çıxmadı, dərdi təzələndi, Şahsənəmin ona göndərdiyi sözü xatırlayıb, aldı, görək nə dedi:

Xaraba qalasan, ay qərib ölkə,
Heç səndə oynayıb, gülən yox imiş!
Bülbül susub, bağ pozulub, gül solub,
Yad bağların etibarı yox imiş!

Mən gedirəm, dostum çıxdı qabaqdan,
Acı sözün salmaz məni damaqdan,
Bizim güldən yad güllərə qonmaqdan,
Yad sonanın etibarı yox imiş!

Aşıq Qərib, qismətin fəryad oldu,
Könül məlul oldu, düşmən şad oldu,
İstəkli dilbərim bizdən yad oldu,
Yad sonanın etibarı yox imiş!

Qərib günü axşam elədi, Şahsənəm gəlib çıxmadı. Qaş qaraldı, Tiflisin bütün lampaları yandı. Kasıb-kusub evinə çəkildi. Şahsənəm yenə də gəlmədi. Qərib qarının sözünü təsdiqləyib, dönüb getmək istəyirdi, bir də gördü ki, ağacların arasından bir şey ağarır. Yeriyib irəli gördü ki, Ağcaqızdı. Ağcaqıza söz deməyə macal verməyib, alıb görək nə dedi:

Səni gördüm, konlum oldu pərişan,[11]
Əridi ürəyim yağı, Ağcaqız!
Qıya baxıb, könül evin yıxansan,
Tanımırsan solu-sağı, Ağcaqız!

Camalın seçilməz üç günlük aydan,
Qaşların seçilməz kamandan, yaydan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir xəbər ver mənə saçı lay-laydan,
Səhərdən gəzirəm bağı, Ağcaqız!

Eşqilə düşmüşəm mən bu diyara,
Yalvarıram gecə-gündüz mövlaya,
Çünki məcnun oldum saçı Leylaya,
Bir zaman gəzərəm dağı, Ağcaqız!

Mən Qəribin dərdin yaz qələm ilə,
Günüm keçirdirəm qəm-ələm ilə,
Məndən Şansənəmə sən salam eylə,
Gəlməsə dağdaram bağı, Ağcaqız!

Söz tamama yetdi. Ağcaqız dedi:

– Evi yıxılmış oğlu, bir səbr elə, gör nə deyirəm?

Qərib dedi:

– De görüm.

Ağcaqız dedi:

– Məni Sənəm göndərib. Dedi ki, sərv ağacının altında məni gözləsin, gəlirəm. Təxsiri məndə olub. Bir qədər ağır tərpənmişəm. Get, sərv ağacının altında gözlə.

Qərib gəlib sərv ağacının altında oturdu. Quşların cəh-cəhi, bülbüllərin gözəl nəğmələri, güllərin xoş ətri Qəribin huşunu apardı. Elə ki, özün-sözün bilmədən yıxılıb qaldı.

Ağcaqız özünü Şahsənəmə yetirib dedi:

– Şahsənəm, gəl çıxaq bağa, bülbüllər elə ötüşür ki, gəl görəsən. Qəribi də gəzək, tapaq.

Şahsənəm razı oldu. Hər ikisi bağa çıxdılar. Ta ki, Ağcaqız haman yerə çatıb Şahsənəmə dedi:

– Şahsənəm, sən burada gözlə, mən sərv ağacının altına dəyim. Bəlkə Qəribi tapa bildim.

Ağcaqız icazə alıb, sərv ağacının altına gəldi. Nə gördü? Qərib elə yatıb ki, heç özündə deyil. Ağcaqız siyah saçlarından



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üç tel ayırıb, sinə-saz elədi, görək Qəribi necə oyadır:
Aldı Ağcaqız:

Eyvandan enib yürüdü,[12]
Oyan, ovçu, ovun gəldi.
Şövqi aləmi bürüdü,
Oyan, ovçu, ovun gəldi.

Ağcaqız gördü Qərib oyanmır. Alıb ikinci yarpağını, görək necə dedi:

Siyah zülfün tökmüş üzə,
Sürmə çəkmiş qaşa, gözə,
Eyvanından endi düzə,
Oyan, ovçu, ovun gəldi.

Qərib yenə də oyanmadı. Alıb Ağcaqız, görək axır yarpağı necə tamamladı:

Əli-ayağı xınalı,
Köksü yumuru məməli,
Yanları cüft-cüft sonalı,
Oyan, ovçu, ovun gəldi.

Ağcaqız deyir sözünü,
Oyan, qərib, aç gözünü,
Götür yerdən ay üzünü,
Oyan, ovçu, ovun gəldi.

Qərib yenə ayılmadı. Şahsənəm bağın başından səs gəldiyini eşidib, Ağcaqızı çağırdı. Ağcaqız gəldi. Şahsənəm ondan xəbər aldı:

– Ay qız, bağda kim var?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağcaqız dedi:

– Xanım, Qərib sərv ağacının altında yatıb, çağırıram, oyanmır.

Şahsənəm yüyürüb özünü Qəribə yetirdi. Nə qədər çağırdı, Qərib ayılmadı. Hörüklərindən üç tel ayırıb, sinə-saz elədi, görək Ağcaqıza nə dedi:

İki gözüm, Ağca gəlin,
Qərib oyamaz, oyanmaz!
Eşqiylə oldum divanə,
Qərib oyanmaz, oyanmaz!

İçmişəm qırxlar tasından,
Geymişəm eşq libasından.
Sərv ağacı kölgəsindən,
Qərib oyanmaz, oyanmaz!

Sənəm deyir: aç gözünü,
İstər öpsün ağ üzünü,
Tərəq qərq edib özünü,
Qərib oyanmaz, oyanmaz!

Qərib yenə də ayılmadı. Sənəm ağlaya-ağlaya gəlib oturdu çarhovuzun qırağında. Ağcaqız qəzəbləndi, gəlib bu dəfə Qəribi elə silkələdi ki, Qərib dik atıldı. Xəbər aldı:

– Nə olub?

Ağcaqız dedi:

– Nə olacaq? Şahsənəm düz bir saatdı ki, kəsdirib yanıvı, ayılmırsan.

Qərib Ağcaqızdan belə eşidəndə alıb, görək nə dedi:

Əcəb yerdə məni bərk huş apardı,[13]
Mən heç bilməmişəm yar gəldiyini.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fələk vurub, baxtım yana çevirdi,
Mən heç bilməmişəm yar gəldiyini.

Zalım fələk yazdı belə yazımı,
Gör necə çevirdi qışa yazımı?!
Ürəyimdə qoydu mənim arzımı,
Mən heç bilməmişəm yar gəldiyini.

Qərib deyir: uzun illər gülmədim,
Ağlayıban, göz yaşımı silmədim,
Mənzilində təkcə yarı görmədim,
Mən heç bilməmişəm yar gəldiyini.

Qərib belə deyib, ağlamağa başladı. Bu tərəfdən Ağcaqız qaçıb, Şahsənəmi onun yanına göndərdi.

Şahsənəm gəlib gördü ki, Qərib yanıqlı-yanıqlı oxuyur, ağlayır. Daldan qulac qollarını Qəribin boynuna salıb, onu qucaqladı. İki həsrətli sarmaşıq gül ağacına sarılan kimi bir-birinə sarıldılar. Qərib dedi:

– Ey qəlbimin soltanı, mən səndən ayrılmalı oldum.

Şahsənəm bu sözü Qəribdən eşidən kimi elə bil onu ildırım vurdu. Xəbər aldı:

– Nə üçün? Bu nə sözdü danışırsan?

Qərib dedi:

– Atan Xacə səni mənə vermək üçün qırx kisə qızıl istəyir.

Şahsənəm dedi:

– Elə bundan ötrü məni atırsan? Sən qırx kisə qızıl deyirsən, mən əlli kisə verərəm, təki iş düzəlsin.

Qərib dedi:

– Can Şahsənəm, bu insafdan çox kənar olar. Gəl sən mənə izn ver, gedim, öz əlimin zəhməti ilə bu pulu qazanım, verim atana, sonra şadlıqnan toy edək.

Şahsənəm dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bəs nə vaxt gələrsən?
Qərib dedi:
– Bu əhd-peymana and olsun, yeddi ildən uzaq sürməz.
Belə deyəndə Şahsənəm başladı ağlamağa. Qərib Sənəmin bahar buludu kimi axan göz yaşını görcək ürəyi alışıb, əl atıb sazına, görək Şahsənəmə nə dedi:

Başına döndüyüm, gül üzlü Sənəm,[14]
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.
Bu ayrılıq bizə haqdan verildi,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Şahsənəm saçından iki tel ayırıb, sinə-saz eylədi, görək Qəribə nə cavab verdi:

Başına döndüyüm, etibarlı yar,
Get, Qəribim, sağlıq ilə gələsən!
Bilirəm ki, vardı səndə etibar,
Get, Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Dön bəri, dön bəri, bir üzün görüm,
Al yanaqlarının qurbanı olum;
Bir əmanətim var, qoy sənə verim,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Qurbanın olayım, qaragöz Qərib,
Tez gəl, eşqimizə gülməsin rəqib.
Sənsən mənim hər bir dərdimə təbib,
Get, Qəribim, sağlıq ilə gələsən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qərib:

Yazılmış alnıma eşqin əzəli,
Payız gələr, bağlar tökər xəzəli,
Tapdım Rum elində səndən gözəli,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Qərib, bu sözlərin əsla yaramaz,
Etibarsız adam igid olamaz,
Belə aşıqların adı qalamaz,
Get, Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Səndən kimsənəyə gəlməz gümanım,
Alagözlü pərim, qaşı kamanım,
Yeddi ilə kəsdim əhdi-peymanım,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Aldı Şahsənəm:

Sənəm deyir: getmə yollar çamurdu,
Sənin bağrın daşdı, ya ki dəmirdi,
Yeddi il dediyin xeylaq ömürdü,
Get, Qəribim, sağlıq ilə gələsən!

Aldı Qərib:

Qəribəm, viranə qalsın bu ölkən,
Qorxum budu gülə sarmaşa tikən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qayıtmasam qınar məni hər yetən,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

Söz tamam oldu. Hər iki həsrətli yenidən görüşüb, öpüşüb, halal-hümmət etdikdən sonra Şahsənəm dedi:

– Qərib, indi hara getmək istəyirsən?

Qərib dedi:

– Ruma getmək fikrindəyəm.

Qərib belə deyəndə Şahsənəm fikirləşdi ki, Qərib Ruma getsə, məndən də gözəlini tapacaq. Ona görə də alıb, görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,[15]
Amandı, Qəribim, getmə Ruma sən!
Gəzdiyin yerlərdə yad eylə məni,
Amandı, Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Əyər mövlam mənə kömək olarsa,
Ağlama, sevdiyim, yenə gələrəm!
Əcəl şərbətini canım dadmasa,
Ağlama, sevdiyim, yenə gələrəm!

Aldı Şahsənəm:

Lənət olsun o günlərə, o dəmə,
Yazıq canım necə dözsün sitəmə,
Sən getsən bürünnəm qaraya, qəmə,
Amandı, Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Yazılmış alnıma eşqin əzəli,
Payız olar, bağlar tökər gözəli,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Neyləyirəm səndən qeyri gözəli,
Ağlama, sevdiyim, yenə gələrəm!

Aldı Şahsənəm:

Sənəm deyir: halım xeyli yamandı,
Uca dağlar başı tozdu, dumandı.
Bu ayrılıq bizə xeyli zamandı,
Amandı, Qəribim, getmə Ruma sən!

Aldı Qərib:

Rəsul idim, Qərib dedin adıma,
Mövlam yetsin köməyimə, dadıma,
Qürbət eldə Sənəm düşər yadıma,
Canım oda atıb, yenə gələrəm!

Söz tamama yetdi. Qəriblə Şahsənəm yenidən görüşüb ayrıldılar.

Qərib burdan birbaşa anasının yanına gəldi. Anası gördü ki, oğlu geyinib, səfər libasındadı, xəbər aldı:

– Oğul, hara gedirsən?

Qərib dedi:

– Ana, qulaq as deyim:

Aldı Qərib:

Qurban olum sənə, gül üzlü ana,[16]
Gedirəm qürbətdə gəzəm bir zaman.
Bir səfər sövdası vardı başımda,
Gedirəm qürbətdə gəzəm bir zaman.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qəribin anası:

Nə sövdadı yenə düşüb başına,
Ağlar qoyma bizi, getmə qürbətə.
Bağrımı döndərdin tey qızıl qana,
Ağlar qoyma bizi, getmə qürbətə.

Aldı Qərib:

Canım ana, gəl əylətmə sən məni,
Eyləyirəm haqqa əmanət səni,
Tapşırıram sənə butam Sənəmi,
Gedirəm qürbətdə gəzəm bir zaman.

Aldı Qəribin anası:

Mən kömək istərəm sənə xudadan,
Fərəc versin sənə böyük yaradan.
Ölsəm kim götürər məni aradan?
Ağlar qoyma bizi, getmə qürbətə.

Aldı Qərib:

Qəribəm, dəmadəm ağlayıram mən,
Sinəm eşq oduna dağlayıram mən.
Sənəmsiz dünyanı neyləyirəm mən?
Gedirəm qürbətdə gəzəm bir zaman.

Aldı Qəribin anası:

Gecə-gündüz yollarında ağlaram,
Al geyərəm, başa qara bağlaram,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğul deyib, mən sinəmi dağlaram,
Ağlar qoyma bizi, getmə qürbətə.

Qərib anası, bacısı ilə halallaşıb qəhvəxanaya gəldi, aldı görək Dəli Mahmuda nə dedi:

Qürbət eldə baş yasdığa gələndə,
Qayət yaman olar işi Qəribin.
Gələn olmaz, gedən olmaz yanına,
Siyah torpağıyla daşı Qəribin.

Yazıq derlər bu Qəribin adına,
Doymaq olmaz ləzzətinə, dadına,
Hər saldıqca yaraların yadına,
Durmaz əsla çeşmi yaşı Qəribin.

Qərib anasını, bacısını Dəli Mahmuda tapşırdı, halal-hümmət eləyib, yola düşdü.

Şahvələd eşitdi ki, Qərib gedir, onu öldürmək niyyətilə Tiflisdən çıxdı. O vaxt gəlib çatdı ki, gördü Qərib Kürü addayıb. Kor-peşiman geri qayıtdı. Şahsənəmə xəbər göndərdi ki, bugün-sabah toyun başlayıram. Şahsənəm baxıb gördü, zornan da olsa onu aparacaqlar, Şahvələdə xəbər göndərdi ki, məni yeddi il gözləsin. Şahvələd Sənəmi yeddi il gözləməkdə olsun, sənə deyim Qəribdən.

Ustad dili yügrək olar. Qərib bir müddət yol gedib axır gəlib çatdı Hələb şəhərinə. Hələbi görən kimi təbinə zor gəlib, görək bu şəhəri nə cür tərif elədi:

Aldı Qərib:

Şükür olsun yaradana,
Sənə gəldim, Hələb şəhri.
Ayrı düşdüm vətənimdən,
Sənə gəldim, Hələb şəhri.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ayrıldım qonça gülümdən,
Köksü sarı bülbülümdən,
Kəkilləri sünbülümdən,
Sənə gəldim, Hələb şəhri.

Ayrıldım nazlı yarımdan,
Üzüm gülməz ah-zarımdan,
Canım odlanır narımdan,
Sənə gəldim, Hələb şəhri.

Qərib sözünü tamam eləyib, oradan gəlib çıxdı bir qəhvəçi dükanına. Bir neçə müddət burda qalıb, çalıb oxuduqdan sonra, səs yayıldı Hələbə ki, bir belə aşıq gəlib, qabağında heç bir ustad dayana bilmir.

Bu xəbəri eşidən yaxın-uzaq yerlərdən qəhvəçi dükanına gəlib, Qəribin oxumasına qulaq asırdılar. Qərib burda qalıb günün keçirtməkdə olsun, sənə deyim Tiflisdən.

Qərib neçə vaxt idi ki, getmişdi. Şahvələd Şahsənəmi könülə gətirmək üçün gündə bir tədbir görürdü. Amma Şahsənəm Qərib deyib, gecə-gündüz ağlayır, Qəribin təsəllisini almaq üçün hər gün onun anasının yanına gəlirdi. Bir gün Şahvələd eşitdi ki, Şahsənəm hələ də Qəribdən əl çəkməyib, gecə-gündüz Qəribin anasının evindədi, onlara əl tutur, Güloğlanı tapıb dedi:

– Al bu pulu, get, Qəribi harda görsən vur, öldür, qanlı köynəyini götür, gəl ver anasına.

Güloğlan Şahvələddən pulu alıb, üz qoydu getməyə. Nə qədər dərə-təpə gəzdisə Qəribi tapa bilmədi, yoruldu, gördü ki, qılçaları getmir, yerə oturub dedi:

– Kim bilir, Qərib indi harda itib batıb. Yaxşısı budu ki, bir şikar eləyim, başını kəsib öz köynəyimi onun qanına bulayım, aparıb verim Qəribin anasına. Şahvələdin yanında da başım uca olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Güloğlan bir şikar eləyib başını kəsdi, öz köynəyini qana bulaşdırdı, gəldi Qəribin anasının yanına, dedi:

– Ana, başın sağ olsun. Oğlun mənimnən gəlirdi. Yolda onu haramilər öldürdülər. Bu da onun qanlı köynəyi.

Qəribin anası, bacısı qanlı köynəyi basıb bağırlarına, Qərib deyib, ağlamağa başladılar.

Şahsənəm eşitdi ki, Qəribin qanlı köynəyini Güloğlan gətirib, qara paltar geyib, gəldi Qəribin anasının yanına. Neçə gün, neçə gecə matəm saxladılar. Ancaq Şahsənəm ağlayırdısa da, Qəribin ölməsinə inanmırdı. Qəribin anası, bacısı da o qədər ağladılar ki, iki gözdən oldular, dünya işığına həsrət qaldılar. Gün keçdi, il dolandı, Qəribin getməsindən düz altı il yarım keçdi.

Şahvələd Şahsənəmə adam göndərdi ki, hazırlaşsın, bu yaxınlarda toyu edəcəyəm. Şahsənəm durub gəldi Qəribin anasının yanına, dedi:

– Ana, Şahvələd mənim toyumu lap yaxınlaşdırıb. Mən də əhd eləmişəm ki, Qəribdən başqa heç kimə getməyəcəyəm. Təvəqqe eləyirəm, gedək yol kənarında oturaq. Hələbə gedib-gələn bəzirganlardan xəbər tutaq. Bəlkə Qəribdən bir əhval öyrənə bildik. Mən bilirəm, o sağdı, ölməyib.

Qəribin anası razı oldu. Gəlib oturdular yol üstə.

Xacə Əhməd deyilən birisi Hələb şəhərinə gedirdi. Gördü ki, yol kənarında üç fağır oturub. Bəzirgan Əhməd gəlib, bunlara pul verdi. Qəribin bacısı pulu almayıb, görək, bəzirgan Əhmədə nə dedi:

Aldı Qəribin bacısı:

Sənə qurban olum, bəzirganbaşı,
Gözlərəm yolları, qardaş gəlmədi.
Nə gecəm gecədi, gündüzüm gündüz,
Gözlərəm yolları, qardaş gəlmədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yeddi ildi yollarını gözlərəm,
Xəncər alıb, bağrım başın teylərəm,
O gəlməsə, bu qürbətdə neylərəm?
Gözlərəm yolları, qardaş gəlmədi.

Yaman olur qarlı dağlar ucası,
Bir dərdim var, o da qardaş acısı,
Sənəm butasıdır, mənəm bacısı,
Gözlərəm yolları, qardaş gəlmədi.

Əhməd bəzirgan dedi:

– Anam, bacım, siz kimsiniz? Nə yerin adamısınız?

Qəribin anası dedi:

– Bəzirganbaşı, biz sail deyilik, mən təbrizli Məmməd Söydayarın külfətiyəm. Bu qızım, bu da oğlumun nişanlısıdır. Oğlum indi düz yeddi ildir ki, Hələb şəhərinə pul qazanmaq üçün gedib, bu vaxta kimi heç bir xəbər yoxdur.

Əhməd bəzirgan Məmmədin adın eşidən kimi «vay, o mənim lap yaxın dostumdu», – deyib, aldı, görək nə dedi:

Əhməd bəzirgandı, bil, mənim adım,
Sizi gördüm, ərşə çıxdı fəryadım,
Əvvəl sail bildim, kömək eylədim,
Xəbər ver, oğlunu tapım, gətirim.

Aldı Qəribin anası:

Gəlişin haradan, bəzirganbaşı?
Alıban satırsan alı, qumaşı,
Gecə-gündüz axıdıram göz yaşı,
Gözdən oldum, oğul-oğul deməkdən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Əhməd bəzirgan:

Gəlişimdi mənim Təbriz elindən,
Alıram, satıram dünya malından,
Söylə, nənə, gəlsin kəlamın dildən,
Nişan ver, oğlunu tapım, gətirim.

Aldı Qəribin anası:

Aləm bilir çoxdu sinəmdə dərdim,
Doquz ay qoynumda oğul becərdim,
Qaragözlü nocavanım itirdim,
Gözdən oldum, oğul-oğul deməkdən.

Aldı Əhməd bəzirgan:

İtirmərəm mən Məmmədin namını,
Haqq özü yetirsin tez muradını,
Söylə mənə sən oğlunun adını?
Nişan ver, oğlunu tapım, gətirim.

Aldı Qəribin anası:

Fələk tökdü qara küllər başıma,
Rəhm eylə sən gözdən axan yaşıma,
Qəribin həsrəti düşdü başıma,
Gözdən oldum, oğul-oğul deməkdən.

Söz tamama yetdi. Əhməd bəzirgan dedi:

– Ana, indi oğlunun adını bildim, səbr elə, Hələb şəhərinə çatan kimi orada olsa tapıb göndərərəm.

Şahsənəm bu sözü eşidən kimi sevinib, bəzirgan Əhmədin əlini öpdü. Saçından iki tel ayırıb, döşünə basdı, görək Əhməd



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bəzirgana nə dedi:
Aldı Şahsənəm:

Qulun olum sənin, hörmətli xacə,
Degilən Qəribə, durmasın, gəlsin!
Yeddi ildi həsrətini çəkirəm,
Degilən Qəribə, durmasın, gəlsin!

Əhməd bəzirgan Şahsənəmdən belə eşidəndə öz-özünə dedi: «Qoy bunu bir sınaqdan keçirim, görüm Qəribi ürəkdən sevirmi?».
Aldı Əhməd bəzirgan:

Qurban olum sənə, alagöz xanım,
Razı olsan, səni allam oğluma.
Bivəfadan nə kar çıxacaq sənə,
Razı olsan, səni allam oğluma.

Aldı Şahsənəm:

Sözünü bilmədin bəzirgan xoca,
Yolunda çəkmişəm xeyli işgəncə,
İnsafdı dəyişmək qızılı tunca?!
Degilən Qəribə, durmasın, gəlsin!

Yeddi ildi mənim yarım gedibdi,
Sirrimi deməyə sənə ayıbdı,
Şahsənəm butası Aşıq Qəribdi,
Degilən Qəribə, durmasın, gəlsin!

Aldı Əhməd bəzirgan:

Heç kəs bilməz mənim bu cür halımı,
Xərc elərəm əldə olan malımı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoyaram yolunda şirin canımı,
Soraqlaşıb, Qəribini taparam,

Əhməd bəzirganam, indi gedərəm,
Rumi, Şamı, Hindi tamam gəzərəm,
Qul olsa, pul verib, azad edərəm,
Soraqlaşıb, Qəribini taparam.

Söz tamama yetdi, Şahsənəm Əhməd bəzirgandan təvəqqə elədi ki, Qərib harda olsa tapıb gətirsin; barmağındakı üzüyü də çıxardıb, nişanə üçün verdi Əhməd bəzirgana. Əhməd bəzirgan söz verib dedi:

– Qızım, mənim nə oğlum var, nə də qızım. Səni sınayıram. Xatircəm ol, gedib Qəribini tapıb, sənə yetirrəm.

Əhməd bəzirgan sözün tamam eləyib, yola rəvan oldu.

İndi sənə deyim Qəribdən. Qərib bir müddət Hələb şəhərində qəhvəxanada çalıb oxudu. Qəribin ustalığı hər tərəfə yayılmışdı.

Hələb paşası eşitdi ki, Qərib adında birisi Hələbə gəlib, bütün aşıqları bağlayıb. Əmr verdi, haman saat onu hüzuruna istədi. Adamlar gəlib Qəribi axtarmaqda olsunlar, bu tərəfdən də Əhməd bəzirgan gəlib çıxdı Hələbə, girdi qəhvəçiyə, camı şərbətnən doldurdu, Sənəm verdiyi üzüyü də camın içinə salıb dedi:

– Kimdi burada Qərib, qalxsın ayağa, bu camı alıb içsin.

Heç kim yerindən qalxmadı. Bu vaxt Qərib əlində saz içəri girdi. Əhməd bəzirgan bir də təkrar elədikdə Qərib alıb camı, çəkdi başına. Gördü Şahsənəmin üzüyü camın içindədi. Üzüyü alıb, öpüb gözünün üstə qoyandan sonra ürəyi dəmirçi kürəsi kimi od tutub, alışıb yandı. Sazın sinəsinə basıb, görək Əhməd bəzirgandan nə soruşdu, Əhməd ona nə cavab verdi.

Aldı Qərib:

Başına döndüyüm, bəzirgan xoca,[17]
Canım xacə, necə gördün Sənəmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə gündüzüm gündüz, nə gecəm gecə,
Canım xacə, necə gördün Sənəmi?

Aldı Əhməd bəzirgan:

Haqq sənə göndərsin Xıdır İlyası,
Ağlar, sızlar gördüm nazlı Sənəmi.
Vardı sənə Şahsənəmin duası,
Ağlar, sızlar gördüm nazlı Sənəmi.

Aldı Qərib:

Mən gələndə dərilmədi gülləri,
Mənə qismət oldu Hələb çölləri,
Söylənirmi Şahsənəmin sözləri?
Canım xacə, neçə gördün Sənəmi?

Aldı Əhməd bəzirgan:

Yaxın dostlar səni sorub ararlar,
Uçan quşdan səni, Qərib, sorarlar,
Anan, bacın geyinibdi qaralar,
Qaralar içində gördüm Sənəmi.

Aldı Qərib:

Bizim ellər bahar idi, yaz idi,
Göllərində ördək idi, qaz idi,
Xan Sənəmim gəlin idi, qız idi?
Qərib deyir: necə gördün Sənəmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Əhməd bəzirgan:

Mən gələndə sizin ellər yaz idi,
Göllərindəki ördək idi, qaz idi,
Şahsənəmin gəlin deyil, qız idi,
Ağlar, sızlar gördüm nazlı Sənəmi.

Söz tamam oldu. Qərib dedi:
– Əhməd bəzirgan, hazırlaş, gedək.
Bu vaxt Hələb paşasının adamları girib içəri, Qəribi tutub apardılar paşanın yanına. Əhməd bəzirgan da düşdü buların dalınca. Gəlib çıxdılar paşanın hüzuruna.
Aldı Qərib görək paşaya nə dedi:

Paşam, mərhəmət et mənim halıma,
Gəlsin deyib, ismarlamış yar məni.
Elə insaf, mürvət mənim halıma,
Gəlsin deyib, ismarlamış yar məni.

Genə bahar oldu, durna düzüldü,
İndi Şahsənəmin bağrı üzüldü,
Şahsənəmdən bizə məktub yazıldı,
Gəlsin deyib, ismarlamış yar məni.

Aşıq Qərib deyir dərdini dildən,
Çarəsini dilər obadan, eldən,
Kömək elə, alım yarımı əldən,
Gəlsin deyib, ismarlamış yar məni.

Paşa dedi:
– Ey Qərib, de görüm sən kimsən, nəçisən?
Qərib dedi:
– İzn ver, deyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qərib:

Ayrıldım elimdən, çıxdım qürbətə,[18]
Ağlaram, sızlaram, kimsəm yox mənim.
Qərib deyə düşdüm dildən dillərə,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

Gənc yaşımda tərk eylədim vətənim,
Qürbət ellər olub mənim məskənim,
Gözü yolda ağlar qaldı Sənəmim,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

Aşıq Qərib yanıq-yanıq söyləsin,
Enib, eşqin dəryasına boylasın,
Haqq səni dünyada namdar eyləsin,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

Söz tamam oldu, Hələb paşası dedi:

– Mən bilirəm sən qəribsən, bu ölkədə kimsən yoxdu. Ancaq deyirlər ki, sən çox zor aşıqsan. Əyər bizim aşıqnan döş-döşə gəlib, onu bağlıya bilsən, səni azad elərəm. Yox, bağlıya bilməsən, boynunu vurduracağam.

Qərib razılıq verdikdən sonra paşa məclis qurdu. Haman məclisə Hələb şəhərinin möhtərəm adamlarından bir neçəsi çağrıldı. Paşanın aşığı da haman məclisə gəldi. Aşıq dedi:

– Qərib, sən başlayırsan, yoxsa mən?

Qərib dedi:

– Bizlərdə qaydadı, meydanda yolu əvvəlcə düşmənə verərik. Sən de, mən də sənin ardınca gəlim.

Qərib belə deyəndə paşanın aşığı alıb, görək Qəribə nə dedi:

Aldı aşıq:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Utanmadın gəlib girdin meydana?
Bu meydanda ərkan olu, yol olu.
İndi o dünyanı göstərrəm sana,
Bu meydanda qovğa olu, zor olu.

Aldı Qərib:

Gəl mənimlə sən heç girmə meydana
Mənəm deyən, mənəm kimi qurd olu.
Ustad isən, gəl incitmə özünü,
Bu meydandan qurtaranlar mərd olu.

Aldı aşıq:

Zikr eləyib, mən də gəlmişəm cuşa,
Mat qalarsan bugünkü tər savaşa,
Bir od vurram, ayaqların tutuşa,
Onda sənin yəqin dilin lal olu.

Aldı Qərib:

Kamil usta, oturgilən yerinə,
Loğalanıb düşmə aşıq girinə,
Bir aşıq ki, xor baxarsa birinə,
O da qorxmaz ondan, daha sərt olu.

Aldı aşıq:

Ərənlər əlindən badə içdinmi?
Bulanlıq çayları axıb keçdinmi?
Bu meydana girib, sərdən keçdinmi?
Aşıqlıqda başqa-başqa hal olu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Qərib:

Mən Qəribəm, çıxmamışam yolumdan,
Bəd kəlam çıxmayıb əsla dilimdən,
Pələng olsan, qurtarmazsan əlimdən,
Bu rüsvaylıq sənə böyük dərd olu.

Hərbə-zorbanı qurtardılar. Dedilər:
– İndi də Qərib desin, aşıq cavab versin.
Qərib sazı döşünə mindirib dedi:

Dinləyin ustalar, xəbər sorayım,
Bu aşıqlıq kimdən icad olubdu?
Başınıza olmaz işlər açayım,
O kimdi ki, qəmdən azad olubdu?

Aşığın başı taqqıldadı, gözlərini yerə dikdi, cavab verə bilmədi.
Qərib aldı gerisini, dedi:

Usta, bilirmisən elmin başını,
Nə ilə kəsdilər qəndil daşını,
Əvvəl kimdi özü kəsdi başını?
Bunu bilən aşıq ustad olubdu.

Bu Qərib söylədi sizə sualı,
Qüdrəti-yəzdanla buldu kamalı,
Gürzinən qılıncın nədi əzəli?
Gör ki, dünya necə abad olubdu?

Daşdan səs çıxdı, aşıqdan səs çıxmadı. Qərib dedi:
– Könül sınmasın, qoy cavabını da verim.
Aldı Aşıq Qərib:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ay ustalar, alın verim cavabı,
Aşıqlıq Adəmdən icad olubdu.
Dinləyin sözümü bir-bir, həzərat,
O Adəmdi qəmdən azad olubdu.

Elmin başı budu: eyləmək səbir,
Qəndil daşı kəsən ol ismi Qəfur,
Öz başını kəsən göydə buluddur,
Cəbrayıl hər elmə ustad olubdu.

Yenə Aşıq Qərib açdı sualı,
Eşq dəryasını içib, buldu kamalı,
Aləm fazillərdən olmayıb xalı,
Dünya kamal ilə abad olubdu.

Qəribin sözü aşığı bərk tutdu, dodaq dodaqdan qımıldanmadı. Adamlar yerbəyerdən dedilər:

– Afərin, Aşıq Qərib, həqiqətən də haqq aşığısan, halal olsun sənə!

Paşa dedi:

– Aşıq, Təbrizin başına gələn əhvalatı deyərsənmi?

Aşıq Qərib aldı, görək nə dedi:

Dinləyin, ağalar, tərif edəyim,
Yaman müşkül oldu işi Təbrizin.
Bir də gördüm göydən atəşlər yağır,
Yandı dağıynan daşı Təbrizin.

Təbrizin çövrəsi bir mətin qala,
Atəş yağır idi dağa, həm yola,
Kimisi əsir oldu, kimisi kölə,
Daş üstə qalmadı daşı Təbrizin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Qərib çəkdi zarıla ahı,
Öylə cəng olmamış dünyada dahı,
Vanın bəyi ilə Gilanın şahı,
Qoymadı daş üstə daşı Təbrizin.

Afərin səsləri asimana bülənd oldu. Paşa Qəribdəki fərasətə, kamala, onun bülbül kimi cəh-cəh vuran səsinə heyran olub dedi:

– Qərib, mən səni burda saxlayacağam, buraxmayacağam. Gəl, qal mənim yanımda. Ye, iç, gəz, kefini çək.

Paşa belə deyəndə Qərib sazını alıb yanıqlı-yanıqlı paşaya görək nə cür cavab verdi:

Sevdiyimdən namə gəldi,
İzin ver, paşa, mən gedim.
Ağlar qalıbdı sevdiyim,
İzin ver, paşa, mən gedim.

Qürbət qəhri, gözüm nəmi,
Artıbdı könlümün qəmi,
Anam, bacım gözlər hamı,
İzin ver, paşa, mən gedim.

Qərib keçib öz canından,
Ayrı düşüb cananından,
Yeddi ildi gəzir giryan,
İzin ver, paşa, mən gedim.

Söz tamam oldu. Paşa xəbər aldı:

– Qərib, mən bir şey başa düşmədim. Açıq de görək nə demək istəyirsən? Mənim yanımda qalsan sənin günün xoş keçməzmi?

Qərib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Paşa, mənim dərdim başqadı.

Qərib başına gələn əhvalatı əvvəldən axıra kimi paşaya nağıl elədi. Paşa işi belə görən kimi əmr verdi ki, Qəribə qırx kisə qızıl versinlər.

Qərib qırx kisə qızılı alıb, heybəsinə qoyduqdan sonra getmək istəyəndə gördü çöldə elə bir tufandı ki, göz-gözü görmür. Yer, göy qardan ağ paltar geyibdi. Alıb sazını, görək nə dedi:

Vardı şikayətim fələk əlindən,
Fələyə mən düşmən oldum, ağlaram!
Qorxum budu, həsrət qalam yarıma,
Fələyə mən düşmən oldum, ağlaram!

Bizim ellər dağdı, daşdı, virandı,
Qadir mövlam hər mətləbi verəndi,
Bayırda qar, çovğun, dolu, borandı,
Vətənimdən ayrı düşdüm, ağlaram!

İyid odu öz sirrini gizləyə,
Ciyərini kabab edib, közləyə,
Rəvamıdı Qərib burda gözləyə,
Fələk ilə düşmən oldum, ağlaram!

Söz tamam oldu, paşa gördü ki, bayırda elə çovğundu ki, Qəribə getmək mümkün olmayacaq, dedi:

– Qərib, gəl getmə. Bu yollarda tələf olarsan.

Qərib başladı ağlamağa, paşa Qəribin ağlamağın görüb, ürəyi yandı, əmr verdi ki, Qəribə at versinlər. Haman saat paşanın adamları Qəribə bir yaxşı at verib yola saldılar.

Qərib bəzirganla, paşa ilə xudahafizləşib Tiflisə sarı gəlməkdə oldu. Bir müddət yol gəldikdən sonra bir çəmənlikdə oturmuşdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir tərəfdən öz vətənindən ayrılması, o biri tərəfdən sevgilisi Şahsənəmdən ayrılması, özünün çölü-bərribiyaban içərisində qalmasını yadına salıb, sazını sinəsinə basdı, öz halına münasib görək nə dedi:

Qadir mövla, budu səndən diləyim,
Fələk məni daşa saldı, ağlaram!
İndi bildim muradıma çatmadım,
Fələk mənim canım aldı, ağlaram!

Əcəl gəldi, başım üstə dayandı,
Şirin canım eşqin oduna yandı,
İndi bildim, fələk mənə düşmandı,
Fələk mənim canım aldı, ağlaram!

Mən harada qaldım, vətən harada,
Qurban olum Sənəm təkin yara da,
Kim Qəribi dəfn eyləyər burada?
Fələk mənim canım aldı, ağlaram!

Söz tamam oldu, onun səsini eşidib harayına gələn olmadı. Çovğundan onun atı da öldü. Aldı Qərib, görək nə dedi:

Sidqinən çağırram, şahların xası,
Qəribəm, vətənə sən yetir məni.
Ya xatəmənbiya ümbət ağası,
Qəribəm, vətənə sən yetir məni.

Bir yanım dağ almış, bir yanım duman,
Qalmışam piyada, halım çox yaman.
Yet imdadıma, ey Xızr, əlaman!
Qəribəm, vətənə sən yetir məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəribəm, söylərəm ağdan, qaradan,
Məni haqq qurtara yaman bəladan,
On səkkiz min aləmi, ay yaradan,
Qəribəm, vətənə sən yetir məni.

Söz tamam olan kimi bir ağ atlı bunun yanına gəldi, salam verdikdən sonra dedi:

– Gəl, min tərkimə.

Qərib bu ağ atlının tərkinə mindi. Ağ atlı dedi:

– Ey cavan oğlan, yum gözlərini.

Qərib gözlərini yumdu. Bir dəqiqə keçməmişdi ki, atlı səsləndi:

– Aç gözlərini.

Qərib gözlərini açanda gördü Ərzrumdadı. Qərib o tərəfə, bu tərəfə baxanda gördü atlı yoxdu. Yenə yola düşdü. Bir qədər getmişdi ki, həmin atlı yenə onun qabağına çıxdı, dedi:

– Oğlan, bəs indi hara gedirsən?

Qərib dedi:

– Qurbanın olum, sənə səhv demişəm, Qarsa gedəcəyəm.

Atlı dedi:

– Niyə yalan deyirsən? Min tərkimə, gözlərini yum.

Qərib onun tərkinə minib gözlərini yumdu. Atlı dedi:

– Aç gözlərini.

Qərib gözlərini açıb, gördü Qarsdadı, atlı da yoxdu. Qərib Tiflisə tərəf gəlməyə başladı. Bir qədər getmişdi ki, atlı yenə onun qabağına çıxıb dedi:

– Niyə yalan danışırsan? Sən başqa yerə gedəcəksən.

Qərib xəcalət çəkə-çəkə dedi:

– Sənə fəda olum, ağa, insan tezdən yalan danışdı, gərək axşama qədər danışsın, tərgidə bilməz. Mən Tiflisə gedəcəyəm.

Atlı dedi:

– Elə isə min tərkimə, yum gözünü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qərib onun tərkinə minib gözlərini yumdu.

Atlı dedi:

– Aç gözlərini.

Qərib gözlərini açıb, gördü Tiflisdədi. Atlının atının boynunu qucaqlayıb dedi:

– Sənə fəda olum, mən desəm bu tezlikdə Hələbdən buraya gəlmişəm, heç kəs inanmaz. Bəs mən onları necə inandırım?

Atlı dedi:

– Atımın ayağının altından bir ovuc torpaq götür, sürt ananın gözünə, sağalsın. Onda hamı inanar.

Qərib onun atının ayağının altından bir ovuc torpaq götürüb, qəddini düzəldəndə gördü atlı qeyb olub. Bildi ki, bu, ərənlərdən imiş.

Qərib bir qədər gedəndən sonra sevgilisi Şahsənəmin qəsrini gördü. Ürəyi qubar elədi. Sazı döşünə basıb dedi:

Min qovğalar çəkdi başım,
Axır çatdım sənə, Tiflis!
Baxım sənə qoy doyunca,
Axır gəldim sənə, Tiflis!

Siyah saçları darandı,
Canım həsrətində yandı,
Sənəmin qəsri göründü,
Axır gəldim sənə, Tiflis!

Aşıq Qərib gəldi elə,
Gəzir bağı gülə-gülə,
Gəldiyimi yara söylə,
Şükür, gəldim sənə, Tiflis!

Söz tamama yetdi. Qərib Tiflis şəhərinə daxil olub, bir bu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lağın başına gəldi. Gördü bülbüllər cəh-cəh vurur, o tərəf, bu tərəfə ötür, gülə razi-niyaz eləyirlər. Qərib aldı, görək nə dedi:

Bülbül, cəh-cəh vurub bağça-bağlarda,
Qərib-qərib ötmə, könül şən deyil,
Bəlkə sevgin səni arar yuvada,
Qərib-qərib ötmə, könül şən deyil.

Bülbül ötüşəndə bahar, yaz gəlir,
Bu gülşəndə səfa mənə az gəlir,
Qorxuram ki, canan məndən vaz gəlir,
Qərib-qərib ötmə, könül şən deyil.

Mənə Hələb oldu bir ağır zindan,
Gecə-gündüz orda edərdim əfqan.
Düşdüm dildən-dilə, aman, əlaman!
Qərib-qərib ötmə, könül şən deyil.

Qərib sözünü tamama yetirdi. Bir də gördü bacısı çiynində sənək bulağa gəldi, özü də başdan ayağa qara geyinibdi. Qəribi tanımadı. Qərib ondan soruşdu:

– Nə üçün qara geyinmisən?

Qız dedi:

– Diyar-qürbətdə bir qardaşım var idi. Ölüm xəbəri gəldi. İndi nişanlısını ərə verirlər, bu gecə xına gecəsidi.

Qərib dedi:

– Qardaşın sağdı, bugün-sabah gələr. Bu gecə məni qonaq saxlayın.

Bacısı onu götürüb evlərinə gətirdi. Anası narazı oldusa da, qonaq saxladı. Qərib sazını divardan asılı gördü, bacısına dedi:

– O sazı ver, çalım.

Bacısı dedi:

– Yaslı-yaralıyıq, saz çalmaq olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qərib dedi:

– Yaslı-yaralı hava çalacağam. Arvad dodaqaltı qızına qımıldandı ki, bu nə hayasız qonaq imiş, bunu sən haradan gətirdin? Qərib durub, özü sazı aldı, döşünə basıb dedi:

Aldı Qərib:

Canım ana, gözüm ana,[19]
Ana, mən Qəribəm, Qərib!
Sənə qurban özüm, ana,
Ana, mən Qəribəm, Qərib!

Qəribin anası onun cavabında dedi:

Xoş gəldin, səfa gətirdin,
Oğlum Qərib, haçan gəldin?
Məni odlara yandırdın,
Oğlum Qərib, haçan gəldin?

Aldı Qərib:

Sinəmə döyərəm daşı,
Gözümdən tökərəm yaşı,
Görmürəm Heydər qardaşı?
Ana, mən Qəribəm, Qərib!

Aldı anası:

Atdılar atın çapardı,
Sınıq könüllər yapardı,
Heydəri Tona apardı,
Oğlum Qərib, haçan gəldin?

Aldı Qərib:

Hacılar eylədi hacı,
Yoxdur dərdimin əlacı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sən Nərgiz də mənə bacı,
Ana, mən Qəribəm, Qərib!

Aldı anası:

Banının ürəyin deşdin,
Boynuna xələtin biçdin,
Harda idin, gəldin çıxdın,
Oğlum Qərib, haçan gəldin?

Söz tamama yetdi, anası, bacısı Qəribnən qucaqlaşıb, öpüşüb görüşəndən sonra Qərib xəbər aldı:

– Ana, mənə Şahsənəmdən bir xəbər?

Anası dedi:

– Oğul, bu gün Şahsənəmin toyudu.

Belə eşidəndə Qərib dayana bilmədi, Dəli Mahmudun yanına gəldi, onu da götürüb, Şahvələdin toy məclisinə getdi.

Şahsənəm diqqətlə Qəribə baxırdı. Bu zaman Qəribin anası, bacısı onun yanına gəldilər. Şahsənəm aldı, görək Qəribin anasına nə dedi:

Başına döndüyüm, gül üzlü ana,
Ölməyəydi kaş ki, balan gələydi.
Oduna yandığım, ay aman, ana,
Ölməyəydi kaş ki, balan gələydi.

Lülə-lülə zəhərləri içərəm,
Xəncər alıb, qara bağrım biçərəm,
Tezlik ilə bu dünyadan köçərəm,
Ölməyəydi kaş ki, balan gələydi.

Şahsənəməm, qələm tuta qaşımı,
Seyrəqiblər gəlib silə yaşımı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəbr içində uca edər başımı,
Məzar daşım qoyan Qərib gələydi.

Adamlar aşığı görəndə çox şad oldular. Qərib aşağı başda əyləşdi. Ondan oxumağı xahiş elədilər. Aşıq Qərib sazı döşünə basıb dedi:

Sevincimdən qaldım, o qaşı hilalım, gəl yetiş!
Qalmadı əsla bu təndə taqət halım, gəl yetiş!
Həsrətin bu canə kar etmişdi, ey Mehru, sənin,
Ruyət edər nuri vəchinlə camalın, gəl yetiş!

Atəşi eşqin ilə yandı vücudum sübh-məsa,
Kəndi dəstinlə yetişdir bəndənə ab-səfa,
Varmışam iştə xəyalı eşqin ilə heyrətə,
Müşgül oldu hasili-aləmdə halım, gəl yetiş!

Aşiqin Aşıq Qərib, istər üzün görmək müdam,
Ərzü hüsnünlə onu aləmdə eylə şad-kam,
Lütfü ehsan eyləyib, ağlatma artıq sübhü şam,
Sərv-qəddim, gül-üzarım, ağzı balım, gəl yetiş!

Yerbəyerdən afərin dedilər. Çox adam onu tanıdı. Dedilər:
– Aşıq, sazı yerə qoyma.
Qərib «gözüm üstə», – deyib, sazın sinəsinə basıb, özünü tanış vermək üçün görək nə dedi:
Aldı Qərib:

Dün gecə, dün gecə, Hələb şəhrində[20]
Eşqin badəsini içdim də gəldim.
Yar mənə göndərdi bir əziz namə,
Oxudum qarasın, seçdim də gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Axşam idi, mən də gəldim xanama,
Sirrimi demişdim bacı, anama,
Eşqin xəncərini vurdum sinəmə,
Dərin yaraları deşdim də gəldim.

Qəribin səsini Şahsənəm o biri otaqdan eşitcək, qızlarnan gəlib, pəncərənin qabağında durdu.

Aldı Qərib:

Hələbdə xəbəri verdilər bizə,
Günorta vaxtında çıxdım mən düzə.
Mədət deyib, gəlib çıxdım Tiflisə,
Mövlam qanad verdi, uçdum da gəldim…

Bir əl vurun, xublar girsin oyuna,
Mən qurbanam qamətinə, boyuna,
Mən Qəribəm, Şahsənəmin toyuna,
Başımdan, canımdan keçdim də gəldim.

Dedilər:

– Yalan deyirsən, Hələbdən Tiflisə bir günə gəlmək olarmı?

Qərib anasını yanına gətirib dedi:

– Sübutum var. Məni gətirən ağam Xızrın atının ayağının altından bir ovuc topraq götürmüşəm. İndi anamın gözünü açacağam.

Torpağı anasının gözünə çəkdi, gözləri açıldı, sappa-sağ oldu. Hamı Qəribin haqq aşığı olduğunu təsdiq elədi. Şahvələd qılıncı sivirib Qəribin üstünə hücum elədi. Dəli Mahmud onun biləyindən tutub dedi:

– Qəribə toxunsan, səni parça-parça eləyəcəyəm.

Şahvələd Qəribdən əl çəkib, Güloğlana dedi:

– Ədə, sən bu Qəribi öldürməmişdin?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Güloğlan qorxusundan girdi siçan deşiyinə. Şahvələd yenə də qılıncını çəkib, Qəribi vurmaq istəyəndə Dəli Mahmud Şahvələdin qollarını tutub, xəncərini dayadı ürəyinə, işi belə görəndə Şahvələd dedi:

– Qərib, Şahsənəmi verdim sənə.

Çamaat yerbəyerdən bu sözü alqışlayıb, Qəribin bacısının kəbinini Şahvələdə, Şahsənəmin də kəbinini Qəribə kəsdirib, təzədən toy başladılar.

Qərib Şahsənəmin gözəlliyinə nəzər saldı, aldı, görək nə dedi:

Hüsnün afitabdan alıbdı nuru,
Zülfü-siyahın tək heç niqab olmaz.
İftadəyə, bu gülzari-cahanda,
Hüsnün kimi şəmsi-afitab olmaz.

Əzəldən mən qönçə gülün dərmişəm,
Yüsif-Züleyxadan dərsim almışam,
Mən fələkin ayinəsin görmüşəm,
Yerdə hüsnün kimi mahitab olmaz.

Mən Qəribəm, artar ah ilə zarım,
Məhəbbət dərdinə həm giriftarım,
Tək sən ölmə, mənim gül üzlü yarım,
Kim deyər ki, qəriblərdən tab olmaz.

Bu zaman Ağcaqız gəlib çıxdı. Aldı, görək Qəribə nə dedi:

Qurbanın olayım, aman, ay Qərib,
Yar sənin gəldiyin indi anladı.
Siyahı çıxardıb, geydi alları,
Yar sənin gəldiyin indi anladı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ölüm xəbərini ona gətdilər,
Ciyərciyin deşik-deşik deşdilər.
Toy yerinə yas libasın bişdilər,
Yar sənin gəldiyin indi anladı.

Ananı, bacını sən qoydun, getdin,
Tiflis şəhərini unutdun, getdin,
Axır Şahsənəmi çox-çox şad etdin,
Yar sənin gəldiyin indi anladı.

Başıma olmuşdu zindan qonağı,
Atmaz idi heç tərəfə ayağı,
Hazır idi onda zəhər çanağı,
Yar sənin gəldiyin indi anladı.

Ağcaqız sözünü qurtarıb, hər ikisinin üzündən öpdü. Şahsənəm gəlin otağına girdi. Qərib bəylik paltarını geyinib, Sənəmin yanına gəldi. Şahsənəm istədi durub sarmaşa Qəribin boynuna, Qərib dedi:

– Mənə yaxın gəlmə, sənə Şahvəlødin əli dəyib. Qərib belə deyəndə Şahsənəm gözünün yaşını axıda-axıda saçlarından bir tel ayırıb, Qəribə nə dedi.

Aldı Şahsənəm:

Canım sənə qurban, qaragöz Qərib,
Bir rahat olmadım, yar, sən gedəli.
Əynimə geymişəm, yas libasını,
Geyib şadlanmadım, yar, sən gedəli.

Evimizin dalı xırda təpələr,
Orda yağış yağsa, burda səpələr,
Mücürümdə durur almaz kübələr,
Taxıb sallanmadım, yar, sən gedəli.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qışlar gəldi keçdi, yazlar açıldı,
Körpə quzu anasından seçildi,
Yeddi ildə on dörd bayram keçildi,
Gəzib dolanmadım, yar, sən gedəli.

Söz tamam oldu. Şahsənəm başladı ağlamağa. Qərib Şahsənəmi belə ağlar görəndə alıb sazın, görək onun ürəyin necə ələ aldı:

Dön bəri, dön bəri, bir üzün görüm[21],
Çoxdandı ayrıldım səndən, ax, Sənəm!
Bir-bir libasların tərif eyləyim,
Sən də geyin, qurşan görüm, qalx, Sənəm!

Mən görmədim sənin kimi gözəli,
Payız olcaq bağlar tökər xəzəli,
Dilin şəkər, dodağındır məzəli,
Gözüm nuri, dur, aynaya bax, Sənəm!

Dillərdə dastandır Tiflis alması,
Min tümənə dəyər saçın hörməsi,
Yar, sənə nə gətirdim Hələb xınası,
Ağ ələ yaraşır, al bir yax, Sənəm!

Yüz minlərə dəyər üzün yaşmağı,
İncə belə bağla qızıl qurşağı,
Ayağa geyibsən zərli başmağı,
Qərib deyir: dur aynaya bax, Sənəm!

Söz tamam oldu. Barışıb öpüşdülər. Yenidən Qərib toy eləyib, hər iki həsrətli bir-birlərinə çatıb, murad hasil elədilər.

Ustad sazı döşünə basıb, bu duvaqqapma ilə onun toyunu bağladı:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İstəyirəm ol xudadan,
Sən olasan yarım, gəlin!
Yolunda peşkeş eylərəm,
Küllü dövlət, varım, gəlin!
Apardın dinü imanım,
Səbr ilə qərarım gəlin!
Eylədin Məcnun məni,
Yoxdur namus, arım, gəlin!
Gəzdirdin divanə kimi,
Üzdün ixtiyarım, gəlin!

İxtiyarımı üzürsən,
Üzünə tel düzürsən,
İşvə, nazla gəzirsən,
Sən əzrayıl donunda,
Can almağa hazırsan,
        Canımı alasan,
        Başa salasan,
        Bir gəl yola sən,
        Göyçək balasan,
        Of, nə olar, ilahidən,
        Sən mənim olasan.
Həmişə sənlə keçə,
Xoşca ruzigarım, gəlin!

Dilbərim sənsən mənim,
Ay taza növrəstə gülüm!
Qabaqda tellər durur,
Dəstəbə həm dəstə, gülüm!
Hicranı çox çəkibən,
Mən düşmüşəm xəstə, gülüm!
Al yanaqdan bir busə,
Şəfqət elə dosta, gülüm!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Of, səni qucaqlayıb,
Basım bağrım üstə, gülüm!
    Qucaqlayım belin, yar!
    Sığallayım telin, yar!
    Sal boynuma qolun, yar!
    Ver əlimə əlin, yar!
    Aman, məni öldürür,
    Bu şirincə dilin, yar!
Həmişə sənlə keçə,
Xoşca ruzigarım, gəlin!

Ruzigar sənlə keçə,
Ey cahü cəlallı bala!
Qaməti şümşad kimi,
O sərvtək dallı bala!
Dil nabat, ağız şəkər,
Dodaqları ballı bala!
Gah gülür, gah oynayır,
Bu tərlan xəyallı bala!
Geyinib al-qırmızı,
Həm özü sığallı bala!
    Sığallıdır boy-buxun,
    Ağrın alım, gəl yaxın,
    Qoy doyunca bir baxım,
    Evini yıxdın çoxun,
    Sinəmə qoydun nişana,
    Bağırdan keçdi oxun,
And içim, inangılan
Sözümə, dilbərim gəlin!

    Oxun candadır,
    Qəsdin qandadır,
    Fikrin yandadır,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərdin məndədir.
Gözüm səndədir,
Dilin bülbüllü,
Saçın sünbüllü,
Yanağın güllü,
Nə incə belli,
Bircə rəhm etginən,
Aşığın öldü.
Öldürmə mən yazığı,
Ey şahü sərdarım, gəlin!

Öldürüb mən yazığı,
Olma bais qanə, gözəl!
Oynadıb qaş-gözünü,
Od salırsan canə, gözəl!
Alışıb piltə kimi,
Qaldım yana-yana, gözəl!
Sayiləm sədəqəyə,
Gəldim sən tək xanə, gözəl!
Bir busə elə zəkat,
Mən qərib mehmanə, gözəl!
Mehmanınam, ey nigar,
Gəl yanıma aşikar;
Vermə mənə intizar,
Öldüm, olma bixəbər,
Möhkəm yapış qolumdan,
Çıxdı canım, aman, yar!
Yarım, amandı!
Halım yamandı,
İşim ummandı,
Qəddim kamandı,
O narınc məmələrin
Dərdə dərmandı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağzıma yetir görüm,
Qoyurmu azarım, gəlin?!

Düşmüşəm azarına,
Dünya mənə dardı, əziz!
Xəstəyə dərman olan
Məmələrin nardı, əziz!
Sərbəsər var əndamın,
Taza yağan qardı, əziz!
Gürcüstan vilayətin,
Həm mahalın Çardı, əziz!
Kəndini soran olsa,
Ol Qımır-Bazardı, əziz!
Qımır-Bazar ölkəli,
Ağrın alım, gəl bəri!
Etdin məni sərsəri,
Hurisənmi, ya pəri!
Dürüst adın Əminədir,
Yoldaşın imiş Pəri,
Əminə adına qurban,
Əsən badına qurban,
Yandım oduna, qurban,
Şirin dadına qurban,
Hərdəm Mollacumanı,
Sal bir yadına, qurban!
Sevmişəm, gecə-gündüz
Dilimdə əzbərim, gəlin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## İRVAHIM

### USTADNAMƏ

Gümüş kəmər bağlayıbdı belinə,
Danışdıqca mail oldum dilinə,
Gül uzatdım nazlı yarın əlinə,
Canım aldı gülü məndən alınca.

Alimdən dərs aldım əlif-bey üçün,
Sürahilər düzülübdü mey üçün,
Dəli könül, qəm çəkirsən nə üçün?
Qəmli günün şad günü var yanınca.

Xəstə Qasım vədə verdi yüz ilə,
Yaşılbaşlar göldən-gölə düzülə,
Bir iyid ki, qatarından üzülə,
Ölüm yeydi bu dünyada qalınca.

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, rəqibin rəngi gül kimi solsun.

Əzəldən olmıya bədəsil övlad,
Avara söyləyər, başdan danışar,
Öyrədərsən qanmaz xeyrü şərini,
Dindirəndə yal-yamacdan danışar.

Aybına kor olub, bilməz adını,
Tanımaz dost, düşmən öz simsarını,
Məclisə girəndə bilməz yerini,
Ayaxda oturub, başdan danışar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Özündə şairlik görə bilməyən,
Bir kor qıza cavab verə bilməyən,
Uçuq həyətini hörə bilməyən,
İmarət qurdurub, daşdan danışar.

Mən üzmərəm mərd əlindən əlimi,
Yoxdu bədəsilə tanrı ölümü,
İldə onca qəpik olmaz gəlimi,
Yük yığanda beş farmaşdan danışar.

Qayda deyil dost üzünü açmağa,
Layiq deyil qonşuya dolaşmağa,
Bir tay ulağı yox cütə qoşmağa,
Eldən qabaq durub, köçdən danışar.

Danışar yalandan sözü olmayan,
Çörəyə tökməyə duzu olmayan,
Evində beş arşın bezi olmayan,
Dindirəndə al-qumaşdan danışar.

Dost tutaram mən hər kəsi düşəndə,
Sən getginən dava səsi düşəndə,
At, inəyin, kəlin bəhsi düşəndə,
Çoxu bir ələnçə leşdən danışar.

Yaranmış insanda çoxu avara,
Qandıra bilmirəm, gəlmişəm zara,
Var-yoxunu verib üç-dörd davara,
Toğluyu tum deyib, qoçdan danışar.

Qəhrəman, iqbalın tərsə dolanmaz,
İnsan var ki, ondan qəlbin bulanmaz,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İnsan var evində ələk bulanmaz,
Dindirəndə beşdən-beşdən danışar.

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək, üç olsun.

Namərd odu çağırıban
Kimsəyə əl eləməz.
Nə oturub söhbət elər,
Nə dərdi-hal eləməz.
Beyqafıldan yolun düşüb,
Getsən namərdin evinə,
Sənə qonaq ol deyibən,
Bir gecə qol eləməz.

Namərdlərin qaydasıdı,
Mehmanı görsə tez qaçar.
İnsana bir loxma versə,
Canı cəsədindən uçar.
Özü gedər özgəsindən
Daima yeyər, içər.
Bircə qula təklif edib,
Öz evinə gəl eləməz.

Kamal deyər: namərd gəzib,
Hazır yeməyi bilər.
Yad süfrədə şaqqıldayar,
Bülbül kimi səyriyər.
Heç deməz ki, bu namərdlik
Məni rüsvay eləyər,
Gör nə qədər anlamazdı,
Onu xəyal eləməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belə rəvayət eləyirlər ki, Rey şəhərində Zülal şah adlı bir padşah var idi. Ustadların deməsindən Zülal şah çox ədalətli bir şah imiş. Zülal şahın qapısının ağzında neçə əyyamdan qalmış bir çinar ağacı var idi. Hər il bahar ayı olanda çinar ağacının başına bir cüt göyərçin gəlirdi. Ağacın başında onların yuvası var idi. Göyərçinlər yuvalarında yumurtlayıb, balalayır, balalarını böyüdüb, sonra da özüylə aparırdı. Ancaq bir bahar Zülal şah gənə tamaşa eləyirdi. Bir də gördü ki, həmən göyərçinlər gənə gəldilər, yumurtduyub, bir cüt bala çıxartdılar. Göyərçinlər balalarını böyütdülər. Zülal şah gördü ki, bu quşlar o qabaqda gördüyü quşlar kimi deyil. Çünki birinin rəngi ayrıdı, birininki də ayrı. Bu göyərçinlər gəlib balalarını dimdiklərilə vurub öldürdülər. Başladılar özlərinə təzə bala hazırlayıb aparmağa. Zülal şah bu əhvalatı gördü.

Zülal şahın iki oğlu varıdı. Böyüyünün adı Aslan idi, balacasının da adı İrvahım. Şah istədi bilsin, görsün balalarını öldürən göyərçin erkəydi, yoxsa dişi. Şah öz-özünə dedi: «Yəqin mən də ölsəm, mənim uşaqlarımı da belə öldürəcəklər. Arvadım ölsə, onda mən gedib birini gətirsəm, o arvad yəqin uşaqlarımı belə öldürəcək».

Şah bu xiyalı ürəyində vurnuxdururdu. Deyirlər vaxt oldu, şahın arvadı dünyadan köç eylədi. Şah çox fikir elədi. Öz-özünə dedi ki, quşların dağı yadımdan çıxmayıb, odur ki, mən ölüncə evlənməyəcəyəm.

Deyirlər ki, subay adamın hövsələsi çox dar olar. Odu ki, arvadı öləndən sonra şahın höysələsi daraldı, camaata çox zülm elədi. Onun zülmü ərşə dayandı. Ağıllı kişilər yığılıb fikirləşdilər ki, şah əvvələr camaata zülm eləmirdi, indi yəqin övsüzdü, ona görə belə eləyir. Yaxşısı budur ki, onu evləndirək. Ağıllı kişilər bir neçəsi padşahın yanına gedib dedilər:

– Ey qibleyi-aləm, gəl səni evləndirək. Belə iş olmaz, qayda belədi, arvadı ölən evlənər.

Zülal şah bunların sözünə razı oldu. Vəzirin biri dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ey camaat, indi ki, Zülal şah evlənməyə razılıq verdi, onda Misir şahı bu yaxınlarda ölübdü. Onun arvadı dul qalıbdı. Nə cür olsa şah arvadıdı. Gəlin elə Zülal şaha həmən arvadı alax.

Zülal şah dedi:

– Vallah, mən nə deyirəm, camaat deyən yaxşıdı.

Adamlar getdilər Misirdən ölən şahın arvadını gətirməyə.

Zülal şah çox qocalmışdı. Misirdən arvadı götürüb gələndə yoldan çapar gəldi, Zülal şaha xəbər verdi:

– Qibleyi-aləm, arvadı gətirirlər.

Nə arvad şahı, nə də şah arvadı görməmişdi. Zülal şahın oğulları bir-birinə dedilər:

– Ay qardaş, gəl hərəmiz bir xonça tutax, gedək təzə anamızın qabağına.

Bəli, bunlar hərəsi bir qəşəng xonça tutub, getdilər analıqlarının qabağına. Analıq uzaqdan baxıb gördü ki, bir cüt oğlan gəlir ki, elə bil bir ay parçasıdırlar. Arvadın xəyalından keçdi ki, əyər mənim ərim bu oğlanların biri olsa, on illik ömrümü bağışlaram. Arvadı gətirdilər şahın öyündə öz otağına. Arvad fikir elədi ki, indi yəqin bu oğlanların hasısa biri gələr. Birdən qapı açıldı, içəri bir qoca kişi girdi. Saqqal sallanıb, belində qurşaq, əlində əsa. Arvad dedi:

– Ey qoca, məni sənəmi gətiriblər?

Şah dedi:

– Bəli.

Gecəni yatdılar. Səhər yerindən duranda Zülal şah bir ah çəkdi. Arvad şahın ətəyindən çəkdi ki, de görüm niyə ah çəkdin, dedi:

– Yəqin sənin köhnə arvadın məndən yaxşı, ağıllı olub ki, sən belə ah çəkdin.

Zülal şah dedi:

– Vallah, elə düz deyirsən.

Arvad dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Onda arvaddan qalan bir övlad varmı, gətirin onu mənim yanıma. Onnan mən bir-iki kəlmə danışsam, o saat biləcəm ki, onların anası necə arvad olub.

Bəli, Zülal şahın uşaqları mədrəsədə oxuyurdular. O saat adam getdi, uşaqları gətirdilər arvadın yanına. Arvad gördü ki, yolda gördüyü oğlanlardı, dedi:

– İlahi, şükür, nə yaxşı oldu ki, bular gəldi.

Baxdı ki, Aslan böyükdü, bunun ağlını oğurlaya bilməz. Odu ki, ona dedi:

– Oğul, sən get dərsini oxu.

İrvahım balaceydi: arvad fikirləşdi ki, bunun ağlını oğurlaya bilərəm. Odu ki, onun üzündən öpüb yanında saxladı, dedi:

– Qoyun bu mənim yanımda qalsın, bunu özüm tərbiyə eləyim.

Bir neçə vaxtdan sonra arvad dedi:

– Oğul, elə sənin atanın otağı təkcə budu?

İrvahım dedi:

– Ana, yox atamın qırx otağı var.

Arvad dedi:

– Oğul, dur otaqları gəzək.

Otaqları gəzib qırxıncıya girəndə arvad qapını örtdü, dedi:

– İrvahım, bilirsənmi səni bura niyə gətirmişəm?

İrvahım dedi:

– Ana, bilmirəm.

Arvad dedi:

– İrvahım, gərək mənnən başbir eləyəsən.

İrvahım dedi:

– Ana. Elə şey olmaz, sən mənim anamsan.

Arvad İrvahıma əl atmaq istədi. İrvahım arvadın ağzının üstündən bir şillə vurdu, özü çıxıb qaçdı. Arvad düşündü ki, gedib atasına xəbər verəcək. Odu ki, bu tərəfdən özün yetirdi şahın qulluğuna, dedi:

– Ey sənin zülallığın başına dəysin, çox deyirdin ki, mən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zülalam, uşaqlarım da özüm kimidi. Amma bu sənin balaca oğlun İrvahımın əlindən bir təhər qurtardım. Əyər böyüyü olsaydı, məni beyhörmət eləyərdi. Bəs hal-qəziyyə – mənə sataşdı.

Zülal şah bu sözü eşidən kimi qəzəbləndi, «cəllad» deyib dad döydü. O saat cəlladlar hazır oldu. Şah əmr elədi ki, bu saat Aslannan İrvahımı çəkin dar ağacına. Camaat əhli, ağıllılar irəli yeriyib dedilər:

– Şahlar arasında səni töhmət eləyərlər, ayıbdı, öz övladını asdırma. İndi ki, qəzəbin tutub, öz torpağından sürgün elə, qoy çıxıb hara gedirlər getsinlər.

Şah camaatın sözünü qəbul eləyib, uşaqlarını sürgün elədi. Uşaqlar dedilər:

– Ata, biz ki, gedirik, hara çıxsaq orda kim soruşsa biləcək ki, biz sənin oğlunuq. Pulsuz-parasız biz hara gedək? Heç olmasa bir az daşdan-qaşdan ver, satıb xarclayax.

Şah əmr elədi:

– Gedin, xəzinədən hərəniz bir daş götürün.

Bunlar ikisi də getdilər xəzinəyə. Aslan bir qiymətli daş götürdü, İrvahım dedi:

– Qardaş mən istəmirəm. Çünki bu xəzinə hamısı mənim idi. Onda bu xəzinə mənə nə xeyir verdi ki, indi bir daş nə xeyir verə. Odu ki, mən istəmirəm.

Bu sözdən sonra Aslan İrvahımın daşını da özü götürdü. Cəlladlar hər iki uşağı qabaqlarına qatıb apardılar, Misir torpağına buraxıb qayıtdılar. Bu uşaqlar ərkəsöyün böyümüşdülər, isti-soyuq görməmişdilər. Ayaqyalın, başaçıq düzün düzündə qaldılar məhətdəl, bilmədilər neyləsinlər. Aclıqdan korluq çəkirdilər. Bir təpənin başında bir şenlik görünürdü, Aslan dedi:

– Qardaş, orda diyən kör-kösək var. Gəl gedək ora, bəlkə yeməkdən-zaddan tapdıq. Aslan İrvahımı dalına alıb, düz apardı ora.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gethaget, gedib gördülər bura bir məzarıstanlıqdı, içərisində də bir ağ künbəz var idi. Aslan dedi:

– Qardaş, bu viranlığın yəqin kənarında şennik də olar. İndi, İrvahım sən gəl qal bu günbəzdə, mən gedim bu yerlərin şəhərinə, bir az yeməkdən-zaddan tapım.

Aslan İrvahımı burda qoyub, özü getdi Misir şəhərinə çıxdı. Şəhərə girəndə gördü ki, məxluqat məmə deyənnən pəpə deyənə hamı bura yığılıb. Aslan bir qocaya yanaşıb dedi:

– Əmi, burda nə olub ki, camahat belə yığılıb?

Qoca dedi:

– Oğul, görürəm ki, sən bura adamı döyülsən. Bura Misir şəhəridi. Bizim padişah rəhmətə gedib. İndi bugün hamı yığılıb, dövlət quşu uçurdacaqlar. Bu quş hər kimin başına qonsa onu padşah tikəcəklər.

Aslan dedi:

– Gedim, durum bir kənarda, təzə padişah seçiləndə dərdimi ona deyərəm, bəlkə mənə bir kömək elədi.

Aslan gördü quşu uçurtdular. Deyirlər ki, allah əmriynən quş göydə dövr-eliyib, gəldi qondu Aslanın başına. Odu ki, camahat hərəsi bir yumuruq, bir qapaz Aslana vurub dedilər:

– Sən hara, padişahlıq hara?! Bir yolçunun birisən, get işinə-gücünə!

Aslanı vura-vura aparıb bir uçuq dama saldılar ki, qoy bunu quş görməsin. Quşu bir də uçurtdular, bu dəfə də quş damın bacasından girib qondu Aslanın başına. Vəzir-vəkil istədilər Aslanı döyüb qovalar, ağıllı kişilər dedilər:

– Ay balam, bu iş yəqin olmalıdı. Gedin damın bacasından qulaq asın görün o, quşnan nə danışır.

Baxıb gördülər ki, Aslan quşa deyir: Ey quş, mən vaxtilə Zülal şahın oğluydum. Orda nə oldum ki, burdu da nə olam, niyə gəlib mənim başıma qonursan?

Adamlar bu sözü eşidib gəlib xəbər verdilər. Ağıllılar genə məsləhət elədilər ki, elə yaxşı oldu, onsuzda şah oğludu. Şah-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lığı bacarar, odu ki, ağsaqqal, qarasaqqal yığışıb, Aslanı qoydular şah. Aslan şah olandan sonra başı işə qatışdı, qardaşı İrvahım yaddan çıxdı. Bu burda padşahlıqda qalmaqda olsun, ərz eləyək İrvahımdan.

İrvahım acından çox korluq çəkdi, bir də fikirləşdi ki, bəlkə Aslan yolu azıb. Odu ki, çıxdı günbəzin başına, bir qardaş deyib səslədi ki, bəlkə Aslan eşidə. Qırx haramı İrvahımın səsini eşitdi. Bunların başçılarının adı da Ziyad haramı idi. Bular hər yeri gəzib, adamları soyurdular. Adamları öldürüb, ətindən, yağından dərmandan-zaddan qayırırdılar. Ziyad haramının övladı yox idi, sonsuz idi. Haramılar İrvahımı günbəzin başından yerə saldılar. Onu qılışlamaq istəyəndə İrvahım ağladı. Haramıbaşı bunu gördü, dedi:

– Ay bala, niyə ağlayırsan? Dünyada hamı öləcək, sənin ətin-qanın bizə lazımdı.

Bu yerdə aldı İrvahım, görək nə dedi:

Əzəl başdan sənə xəbər verəyim,[1]
Gözüm yolda qaldı, gedən gəlmədi!
Xancal alıb, bağrım başın teyləyin,
Gözüm yolda qaldı, gedən gəlmədi!

Dizim tutmur, özümü sənə yetirim,
Əmr eylə qulluğunu bitirim.
Qardaş dedi: gedim taam gətirim;
Gözüm yolda qaldı, gedən gəlmədi!

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Qürbət eldə cavan ömrüm ağlıyam.
İrvahımam, Zülal şahın oğluyam,
Gözüm yolda qaldı, gedən gəlmədi!

Haramılar dedilər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul haralısan, kimin oğlusan?
İrvahım götürüb dübarə dedi:

Başına döndüyüm, haramıbaşı,[2]
Öldürmə, allaha bağışla məni!
İtgin qardaş bağlamazmı yaramı,
Öldürmə, allaha bağışla məni!

Bahar oldu, soyuq sular bulanı,
Göz-göz olu yaralarım, sulanı,
Qardaş gəlib günbəz dibi dolanı,
Öldürmə, allaha bağışla məni!

İrvahımam, bu dəryaya adayam,
Adım çıxıb, al-osmanda sədayam,
Zülal şah oğluyam, bil, şahzadayam,
Öldürmə, allaha bağışla məni!

Ziyad haramı dedi:

– Ey mənim yoldaşlarım, qırx ildi ki, biz vurub kəsirik. Nə olar ki, bunu da öldürməyək. Siz gəlin bunu öldürməyin, mənim oğlum yoxdu. Bunu verin mənə, oğulluğa götürüm.

Haramılar razı oldular. Ziyad haramı İrvahımı götürüb apardı evinə. Ziyad haramı İrvahımı aparmaqda olsun, sizə xəbər verim Aslandan. Aləmi-vağıyada Aslan qardaşını gördü. Gördü ki, İrvahım deyir ki, ey qardaş, adam da qardaşını yaddan çıxardarmı? Aslan yuxunu görən kimi öz vəziri Sirri-Sübhanı yanına çağırtdırdı. Bu çox qoca kişiydi, özü də neçə padşahlara qulluq eləmişdi. Aslan ona dedi:

– Vəzir, belə yuxu görmüşəm, qoşun hazır elə.

Vəzir dedi:

– Hara gedirik?

Aslan şah dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məzarıstana gedəcəyik.

Qoşun əhli cəm oldu. Padşah, vəzir atlanıb qoşunla məzarıstana getdilər. Aslan şah adamları kənarda qoyub dedi:

– Camaat, siz burda durun, mən gedim o günbəzdə bir söz oxuyum gəlim.

Sirri-Sübhanla ikisi getdilər günbəzə. Aslan şah gördü İrvahım yoxdu. Götürüb, görək nə dedi:

Alçaqdan ucaya çəkilsin başın,
Məzar sandıq, İrvahımı neylədin?
Atılsın kərpicin, qalmasın daşın,
Məzar sandıq, İrvahımı neylədin?

Qalalar içində möhkəm qalasan,
İyidlər başına yaman bəlasan;
Qarğamıram səni viran qalasan,
Məzar sandıq, İrvahımı neylədin?

Aslan şaham, qəm evində yatmışdım,
Dərdi-qəmə hərdən mən də batmışdım,
İrvahımı burda qoyub getmişdim,
Məzar sandıq, İrvahımı neylədin?

Vəzir dedi:

– Qibleyi-aləm, İrvahım kimdi?

Aslan ona görək nə dedi:

Çarxı-fələk bizim ilə yağıdı,[3]
Qoymaz öz mülkümdə qala dərdimi.
Axır bir gün bu ölkəni dağıdar,
Çıxartmadım bir məkana dərdimi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərdim üçün hər kəs gəlsə vermərəm,
Bir gün gülsəm, bir gün şadlıx görmərəm.
Özüm öz dərdimi çəkə bilmərəm,
Fələk versin bir çəkənə dərdimi.

Aslan şaham, qəm evində nökərəm,
Dost bağında qızıl güllər əkərəm.
Özüm öz dərdimi pünhan çəkərəm,
Deyə bilməm hər yetənə dərdimi.

Aslan şah məzarıstandan qayıdıb gəldi öz şəhərinə.

Deyirlər, Aslan şahın ölkəsində dəryanın ortasında cəzirədə yaşayan bir Gavdan adlı paşa vardı. Gavdan adamları gəmiynən keçirəndə kim ona pul verməsə onu suya atıb öldürürdü. Aslan Gavdanı yanına çağırdı, çoxlu pul verdi ki, camaata dəyməsin. Özü də belə bir əmr verdi, onun torpağından keçənlərdən vergi almasın.

Aslan şah Sirri-Sübhanı vəzirlikdən çıxartmışdı, çünki Məzarıstanda vəzir Aslandan xəbər almışdı ki, de görüm İrvahım kimdi? Aslan da deməmişdi. Odu ki, bir-birindən naincik idilər. Bunlar qalsın burda görək İrvahım neylədi?

Ziyad haramının arvadı Şarabanı İrvahımı köynəyinin yaxasından keçirib dedi:

– Sən bu gündən mənim oğlumsan.

Aslan günbəzdən gedəndə atasının xəzinəsindən götürdüyü daşın birini vermişdi İrvahıma. İrvahım da həmən daşı verdi Ziyad haramıya. Ziyad haramı da çox varlı adam idi. Bir gün Şarabanı dedi:

– Ay kişi, mən köhnələrdən bir şey eşitmişəm:

El malı elə qalı,
Ye öz malın, sür dövranın,
Yeməzisən elə qalı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün haramıların başçısı dedi:

– Ay haramılar, daha mən haramılıq eləmək istəmirəm.

Haramılar nə qədər elədilərsə Ziyad haramı razı olmadı. Haramılar öz aralarında sözləşdilər ki, Ziyad haramını bizdən ayıran bu uşaq oldu. Gəlin onun başını batıraq, bəlkə Ziyad təzədən bizə qoşula.

Amma uşağı öldürməyə qorxurdular. Elə bu fikirnən çıxıb gedirdilər, yolda qabaqlarına bir ombası batıq qarı çıxdı, dedilər:

– Ay qarı, buralarda nə gəzirsən, qorxmursanmı səni qurt-quş yeyib tələf elər?

Qarı dedi:

– Ey uşax-muşaxlar, dindirməyin məni, bir fışqırıq çəkərəm bütün Misrin şəhəri od tutub yanar.

Odu ki, hərənin cibində nə varıdı qarıya verib dedilər:

– Qarı, Ziyad haramının öyündə bir gədə var, onu öldürsən nə istəsən sənə verərik.

Qarı dedi:

– Yaxşı, gedin, eşirdərsiniz.

O biri tərəfdən, Ziyad haramı İrvahımı da götürüb ova getmişdi. Qarı tumanını çəkə-çəkə gəldi Ziyad gilə. Ziyad haramının arvadı Şarabanı qapını açıb dedi:

– Ay qarı, niyə gəlmirsən?

Qarı dedi:

– Niyə gəlim, indiyə kimi təmiz adınız var idi, indi bir bicin birini gətirib adınızı beddam eliyibsiniz, bir çıxın şəhərə görün nələr danışırlar?

Şarabanı dedi:

– Ay qarı, nə danışırlar?

Qarı dedi:

– Heç nə, həmən bic İrvahım hamıya deyib ki, Ziyad haramını öldürüb, arvadını da özüm alacam.

Arvad dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qarı, arxayın ol, qoy gəlsin, gör onun başına nə iş gətirəcəm.

Qarı dedi:

– Çəpəl, mən sizə gəlmirdim. Əlimin biri qapıya dəydi, o dünyada o əlim od tutub yanacaq. İndi sən istəyirsən ki, sizdə oturum bütün bədənim yansın?! Mən elə iş eləmərəm, – deyib tərpəndi. Ziyad haramı ovdan qayıdanda İrvahım qabaqca içəri girdi, anasına salam verdi. Anası salam almayıb dedi:

– A bic oğlu, mən səni gətirdim özümə oğul eləməyə, amba sən bura gəlibsənmiş ki, ərimi öldürüb məni alasan? İrvahım bu sözü eşidən kimi, qara baxtından şikayət eləyib getdi, töylədə doyunca ağladı.

Ziyad haramı gələndə arvad dedi:

– O gətirdiyin uşağı bu saat aparıb öldürərsən, yoxsa bu saat mənim kağızımı ver, boşa.

Ziyad əhvalatı biləndən sonra dedi:

– Arvad, bilirsən nə var?

Arvadı dedi:

– Nə olacax?

Ziyad haramı dedi:

– Hindişi, ara işi,
Özün gör, özün danış,
Öy yıxar ara işi.

Ziyad haramı İrvahımı yanına salıb apardı öldürməyə. Yolda Ziyad haramı İrvahıma əhvalatı söylədi, dedi:

– Zalım oğlu, mən sənə neyləmişəm ki, sən bu fikrə düşübsən?

İrvahım dedi:

– Ziyad haramı, bu böhtandı, özün görürsən ki, mən heç bir iş görməmişəm. İndi nə qədər and içsəm də inanmayacaqsan.

Ziyad haramı gördü ki, İrvahımın günahı yoxdu, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, sən məndən qabaq gəldin, öyə girəndə nə gördün?
İrvahım dedi:
– İcazə ver deyim.
İrvahım aldı, görək nə dedi:

Başına döndüyüm, haramıbaşı,
Doğru yetiş dərdi-dillərə sən də.
Ayağına dəyməsin yolların daşı,
Doğru yetiş dərdi-dillərə sən də.

Əzizlərim yada salıb aldırdı,
İtgin qardaş odu məni yandırdı,
Beyman qarı məndən yaman qandırdı,
Doğru yetiş dərdi-dillərə sən də.

İrvahım deyərlər mənim adıma,
Damanda qalmışam, yetiş dadıma.
O vaxt düşdüm bir çəpəlin oduna,
Doğru yetiş dərdi-dillərə sən də.

Ziyad haramı dedi:
– Oğul, bilirəm, bu işə bais o qarıdı. Səni indi aparıb o günbəzdə qoyacam, qarını da gətirərəm ora, sizi üzləşdirəcəm. Əyər bu söz doğru olsa, sən gününə baxarsan, yox, yalan olsa, onda qarının gününü görərsən.
Odu ki, İrvahımı gətirib günbəzdə qoydu. Ziyad haramı getdi qarını axtarmağa. Ustadlar deyirlər ki, İrvahım günbəzdə yatıb, vağyada gördü ki, Heratda Fətəli xanın qızı Hüreynisə xanımı ona buta veriblər.
İrvahım başladı Herata getməyə. Bir qədər gedəndən sonra, yolda Xoca Hasan adında bir sövdəyərə rast oldu. Xoca ona dedi.
– Oğul, hara gedirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İrvahım götürüb dedi:

Başına döndüyüm bəzirgan xoca,[4]
Xoca, bir yar deyim, ver nişan barı;
Malın qismət olsun gedəsən haca,
Xoca, bir yar deyim, ver nişan barı.

Aldı Xoca:

Oğul, mən alım sənin qadanı,
Oğul, sən adını de, mən nişan verim.
Bir də danış, eşidəyim sədanı,
Oğul, sən adını de, mən nişan verim.

Aldı İrvahım:

Dəryalar içində dərin adadı,
Sağılar içində dürlü baladı.
Herat şəhərində bir xanzadadı,
Xoca, bir yar deyim, ver nişan barı.

Aldı Xoca:

Mən gələndə seyvanda durmuşdu,
Ağ üzündə halqa birçək burmuşdu,
Firəngi qayçıynan telin vurmuşdu,
Oğul, sən adın de, mən nişan verim.

Aldı İrvahım:

İrvahımam şirin candan bezaram,
Dərsimi oxuyub özüm yazaram,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə müddətdi yar soraqnan gəzərəm,
Xocam bir yar deyim, ver xəbər barı.

Aldı Xoca:

Xoca Hasan xocaların gözüdü,
Aşıqların söhbətidi, sözüdü;
İndi bildim: Fətəli xan qızıdı,
Oğul, sən adın de, mən nişan verim.

Xoca dedi:

– Oğul, mən də Herata gedirəm.

İrvahımı da dəvənin belinə mindirib apardı. Hüreynisə xanım da vağıyada görmüşdü ki, İrvahım dəvənin belində gələcək. Qızlara dedi:

– Qızlar, mən vağıyada gördüyüm oğlan bu boyda, bu nişanda gəlib dəvənin üstündə burdan keçəcək. Kim onu mənə görüb desə, bu boyunbağımı ona verəcəm.

Qızlar yolun kənarını kəsib gözləyirdilər. Kök qızlar hamısı gözlədi, yorulub yatdılar, amma cin qaravaş (arıx qız) boyunbağının ucuynan barmağını yarıb, içinə duz basdı, sabahatan yatmadı. Bir də gördü ki, sabaha yaxın qəflə-qatırın ağzı açıldı. Qız o saat gedib xanıma xəbər verdi. Hüreynisə xanım gəldi qəflə-qatırın yanına. Xoca Hasanın bir cürəsi varıdı, onu bağışlamışdı İrvahıma. İrvahım dəvənin belindəydi, qız umutluydu ki, düşüb bu otağa gələcək, amma gördü yox, İrvahım heç düşmədi. Qız dedi: sevdəyər başı, xahiş eləyirəm bir qəflə-qatırını əylə. Sevdəyər o saat qəflə-qatırı əylədi. Qız götürüb dedi:

Çiyni sazlı gedən oğlan,[5]
Oğlan, gəl bəri, gəl bəri!
Məni dərdə salan oğlan,
Oğlan, gəl bəri, gəl bəri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İrvahım Hüreynisəni gördü, amma tanımadı. Aldı, cavabında görək nə dedi:

Balqonunda duran gözəl,
Qayıdıb gələ bilmərəm.
Bir yarım var səndən gözəl,
Qayıdıb gələ bilmərəm.

Aldı qız:

Hər küçənin gözü mənəm,
Aşıxların sözü mənəm.
Fətəli xanın qızı mənəm,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı İrvahım:

Dağlar başı dumandı,
Dindirmə halım yamandı;
Yarımın adı cahandı,
Qayıdıb gələ bilmərəm.

Aldı qız:

Hüreynisə sözü belə,
Ördəyinən qazı belə.
Fətəli xan qızı belə,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı İrvahım:

İrvahımam, dəryaya dalmaram,
Canımı oda salmaram,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yolçuyam, yolda qalmaram,
Qayıdıb gələ bilmərəm.

Qızların içində elələri varıdı ki, Nuhdan qalma kəməndçi idilər, pəhlivanlığı da bilirdilər; gördülər oğlan düşməyəcək, tez kəmənd atıb, oğlanı dəvənin üstündən seyvana çəkdilər. Sövdəyər gördü yox, bunlarnan bacara bilməyəcək, odu ki, başladı yolunu tutub getməyə.

İndi otaqda Hüreynisə xanım oğlanı görəndə götürdü, görək ona nə dedi:

Qızlar, tez qalxın ayağa,
Budu, yar gəldi, yar gəldi!
Canımdı ona sadağa,
Budu, yar gəldi, yar gəldi!

Qızlar, qalxın peşvazına,
Budu, yar gəldi, yar gəldi!
Mən dözə bilməm nazına,
Budu, yar gəldi, yar gəldi!

Hüreynisəyəm, budu sözüm,
Budu, yar gəldi, yar gəldi!
Bu fərağa necə dözüm?
Budu, yar gəldi, yar gəldi!

Aldı İrvahım cavabında:

Uca-uca dağ başından
Mən səni görməyə gəldim.
Müştağ idim dildarına,
Bir salam verməyə gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qürbət elə düşüb işim,
Çox bəlalar çəkib başım,
İtirmişəm şah qardaşım,
Gülünü dərməyə gəldim.

Uca dağlar başı qardı,
Bağçalar gətirən bardı;
İrvahımdı, sənə yardı,
Qoynuna girməyə gəldim.

Xoşnəvaziş elədilər, bir-birindən əhval-pürsan oldular. Bir qədər oğlan qızın yanında qalannan sonra qız İrvahıma dedi:

– Sən indi get bir qədər də kənar bir öydə qal. Atam bu işdən xəbər tutar, yaxşı olmaz.

İrvahım şəhərə çıxıb gördü ki, bir qoca kişi bazarda halva satır. Camaat dağılandan sonra İrvahım gəldi halvaçının yanına. Kişi gördü ki, bu aşıqdı, dedi:

– Oğul, nə işin var?

İrvahım ondan yer istədi.

Kişi dedi:

– Yerim yoxdu.

Qoca çıxıb öyünə getmək istəyəndə İrvahım dedi:

Başına döndüyüm, ay Musa xoca,[6]
Xoca, mən qəribəm axşam bazarı.
Varın qismət olsun, gedəsən haca,
Xoca, mən qəribəm axşam bazarı.

Musa cavabında dedi:

Başına döndüyüm, qurban olduğum,
Oğul, nədi sən qəribin güzarı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Alışıb oduna büryan olduğum,
Oğul, nədi sən qəribin güzarı?

Aldı İrvahım:

Aləm bilir mən canımdan doymuşam,
Ağ əllərim al qanıma boymuşam,
Taxt-tacım İreydə qoymuşam,
Xoca, mən qəribəm axşam bazarı.

Aldı halvaçı Musa:

Səbəb nədi sən canınnan doymusan,
Ağ əllərin al qanına boyursan?
Təxti-şahı o İreydə qoyursan,
Oğul, nədi sən qəribin güzarı?

Halvaçı Musa İrvahıma dedi:

– Oğul, mən səni nökər yox, özümə oğul eləyirəm.

İrvahım razı olub, burada qaldı. Bunlar burada qalsın, sizə kimdən deyək, Dağıstanda Şəmi Qaradan. Şəmi Qara sövdəyər sifətində gəzərdi. Amma bu elə savadlıydı ki, cəmi işlərdən başı çıxırdı. Əfsun oxuyub, dəmiri qızıl eləyirdi. Dağıstan ölkəsində Süleyman xanın Xeyransa xanım adında bir qızı varıydı. Xeyransa xanım cümə günündə hamamdan gəlirdi. Şəmi Qara bunu gördü. Qızdan çox xoşu gəldi. Xəbər aldı ki, bu kimin qızıdı? Dedilər:

– Süleyman xanın.

Adam göndərdi, Süleymana ki, qızını mənə ver. Süleyman xan cavab verdi:

– Əyə, sən əlli yaşında, mənim qızım on beş yaşında; tutax ki, elə mən qızımı verdim, sənin insafın necə qəbul eləyər onu alasan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şəmi Qara cavab verdi:
– Xan, heç sənin qanacağın yoxdu. Axı sən bilmirsən mən sənin qızını özümə istəyirəm, yoxsa oğluma?
Süleyman xan dedi:
– Bizim Dağıstanda bir qayda var. Get, oğlunu gətir, bir-birini görsünlər, bəyənsələr, verərəm.
Bu sözdən sonra Şəmi Qara yol başdıyıb, oğul axtarmağa getdi; özünün oğlu-zadı yox idi. Gəlib çatdı Herat şəhərinə. Gördü ki, bir dükanın qabağında yığınax var. Getdi ora, gördü burda çox mərifətli, bacarıqlı, gözəl bir oğlan var. Özü də halva satır.
Hamı ondan halva alır. Şəmi Qara oğlanı görən kimi xoşuna gəldi, gedib İrvahımın yeddi arxa dolananının hamısını öyrəndi. Camaat əhli dağılıb gedəndən sonra İrvahımın boynundan tutub, əl çəkmədi ki, bəs mən sənin əminəm; hər şeyi elə yerbəyeriynən özü dedi ki, İrvahım inandı. Şəmi Qara İrvahıma özü düzəltdiyi kağız-kuğuzu hər gecə oxuyurdu ki, onun başın qatsın. İrvahım onun oxumasından lap təngə gəlmişdi. Bir gün gənə Hüreynisə xanım İrvahımın yadına düşdü, odu ki, xəlvətcə əkilib onun yanına getdi. Demə Hüreynisə xanım yuxuda görübbüş ki, Şəmi Qara İrvahımı alladıb oğurlayacaq. Odu ki, qız aldı, görək İrvahıma nə dedi:

Başına döndüyüm, qurban olduğum,[7]
Sən gedirsən Dağıstana, İrvahım.
Alışıb oduna büryan olduğum,
Sən gedərsən Dağıstana, İrvahım.

Aldı İrvahım cavabında:

Badi-səba yuxusundan oyanmış,
Zənax verir Dağıstana gözlərin.
Kirpiyin neştərdi, tökür qanımı,
Gedər ki, qəsd etsin cana gözlərin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Hüreynisə:

Əmdik, əmdik yarın ləbindən, qandıq,
Şam-pərvanə kimi odlara yandıq,
O Şəmi kəsdirdi boyuna sandıq,
Sən gedirsən Dağıstana, İrvahım.

Aldı İrvahım:

Ol Şəmi burada bir qılınc asdı,
Gedəni, gələni sındırdı, basdı:
Heratın şəhrini almaqdı qəsdi,
Zənax verir Dağıstana gözlərin.

Aldı Hüreynisə:

Eşitmədin Hüreynisə sözünü,
Sinəmə qoyubsan eşqin közünü,
Sən görərsən Firəng şahın üzünü,
Sən gedirsən Dağıstana, İrvahım.

Aldı İrvahım:

Ol Şəmi burada bir qala yapdı,
Gedəni gələni sındırdı, çapdı,
Aradı, axtardı, İrvahımı tapdı,
Qoy ağlasın yana-yana gözlərin.

İrvahım gecə qızın yanında qalıb, sabah getdi tükənə. Amma Şəmi Qara bir yekə sandıq çəkdirmişdi ki, İrvahımı ona qoyub Dağıstana aparsın. İrvahımı yuxu tutmuşdu. Elə bu vaxt Şəmi onu apardı öyə. İrvahım çox yorulmuşdu. Şəmi Qara fürsəti fota verməyib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, gəl sən bir az yat, yorğunluğunu al.

İrvahım yatan kimi, Şəmi Qara bir sehr oxuyub onu elədi ət kimi. Tez sandığa salıb, ağzını örtdü. Şəmi Qara sandığı götürüb yola düşdü. Qız bilirdi ki, yol onun öyünün qabağından keçir, hara getsələr buradan keçəcəklər. Odu ki, yolun üstünə çıxdı. Şəmi Qara dəvənin üstündə İrvahımı qoyduğu sandığın bir balaca ağzını açmışdı. Qız aldı, görək ağlaya-ağlaya nə deyir:

Şəmi Qara, sən allahı sevərsən,[8]
Şəmi Qara, gəl aparma yarımı!
Böyük bütü kiçik bütdən seçərsən,
Şəmi Qara, gəl aparma yarımı!

Qul istəsən sənə çox qul verərəm,
Pul istəsən min tümən pul verərəm.
Dəvə üçün məxmər, zər çul verərəm,
Şəmi Qara, gəl aparma yarımı!

Hüreynisəyi qəm şərbətlə doydurma,
Məni yardan, yarı məndən ayırma.
Aparırsan, qul adına buyurma,
Şəmi Qara, gəl aparma yarımı!

İrvahım onun səsini eşitdi, aldı, görək sandıqdan ona nə dedi:

El içində gödək etmə dilimi,
Hər kəs olsa əldən qoymaz yarını.
Əydin qamətimi, bükdün belimi,
Hər kəs olsa əldən qoymaz yarını.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şəmiyə qulunu gəl heç vermə sən,
Min tümən pulunu gəl heç vermə sən,
Dəvəyə məxmər çulu gəl vermə sən,
Hər kəs olsa əldən qoymaz yarını.

İrvahımı qəm şərvətlə doyurdu,
Yarı səndən, səni yardan ayırdı.
Gün tapdı, İrvahımı qul buyurdu,
Hər kəs olsa əldən qoymaz yarını.

Bəli Şəmi Qara oğlanı qəflə-qatırnan Dağıstana aparmaqda olsun, Hüreynisə qızları götürüb dedi:

Qızlar gəlin sizə bir söz söyləyim,[9]
Əl-əldən üzüldü, İrvahım getdi.
Cəfayi-möhnətdən bir bağ saldırdı,
Dərmədi gülünü İrvahım, getdi.

Geyib sallanmadıq yarın elinə,
Tirmə şallar xub yaraşır belinə.
Əcəb getdi, Şəmi Qara əlinə,
Əl-əldən üzüldü, İrvahım getdi.

Hüreynisəyəm, ala gözlər süzülə,
Dərdi-möhnət qəm öyünə düzülə.
Görüm Şəmi Qara başı əzilə,
Əl-əldən üzüldü, İrvahım getdi.

Ərz eləyək ki, Şəmi Qara üç ay on gün İrvahımı aparıb Dağıstana çıxartdı. Şəmi Qara İrvahıma dedi:

– Oğul, mən nə desəm, sən ona bəli de. Sonrasıynan işin yoxdu; aparıb səni qoyacam öz yerində.

Yenə Şəmi Qara İrvahımı götürüb, Süleyman xanın evinə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

apardı, dedi:

– Xan, oğlum budu. Qızını verirsənmi?

Süleyman xan baxıb gördü, əşi, bu elə bir oğlandır ki, heç bunun oğlanları onun əlinə su tökməyə də yaramaz. O saat qızını çağırıb dedi:

– Qızım, səni bu oğlana versəm, razı olarsanmı?

Qız İrvahıma baxanda bir könüldən min könülə ona aşiq oldu, ancaq bir söz deмədi, çıxıb getdi.

– Bu oğlanı apararsan qızın yanına, qıza deyərsən atan səni bu oğlana verir. Bəyənsə hər nə desə, onu yaz gətir, bəyənməsə mənə de. Molla İrvahımı aparanda Şəmi Qara mollanın cibinə bir qızıl tullayıb dedi:

– İnsafın olsun, qız bəyənməsə də yalandan deynən ki, hə, bəyəndi.

Molla İrvahımı apardı. Şəmi Qara da gedib qapının ağzında durdu, qulaq asırdı. Özü də pis-pis duallar oxuyurdu ki, oğlanın dili tutulsun. Molla dedi:

– Xanım, dədən bu oğlanı göndərib ki, bəyənirmi, bəyənirsə desin. Qız aldı görək nə dedi:

Oğlan gəlib irəfiyə dayanmış,[10]
Molla, yazginən, şah babam versin.
Mən necə bəyənim, allah bəyənmiş,
Molla, yazginən, şah babam versin.

Neyləmişəm, mən də ona gedərəm,
Xəncəl alıb, qara bağrım dələrəm.
Babam verməsə də özüm gedərəm,
Molla, yazginən, şah babam versin.

Xeyransayam, yaxa bəndim açaram,
Yaxşıynan yamanı mən də seçərəm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Babam verməsə də qoşulub qaçaram,
Molla, yazginən, şah babam versin.

Aldı İrvahım, görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Bizim vətən hamı eldən əzizdi.
Alışıb oduna büryan olduğum,
Bizim vətən hamı eldən əzizdi.

Şirinlik görmədi, ağzımdı acı,
Yarəb, nədi bu dərdimin əlacı,
O dünya, bu dünya sən mənə bacı,
Bizim ellər hamı eldən əzizdi.

İrvahımam, əslim ay Qarabağlı,
Qardaşım itibdi ciyərim dağlı.
Şəmi Qaranın kim olar oğlu?
Bizim vətən hamı eldən əzizdi.

Oğlanın dediyini molla yazmadı, qızın dediyini yazdı. Gətirib Süleyman xana verdi. Xan gördü qızı deyir ki, atam verməsə də özüm gedəcəm. Süleyman xan o saat qızına toy eləyib, verdi İrvahıma. Bulara bir yekə otax verdilər. İrvahımla qız burda bir həftə qaldılar. Həftə tamamında qızın anası dedi:

– Gedim görüm qızım nə qayırır?

Amma Şəmi oğlanı elə eləmişdi ki, o ətə dönmüşdü, uşaq kimi olmuşdu. Amma qız yaxşıydı. Qızın Məmməd Bağır adında bir əmisi oğlu varıydı, qız ona deyikliydi. Anası gəlib gördü ki, qızı çox qəmgindi, dedi:

– Ay bala, özün bəyəndin, özün getdin, niyə qəmginsən.

Qız götürüb anasına görək nə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səhər olar, durar gedər oynuna,[11]
Ana, vallah, mən oğlana getmərəm.
Öpüb qucmaq gəlməz onun eyninə,
Ana, vallah, mən oğlana getmərəm.

Bir molla gərəkdi gələydi bizə,
Mən dedikcə o da dərdimi yaza.
O qız, mən qız – necə gedər qız qıza?
Ana, vallah, mən oğlana getmərəm.

Arı desən, qızıl güldən arıyam,
Duru desən çeşmələrdən duruyam,
Xeyransayam, Məmməd Bağır yarıyam,
Ana, vallah, mən oğlana getmərəm.

İrvahım qızın cavabında görək nə dedi:

Bülbül kimi tərgi düşdüm gülümə,[12]
Yaxam keçdi qədirbilməz əlinə,
Nə əli əlimə, dili dilimə,
Yaxam keçdi qədirbilməz əlinə,

Hər nə desəm özü özündən küsər,
Sənin dərdin sinəmdədir sərbəsər.
Xəfəngin altından o qulax asar,
Yaxam keçdi qədirbilməz əlinə,

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Qürbət eldə cavan ömrüm ağlıyam.
İrvahımam, Zülal şahın oğluyam,
Yaxam keçdi qədirbilməz əlinə,

Söz tamama yetib qurtarır. Arvad gəlir, əhvalatı Süleyman xana danışır. Xan Şəmi Qaranı çağırıb deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu nə əhvalatdı, oğlan qıza əl vurmur?

Şəmi deyir:

– A kişi, bir səbrin olsun. Onu mən tapşırmışam. Mənim də elim-günüm var. Aparıb orda təzədən toy eləyəcəyəm, sonra oğlan qıza yaxın duracaq.

Xan Şəmi Qaranın sözünə inanıb onları öz ellərinə yola saldı. Üç ay doqquz gün yol gedib Firəngistana çatırlar. Firəngin xanı çox zalım adam idi. Şəmi Qara yaxşı bilirdi ki, ona şikayət eləsə İrvahımı o saat öldürəcək. Şəmi özünü yetirib xanın qulluğuna dedi:

– Sizdə ədalət varsa mənə kömək eləyin.

Firəng xanı dedi:

– Kişi, nə olub?

Şəmi dedi:

– Mənim bir nökərim var, özü boylu-buxunlu, gözəl bir oğlandı. Amma qırx ildi nə qədər arvad alıram, hamısını əlimdən alır.

Xan o saat cəlladlara əmr elədi:

– O nökəri öldürün!

İrvahımı xanın yanına aparanda Xeyransa xanım da onnan gəldi. Ustadlar deyir ki, Xeyransa xanımın balaca barmağında bir üzük varıydı, onun qaşı zəhərliydi. Şəmi o zəhərin gücünə qızın ağlını oğurlaya bilmirdi. Elə ki, xan əmr elədi oğlanın başını vursunlar, qız irəli yeriyib dedi:

– Siz qoyun mən əhvalatı danışım, o uşaqdı. Şəmi onun dilini bağlayıb, sözümü deyim, sonra ikimizi də öldürün.

Xan icazə verdi, qız aldı, görək nə dedi:

Uzaq yerdən səni deyib gəlmişəm,[13]
Əlac qaldı sənə, Firəngin xanı.
Səni mən özümə qahmar bilmişəm,
Əlac qaldı sənə, Firəngin xanı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Canım qurban İrvahımın canına,
Öldürüb batmaynan nahaq qanına.
Bir çapar göndər Dağıstan xanına,
Əlac qaldı sənə, Firəngin xanı.

Dərin-dərin dəryalara dalıbdı,
Cavan canımı eşq oduna salıbdı.
Babam məni İrvahıma veribdi,
Əlac qaldı sənə, Firəngin xanı.

Qız sözünü deyəndən sonra xan Şəmi Qaranı, qədim əyyamdan qalmış bir quyu varıydı, ora atdırdı. Quyunun başına da iki adam qoydurdu ki, onun canı çıxana qədər gərək burda durasınız. Firəng xanı qıznan oğlana dedi:

– İndi deyin görüm, burda qalmaq istəyirsiniz, yoxsa getmək?

Hər ikisi icazə alıb getdilər. Bir çəmənlikdə oturub kef elədilər. Bu o vaxt idi ki, Şəmi Qara qalmışdı quyunun içində. Şəmi dedi:

– Ay quyunun başındakılar, mən də oğullu-uşaqlı adamam, quyunun içində qalıb ölməyimin sizə nə xeyri var? Alın sizə çoxlu qızıl verim, məni çıxardın.

Qaraullar öz-özlərinə dedilər:

– Əşi, xan nə bilir burda nə var? Qoy çıxardıb buraxaq.

Bəli, Şəmi bir əfsun oxuyub üfürdü, daşı-kəsəyi elədi qızıl-gümüş, bunlara verdi. Şəmi Qara quyudan çıxıb başladı getməyə. Bir xeyli getmişdi, bir də gördü İrvahımnan qız burda sarmaşıb yatıblar:

Yetirən kimi hərəsinə bir çubuq vurub dedi:

– Əyə, sən bilmirsənmi, İsfahanda bir qarpız kəsələr mən onun içində olaram?! Siz hara qaçıb gedirsiniz mənim əlimnən?

Qızı qaldırıb bir kök dəvənin üstünə, oğlanı da bir arıx



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dəvənin üstünə qoydu. Başladılar Misirə doğru yol getməyə. Ancaq Misirnən Firəngin arasında bir körpü varıydı, neçə sajın hündürlüyündə idi. Bu körpünün üstünnən keçəndə Şəmi Qara istədi İrvahımı körpüdən atsın. İrvahım əlin atdı ki, bir yerdən tutsun, körpünün dəmiri onun ayağından ilişib, başına qədər ətini yardı. İrvahımı qan apardı. Qız bunu belə görən kimi, barmağından üzüyü çıxartdı ki, zəhəri içib ölsün. Şəmi Qara qoymadı. Dedi:

– Ay qız, oğlan özü yıxıldı, qorxma, heç nə olmaz.

Bu vaxt İrvahım götürüb dedi:

Ay Şəmi Qara, sən allahı sevərsən,[14]
Doğru qoyub, əyri getmə yolları.
Bu nə yoldu ona qulluq edirsən,
Doğru qoyub, əyri getmə yolları.

Bir xəbər gəlmədi şah qardaşımdan,
Qurtarmadım elin tənə daşından.
Yarım sənin olsun, əl çək başımdan,
Doğru qoyub, əyri getmə yolları.

İrvahımam, hax söylərəm sözümü,
Yaş yerinə qan bürüyüb üzümü.
Zülal şah oğluyam, itirmişəm özümü,
Doğru qoyub, əyri getmə yolları.

Aldı qız görək İrvahıma nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Əcəm oğlu, iyitliyin günüdü.
Alışıb oduna büryan olduğum,
Əcəm oğlu, iyitliyin günüdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Geyib sallanmadıq yarın elinə,
Tirmə şallar xub yaraşır belinə.
Məni vermə Şəmi Qara əlinə,
Əcəm oğlu, iyitliyin günüdü.

Dəvələr yüklənib, yükü bardandı,
Gədiklər bağlanıb, tamam qardandı.
Xeyransayam, namusdandı, ardandı,
Əcəm oğlu, iyitliyin günüdü.

Qız özünü öldürməsin deyə, Şəmi oğlanı gətirib genə qoydu dəvənin belinə. Başladılar getməyə. Gəlib Misrin dəryasına çatdılar. Gavdan paşaya dedilər:

– Bizdən nə alacaqsan?

Gavdan paşa dedi:

– Da mən pul almıram, padşahın əmri var.

Şəmi dedi:

– Əşi, padşah burda ha deyil, nə bilir? Ala bu bir ovuc qızılı, bizi keçir. Özü də keçəndə sən bu oğlanı at dəryaya, boğulub ölsün.

Gavdana tamah güc elədi, pulu alıb dedi:

– Yaxşı.

Gəmi dəryada üzürdü. Birdən İrvahımı itələyib suya saldılar.

Qız bunu bildi, istədi genə zəhəri içə. Şəmi qoymadı. İrvahımı bir balaca taxta paranın üstünə düşdü. İrvahım görək taxta paranın üstündən qıza nə deyir:

Dərdin alım mələkzada,[15]
Gəmim də qaldı dəryada.
Haqq özü yetişsin dada,
Gəmim də qaldı dəryada.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəmim də dəryada qalsa,
Saralıb irəngim solsa.
Aslan paşa xəbər alsa,
Deynən qardaşın dəryada.

Çıxar qıraxda otursan,
Ağ üzdən busə götürsən,
Aslan addı bir şah görsən,
Deynən İrvahım dəryada.

Aldı qız cavabında ağlaya-ağlaya dedi:

Zalım cəllad dörd yanımda,
Qoymurlar düşəm dəryaya.
Kəlmeyi-şəhadət dilimdə,
Qoymurlar düşəm dəryaya.

Hər yerdən kəsdin çaramı,
Bağlayan yoxdu yaramı.
Dörd yanımı aldı haramı,
Qoymurlar düşəm dəryaya.

Xeyransayam, oldum dəli,
Dadına yetişsin əli.
Şəmi Qara, deməm bəli,
Qoymurlar düşəm dəryaya.

İrvahım qaldı taxtanın üstündə, olar isə çıxıb getdilər. Qız gördü ki, iş-işdən keçib, dedi:

– Gərək mənə elə bir öy tikdirəsən ki, başı göydən, ayağı yerdən nəm çəkə. Sora sənə gedəm. Şəmi Qara o saat öyü hazır elədi. Öyün qapısı-zadı yox idi, öyə çarxnan çıxırdılar. Qız çoxlu yeməkdən-zaddan götürüb dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Di məni çıxardın yuxarı.

Çarxı qurub, qızı çıxartdılar öyün yuxarısına. Sonra Şəmi dedi:

– İndi də mən çıxıram.

Qız dedi:

– Onu görməyəcəksən. Çıxmaq istəsən kəndiri kəsəcəm, yıxılıb öləcəksən. İndi bir şərtim var, mənim atamın yanında Dağıstanda özüm tikdiyim bir köynək var, o köynəyin yaxasında İrvahımnan mənim adım yazılıb, gedib onu taparsan, İrvahımı öldürüb qanını o köynəyinə bularsan, sonra sənə gedərəm.

Bəli, bayaqdan İrvahımın ölməyini istəyən Şəmi Qara indi allaha yalvarırdı ki, ay allah İrvahım ölməmiş oleydi, onu tapıb, qanını bu köynəyə sürteydim. Şəmi Qara düşüb gəzməkdə olsun, bu tərəfdən də İrvahımı ləpə vurub kənara çıxartdı. Dərya kənarında İrvahım qumun üstə oturmuşdu. Bu tərəfdən də Aslan şahın iki çobanı varıydı, birinin adı Vəliydi, birinin də adı Budaqıydı. Budaq yaman dəlisoyudu. Bunların qabağından beş-altı davarı itmişdi. Çobanlar onu axtara-axtara gəlib bir dağın başına çıxmışdılar. Budaq Vəliyə deyirdi:

– Vallah, bu davarı oğurlayanı tapsam bu çomaqnan onu elə vuracağam ki, lap xurdu-xaşıl olub ölsün. O biri tərəfdən İrvahım dərya kənarında heç kimi görmədi, odu ki, aldı, görək nə dedi:

Ağlaram, sızlaram dərya kənarında,
Hər yana baxaram bir baş bulunmaz.
Bundan artıq dərd də olmaz ziyada,
Bəlalı başıma yoldaş bulunmaz.

Dərya kənarında mən də oturdum,
Bu qəmli könlümə xəncəl batırdım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Misir ölkəsində qardaş itirdim,
Hər yana baxaram qardaş bulunmaz.

İrvahım dediyin qürbət eldəndi,
İyidə əskiklik kəndi-dildəndi.
Arvad yad qızıdı, oğul beldəndi,
Oğul tapılsa da, qardaş bulunmaz.

Dəli Budaq İrvahımın səsini eşidib dedi:

– Ay Vəli, deyəsən davarı oğurlayanı tapmışam, deyəsən su adamıdı. Əyər suya girib gizlənməsə ona bir çomaq vuracağam ki, burunotudan yumşaq olsun.

İrvahım Budağa baxıb gördü ki, buna tanrı torpusu dəyməyib, onu vurub öldürəcək, özünü bir çökəyə verdi, yenə olmadı. Çoban yüyürüb, İrvahımı tutub qışqırdı:

– Ay Vəli, yetir bura, oğrunu tutmuşam, özü də su adamıdı.

Vəli gəlib dedi:

– Ədə bu su adamı döyül, aşıqdı, öldürmə!

Budaq dedi:

– Ay Vəli, belə yekə də aşıq olar? Aşıq balaca sümükdü.

Cibindən bir xışma aşıq çıxartdı:

– Bax, aşıq belə olar.

Vəli İrvahıma dedi:

– Ay aşıq qardaş, bu lap zırrama çobandı, aşıq nə olduğunu da qanmır. Ə aşıq, sən çıxart bir sazını, çal, bəlkə bu zırramanı yola gətirə bildin.

İrvahım sazı çalanda dəli çoban qaçıb kənardan dedi:

– Ayə, o sazı sal qabına, əyər qoyunum ürküb qaçsa, səni xurd-xaşıl eliyəcəm. İrvahım üzünü tutub Vəli çobana, dedi:

Dərdin alım, Vəli çoban, [16]
Mən səni deyə gəlmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Könlümə sən saldın güman,
Mən səni deyə gəlmişəm.

Əlimdən alma sazımı,
Qoy sənə deyim sözümü,
Süleyman xanın qızını,
Dəryada qoya gəlmişəm.

İrvahımam, budu diləyim,
Səninən gedir ürəyim.
Dəryada qaldı mələyim,
Mən səni deyə gəlmişəm.

Vəli dedi:

– Çoban qardaş, o dınqır-qunqurunu çalsa qoyuna nə qurt təpər, nə quş – hamısı qorxub qaçar

İrvahımı ayda bir çəpişə danışıb apardılar. İrvahım altı ay burda qoyuna getdi, hər ay bir çəpiş aldı. Altı ay tamamında çobanlar şəhərə çəpiş satmağa gedirdi. İrvahım onlara dedi:

– Mənim paltarım yoxdu, qoyun mən də aparım bu çəpişləri satım, paltar alım.

Bu da qoşuldu çobanlara, Şəmi Qara yolda bunları gördü. Görən kimi də İrvahımı tanıdı. Deyirlər, şəhərdə bir qəssab var idi. Şəmi onun yanına gedib dedi:

– Əyə, Sallax, niyə alver eləmirsən?

Sallax dedi:

– Mayam yoxdu, nəynən eləyim.

Şəmi ona yüz tümən pul verib dedi:

– Ala, get o bazara aparılan davarların hamısını al, olsun sənin.

Kişi gedib çobanlar gətirdikləri davarların hamısını aldı. Şəmi dedi:

– Sallax, o çobanların içərisində İrvahım addı bir oğlan var, onu öldürüb, qanını bu köynəyə batırarsan, mənə verərsən, nə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

istəsən sənə verərəm.

Qəssab Sallax razı oldu. Şəmi özünü bir molla sufatına salıb, gəldi çobanın yanına, dedi:

– Çoban, mənim öyüm odu, ala bu on tüməni, o uşağı göndər, mənim o qəssabdə ətim var, onu alsın, gətirsin. Çobanlar razı oldu. İrvahım gedib Sallax qəssaba dedi:

– Sallax qardaş, məni ət üçün göndəriblər, ət hazırdımı?

Sallax İrvahımı görən kimi tez sıçrayıb onun əl-ayağını sarıyıb yıxdı yerə. İrvahım ağlaya-ağlaya görək nə dedi:

Aman, Sallax qardaş, dönüm başına,[17]
Öldürmə, allaha bağışla məni!
Gəl rəhm elə gözdən axan yaşıma,
Öldürmə, allaha bağışla məni!

Anam yoxdu, yada salıb ağlasın,
Bacım yoxdu, yaralarım bağlasın.
Allah sənin balaların saxlasın,
Öldürmə, allaha bağışla məni!

Dərd əlindən düyünlüyəm, dağlıyam,
Qürbət eldə cavan ömrüm ağlıyam.
İrvahımam, Zülal şahın oğluyam,
Öldürmə, allaha bağışla məni!

İrvahım sözünün axırında dedi ki, Zülal şahın oğluyam. Sallax fikirləşdi ki, ay gidi, bizim padşahımız da deyir Zülal şahın oğluyam. Sonra bunlar qohum olar, mənim kökümü kəsərlər. Odu ki, İrvahımı öldürmədi, dedi:

– Oğul, sən köynəyini ver mənə, özün də qaç get.

İrvahım köynəyini ona verdi. Sallax köynəyini qoyun qanına batırıb saxladı, Şəmi gələndə ona versin ki, guya İrvahımı öldürüb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İrvahım qaça-qaça başladı getməyə. Qız hündür öyün təpəsindən baxıb gördü ki, bir adam gəlir, yerişindən İrvahıma oxşayır. Qız səslədi:

– İrvahım, İrvahım!

İrvahım istədi baxmasın, qaçsın, qız bir də səslədi:

– Mən anamdan qız olmuşam, qızam, dul olmuşam, dulam, qayıt gəl!

İrvahım öz-özünə dedi:

– Əşi, bu zənən xaylağı mənnən əl çəkmir, mənə nolub onnan qaçıram?! Odu ki, hay verdi. Qız çarxnan ipi sallayıb oğlanı çəkdi yanına. Hər iki cavan burda bir-birinə sarmaşmaqda olsun, görək Şəmi noldu? Şəmi gəlib Sallaxdan qanlı köynəyi aldı. İrvahım qaçanda papağı da düşüb qalmışdı, onu da götürdü. Gəldi qız olan imarətin dibinə, dedi:

– Xeyransa xanım! İrvahımı öldürdüm, ala bu da onun köynəyiynən papağı.

Elə bu vaxt İrvahım başını qaldırıb dedi:

– Yalançının atasına lənət, bəs mən nəyəm?!

Bu vaxt Şəmi acığından az qaldı dəli olsun. Düz getdi şahın yanına şikayətə, dedi:

– Bu vilayət niyə yiyəsizdi, bir nökər mənim arvadımı əlimdən alıb.

Şah dedi:

– A kişi bu nə sözdü?

Şəmi genə elə əvvəlki sözünü dedi. Vəzirlikdən kənar olunan Sirri Sübhan vəzir də orada bir kənardaca oturmuşdu.

Aslan şah cəlladlara əmr elədi ki, gedin, onu gətirin. Cəlladlar yeriş elədilər qalanın dibinə, İrvahıma dedilər:

– Düş aşağı!

Qız bir heyvərə qaya götürüb dedi:

– Buradan getməsəniz təpənizə bir daş salaram, yerə girərsiniz.

Cəlladlar geri qıyıdıb əhvalatı Aslan şaha söylədilər. Pad-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şah dedi:

– Gedin bütün fərhadları aparın, o qalanı çapıb dağıtsınlar.

Vəzir genə irəli yeriyib dedi:

– Ey padşah, bir gədədən ötəri o qalanı çapdırma, hamı sənə gülər.

Padşah dedi:

– Bəs neyləyim?

Vəzir dedi:

– Sən mənə söz ver ki, onu öldürməyəcəksən, mən gedim gətirim.

Padşah razı oldu. Sirri Sübhan vəzir quranı götürüb, çəliyini əlinə alıb, qalanın dibinə getdi, nə qədər yalvardısa, oğlanla qız qaladan düşmədi. Axırda vəzir and içdi ki, sənin nişanlına ölüm yoxdu, qorxma, mən cavabdehəm.

Qız gördü əlac yoxdu, götürüb vəzirə dedi:

Budu səndən iltimasım, Sirri Sübhan, ey vəzir!
Dad çərxi-fələk əlindən, yetdik, cana, ey vəzir!
İzn ver, baş qoyum rikabına yan-yana,
İçmişəm camı-cəfadan qana-qana, ey vəzir!

Mənim yarımı sağ-salamat apar şah yanına,
İlahidən bir od düşsün o Şəminin canına.
Səni and verirəm qəsəmə, Məhəmməd şanına,
Elə sən dərdimə əlac, misri-loğman, ey vəzir!

Rizə-rizə doğrasalar da mən ona razıyam,
Mən ki, varam, İrvahımın eşq odunun suduyam.
Gər xəbər alsan, dağıstanda Süleyman xan qızıyam,
Xeyransayam mən, bağrım döndü al qana, ey vəzir!

Sonra qız İrvahımı vəzirə qoşub yola salır. Eşit çobandan.

Çoban da Misirdən hüt vurub ölkələrə düşmüş, İrvahımı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

axtarırmış. Ustadlar deyir, dəli çoban hansı eyvanın sütunundan tutsa, onu uçurdarmış. Dəli çoban gəlib çıxdı, gördü, bir adam İrvahımı aparır. Çoban nə qanır, vəzir nədi, şah nədi, istədi yetirib vəziri çomaqlasın.

Vəzir ağıllı adamıydı, bildi çoban onu vuracaq. Odu ki, İrvahıma dedi:

– Oğul, bir az yeyin gəl, özümüzü içəri salaq.

Gəlib çatdılar padşahın yanına. Şəmi dedi:

– Ey qibleyi aləm, bax, nökər budu. Çoban da bunların dalınca özünü yetirib öyə. Baxdı, dedi:

– Ay Vəli, gör nə yaxşı öydü. Kaş bu öy mənim olaydı, qoyunu burada saxlayaydım.

Şah gördü ki, bu çoban heç nə qanmır, elə, əyə, çobanımı ver, – Deyib, az qalır aləmi uçurtsun. Odu ki, dedi:

– Ay çoban, sakit ol. Bu saat çobanını qaytarıb özünə verəcəm.

Bu zaman Ziyad haramı da öz arvadıynan içəri girib dedi:

– Ey qibleyi-aləm, bu mənim oğlumdu, ver özümə.

Padşah dedi:

– Oğlun günahkardı, qoy bir neçə söz xəbər alaq, təmizə çıxarsa verərəm, çıxmasa cəzasını çəkər.

Kişi padşah hökmünə nə deyə bilərdi, odu ki, bir qıraqdaca durdu.

Şəmi dedi:

– Şah sağ olsun, bunda bir dil var, o dilnən özünü qurtaracaq. Onu ver, mən özüm aparım sual eləyim.

Şah əvvəlcə razı oldu. Şəmi İrvahımı aparanda qapıda dəli çoban Şəmiyə elə dürtmə vurdu ki, yumurlanıb düz düşdü şahın yanına. Dəli çoban dedi:

– Hara aparırsan mənim belə çobanımı?

Vəzir çox ağıllı adamıydı, odu ki, dedi:

– Şah sağ olsun, niyə belə eləyirsən? Bu oğlanı özün danışdırsana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah İrvahıma dedi:
– Oğul, bu düzdümü – bu kişinin qırx arvadı olub, hamısını əlindən almısan?
İrvahım dedi:
– Şah, icazə ver, hamısını danışım:
Şah icazə verdi, aldı İrvahım, görək nə dedi:

Əzəl başdan qara gəlibdi baxtım,
Dilbilməz əlinə düşdüm, neyləyim?!
Yadıma düşübdü vətənim, taxtım,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

O zaman ki, mən şəhri-Reydən gəldim,
Saralıban heyva təki mən soldum.
Yoruldum, yoruldum, günbəzdə qaldım,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

O zaman ki gecə günbəzdə qaldım,
Dərdin əlindən mən zinhara gəldim,
Ziyad haramıya mən oğul oldum,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Çarxı-fələk genə məni güldürdü,
Güldürübən eynimi qana doldurdu.
Beyman qarı gəldi yaman qandırdı,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Başıma gəlməmiş qalmadı xata,
İyid gərəkdi mətlubuna çata.
Qırx gün yol gəlibən çatdım Herata,
Dilbilməz əlinə düşdüm, neyləyim?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurban olum sənin təki Aslana,
Əyri qılınc dal gərdəndə paslana.
Üç ay on gün yol getdim Dağıstana,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Nə müddətdi karvan düşübdü ləngə,
O Qara Şəmiynən durmuşuq cəngə.
Üç ay yol gedib də çatdım Firəngə,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Qurban olum Musa kimi ataya,
Kor fələk məni yetirdi bu boya.
Gəmiçi baş atdı məni dəryaya,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Üç gün taxta-parça üstündə qaldım,
Saralıban heyva kimi mən soldum.
Ayı bir çəpişə mən çoban oldum,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Nagah yerdən mən dəryaya atıldım,
Birdən-birə eşq oduna qatıldım.
Yüz tümənə mən Sallaxa satıldım,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Mənim başım şah yoluna fərmandı,
Qanım bu Qara Şəmiyə dərmandı.
Bu Sallax öldürmədi, bağışladı,
Dilbilməz əlinə düşdüm, neyləyim?!

Zülal şah oğluyduq biz iki qardaş,
Hərəmiz götürdük bir qiymətli daş,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aslan böyük, İrvahım kiçik qardaş,
Əcəm torpağına düşdüm, neyləyim?!

İrvahım şernən başına gələni deyəndə bir yerdə də Rey şəhərinin adını çəkdi. Aslan şah bu sözü eşidəndə başı hərləndi, tappıltıynan taxtdan yerə yıxıldı. O saat Şəmi dedi:

– Sizə dedimmi ki, bunun danışığı yamandı, bir kəlmə söznən kişiyi öldürdü. Şəmi mətləbi başa düşmüşdü. İstədi əkilə. Dəli çoban dedi:

– Anırı get, heş yerə səni buraxmaram! Kişiyi nə cür öldürübsən elə də dirilt, sonra buraxım.

Vəzir padşahı ayıltdı. Aslan şah qardaşının boynunu qucaqladı. Hər iki qardaş bir saat bir-birinin boynundan ayrılmadılar. Aslan şah o saat Gavdan paşanı çağırtdırıb dedi:

– Əyə, zalım oğlu, mən sənə əmr eləmişdim ki, heç kimdən pul alma. Sən ki, mənim əmrimi pozmusan, indi al cəzanı. Ona boğazına bir put qurğuşun tökdürüb həmin dəryanın ortasına saldırdı. Sonra bir araba nöyüt də qarının üstünə töküb onu yandırdı.

Şəmi Qaranın da təpəsindən dəli çoban elə bir çomaq vurdu ki, beyni qatıx kimi yerə dağıldı. Çoban dedi:

– Bax, mənim bala çobanımı bu zalım əlimdən aldı.

Hər iş qurtarandan sonra İrvahım bütün başına gələni qardaşına söylədi, dedi:

– Qardaş, burada olan qız mənim sirdaşım. İki gözümdü. Ölsəm də bundan ayrılmaram. Ancaq mənim nişannım Herat şəhərində Fətəli xanın qızıdı.

Aslan şah dedi:

– Qardaş, sən çox əziyyət çəkibsən, bu dəfə mən gedib qızı gətirrəm.

Şah Sirri Sübhan vəzir də çox ağıllı adam olduğuna görə təzədən öz yerinə, vəzirliyinə qaytardı. Sonra qoşunnan, dəmdəsgahnan qızı gətirməyə getdilər. Aslan şah əvvəlcə gedib



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xeyransa xanımı gətirdi İrvahımın yanına. Bunları burda qoyub, getdi Herat şəhərinə. Heratda qız vağıyasında görmüşdü ki, İrvahım gəlib, amma bir az saqqallanıb. Qız yuxudan durub gördü ki, ay gidi, bu yuxu döyül, elə aşkardı. İrvahım, dalında da qoşun gəlib çıxdı. Qız Aslanı İrvahım hesab etdi, saçından iki tel siyrib döşünə basdı, götürüb görək nə dedi:

Axşam gördüm vəqiyəsin,
Qızlar, budu, yarım gəldi!
Qurtardım hicrandan, qəmdən,
Qızlar, budu, yarım gəldi!

Aldı Aslan şah, görək cavabında nə dedi:

El içində gödək etmə dilimi,
Gözəl, yarın mən deyiləm!
Əydin qamətimi, bükdün belimi,
Gözəl, yarın mən deyiləm!

Aldı qız:

Gedəndə elə deyirsən,
Gələndə belə deyirsən,
Qəndinən noğul yeyirsən,
Qızlar, budu, yarım gəldi!

Aldı Aslan şah:

Misir şahının şahıyam,
Gözəllərin sirdaşıyam,
İrvahımın qardaşıyam,
Gözəl, yarın mən deyiləm!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı qız:

Hüreynisəyəm, itib huşum,
Zəhərinən bişib aşım,
Həmi qaynım, həm qardaşım,
Elə sandım yarım gəldi!

Aldı Aslan şah:

Aslan şaham, çoxdu gücüm,
Misirdən gəlir xəracım.
Həmi yengəm, həmi bacım,
Gözəl, yarın mən deyiləm!

Sonra Aslan şah Fətəli xanı çağırtdırıb dedi:
– Qızı niyə vermirsən? Axı mənim qardaşımın butasıdı.
Fətəli xan dedi:
– Mən qızı halvaçı Musanın oğluna vermişəm.
Halvaçı Musa da gəlib dedi:
– Mənim oğlumu oğurlayıb apardılar.
Məsələ aydın oldu. Aslan şah dedi:
– O mənim qardaşımdı.
Musa kişini də götürüb apardılar özlərinin yanına, təzədən toy eləyib şad-xürrəm ömür sürdülər.

Mən səni görəndən bəri,
Halım pərişandı, Maral!
Ləblərin şəhdi-şəkər,
Xəstəyə dərmandı, Maral!
Qatılıbdır baş-başa,
Qaşların kamandı, Maral!
Açılıb qoynun içi,
Bağı-gülüstandı, Maral!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərd bilməz naqis dedi,
Dərd bilən imandı, Maral!

Camalın görəndən bəri,
Olmuşam heyran sənə mən.
Gəl əyləş məclisimdə,
Eyləyim dövran sənə mən.
Bir gecəlik otağında
Olmuşam mehman sənə mən.
Qıymaram mal deməyə,
Can dedim, qurban sənə mən.
Bu gözəllik sənə qalmaz,
Bu çərxi dövrandı, Maral!

Gör Kərəmə nə etdiniz,
Döndü Musayə, bəsdimi?
Məscidin tərkin qılıb,
Girdi kilsəyə, bəsdimi?
Ağladı, dəxil düşdü,
Turi-Sinaya, bəsdimi?
Quranı oda atdın,
Yandırdı ayə, bəsdimi?
Zülm ərşə bülənd oldu,
Asmana dayandı, bəsdimi?

Lənət gəlsin keşişə,
Aləmdə bir səs elədi.
Qızı getdi, o vermədi,
Evladılə bəhs elədi.
İki yarı bir-birindən
Ayırdı əbəs elədi.
Çəkibən din təəssübün,
Kərəmə qisas elədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Haqq özü də qisas alar,
Ədalət divandı, Maral!

Sən bir tərsa qızısan,
Əydin qəddin, dal elədin.
Yıxdın könlümün evini,
Gör necə xəyal elədin.
Mənimlə yaman başladın,
Belə qilü-qal elədin.
Göycəyi aşıq Musanı
Dərdindən abdal elədin.
Əl mənim, ətək sənin,
Ölürəm, amandı, Maral!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QEYDLƏR

## «QURBANİ»

Bu dastan xalq içərisində «Qurbaninin nağılı» adı ilə məşhurdur. Əldə olan məlumata görə, Qurbani Şah İsmayıl Xətai ilə müasir olmuş, hətta ona mənzum bir məktub da yazmışdı. Cəbrayıl rayonunun Hasanlı kəndi yaxınlığında, Diri dağ döşündəki qədim qəbristanda Aşıq qəbri adlı bir qəbir vardı. Yerli əhali içərisində gəzən rəvayətlərə görə, bu, Qurbaninin qəbridir. Cilddə gedən bu dastan Gəncə şəhərində yaşayan Aşıq Qara Mövlayevdən toplanmışdır. Toplayanı Əhliman Axundovdur.

Rəvayətə görə, bu dastan şairin qoşmaları əsasında Gəncə aşıqları, ikinci versiya isə yenə də onun qoşmaları əsasında Qarabağ aşıqları tərəfindən sonradan düzəldilmişdir.

Cənubi Azərbaycan aşıqları tərəfindən düzəldilmiş bir versiya da vardır ki, mükəmməl toplanmadığına görə nəşri hələlik məsləhət görülmədi. Cənubi Azərbaycan versiyasının düzəldilməsində, deyəsən, «Tahir və Zöhrə», «Vərqa və Gülşa» süjetlərinin ənənəvi başlanğıcından istifadə edilmişdir.

1. U s t a d n a m ə – qüvvətli nəsihətamiz şerlərə aşıqlar içərisində ustadnamə deyilir. Çox qədimlərdən bəri aşıqlar bir ənənə olaraq hər dastanı məşhur ustad aşıqlar tərəfindən deyilmiş üç ustadnamə ilə başlayırlar. Bu ənənə bir sıra başqa cəhətləri ilə birlikdə həm də yazıya düşməmiş ustad aşıqların adlarını və əsərlərini xalq içərisində yaşatmaq yollarından biri olmuşdur.

2. X ə s t ə Q a s ı m – anadan olması və ölməsi haqqında əlimizdə dəqiq məlumat yoxdu. Ehtimala görə, XVII əsrdə Azərbaycanın Tikmədaş kəndində yaşamışdır. Ustad aşıqlardandır. Gözəl mənalı ustadnamələri ilə söhrət tapmışdır.

3. S ə m ə d – Azərbaycan aşıqları içərisində Səməd təxəllüsü ilə şer yazan və yaxud qoşan bir neçə aşıq olmuşdur. Bunlardan biri XIX əsrdə Tovuzda yaşamış, o biri isə Qazax rayonundandır. Bu ustadnamənin əslində hansı Səməd tərəfindən deyilmiş olduğu dəqiq məlum deyildir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. M o l l a  C u m a – XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb yaratmış məşhur xalq şairlərindəndir. 1853-cü ildə Nuxa rayonunun Layiski kəndində anadan olmuş, 1920-ci ildə vəfat etmişdir. Öz şerlərindən anlaşıldığına görə, şairin adı əslində Süleyman imiş. Farsca, ərəbcə və türkcə savadlı olduğuna görə, Molla adı ilə şöhrətlənmişdir. Cuma isə şairin ədəbi təxəllüsü imiş.

Şairin gözəl qoşmaları, gəraylıları, əvvəl-axırları, müxəmməsləri aşıqlar içərisində çox geniş yayılmışdır.

5. X u d a f i r i n – Bərgüşadla Həkəri çaylarının Araza töküldüyü yerdən beş kilometr aralı, Araz çayı üstündən salınmış məşhur körpünün adıdır. A.Bakıxanovun yazdığına görə, bu körpü 644-cü ildə salınmışdır.

6. Z ə y  d ə  v e r m ə y ə c ə k – heç nə verməyəcək.

7. A b i – g ö v s ə r – cənnət suyu.

D o x s a n  m i n  k ə l m ə m ə  b ə y a n  d e d i l ə r – bu misrada qurandakı sözlərin miqdarına işarə edilir.

Qurbani savadlı şair olmuşdur. Onun işlətdiyi sözlər, hətta bəzən misralar, bəndlər, mənası çox zaman anlaşılmadığı üçün peşakar aşıqların ifasında pozulmuş, təhrif edilmiş, mənasız hala düşmüşdür. Belə misraları «düzəltmək» saxtakarlıqdır. Buna görə də biz başqa variantların köməyi ilə bərpa edilməsi mümkün olanları bərpa etmək, mümkün olmayanları isə toplanmış olduqları şəkildə saxlamaq yolu ilə getdik. Bəlkə belə misraları sonralar tapılacaq daha düzgün variantları orijinalın necə olduğunu müəyyənləşdirə bildi.

Bu bənddəki «ovçunun məsgəni dağ arasında» da belə pozulmuş misralardandır.

Bu qoşma variantların çoxunda belədir:

Yatmışdım, üstümə gəldi ərənlər,
Səfil, nə yatmısan, oyan, – dedilər.
Düldülün sahibi, Qənbər ağası
Bu dövrana şahi-mərdan dedilər.

Oyandım qəflətdən, açdım gözümü,
Ərənlər payına sürtdüm üzümü;
Dindirdilər, haqq söylədim sözümü,
Doxsan min kəlməmə bəyan dedilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbani, batıbsan qəm dəryasına,
Ovçunun məsgəni dağ binasına,
Bir siyğə versənə könül pasına,
Aşiqi məşuqə qurban dedilər.

Qoşmanın Qazaxdan toplanmış belə bir variantı da vardır:

Yatmışdım, üstümə gəldi ərənlər:
Tifil, nə yatıbsan, oyan,– dedilər.
Aləmi-vayqada açdım gözümü,
Görünənə şahi-mərdan dedilər.

Qafil, nə yatıbsan, qəflətdən oyan!
Oxu sözlərini sən, eylə bəyan!
Qəlbində nə varsa eyləmə pünhan!
Doxsan min kəlməyə inan, – dedilər.

Qurbani, giribsən qəm dəryasına,
Ahular çəkilib dağ səhrasına,
Bir siyğəl çəkdilər könül pasına,
Məğribdən məşriqə ürşan dedilər.

11. Y a m i n ə l – ə t a – ey bəxşiş sahibi olan. Misranın mənası belədir: şəninə «ey bəxşiş sahibi» yazılan.

12. İ m a m o l a, d a m a d – Ə h m ə d i – M ü r s ə l – Məhəmmədin kürəkəni Əliyə işarədir.

13. İ s t ə d i m m ə t l ə b i m p a y i – Q ə m b ə r d ə n – dini rəvayətlərə görə, Qəmbər Əlinin nökəri olmuşdur. Buna görə də Əlinin bir adı da Qəmbər ağasıdır, Qurbani özü də qoşmalarından birində onu «Düldülün sahibi, Qəmbər ağası» adlandırırdı. Burada aşıq öz mətləbini Əlinin qulu Qəmbərin ayağının torpağından istəyir.

14. Ə l i f q ə d d i m d a l y a z ı l m ı ş o b u r c a – ərəb əlifbasının birinci hərfi olan əlif düz şaquli bir xəttdən ibarətdir. Dal hərfi isə ortadan ikiyə qatlanmış əlifə oxşayır. Qurbani bu misra ilə öz taleyinin əvvəldən qara yazılmış olduğunu, baxtının beli bükülmüş «d» hərfinə oxşadığını demək istəyir.

15. Variantların əksəriyyətində bu şer tək Qurbani tərəfindən deyilən qoşma şəklindədir. Yalnız Gəncədən toplanmış variantda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ata ilə oğul arasında gedən deyişmə şəklinə düşmüşdür ki, bu da, bizcə, dastanın həmin variantını yaratmış Gəncə aşıqlarının işidir. Deyişmənin Mirzalı xan tərəfindən deyilən bəndləri də öz üslubuna, ruhuna, sanbalına görə bunun doğrudan da belə olması ehtimalını qüvvətləndirir. 1935-ci ildə Salman Mümtaz tərəfindən tərtib və nəşr edilmiş «El şairləri»ndə qoşmanın iki bəndi də belə getmişdir:

Geymək üçün yaşılı var, alı var,
Əmmək üçün ləblərinin balı var,
Xublarının bir özgə cür halı var,
Hər yetənlə vurmaq olmaz pəncə hey!

Qurbani der: vüsalına ermədim,
Qul oluban qulluğunda durmadım,
Gəzdim İran, Turanı mən, görmədim,
Gözəllikdə, məhbubluqda səncə hey!

16. Əyyub kimi sinəm şan başan oldu. Görün dü gözümə yaralar mənim – dini əfsanələrə görə, Əyyub guya son dərəcə dözümlü və səbirli peyğəmbər imiş. Guya allah imtahan məqsədi ilə ona min bir bəla göndərmiş, onu dözülməz əzab-əziyyətə salmışdır. Onun bütün bədəni yara tökmüş, qurdlanmış, çürüməyə başlamışdır. Lakin Əyyub bütün bu işgəncələrə dözmüş, öz dediyindən dönməmişdir. Buna görə də bu ad yazılı və şifahi ədəbiyyatda dözümlülük, dönməzlik, səbr və səbat rəmzi kimi çox qədimlərdən bəri işlənməkdədir.

17. Bu şerin Qazaxdan toplanmış variantı belədir:

Aləmi-röyada yarımı gördüm,
Göründü gözümə oralar mənim.
Qara bağrım şan-şan oldu, dəlindi,
Baş verdi sinəmdə yaralar mənim.

Şeyda olub gülşənimdə ötmədi,
Canan gəlib göz önümdən ötmədi,
Çox aradım, əlim yara yetmədi,
Günbəgün irəngim saralar mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əvvəl başdan belə yazılıb yazı,
Kim gedər ki, dünya, səndən irazı?
Şahim şəfaətçi, haqq özü qazı,
Qurbaniyəm, işim aralar mənim.

18. Bəzi variantlarda Qurbani bu yerdə Əli mədhinə bir neçə qoşma deyir. Bu qoşmalar bizim cildə daxil etdiyimiz variantda yoxdur. Başqa variantdakılar da çox nöqsanlı və pozulmuş haldadır. Əsillərini bərpa etmək hələlik mümkün olmadığı üçün buraya daxil edə bilmədik.

19. Bu qoşma Qurbaninin, doğrudan da, savadlı bir şair olduğunu aydın şəkildə sübut edir. Sözlərin ərəb əlifbası ilə yazılışı formasından istifadə ilə şair qıfılbənd düzəltmişdir.

Birinci bənddəki kafü lamü kaf – «kələk» deməkdir. Mənası: dost bizi şərafətli xidmətinə çağırdı. Biz cavab verdik ki, baş üstə, gələk. Bütün sonrakı həyyü lamü kaf – «həlak», mümi lami kaf - «mələk», kafü lamü kaf isə – «kələk» deməkdir.

20. Bu şerin Gəncədən toplanmış belə bir variantı da vardır:

İbtida qədəmi basdım məclisə,
Aşıqlar ustadı, görüm, handadı?
Onun dərdi, qəmi çoxdu canımda,
Gövhərli sözlərim hələ xandadı.

Şahin-şonqar bir tərlana səyyadam,
Dövrəsində dolanıram dəmadəm,
Gəncə şəhərində mənim iradəm,
Bilmirəm ki, qismət nə məkandadı.

Mana badə verib həzrəti-Əli,
Nə buyurubsa da demişəm: – bəli;
Qurbaninin fikri, zikri, xəyali;
Axırı mətləbim Pəri xandadı.

1938-ci ildə xalq şairi Süleyman Rüstəm və Məmməd Rahim tərəfindən tərtib və nəşr edilmiş «Qoşmalar»dakı variantı isə belədir:

İbtida eyləyib girdim meydana,
Şagirdlər ustası, görün, handadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pünhani dərdlərim çoxdu canımda,
Dürr-gövhərlərim hələ kandadı.

Nazlı yar əlindən nə sinədağam,
Bərk yuxuya dalmamışam oyağam,
Yar nə qədər yaşayır, mən də sağam,
Dü çeşmim gözləyir sübhü dandadı.

Sana qurban olum, ya həzrət Əli!
Sailə bağışla dövləti, malı,
Yetim Qurbaninin fikri, xəyalı,
Gecə-gündüz butam Pəri xandadı.

21. Ş e y x  g ü m b ə z i – böyük Azərbaycan şairi Nizami Gəncəvinin qəbri xalq arasında bu adla məşhurdur.

22. Bu şerin Qazax və Şəmkirdən toplanmış belə bir variantı da vardır.

Nazlı dərviş, naz eyləmə,
Belə naz eyləmək olmaz.
Pünhan sözüm vardı sana,
El içində demək olmaz.

Dərdim söylə bilənlərə,
Dərd başına gələnlərə;
Hər üzüvə gülənlərə,
Etibar eyləmək olmaz.

Dərviş ol dərvişlər ilə,
Haqqa layiq işlər ilə:
Heç sınanmamışlar ilə
Düz rəftar eyləmək olmaz.

Qurbani der: gətir məzə,
Köhnə dərdim oldu təzə;
Dərd biləni dərd bilməzə
Giriftar eyləmək olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cənubi Azərbaycandan toplanmış variantda isə belədir:

Ala gözlü nazlı dərviş,
Belə naz eyləmək olmaz.
Budu, gəldi bahar fəsli,
Mürğü zar eyləmək olmaz.

Yoldaş ol dərvişlərinən,
Haqqın bir düz işlərinən,
Hər sınanmışlarınan,
Beh-bazar eyləmək olmaz.

Dərdivi de bilənlərə,
Dərd başına gələnlərə,
Hər üzüvə gülənlərə,
Açıb sirr demək olmaz…

23. Bu şer « El şairləri»ndə belə verilmişdir:

Yer ilə göy yoxkən bir nəzər qıldın,
Əridibən gövhəri, dürr eylədin, şah!
Yox yerdən aləmi müxtəsər etdin,
Cismini qəndildə nur eylədin, şah!

Gətirdin kəlamı cümlə-cahana,
Qırxları göstərdin əhli-ürfana,
Peyğəmbər kitabın gətdin dəhana,
Həbibin söhbətin şir eylədin, şah!

Dirili Qurbana göstərdin indi,
Boynundadı məhəbbətin kəməndi,
Dərya üzündə oynadır səməndi,
Özünü Cəbrailə pər eylədin, şah!

24. Bu şerin Qazaxdan toplanmış variantı belədir:

Usta, bir qız sevdim sizin ellərdə,
Cəm gözəllər onun səbəbkarıdı;
Alma yanaqlıdı, qəmər üzlüdü,
Laçın qaynaqlının can şikarıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ustam, sana zərər etməz bu sözlər,
Bağında açılar gülü nərgizlər;
Canan intizardı, yolumu gözlər,
Gözü yollarımın intizarıdı.

Canan gəlməyimi bilsə can eylər,
Canını canıma ərmağan eylər;
Qəzəbnakdı, qəmzələri qan eylər,
Mələklər şahının sitəmkarıdı.

Ala gözlü Pərimin zülfü şeydadı,
Quranda yazılan əlif-beydədi;
Qurbani, sərində bu nə sevdadı?-
Ala göz Pərimin yadigarıdı.

Cənubi Azərbaycanda toplanmış variantı isə belədir:

Bir gözəl sevmişəm Döv ellərində,
Hurinin, pərinin xoş göftarıdı.
Aydı məşşatəsi, gündü məşəli,

Xublar sərdarının cümlə varıdı.
Varmı mənim kimi cana qəsd edən?
Öz-özünnən seyrağıbı dost edən?
Əmibəni ləblərindən məst edən,
Əmməyə ləbləri həməvarıdı.

İki qaşın arası dü heyyadı
Quranda oxunan qülhüvəlladı,
Desələr: Qurbani, sərində nə sevdadı?
Deyərəm: o da Pərimin bir yadigarıdı.

Bu şerin Laçından toplanmış variantı isə belədir:

Bir Pəri sevmişəm, sizin ellidi,
Gözəlliyi hamıya nümunvarıdı.
Şux göz, mina gərdən, incə bellidi,
Gecə-gündüz işi ahü zarıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əcayib gözəldi, nə xoş dilbərdi,
Cəmalına cümlə aləm əfsərdi,
Ağzında dişləri ləlü gövhərdi,
Sinəsi dağların təzə qarıdı.

Qurbani der: zülfün ucu xəyətdi,
Qurandakı qülhüvəllah əhətdi;
Desələr: sərində bu nə halətdi?
De ki, bir Pərinin yadigarıdı.

25. K ü l l i  ş e y ü n  h a l i k – allah deyibdi – yəni « allah – hər şey məhv olacaqdır», – deyibdir.

26. İ k i  q a b i – q o v s u n, q u r r ə t ü l e y n i n – yəni «iki qaşın, iki gözünün işığı»

27. Y a  ş ə b i – y ə l d a d ı,  y a  r ə q a y i b d i – şəbi-yəlda – ilin ən uzun gecəsi, rəqayib isə dini əfsanələrə görə, guya Məhəmmədin ana bətninə düşdüyü gecə imiş.

28. Bu da mənası pozulmuş misralardandır.

Ehtimal etmək olar ki, misra əslində belə imiş: «Cəmalına cümlə-aləm məzhərdir». Yəni: cümlə-aləm sənin camalında təzahür etmişdir.

29. Dədə Yediyarla Qurbaninin deyişməsi təqdim etdiyimiz dastanda getməmişdir. Bu deyişmə altı qatar qıfılbənddən ibarətdir. Mövzusu əsasən dinidir. Qazaxdan və Şəmkirdən toplanmış variantlara görə, Qurbani Dədə Yediyarla yox, Aşıq Heydərlə deyişir. Bu variantlara görə, Pəri xanımın əmisi oğlunun da adı Məhəmməd xandır.

30. Bu şerin Qazaxdan toplanmış variantı belədir:

Sizə qurban olum, xan cəlladları,
Mənim bu dərdimi yara deyərsiz!
Canan xəbər alsa ərzi-halımı,
Könlü qəmgin, günü qara, – deyərsiz!

Yetsəniz Pərimin xaki-rahına,
Könül səcdə qılar haqq dərgahına,
Otağından çıxar seyrəngahına,
Yaxıncaq tez vara-vara deyərsiz!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

De ayrılıq Qurbanini öldürər,
Saraldıban gül rəngini soldurar,
Pəri xanım sizi nə növ dindirər,
Pərvanə dərdini nara deyərsiz!

31. Bu şerin Qazaxdan toplanmış və «El şairləri» kitabında getmiş variantı belədir:

Dost yolunda yaxa yırtdım, baş açdım,
Gecə-gündüz dadi-bidad eylədim.
Öz əlimlə özüm yıxdım evimi,
Müddəilər evin abad eylədim.

Dost yolunda üz qoyuban baş kəsdim,
Ağlamaqdan bu didəmdən yaş kəsdim,
Şirin üçün Bisütunda daş kəsdim,
Münasib adımı Fərhad eylədim.

Şahin-şonqar bəy oğlunun qolunda,
Seyrağıblar həm sağında, solunda,
Qurbani der: bir namərdin yolunda,
Heyif, cavan ömrüm bərbad eylədim!

32. *Nurdan sənə çəkmiş külahi zülfün* – «külah» – papaq deməkdir. Əgər biz bu sözü düz oxuya biliriksə misranın mənası belə olur: zülflərin sənə nurdan papaq düzəltmişdir. Sufi-hürufi rəmz kimi bunu belə qəbul etmək mümkündür. Lakin bizcə bu misra, eləcə də qoşmanın son bəndinin son misrası pozulmuşdur. Əslini bərpa etmək hələlik mümkün olmadı.

33. Bu şerin Qazax və Şəmkirdən toplanmış və «El şairləri»ndə getmiş variantı belədir:

Başına döndüyüm, qurban olduğum,
Vallah, billah, Pəri üçün gəlmişəm.
Yanıb eşq oduna büryan olduğum,
Vallah, billah, Pəri üçün gəlmişəm.

Heç çıxmadım nazlı yarın köşkünə,
Bulanmadım ənbərinə, müşkünə;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd peyğəmbər, Əli eşqinə,
Vallah, billah, Pəri üçün gəlmişəm.

Qızıl gülü dəstə-dəstə dərən var,
Dəribən də məhrəbaya sərən var,
Qurbani der: onu mənə verən var,
Vallah, billah, bacın üçün gəlmişəm.

34. Bu şerin Qazax, Şəmkir və Laçından toplanmış variantları belədir:

Bu gün bir Pərinin seyrinə vardım,
Məni camalına heyran eylədi.
O nazik əlilə tutdu əlimdən,
Gəzdirib bağında seyran eylədi.

Sənəm bağçasında oynar gülünən,
Qalaydım yanında aynan, ilinən;
Yar bizi saxladı min bir dilinən,
Əylədib, üç gecə mehman eylədi.

Ağır mərəkəlim, ağır qonaqlım,
Zivər küləcəlim, Gəncə papaqlım,
Bir naqafil baxdı aslan qabaqlım.
Canı zəbanımı candan eylədi.

Keçmək olmaz bu dünyanın malından,
Doymaq olmaz yarın xəttü xalından,
Ay doğdu Pərimin gül camalından,
Görcək tamam ellər bayram eylədi.

Əsli xanzadadı, ismidi Pəri,
Qurbani yolunda qoyubdu səri;
Özü təklif etdi, girdik içəri,
Üzdən bir cüft busə ənam eylədi.

35. Bu şerin Qazax və Tovuzdan toplanmış, eləcə də «Qoşmalar» kitabında getmiş variantı belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səfil-səfil gəzdim dağ ətəyində,
Bu yaylaqdan qar almağa gəlmişəm.
Arı kimi bal üstündə sızlaram,
Zənbur mənəm, bar almağa gəlmişəm.

Bu görükən Savalanın dağıdı,
Səyrəqiblər tamam mənlə yağıdı;
O Pərinin qoynu cənnət bağıdı,
Müştəriyəm, nar almağa gəlmişəm.

Ağalar ağası, şahların şahı,
Odu mərd iyidlər püştü pənahı;
Qurbaniyəm, budu sözün kütahı,
Müxtəsəri, yar almağa gəlmişəm.

36. Bu şerin Qazax və Tovuzdan toplanmış variantları belədir:

Dedim, könül, sevmə xublar xubunu!
Onun hər muyunda yüz min qal olu.
Nagah səni dərdə giriftar eylər,
Bilmək olmaz, qəmzəsində al olu.

Ulu divanlarda çəkilir adım,
Ərşə bülənd oldu dadü fəryadım;
Başım üstə qanım içən cəlladım,
Sağ əlində əlif qəddim dal olu.

Qəmər nə yandırıb, günəş nə yaxar,
Könlüm nə titrənib ümmana axar;
Qurbani der: hər kim şaha kəc baxar.
Onun kamalında tez zaval olu.

«Qoşmalar» kitabında isə bu şerin ikinci, üçüncü bəndləri belədir:

Ulu divanında söylənir adın,
Şahlar şahı özü versin muradın;
Su yerinə qan içici cəlladın
Əlindəki o şəmşiri dal olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəmər nə yandırar, günəş nə yaxar,
Qətrələr qaynaşar, ümmana axar;
Qurbaniyəm, kim ki, sənə kəc baxar,
Onun vücuduna tez zaval olur.

37. Ayın lam içində, sin arasında,
Yar mənə göndərdi bir cövüz indi.

Qurbani bu iki misrada ərəb sözlərinin yazılış şəklindən məharətlə istifadə edərək qıfılbənd düzəltmişdir. Ayınla lamın arasında sin yazdıqda mənası bal demək olan «əsəl» yazılmış olur. Şair demək istəyir ki, yar ona arasında «sin» olan ayınla lamın, yəni balın içində cövüz göndərmişdir. Əlifbadan belə istifadə də Qurbaninin savadlı bir adam olduğunu göstərir.

38. Aydın görünür ki, bu qoşma təcnis imiş. Lakin o qədər pozulmuşdu ki, əslini bərpa etmək mümkün olmur.

39. Bu da çox pozulmuş qoşmalardandır. Birinci bəndin birinci misrası, eləcə də ikinci bənd, görünür, çox pozulmuşdur.

40. Çox maraqlıdır ki, bu, «yalab-yalab» şəklində «Kitabi Dədə Qorqud»da da işlənir.

41. Bu şerin Qazaxdan toplanmış belə bir variantı da vardır:

Durum dolanım başıva,
Aşığından küsən dilbər!
Üzüm qoyum üzün üstə,
Nə mən dinim, nə sən, dilbər!

İtirmişəm maralımı,
Bir sinəsi yaralımı;
Gündüz səbrü qərarımı,
Gecə yuxum kəsən dilbər!

Eşq atəşi yanır canda,
Mən yanıram, sən də yan da!
Bu zülm olmaz müsəlmanda,
Kafərmisən, nəsən, dilbər?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbani özünə bəydi,
Nazü qəmzən qəddim əydi;
Nə söz dedim sana dəydi?
Bu mən, dilbər, bu sən, dilbər!

42. N ə   ə c ə b   b u   d a d a   g ə l d i m – nə əcəb, nə yaxşı ətir, qoxu duyub gəlmişəm, – deməkdir.

43. C ə l i l   v ə   C a b b a r – allahın adlarıdır.

44. Bu şerin Tovuzdan toplanmış variantı belədir:

Üç ay yaydan gedib, payız gələndə,
Məst olub, sığışmaz budağa alma.
Lalə, bənəfşədən artıq deyilsən.
Versin ay hüsnünə qadağa, alma!

Çiçəklərin açar yazlar, baharlar,
Gözəllik nişanı tamam səndə var;
Danəsi xırdaca, özü güllü nar,
Düzəyim birbəbir otağa, alma!

Biçara Qurbani bağrın əzərsən,
Mən dözən sitəmə sən də dözərsən,
Adətindi, əldən ələ gəzərsən,
Yoxdu sana qoruq, qadağa, alma!

45. «Aşıqlar» kitabında bu şer belə getmişdir:

Əlləri kəsilmiş bədəsil xöyrat,
Sənə kimlər dedi üz bənəfşəni?
İndi ki, dərirsən, dər, dəstə bağla,
Tər buxaq altında düz bənəfşəni.

Tanrı səni xoş camala yetirmiş,
Səni görən aşıq əqlin itirmiş;
Mələklərmi dərmiş, göydən gətirmiş?
Heyif ki, dəriblər az bənəfşəni.

Qurbani der: könlüm bundan sayrıdı,
Nə etmişəm yarım məndən ayrıldı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ayrılıqmı çəkib, boynu əyridi?
Heç yerdə görmədim düz bənəfşəni.

46. Bu şerin Qazaxdan toplanmış variantının iki bəndi belədir:

Bir mələyin ələyindən ələndim,
Bəli dedi, bələyində bələndim;
Ərşi, gürşü yaradandan diləndim,
Yüz dərd çəkdim, bir dərmana yetişdim.

Qurbani der: budu söz müxtəsəri,
Şah əlindən içdim abi-kövsəri;
Övliyalar, ənbiyalar sərvəri,
Pirim olan şah-mərdana yetişdim.

47. Bu qoşmanın birinci misrası bəzi variantlarda belədir: «Bir alma göndərdim-üstü mixəkli». Təfərrüatdan isə görünür ki, Qurbani Pəriyə alma deyil, almas vermişdir. Buna görə, biz bu variantı daha ağlabatan hesab etdik.

48. Bu şerin Laçın, Kəlbəcər və Qazaxdan toplanmış variantları belədir:

Sallanıban çıxdı gülşən bağından,
Asta yeri, gözəl, göz dəyər sana.
Seyrağıbın tənə-tənə sözləri,
Yayın bəd nəzərdən, tez dəyər sana

Yavaş get, yavaş get, kimin yarısan?
Hansı bəxtəvərin vəfadarısan?
Kölgədə bəslənmiş quzey qarısan,
Sabahın yelləri tez dəyər sana.

Qurbani der: hər kəs yarın öyməsin,
Açsın yaxasını bəyaz düyməsin.
Dəstələ zülfünü, yerə dəyməsin.
Yollar qubarlanar, toz dəyər sana.

49. Çox maraqlıdır ki, bəzi variantlarda bu misra belə gedir: «Sevgilimin gürcü imiş atası».

50. «El şairləri»ndə bu qoşma belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə ola, bir şadlıq xəbəri gələ,
Yüklənə barxanam ellərə doğru.
Naşı ovçu bərə bəklər, əylənər,
Marallar sayrışar yollara doğru.

Səhərdən yüklənə nazlının köçü,
Cənnəti-məvadır qoynunun içi;
Əbrişim telləri, mürəssə saçı
Hərdəm səda qılır bellərə doğru.

Sevdiyimin gürcü imiş atası,
Əskik olmaz qoç igidin xatası,
Qaşı kaman, sinəm onun butası,
Qatı yay çəkilir qollara doğru…

Bağçalarda qurudulur barama,
Naşı təbib, mərhəm eylə yarama!
Dedim: Pərim, zülflərini darama,
Könül gəştə çıxar çöllərə doğru.

Qurbani der: naləm yandırır daşı,
Üstümə gəlməsin təbibi-naşı;
Ümmana dönəndə gözümün yaşı,
Axanda tökülür sellərə doğru.

Qazax və Tovuzdan toplanmış variantları isə belədir:

Nə ola, bir şadlıq xəbəri gələ,
Yüklənə barxanam ellərə doğru.
Naşı ovçu bərə bəklər, əylənər,
Marallar sayrışar yollara doğru.

Səhərdən yuklənir nazlımın köçü,
Cənnətül-məvadı qoynunun içi,
Əbrişim telləri, mürrəsə saçı
Hərdəm səda qılır bellərə doğru.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sevdiyimin gürcü imiş atası,
Əskik olmaz qoç iyidin xatası,
Qaşı kaman, sinəm onun butası,
Qatı yay çəkilir qollara doğru…

51. Bu şerin Laçın və Kəlbəcərdən toplanmış və «Aşıqlar» kitabında getmiş variantları belədir:

Mürşidi-kamilim, şeyx oğlu şahim,
Bir ərzim var qulluğuna, şah, mənim.
Əziz başım üçün oxu yazğımı,
Agah ol halımdan gahbagah mənim.

Dərin-dərin dəryaları boyladı,
Xəncər alıb, qara bağrım teylədi,
Oğlum ölmüş Vəzir qəza eylədi,
Getməz dimağımdan dudi-ah mənim.

Şair olan dərsi alır pirindən,
Baş açmadım səyrəqibin sirrindən;
Qolubağlı keçdim Xudafirindən,
Üzüm gülməz, heç açılmaz, ah, mənim.

Qurbani der: bahar olur, gəlir yaz,
Göllərdə üzüşür ördək ilə qaz;
Sərim təvalladır, üzüm payəndaz,
Yoxdur bundan qeyri bir mətah mənim.

Qazax və Tovuzdan toplanmış variantları isə belədir:

Ay mürşüdüm, kamim, dinim, imanım!
Bir ərzim var qulluğuna, şah, mənim.
Səndən qeyri kimə gəlir gümanım?
Olmursan dərdimdən bir agah mənim.

Aşiq odu məşuqunu istəyə,
Təbib gərək dərman etsin xəstəyə;
On bir aydı sər toylanda xəstəyəm,
Yetmirsən dərdimə gahbagah mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir ah çəkdim, ahım gəldi dərindən,
Ağlım, huşum oynar, gedər sərimdən;
Körpü düşdü, keçdim Xudafirindən,
Bunnan qeyrəz yoxdu bir mətah mənim.

İxlas kəmərin qurşadılar belimə,
Həqiqətdən su bağlandı gölümə;
Mərifətdən bir yol düşdü əlimə,
Düşübdü əlimə doğru rah mənim.

Əli dedim, ələyindən ələndim,
Bəli dedim, bələyinə bələndim,
Yeri, göyü yaradandan diləndim,
Düşdü əlimə bir mətah mənim.

Qurbaniyəm, dedim, deyib ağlıyam,
Fələyin əlindən sinədağlıyam;
Qaradağlı Mirzalı xan oğluyam,
Yetiş köməyimə, gözəl şah, mənim!

52. Dastanın bu yerində bəzi aşıqlar belə bir əhvalat da danışırlar.

Becan dedi:

– Şah sağ olsun, mən gedə bilmərəm. Bərk xəstəyəm.

Şah dedi:

– Vəzir, gərək gedəsən.

Vəzir dedi:

– Şah, mən bu camaatı sənin bacın Məlakə xanımdan ötrü qırmışam. İndi onu qoyub gedə bilmərəm. Bacını mana versən gedərəm, verməsən məni iki şaqqa eləsən də ayağımı anrıya atmaram.

Şah dedi:

– Vəzir, verdim, get!

Vəzir dedi:

– Mən gedib bu aşığın sevgilisini alıb özünə verərəm, birdən qayıdanda Məlakəni mana verməzsən. Mən sana bələdəm. Bacının kəbinini kəsdirərsən, toyunu elərsən, bu aşıq da toyumda oxuyar, sonra gedərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şıx oğlu Şah dedi:

– Onda qoy Məlakə xanımın yanına bir adam göndərim, görüm o nə deyir?

Bəli, Məlakə xanıma xəbər verdilər ki, bir haqq aşığı gəlib, onun sevgilisini almaq ucundan qardaşın səni vəzirə verir.

Məlakə xanım dedi:

– Onun haqq aşığı olduğunu mən nədən bilim?

Dedilər:

– O bütün sirrləri bilir.

Məlakə xanım dedi:

– Mən siyah pərdənin dalına keçərəm. Əgər o sazla siyah pərdəni açsa, nəinki vəzirə, lap qapı nökərinə də gedərəm.

Pərdə çəkildi. Məlakə xanım pərdənin dalına girdi. Qurbanini pərdənin qabağına aparıb dedilər:

– Aşıq, gərək haqq aşıqlığını sübut eləyib, bu pərdəni sazla açasan.

Qurbani dedi:

– Baş üstə, açım, nə deyirəm.

Ustadlar belə deyirlər ki, Qurbani burada bir qatar söz deyib, pərdəni açdı. Məlakə xanım kəbinə razı oldu.

Vəzir oradaca Məlakə ilə kəbinini kəsdirdi.

Sonra hökm eləyib, kəcavəni qoşdurdu. Qurbanini də içinə qoyub, Gəncəyə tərəf yola düşdü. Gəlib-gəlib bir şəhərə çıxdılar.

Becan dedi:

– Oğul, burada bir az şahlıq xərci qalıb, gedək tapşırım onu yığsınlar, sonra gedək.

Bu şəhərdə xərc yığanın adı Peykər xanım idi. Peykər xanım çölə çıxanda Qurbanini görüb, ona könül quşu yapışdı. Qurbanini içəriyə apardı, çörək, çay qoydu. Qurbani çörək, çayı yeyənəcən Becan gəldi, dedi:

– Oğul, bizə bir az söhbət elə, sonra duraq gedək. Peykər xanım da minnət elədi. Peykər xanımın sözünün cavabında aldı Qurbani, görək nə dedi:

Peykər xanım xəlvət etdi otağı,
Nə üzün daldalar, nə sinə bağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əməm o dilləri, qaymaq dodağı,
Nə üzün daldalar, nə sinə bağlar.

Zər nimtənə geyib, qolları nazik,
Ağ qola yaraşır burma bilərzik;
Aldılar yarımı, mən oldum yazıq,
Nə üzün daldalar, nə sinə bağlar.

Doymaq olmur Qurbaninin sözündən,
Əcəb işvəsindən, əcəb nazından;
Bir gözəl törəyib ərəb qızından
Nə üzün daldalar, nə sinə bağlar.

Vəzir ilə Qurbani gecə burada qaldılar. Peykər xanım onlara hörmət-izzət elədi. Səhər tezdən Becan yuxudan qalxıb dedi:

– Qurbani, səhər açılıb, dur gedək.

Qurbani dinmədi. Vəzir gördü xeyr, Qurbaninin halı hal deyil, soruşdu:

– Qurbani, sana nə olub belə halın pəjmürdədi?

Qurbani dedi:

– Bu gecə çox qarma-qarışıq yuxu görmüşəm. Qoy bir neçəsini deyim, sonra gedək.

Becan dedi:

– Tez qurtar.

Aldı Qurbani:

İxtiyar sənindi, vəfalı dilbər,
Mən sənin xətrinə dəyən deyiləm.
Səbəb nədi məndən kənar gəzirsən?
Sirr sözün yadlara deyən deyiləm.

Hər gecə vayğamda görürəm səni,
Sən allah, sən tanrı, sən də gör məni;
İlqardan dönənin yansın bədəni,
Mən ki, ilqarımdan dönən deyiləm.

53. Bu qoşmanın belə bir variantı da vardır:

Fələk, sənlə vuruşmağa bir qabil meydan ola,
Tut əlimi, fürsət sənin, kaş belə ehsan ola;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Getmiş idim mürşüdümə, dərdimə dava qıla,
Mən nə bilim, mən gəlincə xak ilə yeksan ola.

O şahın kəlmeyi-kəlamın zikr etmək gərək,
Tabutu sərv ağacından, kəfəni yarpaq gərək,
Tez yuyun, tez götürün ki, məzara çatmaq gərək,
Bar-ilahım, necə qıydın bir belə cavan ölə.

Ey könlüm, geygilən qarayı, xəndan eləmə!
Bar-ilahı, böyük xanədanı viran eləmə!
Haqq-taaladan səda gəldi: Qurbani, çox qəm yemə!
Heç ola bilməz xanədani-Şəfi viran ola!

Bu divanın son misrasını belə də deyənlər vardır:

Yazı yazan belə yazıb, çoxlara nişan ola.

54. Bu şerin belə bir variantı da vardır:

Kufə əhli bihəyalar şərmi, həyani atdılar,
Adam olan yoldan çıxıb, bir-birin aldatdılar,
Qazılara rüşvət verib, şəri batin etdilər,
Bu divan ki, divan deyil, ədalət divan gərək.

Axşam olcağın məşriqdə batdı şəms, doğdu qəmər,
Yer üzünə qülqülə düşdü ki, ta oldu səhər;
Ağlım itirdim, əlim titrər, göz ağlar, sər əsər,
Pirim girib ol niqaba, getməyəydi cavan gərək.

Gərək biçarə Qurbani sən bu cəbrə dözəsən,
Əl uzadıb o yasəmən bağdan bir gül üzəsən,
Yaşı yetirdin əlliyə, indi üz tut yüzə sən,
Əslimiz turabidəndir, məsgənimiz kan gərək.

55. D u v a q q a p m a – dastanın sonunda oxunan müxəmməsə deyilir. Aşıqlar bir ənənə olaraq hər bir dastanı məşhur ustadlardan biri tərəfindən deyilmiş bir müxəmməslə qurtarırlar.

56. Aşıq Hüseyn Şəmkirli XIX əsrin əvvəllərində Şəmkir rayonunun Qapanlı kəndində anadan olmuş, 1890-cı illərə qədər yaşamış məşhur aşıqlardandır. Deyilənlərə görə, o, Vaqifin bacısı oğlu imiş. Ehtimala görə, ərəb, fars dillərini də az-çox bilirmiş. Gözəllə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mələri, təcnisləri, xüsusilə müxəmməsləri ilə aşıqlar arasında məşhurdur. Həcvləri, satirik şerləri də çoxdur. Aşıq Ələsgərin ən yaxın dostlarından olmuşdur. XIX əsrdə o ətrafda yetişən aşıqların əksəriyyəti aşıqlıq sənətini ondan öyrənmişdir.

## «QURBANİ »
### *(Dastanın Diri versiyası)*

1. «Qurbani» dastanının bu versiyasının da müxtəlif rayonlardan toplanmış bir neçə variantı vardır. Bunlardan ən çox diqqəti cəlb edəni 1960-cı ildə Aşıq Humaydan yazılmış variantdır. Bu varianta görə, Qurbani anasına da belə bir gəraylı ilə müraciət edir:

Canım ana, gözüm ana,
Bir dua qıl, mən də gedim,
Sənə qurban özüm, ana,
Bir dua qıl, mən də gedim,

Südün mənə halal elə!
Bir xudadan sən də dilə!
Mən də gəlim gülə-gülə,
Haq deyənə əməl edim.

Qurbaniyəm, vara-vara,
Qurban olum nazlı yara;
Gecə-gündüz yolum ora,
Sirr sözümü sənə dedim.

2. Humay variantına görə, Qurbani Qasımın cavabında belə bir qoşma deyir:

Bir müddətdi calay-vətən olmuşam.
Eşqə düşüb, Gəncə deyib gedirəm.
Qəvvas kimi dəryalara dalmışam,
Eşqə düşüb, onca deyib gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yuxumda içmişəm onun badasın,
Eşitmişəm mən də onun sədasın,
Mən alıram nazlı yarın qadasın,
Baş götürüb, onca deyib gedirəm.

Qurbani der: budur sözün əzəli,
Yarı görcək cavan ömrüm təzəli;
Gəncədə sevmişəm belə gözəli,
Mətləbimdi, mərcə deyib gedirəm.

3. Humay variantında bu şerin belə bir bəndi də var:

Qurbani der sizə: ay gürcü qızlar,
Yerdəki çiçəklər, göydə ulduzlar!
Yaralıyam, yaram hey yanar, sızlar,
Var olsun dünyada eli gürcünün!

4. Humay variantında Qurbani qarıya belə bir qoşma deyir:

Qarı nənə, sən bir arıx dəvəsən,
Qanqal gərək, xırda, xırda gəvə sən,
Qız deyilsən cahıl oğlan sevəsən,
Qarı nənə, imanuva dolanım!

Pambıqdan da ağdı sənin ağ başın,
Altmışdan artıqdı, bilginən, yaşın,
Qalmayıb dəhanda tək bircə dişin,
Qarı nənə, dəhanuva dolanım!

Qurbani der: bu sözlərim yazılar,
Tezlik ilə sənə qəbir qazılar;
Mənim könlüm bir Pərini arzular,
Qarı nənə, kamaluva dolanım!

5. Humay variantında deyişmədən sonra Qurbani Aşıq Heydərə belə bir qoşma deyir:

O kimdi ki, dünyaya gəlməmişdən,
Onların şəkili vardı behiştdə?
Adəm də eylədi onlara səcdə,
Onların hesabın bilsən neçədi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aduvu qoymusan sən də ustakar,
Nə üstündə aləm olub bərqərar?
İblis niyə oldu bəlaya düçar?
Onun səbəbini bilsən necədi?

O nədi ki, ildırımdan yeyindi?
Sənin danışdığın bütün öyündü;
Bu meydanda indi sənin toyundu,
Abdulla xan göydəni sürüsə necədi?

6. Humay variantında Məhəmməd xan yoxdu. Şah Abbas kağızı Qurbaninin özü ilə Abdulla xana göndərir. Abdulla xan qızı ona verir. Qurbani ilə Pəri birlikdə Mazannənə pirinə gəlir. Qurbani pirdə yatır. Burada da onu bir ilan dodağından çalıb öldürür. Pərinin son bayatısı belədir:

Mən aşiq, Gəncəm haray!..
Bərdədən gencəm haray!..
Qurbani əldən getdi,
Mənə bir əncam, haray!..

## «TAHİR VƏ ZÖHRƏ»

«Tahir və Zöhrə» ən geniş yayılmış dastanlardandır. Əldə olan məlumata görə, dastanın özbək, türkmən, tatar, uyğur, Cənubi Azərbaycan, osmanlı və sair variantları vardır. Bu versiya və variantlar müxtəlif vaxtlarda müxtəlif səyyah və həvəskarlar tərəfindən toplanaraq müxtəlif dillərdə nəşr edilmiş, hətta rus, ingilis və alman dillərinə tərcümə edilmişdir. Əsər bu xalqlarda üç şəkildə – nağıl, xalq dastanı və poema (məsnəvi) şəkillərində yaşamaqdadır. Məlum olduğu kimi, bu dastan əsasında opera və bədii film də yaradılmışdır. Azərbaycanda əsərin müxtəlif illərdə toplanmış iyirmiyə qədər variantı vardır. Biz burada dastanın Azərbaycan versiyasının əsaslı fərqlərini verməyə çalışacağıq.

1. U l u l u K ə r i m, eləcə də birinci ustadnamənin müəllifi olan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

D ə l l ə k  M u r a d – təqribən XVIII əsrdə yaşamış ustad aşıqlardandırlar. Əsasən nəsihətamiz qoşmalar müəllifi olduqları üçün aşıqlar tərəfindən ustad kimi tanınır və əsərləri dastanların başlanğıcında ustadnamə kimi istifadə edilir.

2. T u f a r q a n l ı  A ş ı q  A b b a s – ehtimala görə, XVII əsrin əvvəllərində Cənubi Azərbaycanda yaşamışdır. Yüzlərlə gözəl qoşma, oynaq gəraylı, dərin mənalı ustadnamələri ilə xalq içərisində şöhrət qazanmışdır. Əsərlərindən və özü haqqında yazmış olduğu yeganə bir «Vücudnamə»dən görünür ki, şair öz zəmanəsinə görə yaxşı mədrəsə təhsili almış savadlı bir adam imiş. Aşıqlar arasında onun adı ilə bağlı iki dastan yaşamaqdadır. Bu dastanların hər ikisi ikinci cilddə nəşr ediləcəkdir.

3. «Tahir və Zöhrə» dastanı ən çox variantlı xalq dastanlarındandır. Bu nəşrdə bunun bütün variantlarını deyil, ancaq hər şerin bir və ya iki variantını verə bildik.

4. Q a r a m a n – Qaraman adlı qəbilənin, kiçik bir dövlətin, yer və çay adlarının olduğu məlumdur. Orta Asiya, kiçik Asiya, eləcə də Azərbaycanda Qaraman və bunun pozulmuş şəklindən ibarət olan Qara İman adlı kəndləri indi də vardır. Volqanın Böyük Qaraman və Kiçik Qaraman adlı iki qolu da məlumdur. Dastanda adı çəkilən Qaraman isə, bizcə, coğrafi ad deyil. Bizcə, ümumiyyətlə «Tahir və Zöhrə» dastanı astral əsər olub, Qaraman da məcazi, daha doğrusu astronomik mənada qaranlıq göy, gecə səması deməkdir.

5. Bu qoşma 1937-ci ildə nəşr edilmiş «Dastanlar və nağıllar» kitabında verilmiş variantda belədir:

Mollalar mollası, mollalar xası,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?
Görüm ki, dağılsın məktəbxanası,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Mən bilirəm Hatəm onu döyübdü,
Molla gedib bizdən yaman deyibdi.
Ağlamağı əlif qəddim əyibdi,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bağçasında gəzər o güllər ilə,
Zöhrə söz söyləyər o dillər ilə,
Gedin iltimasa siz ellər ilə,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Molla, bu məktəbin bərbad olsun!
Cəsədin alışsın qorunan dolsun!
Görüm, molla, sənin dörd oğlun ölsün!
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Dastanın Tovuz, Şəmkir və Qazax rayonlarından toplanmış variantlarında isə qoşma belədir:

Mollalar mollası, mollalar xası,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?
Silinsin, könlümün qalmasın pası.
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Ürəyin titrəsin, qarnın sıxılsın,
Ağ əllərin öz canına yaxılsın,
Molla, görüm sənin öyün yıxılsın,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Mən Tahirəm, neyləmişəm, neylərəm,
Xəncəlnən qara bağrımı teylərəm,
Bu məktəbxananı veran eylərəm,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Cənubi Azərbaycandan toplanmış bir variantda qoşmanın ikinci bəndi belədir:

Açılır çiçəklər, baharlar, yazlar,
Sizə qurban olsun körpəcə qızlar.
Ağrıyar Tahirin sümüyü, sızlar,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

1956-cı ildə Astraxanbazar rayonunun Bəcrəvan kəndində Aşıq Ayış Fiyaz oğlundan toplanmış variantı belədir:

Başına örtmüşdür tirmə şalını,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Öyrənibdi məktəbxana yolunu,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Fələk gör işimi nə yaman əydi,
Bu necə məzədi, bu necə meydi?
Bilirəm, bu daş da molladan dəydi,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Mollalar mollası, alimlər xası,
Silinməz könlümün heç getməz pası,
Görüm dağılsın molla məktəbxanası,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

İndi oldum mən də qolları bağlı,
Gedibdi başından huşu, həm ağlı,
Görüm ölsün mollanın əziz oğlu,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Kaş qara gələydi bu bahar, yazlar,
Ağlar, xan Tahirin sümüyü sızlar,
Sizə qurban olum, a gözəl qızlar,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

1960-cı ildə Cəbrayıllı Aşıq Humaydan toplanmış variantda iki bənd belədir:

Alimlər alimi, mollalar xası,
Silinib, könlümün heç getməz pası,
Görüm xarab qalsın məktəbxanası,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Səhər-səhər doğan dan ulduzudu,
Aşıqların söhbətidi, sazıdı,
Adı bəlli, Hatəm Soltan qızıdı,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

6. Aşıq Humaydan toplanmış variantda bu şer belədir:

Başına döndüyüm, ay molla əmi,
Bir ala gözlüyə aşiq olmuşam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çəkmərəm dünyada fikr ilə qəmi,
Bir ala gözlüyə aşiq olmuşam.

Qəvvas kimi dəryalara girmişəm,
Ürəyimdə eşqin sirrin bilmişəm;
Yusif kimi bir Züleyxa sevmişəm,
Bir ala gözlüyə aşiq olmuşam.

Tiri-qəmzələri od salıb cana,
Nolar rəhm edəsən mən lətifana;
Adı Zöhrə, özü yaşılbaş sona,
Bir ala gözlüyə aşiq olmuşam.

7. Bu şer Cənubi Azərbaycandan və Borçalıdan toplanmış variantlarda aşağıdakı kimidir:

Mollamız qaçdı xəbərə,
Bixəbərsən, əmim oğlu!
Səni məndən ayırdılar,
Nə deyərsən, əmim oğlu?!

Sabah səni dindirərlər,
Dərdü qəmə mindirərlər,
Ya da sürgün buyurarlar,
Nə deyərsən, əmim oğlu?!

Mən Zöhrəyəm, yaman günlü,
Yollardı çiskinli, çənli,
Atam olub sənlə qanlı,
Nə deyərsən, əmim oğlu?!

Qazax və Tovuzdan toplanmış variantları belədir:

Mollamız getdi xabara,
Beyxəbərsən, ay əmim oğlu!
İndi çəkdirərlər dara,
Nə deyərsən, ay əmim oğlu!

Yatıbsan xabi-qəflətdən,
Gözüm açılmadı müsibətdən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çox əmdin ləbi-qənddən,
Nə deyərsən, ay əmim oğlu!

Gör nə işdi qayırallar,
Zöhrüyü səndən ayırallar,
İndi sürgün buyurallar,
Nə deyərsən, ay əmim oğlu!

«Dastanlar və nağıllar» kitabında isə şer belə getmişdir:

Xəbərin yoxdu xəbərdən,
Getdi işləri dəbərdən.
Nə əmirsən ləb-şəkərdən,
Nə qanırsan, əmim oğlu?!

Başımdakı tirmə şaldan,
Üzümdəki qoşa xaldan,
Nə əmirsən ləbi-baldan,
Nə qanırsan, əmim oğlu!

Mən Zöhrəyəm, qələm qaşlı,
Gərdənim də qarğı saşlı,
Mən yazığı gözü yaşlı,
Sən qoyarsan, əmim oğlu!

8. 1960-cı ildə Tovuzlu Aşıq Əbildən toplanmış variantda bu şer belə deyişmə şəklindədir:

Aldı Tahir:

Canım ana, gözüm ana,
Didəmnən qanlar ağlaram,
Sana qurban özüm, ana,
Didəmnən qanlar ağlaram.

Aldı anası:

Canım oğul, gözüm oğul,
Ağlama, oğul, ağlama!
Yedirdərəm qəndü noğul,
Ağlama, oğul, ağlama!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Tahir:

Qürbətdiyə düşər daşım,
Çox bəlalar çəkər başım,
Gəlmədi məktəb yoldaşım,
Didəmnən qanlar ağlaram.

Aldı anası:

Öz-özümü mən öyərəm,
Xanü xavannar döyərəm,
Qoy atan gəlsin, deyərəm,
Ağlama, oğul, ağlama!

Aldı Tahir:

Mən Tahirəm, artdı qəmim,
Dəryaya qərq oldu gəmim,
Gəlmədi Zöhrə həmdəmim,
Didəmnən qanlar ağlaram.

Aldı anası:

Tanımam soltanı, xanı,
Gözümnən tökdürrəm qanı,
Sana qurban anan Banı,
Ağlama, oğul, ağlama!

Aşıq Humaydan toplanmış variantda isə belədir:

Başına döndüyüm ana,
Ana, mən qanlar ağlaram.
Südün əmdim, döndü qana,
Ana, mən qanlar ağlaram.

Mən ağlaram yana-yana,
Qara bağrım dönüb qana;
Ehtibar yoxdu insana,
Ana, mən qanlar ağlaram.

Tahir deyər: artdı qəmim,
Dəryaya qərq oldu gəmim,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəlmədi Zöhrə həmdəmim,
Ana, mən qanlar ağlaram.

9. Bu şerin Cənubi Azərbaycandan toplanmış variantı belədir:

Əlləri hənalı, bayram günündə,
Gördüm bir salatın vardı, qazılar!
Alma yanağından, gül buxağından,
Bizə də bayramlıq verdi, qazılar!

Məni şəddə kimi belə dola sən,
Dedi: Tahir, gedək bizim ilə sən,
Nə olaydı xan Tahiri görəsən,
Ağlayıban qan yaş tökdü, qazılar!

Dedim: Zöhrə, bax nə qara qaşın var…
Dedi: Tahir, bax nə müşgül işin var…
Dedim: mən xəstəyə nə yemişin var?
Dərdi, bir cüft narın verdi, qazılar!

10. Aşıq Humaydan toplanmış variantda bu şer belədir:

Dörd tərəfimi qara qanlar alıbdı,
Aman allah, imdad eylə bu işə!
İndi bildim atam vəzir ölübdü,
Aman allah, imdad eylə bu işə!

Öldürülüb Əhməd ilə Məhəmməd,
Zalım cəllad bir-birindən bidahad,
Dünyada qalmayıb, vallah, etiqad,
Aman allah, imdad eylə bu işə!

Gedin deyin Zöhrə gəlsin yanıma,
Zalım əmim nə susuyub qanıma;
Aparılla Hatəm Soltan yanına,
Aman allah, imdad eylə bu işə!

Aşıq Əbildən toplanmış variantda belədir:

Zalım cəllad, asda bağla qolumu,
Qədir allah, özün yetiş bu işə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Doğradılar sağı-solda qulumu,
Qədir allah, özün yetiş bu işə!

Göydə bir ulduz var, adı Talıbdı,
Hamı gedib, daha kimim qalıbdı,
Zöhrə yarın dərdi məni alıbdı,
Qədir allah, özün yetiş bu işə!

Tahir deyər: bəs necə oldu ellərim?
Gülşanlı bağımda soldu güllərim.
Sağı-solda doğradılar qullarım,
Qədir allah, özün yetiş bu işə!

Qazax, Tovuz, Borçalı rayonlarından toplanmış variantlarda isə belədir:

Dərya kənarına seyrə gedərdi,
Haray, allah, səndən mənə bir imdad!
Hər qıya baxanda bir qan edərdi,
Haray, allah, səndən mənə bir imdad!

Qanlı dərya gör necə də dolubdu,
Gül irəngim saralıbdı, solubdu;
Siğə qardaşlarım burda ölübdü,
Haray, allah, səndən mənə bir imdad!

Mən Tahirəm, neyləmişəm neylərəm,
Xəncəlnən qara bağrım teylərəm;
Bir canım var, sizə qurban eylərəm,
Haray, allah, səndən mənə bir imdad!

11. Bu şer Cənubi Azərbaycandan və Şəmkirdən toplanmış variantlarda belədir:

Qolu bağlı gətiribsən qabağa,
Günahım yox, bigünaham, xan əmi!
Öldürərsən, nahaq qana batarsan,
Mənim ahım səni tutar, xan əmi!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sona kəklik kimi səsə gəlibdi,
Siyah zülfü əsə-əsə gəlibdi.
Zöhrə xanım iltimasa gəlibdi,
İltimasın qəbul elə, xan əmi!

Bu meydanda zülüm həddən aşıbdı,
Atasız yetimin bağrı bişibdi,
Qızıl gülün üstünə şeh düşübdü,
Murğuzar olubdu yollar, xan əmi!

Siz baxmayın müxənnətlər felinə,
Danışanda doğru gəlməz dilinə,
Zöhrə əlin verdi, Tahir əlinə,
Çıxart bu ölkədən, qovdur, xan əmi!

Qazax və Tovuzdan toplanmış variantları isə belədir:

Başına döndüyüm, qurban olduğum,
Allaha bağışla, gəl eyləmə qan, əmi!
Alışıb oduna büryan olduğum,
Allaha bağışla, gəl eyləmə qan, əmi!

Fərə kəhlik kimi səsə gəlibdi,
Sərində telləri əsə gəlibdi,
Qızın Zöhrə iltimasa gəlibdi,
İltimasın qavıl eylə, xan əmi!

Tahir deyər: bu dəryada çox olar adalar,
Mənə gəlsin yara gələn qadalar;
Məktəb uşaqları, mollazadalar,
Qurana bağışla, gəl eyləmə qan, əmi!

Tovuzlu Aşıq Əbildən toplanmış variantda belədir:

Tayım-tuşum yığılıbdı yanıma,
Budu, iltimasa gəlib, xan əmi!
Zalım molla nə susduyub qanıma?
Budu, iltimasa gəlib, xan əmi!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərin dəryalarda olar adalar,
Könül dost yolunda salıb cadalar,
Məktəb uşaqları, mollazadalar,
Budu, iltimasa gəlib, xan əmi!

Gözəl kəhlik kimi səkə gəlibdi,
Telləri sərində əsə gəlibdi,
Qızın Zöhrə iltimasa gəlibdi,
Odu, iltimasa gəlib, xan əmi!

Çuğul kəzzab sana yalan qandırıb,
Anda düşüb, nahaqdan inandırıb,
Tüstülüyüb, düşmanların yandırıb,
Budu, iltimasa gəlib, xan əmi!

Zalım molla, nə susadın qanıma?
Həsrət oldum soltanıma, xanıma,
Mən Tahirəm, bir od saldın canıma,
Odu, iltimasa gəlib, xan əmi!

Aşıq Humaydan toplanmış variantı isə belədir:

Gözəl kəhlik kimi səsə gəlibdi,
Cığaları əsə-əsə gəlibdi.
Zöhrə yarım iltimasa gəlibdi,
İltimasın qəbul elə, xan əmi!

Bu meydanda zülm həddən aşıbdı,
Atasız oğlun da bağrı bişibdi.
Qızıl gül üstünə şəbnəm düşübdü,
Yollar dönüb lalazara, xan əmi!

Tahir deyər: bu dəryada çox olar adalar,
Mana gəlsin yara gələn qadalar.
Məktəb uşaqları, mollazadalar,
Qurana bağışla, gəl eləmə qan, əmi!

12. Bu deyişmə Cənubi Azərbaycandan toplanmış variantda belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahir, atan ölüb, başın sağ olsun,
Yeri, yeri, xan Tahirim, yar, yeri!
Bu sağlıqdan ölüm mənə yey olsun,
Yeri, yeri, xan Tahirim, yar, yeri!

Aldı Tahir:

Atam öldü də, nə gəlir əlimdən?
Gətirməsin heç ağaclar bar, yeri!
Mən bülbülü ayırdılar gülündən,
Gül dibinə dolanmasın xar, yeri!

Aldı Zöhrə:

Görən olsa İstanbulun paşasın,
Söyləgilən dərdin ona qurtarsın;
Uzaq gəz, sevməgilən xanın, paşasın,
Ələ düşməz Zöhrə kimi yar, yeri!

Aldı Tahir:

Özümdən nadana demənəm sözüm,
Qürbət vilayətdə mən necə dözüm?
Əmmərcən altından sataşdı gözüm,
Sinən ağdı, Savalanda qar, yeri!

Aldı Zöhrə:

Ərisin bu qarlar, ovalar dolsun,
Saralsın gül rəngim, heyvatək solsun,
Atam özü cəllad əlində olsun,
Dağılsın dudumanı tarımar, yeri!

Aldı Tahir:

Abdal ollam, dəri xırqa götürrəm,
Bağban olub, xub ağaclar bitirrəm,
Mən özümü axır sana yetirrəm,
Qorxum odu qürbət yerdə ar, yeri!

Qazax və Tovuz variantlarında şer belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Zöhrə:

Başına döndüyüm, qurban olduğum,
Ala gözlü, xan Tahirim, var yeri!
Alışıb oduna büryan olduğum,
Ala gözlü, xan Tahirim, var yeri!

Aldı Tahir:

Ay nazım, neynəmişəm, neynərəm,
Xəncəl allam, qara bağrım teylərəm.
Bir canım var, sana qurban eylərəm.
Gətirməsin ağacları bar, yeri!

Aldı Zöhrə:

Mənim atam sənin atan öldürdü,
Ala gözlü, xan Tahirim, var yeri!
Dostu ağladıb, düşmənini güldürdü,
Ala gözlü, xan Tahirim, var yeri!

Aldı Tahir:

Qanlı fələk gör nə işlər qayırdı,
Tahiri də Zöhrə yardan ayırdı.
Zalım atan məni sürgün buyurdu,
Gətirməsin ağacları bar, yeri!

Aşıq Humaydan toplanmış variantda isə deyişmənin belə bəndləri də vardır:

Aldı Tahir Mirzə:

Bülbülüdüm, ayırdılar gülümdən,
Gətirməsin ağacları bar, yeri!
Atam ölüb bir iş gəlmir əlimdən,
Qoyma qona gül dibinə xar, yeri!

Aldı Zöhrə:

Atan ölüb, başın sənin sağ olsun,
Ala gözlü, xan Tahirim, yar, yeri!
Dörd bir yanın güllü baxça-bağ olsun!
Özü yaslı, din-imanım yar, yeri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Tahir Mirzə:

Mən Tahirəm, ayrı düşdüm elimdən,
Bir doyunca iyləmədim gülümdən.
Ayrılıqdı, gəti öpüm dilindən.
Ala gözlü Zöhrə yarım, yar, yeri!

Tovuzlu Aşıq Əbildən toplanmış variantda şerin iki bəndi belədir:

Aldı Zöhrə:

Darayıb zülfümü, tökərəm teşdə,
Aşıq olan yəqin çəkər səriştə,
Yəqin sənsiz mən getmərəm behiştə,
Zöhrəyəm, çəkərəm ahu zar, yeri!

Aldı Tahir Mirzə:

Divan yoxdu, mən də çıxam divana,
Ərzimi söylüyəm soltana, xana,
Tahir qurban Zöhrə kimi canana,
Atanda görmədim etibar, yeri!

Qazax rayonunun Düzqışlaq kəndində yaşayan Aşıq Məhəmməddən toplanmış variantda şer belədir:

Aldı Tahir:

Hatəm Soltan məni sürgün buyurdu,
Heç ağaclar gətirməsin bar, yeri!
Bülbül idim, ayırdılar gülümdən,
Qoyma gül dibini ala xar, yeri!

Aldı Zöhrə:

Eşqin səməndini minib çaparsan,
Harda sınıq könül görsən yaparsan;
Uzaq ölkədə məndən qeyri gözəl taparsan,
Elə, qoy Zöhrə də çəksin ahu zar, yeri!

Aldı Tahir:

Ay ağalar, vəsfi yoxdu bu sözün,
Qürbət eldə, yarəb, gülərmi üzüm?..
Ənbərçin altından sataşdı gözüm,
Sinən ağdı, Savalanda qar, yeri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Zöhrə:

Nə insafdı çəkəm möhnəti-üsyan?
Yandı qara bağrım, döndü oldu qan.
Gecə-gündüz eylərəm ah ilə fəğan,
Sən də ciyərimi dağla, yar, yeri!

Aldı Tahir:

Başın üstə duran xanların xanı,
Nə gözəl eylər ədalət divanı.
Tahir deyər, Zöhrə kimi tərlanı,
Alam, qucam, gül dibinə xar, yeri!

Aldı Zöhrə:

Neyləyirsən göydə gəzən laçını?
Yadda saxla on dörd hörük saçını.
Bilmək olmaz bu qəzanın işini,
Verdiyim amanat saxla, yar, yeri!

Aşıq Ayış Fiyaz oğlundan toplanmış variantda şer belədir:

Aldı Tahir:

Zalım atan xan atamı öldürdü.
Olsun tacü taxtı tarımar, yeri!
Göz gəzdirdim, havadarım olmadı,
Əlimdə olmadı ixtiyar, yeri!

Aldı Zöhrə:

Zalım atam bəy atavu öldürdü,
Olmasın dünyada bərqərar, yeri!
Yerdən göyə mənə zülm eylədi,
Olmasın əlində ixtiyar, yeri!

Aldı Tahir:

Molla gəlib onu da inandırdı,
Çuğul İmanqulu onu qandırdı,
Od vuruban imarətim yandırdı.
Olaydı yediyi zəhrimar, yeri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Zöhrə:

Sürgün etdi səni, getdin əlimdən,
Ayrı düşdüm qönçələnmiş gülümdən.
Şahmar vursun o atamın dilindən,
Günü-gündən çəksin ahu zar, yeri!

Aldı Tahir:

Sinəmə vurdurdu mənim min yara,
Nə ola günləri gələydi qara!
Dünyada dərdinə tapmasın çara,
Dünya üzərində olsun xar, yeri!

Aldı Zöhrə:

Zöhrə ağlar, yoxdu daha əlacı.
İllər boyu olsun görüm zarıncı!
Məhv olsun dünyada atamın tacı!
Olmasın dünyada bir qəmxar, yeri!

«Dastanlar və nağıllar» kitabında getmiş variantda isə belədir:

Aldı Tahir Mirzə:

Zalım atan, o atamı öldürdü,
Olsun tacü təxti tarımar, yeri!
Ağlayıban göz yaşımı sildirdi,
Olmadı, bil, məndə ixtiyar, yeri!

Aldı Zöhrə:

Zalım atam o atanı öldürdü,
Olsun tacü təxti tarımar, yeri!
Üstümüzə düşmanları güldürdü
Olmasın dövləti bərqərar, yeri!

Aldı Tahir Mirzə:

Dost-düşmənlər hər tərəfdən baxdılar,
Könlümün evini vurub yıxdılar,
Şirin canım eşq oduna yaxdılar.
Qaladılar sinəm üstə nar, yeri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Zöhrə:

Qəza bizi yaman günə salıbdı,
Dörd yanımı qəvi düşman alıbdı,
Demə ki, yad eldə yalqız qalıbdı,
Ala bilməz tərlan avın sar, yeri!

Aldı Tahir Mirzə:

Mən Tahirəm, halım müşkül olanda,
Əcəl peynaməsi gəlib dolanda,
Tər bağçalar saralıban solanda,
Qoyma gəzə gül dibində xar, yeri!

Aldı Zöhrə:

Eşqin səməndini minib çaparsan,
Harda sınıq könül görsən yaparsan;
Sən kişisən yad ölkədə taparsan,
Zöhrə çəksin burda ahu zar, yeri!

13. Bu şerin üçüncü bəndi bəzi variantlarda belədir:

Tahir deyər: daha gəlməm bulara,
Axıb didəm yaşı, dönüb sulara;
Baxdır mollalara, baxıcılara,
Aşdır hər gələnə fal innən belə!

14. Bu qoşma Cənubi Azərbaycanda toplanmış variantlarda belədir:

Cida düşdüm vətənimdən,
Qan ağlar ellərim mənim.
Bülbül uçdu daldan dala,
Boş qaldı güllərim mənim.

Yetən deyir: sana noldu,
Saraldı, gül rəngin soldu,
Sağımda, solumda öldü
Nocavan qullarım mənim.

Tahir Mirzə bu çağında,
Sinəsi Zöhrə dağında.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaldı hovuz ayağında
Sonalı göllərim mənim.

Şerin Aşıq Humaydan toplanmış variantı belədir:

Cida düşdüm ellərimdən,
Qan ağlar ellərim mənim.
Bülbüllərim uçar, qonar,
Xar oldu güllərim mənim.

Fələk, mənə səndən oldu,
Saralıb heyvatək soldu.
Şah babam zülmlə öldü,
Boş qaldı dallarım mənim.

Səhərin danı sökülü,
Tütünüm ərşə çəkili,
Pərişan olub tökülü
Şanəsiz tellərim mənim.

15. Bu şerin Aşıq Humaydan toplanmış variantı belədir:

Hatəm Soltan məni sürgün buyurdu.
Kimsədən olmadı əlacım mənim.
O zalımdı, xan atamı öldürdü,
Düşübdü sizlərə ehtiyacım mənim.

Sizə qurban ola özüm, həm sazım,
Qəriblikdə bilməm mən necə dözüm;
Dal tərəfdən baxan o nazlı qızın,
Şahlar şahı bilsin, o bacım mənim.

Tahir deyər: düyünlüyəm, dağlıyam,
Az qalıram dərd əlindən ağlıyam.
Qaramanda Əhməd vəzir oğluyam,
Misirdən gəlirdi xəracım mənim.

Aşıq Ayış Fiyaz oğlundan toplanmış variantı belədir:

Baş götürüb ayağıva gəlmişəm,
Bu yerdə düzəlməz muradım, əmi!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ayağımı torpağıva basmışam,
Əgər dursan mənə havadar, əmi!

Eşitginən necə mənim dərdim var,
Elimdən olmuşam mən də dərbədər,
Əmi, inan, gözü yolda qalan var,
İnsaf deyil burda əylənəm, əmi!

Kim sevər ördəyin, kim sevər qazın,
Tahirəm, açılmaz baharım, yazım,
Pəncərədən baxan o düxtər qızın,
Haq da bilir, indi o bacım, əmi!

«Dastanlar və nağıllar» kitabında getmiş variantda şer belədir:

Baş götürüb ayğına gəlmişəm,
Hər yerdən kəsilib əlacım, əmi!
Ayağın torpağın səcdə qılmışam,
Əgər qəbul olsa meracım, əmi!

Kim sevər ördəyin, kim sevər qazın,
Kim çəkər işvəsin, kim çəkər nazın
Pərdeyi-ismətdə vəfalı qızın,
Haq da bilsin, mənim o bacım, əmi!

Bəzi variantlarda bu qoşma sövdəgərə deyil, aşağıdakı şəkildə Nərgizə xitabən deyilir:

Baş götürüb ayağıva gəlmişəm,
Hər yerdən üzülüb əlacım mənim.
Səni mən özümə qəmxar etmişəm,
Şahlar şahı bilir, sən bacım mənim!

Dərin-dərin dəryalara dalmışam,
Saralıban heyva kimi solmuşam.
Ara yerdə mən sərgərdan qalmışam,
Hər yerdən üzülüb əlacım mənim.

Əlində acizəm, qolu bağlıyam.
Haq da bilir mən yolumda doğruyam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaramanlı Əhməd vəzir oğluyam,
Misirdən gəlirdi xəracım mənim!

Qazax, Tovuz və Şəmkirdən toplanmış variantlarında şer belədir:

Başına döndüyüm sövdəyər başı,
Sizlərə düşüb ehtiyacım mənim.
Fələyin gərdişi vurdu, dağıtdı,
Xarab oldu taxtım, həm tacım mənim.

Mənim yarım alı geyir qırmızı,
İşvəsi, qəmzəsi yandırır bizi.
Qarşımda duran libaslı qızı,
Şahlar şahı bilir ki, bacımdı mənim.

Yardan yaralıyam, ciyərdağlıyam,
Göy geyinib, başa qara bağlıyam;
Qaramanlı Əhməd vəzir oğluyam,
Misirdən gəlirdi xəracım mənim.

16. Cənubi Azərbaycandan toplanmış variantda bu şerin ikinci bəndi belədir:

Bülbül, sənin gözün qandır,
And iç, aşığı inandır!
Tamam cəsədin əlvandır,
Köksün altı sarı, bülbül!

Aşıq Humaydan toplanmış variantı belədir:

Səhərin gülşən çağında,
Nə dolandın bağı, bülbül?!
Oxudun, ağlım apardın,
Mənə oldun yağı, bülbül!

Bülbül, səni kim uçurdu?
Kim yandan bağa qaçırdı?
Kim sənə badə içirdi?
Adın oldu sağı, bülbül!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bülbül, oxuduğun qandı.
Aşıqlar oduna yandı.
Bədənin qırmızı qandı,
Kim olubdu yağı, bülbül?!

Bülbül, oxu qəfəsinə,
Qızıl gülün həvəsinə,
Xan Tahirin sinəsinə
Niyə çəkdin dağı, bülbül?!

Tovuzda toplanmış başqa bir variant isə belədir:

Nə yatıbsan xab içində,
Götür güldən başı, bülbül!
Çəkildi cisminin nuru,
Axıt gözdən yaşı, bülbül!

Gecə yarıdan keçəndə,
Bülbül yuvadan uçanda,
Zöhrə yar badə içəndə
Mən olaydım sağı, bülbül!

Bülbül, səni kim uçurdu?
Kim daldan-dala qaçırdı?
Kim sana badə içirdi?
Kimlər oldu sağı, bülbül?!

Sevdim gözəllər xasından,
Ellərinin sonasından.
Getmir Tahir sinəsindən
Zöhrə yarın dağı, bülbül!

17. Tovuzlu Aşıq Əbildən toplanmış variantda bu şer belədir:

Budu, gəldi bahar fəsli,
Açılıbdı lala, nərgiz!
Süsən, sünbül, tər bənəfşə,
Dəstə tutub iylə, Nərgiz!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağ əllərin bulayıbsan,
Kürdüstanı talayıbsan,
İpək şəddə dolayıbsan,
Şal üstünnən belə, Nərgiz!

Ellərin var oymaq-oymaq,
Yalan sözdü yardan doymaq,
Ağız süddü, dodaq qaymaq,
Dilin batıb bala, Nərgiz!

Çarhovuz üstündə oturdun,
Çox mətləbləri bitirdin,
Buyurdun xələt gətirdin,
Özün geydin belə, Nərgiz!

Uca-uca dağlar qoydun,
Yeni yetməz bağlar qoydun,
Zöhrə yarı ağlar qoydun,
Dur sal məni yola, Nərgiz!

Aşıq Humaydan toplanmış variantı belədir:

Budu, gəldi bahar fəsli,
Açılıbdı lala, nərgiz!
Nahaq yerə çəkmə zəhmət,
Gəl məni sal yola, Nərgiz!

Dağların başı daldadı,
Xiyalın adam aldadı.
Zöhrənin gözü yoldadı,
Rəhm eylə sən mənə, Nərgiz!

Tahir deyər: xandan oldum,
Saralıb heyvatək soldum.
Nagahandan aşıq oldum,
Ağ üzdəki xala, Nərgiz!

Bir variantda birinci bənd belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Budu, gəldi bahar fəsli,
Açılıbdı lala, nərgiz!
Ağ üzün gülə tutubsan,
Dodaqların bala, Nərgiz!

Qazax rayonunun Düzqışlaq kəndində yaşayan Aşıq Məhəmməddən toplanmış variantda belədir:

Uca dağın başı qardı,
Mən çəkdiyim ahu zardı;
Zöhrə yarım intizardı,
Dur sal məni yola, Nərgiz!

Uca dağın başı dalda,
Bulut oynar sağü solda.
Zöhrə yarın gözü yolda,
Dur sal məni yola, Nərgiz!

Nərgiz xanım, halayıbsan,
Gürcüstanı talayıbsan
İpək şəddə dolayıbsan
Zərbab üstən belə, Nərgiz!

İsfahandan qalxan paşa,
Bu sevdalar gəlməz başa;
Ağ üzündə xalı qoşa,
Mən qurbanam xala, Nərgiz!

Gəlin gedək sizin bağa,
Hərəmiz çıxaq bir budağa.
Ləb-ləbə, dodaq-dodağa,
Ləbin batıb bala, Nərgiz!

Heyranam hörük-saçına,
Yerişin bənzər laçına.
Gecə al qoynun içinə,
Gündüz yola sal, Nərgiz!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oturdun, budaq əsdirdin,
Döydürdün, suya basdırdın.
Buyurdun xələt kəsdirdin
Öz əlinlə mənə, Nərgiz!

Qazax, Tovuz və Şəmkirdən toplanmış variantlarda belədir:

Budur gəldi bahar fəsli,
Dağlar aşdı lala, nərgiz!
Hər kəştələr öz yarıynan,
Sən də mənnən qal, a Nərgiz!

Hökm eylədin, kəsdirdin,
Dedin, suya basdırdın.
Məni niyə küsdürdün?
Ürəyimi al, a Nərgiz!

Ağ əli hanalayıbsan,
İsfahanı talayıbsan,
Tirmə qurşaq dolayıbsan,
Şal üstündən dala, Nərgiz!

Mən Tahirəm yana-yana,
Yandı bağrım döndü qana.
Sən bir yaşıl başlı sona,
Uçdun göldən-gölə, Nərgiz!

18. Dastanın bir necə variantında bu bənd belədir:

Başına döndüyüm, sövdəyər başı,
Düxtərin əliynən nan verdi deyim.
Ağlaram, didəmin qurumaz yaşı,
Düxtərin əliynən nan verdi deyim.

Astraxanbazar rayonunun Bəcrəvan kəndində yaşayan Aşıq Ayışdan toplanmış variantda şerin iki bəndi belədir:

Dərd əlindən, əmi, mən gəldim cana,
Qalmışam dünyada mən yana-yana,
Səhər-səhər vardım seyri-gülşana,
Bülbül gül yolunda can verdi deyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İşvəsindən, qəmzəsindən, nazından,
Qıya baxsa, canlar alar gözündən,
Rəqib tənəsindən, düşmən sözündən,
Zöhrə bizdən bəlkə yan verdi deyim.

Tovuzlu Aşıq Əbildən toplanmış variantda şer belədir:

Başına döndüyüm qurban oduğum,
Hayana getsəm də Xanverdi deyim.
Oduna yandığım, büryan olduğum,
Ağladı gözlərim, qan verdi deyim.

Söyləyim ərzimi mərdü mərdana,
Şikayətim vardı çərxi-dövrana.
Sübh zamanı girdim baği-gülşana,
Bülbül gül yolunda can verdi deyim.

İşvəsindən, qəmzəsindən, nazından,
Qıya baxsa, canlar alar gözüynən,
Rəqib tənəsindən, düşmən sözüynən,
Bəlkə Zöhrə mənnən yan verdi deyim.

Tahir deyər: işim zara düzüldü,
Ala gözlər xumarlandı, süzüldü.
Səba əsdi, gül yarpağı üzüldü,
Bülbül başın qoydu, can verdi deyim.

O vaxtı ki, gəlib mən vardım bağa,
Düxtərin çox hörmət etdi qonağa;
Onun yolunda canım sadağa,
Çərxi-fələk bizdən yan verdi deyim.

Mən Tahir Mirzəyəm, sinədağlıyam,
Dərdü qəmimi mən kimə ağlıyam?
Qaramanlı Əhməd Vəzir oğluyam,
Bülbül gül yolunda can verdi deyim.

Aşıq Humaydan toplanmış variantda şer belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nagahandan mən də düşdüm yollara,
Ağalar ağası Xanverdi deyim,
Nazlı dilbər sərin dizim üstündə,
Qoyuban, kirpiklər san verdi deyim.

Bağçanı gəzirdim qəlbim qaraldı,
Aynıya baxanda rəngim saraldı.
Məni, vallah, namus, qeyrət, ar aldı,
Bəlkə də gül dibin xar aldı deyim.

Tahir deyər: işim zara düzüldü.
Ala gözlər xumarlandı, süzüldü.
Bülbül vurdu gül yarpağı üzüldü,
Bülbül gül üstə can verdi deyim.

19. Cənubi Azərbaycandan və Borçalıdan toplanmış variantlarda bu şer belədir:

Başına döndüyüm xanım,
Oyan, ay qız, yarın gəldi!
Sənə qurban olsun canım,
Oyan, ay qız, yarın gəldi!

Əl çatmaz sazın endirəm,
Alam sinəmə mindirəm;
Qorxuram səni dindirəm,
Oyan, ay qız, yarın gəldi!

Əllərinə çəkib həna.
Sirr sözümü deyim sana,
Sana qurban Mələksuma,
Oyan, ay qız, yarın gəldi!

Aşıq Humaydan toplanmış variantda şer belədir:

Başına döndüyüm Zöhrə,
Oyan, Zöhrə, yarın gəldi!
Allah işin saldı təhrə,
Oyan, Zöhrə, yarın gəldi!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dibəkdə döyülən daşdı,
Gözdən axan qanlı yaşdı.
Sənə yar, mənə qardaşdı,
Oyan, Zöhrə, yarın gəldi!

Tovuzlu Aşıq Əbildən toplanmış variantda belə bəndlər də vardır:

Müşkülünü haqq bitirib,
Müjdəni qarı gətirib,
Gətirib sana yetirib,
Oyan, Zöhrə, yarın gəldi!

Sonalar göllərə cuma,
Sözüm yetirdim tamama,
Sana qurban Mələksuma,
Oyan, Zöhrə, yarın gəldi!

20. Aşıq Humaydan toplanmış variantda bu şer belədir:

Aç qara gözlərin, doyunca baxım,
Oyan, gözlərinə qurban olduğum!
Nişana üzüyün barmağa taxım,
Oyan, gözlərinə qurban olduğum!

Kəsdirmişəm nazbalışın yanını,
Sanamışam kirpiklərin sayını,
Nə tapmısan kor yuxunun kanını!
Oyan, gözlərinə qurban olduğum!

Ağ dəstə xəncərdən ağdı biləklər.
Hasil oldu qəlbimdəki diləklər.
Tamaşana yenib göydən mələklər.
Oyan, gözlərinə qurban olduğum!

Cənubi Azərbaycandan və Qazaxdan toplanmış variantlarda belədir:

Nə gedibsən kor yuxunun kanına,
Oyan, gözlərinə qurban olduğum!
Susuyubsan mənim şirin canıma,
Oyan, gözlərinə qurban olduğum!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gah gəlirəm, gah gedirəm bacaya,
Yalvarıram cavan, ahıl, qocaya;
Dan ulduzu xeylək qalxdı ucaya,
Oyan, gözlərinə qurban olduğum!

Atan məni eldən uzaq salıbdı,
Gül rəngim saralıb, yanaq solubdu.
Xəbərin yox, Tahir yarın gəlibdi,
Oyan, gözlərinə qurban olduğum!

Bu qoşmanın ikinci bəndi, eləcə də Tovuzlu Aşıq Əbildən toplanmış aşağıdakı qoşma «Əsli və Kərəm» dastanını xatırladır.

Gah gedirəm, gah gəlirəm bacaya,
Oyan, gözlərinə qurban olduğum!
Dan ildızı xeyli qalxıb ucaya,
Oyan, gözlərinə qurban olduğum!

Kəsdirmişəm yastığının yanını,
Sanamışam kirpiklərin sanını,
Nə tapıbsan kor yuxunun kanını,
Oyan, gözlərinə qurban olduğum!

Bir ox atdım yastığına dayandı,
Yastığın da əlvan qana boyandı,
Sənnən yatan qız-gəlinlər oyandı,
Oyan, gözlərinə qurban olduğum!

Sənin atan məni gözdən salıbdı,
Saralıban gül irəngim solubdu,
Bir qalxginən, xan Tahirin gəlibdi,
Oyan, gözlərinə qurban olduğum!

21. «Dastanlar və nağıllar» kitabında verilmiş variantda bu şer belədir:

Qız, səni ədalət bildim,
Mən yanına dada gəldim.
Çox cəfa çəkdim yolunda,
Ömür verdim bada, gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər nə oldu mənə oldu,
Saraldı güllərim soldu.
Gül üzüldü, bülbül öldü,
Səni saldım yola gəldim.

Tahir Mirzə bu vaxtında,
Sinəsi yarın baxtında,
Hatəm Soltanın taxtında,
Canım saldım oda, gəldim.

Tovuzlu Aşıq Əbildən toplanmış variantda bu şer deyişmə şəklində belədir:

Aldı Zöhrə:

Canım Tahir, gözüm Tahir,
Yarım, xoş gəldin, xoş gəldin!
Sana qurban olum, Tahir,
Yarım, xoş gəldin, xoş gəldin!

Aldı Tahir:

Qız, səni ədalət bilib,
Mən yanına dada gəldim.
Çox cəfa çəkdim yolunda,
Ömrüm verdim bada gəldim.

Aldı Zöhrə:

Çox olubdu cəfaların.
Sürməmisən səfaların.
Doğru oldu vəfaların.
Yarım, xoş gəldin, xoş gəldin!

Aldı Tahir:

Hər nə oldu mənə oldu,
Saraldı güllərim soldu.
Gül üstündə bülbül öldü,
Səni saldım yada, gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Zöhrə:

Sən gedəli nələr oldu,
Göz yaşım qaynadı, doldu,
Zöhrə sənsiz gültək soldu,
Yarım, xoş gəldin, xoş gəldin!

Aldı Tahir:

Tahir Mirzə bu vaxtında.
Sinəsi yarın baxtında.
Hatəm Soltanın taxtında.
Canım saldım oda, gəldim.

22. Aşıq Humaydan toplanmış variantda bu şer belədir:

Başına döndüyüm, qurban olduğum,
Qoy aparsın görüm, su mənə neylər?!
Müşənbələ, at dəryaya sandığım,
Qoy aparsın görüm, su mənə neylər?!

Tahirin sandığın yonubdu naşı,
Haqq qəbul eyləməz beləcə işi.
Yunisi dəryadan çıxardan kişi,
Çıxartsa sandığım, su mənə neylər?!

Əmib-əmib ləblərindən yandığım!
Əsriyibən ləblərindən qandığım!
Müşənbələ, at dəryaya sandığım,
Qoy aparsın, görüm, su mənə neylər?!

Tahir deyər: kimlər çəkər nazımı,
Kim bəsləyər ördəyimi, qazımı,
Gətir yanıma qoy cürə sazımı,
Qoy aparsın görüm, su mənə neylər?!

Tovuzlu Aşıq Əbildən toplanmış variantda bu şer belədir:

Başına döndüyüm, ay Zöhrə xanım,
Danışsa səryağıb, dil mənə neylər?
Bir kimsənin haqdan yansa çırağı,
Yığılsa məxluqat, el mənə neylər?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlbət belə imiş qəzanın işi,
Gecə-gündüz axıdıram mən yaşı,
Yunisi dəryadan çıxardan kişi,
Qoy aparsın görüm, sel mənə neylər?!

Mən Tahirəm, sözüm deyim mərdana.
Şikayətim vardı qədir sübhana.
Qoy sandığa, tulla məni ümmana!
Qoy aparsın görüm, il mənə neylər?!

Qazax rayonunun Düzqışlaq kəndində yaşayan Aşıq Məhəmməddən toplanmış variantda şerin iki bəndi belədir:

İsgəndər atlandı əlində quşu,
Sərraf olan seçər ləli, gümüşü;
Yusifi zindandan qurtaran kişi,
Qoy aparsın görüm, sel mənə neylər?!

Mən Tahirəm, bu dəryada axaram.
Qızıl üzük barmağıma taxaram.
Axır bir gün bir adaya çıxaram,
Qoy aparsın görüm, sel mənə neylər?!

Şerin Gəncəbasardan toplanmış variantı belədir:

Ay ağalar, gəlin sizə söyləyim,
Ağız içindəki dil mənə neylər?!
Fələk vurdu, məni saldı qürbətə,
Büryan olsun görüm, dil mənə neylər?!

Dərin-dərin dəryalara daldığım,
Şirin canım eşq oduna saldığım;
Müşambala, at dəryaya sandığım,
Qoy aparsın görüm, sel mənə neylər?!

Tahirəm, bəla əl çəkməz başımdan,
Qarlar yağır qabağımdan, qaşımdan;
Üzüm bar bağladı gözüm yaşından,
Tufan olsun görüm, sel mənə neylər?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəzi variantlarda bu qoşma belədir:

Başına döndüyüm ala göz xanım,
Qoy aparsın görüm, su mana neylər?!
Sana qurban olsun bu şirin canım,
Qoy aparsın görüm, su mana neylər?!

Gecə-gündüz yar oduna yandığım,
Əmib-əmib ləblərindən qandığım.
Müşambala at dəryaya sandığım,
Qoy aparsın görüm, su mana neylər?!

Tahirin sandığın yonar bir naşı,
Bir allaha qalıb onların işi,
Yunisi dəryadan çıxardan kişi,
Özü olsa kömək, su mana neylər?

23. Bu şerin Cənubi Azərbaycandan toplanmış variantı belədir:

Tahir getdi, söhbətində, dəmində,
Zöhrə qaldı otağında qəmində,
Nə dolanırsan bu Gilanzəmində?
Götürgünən hər diyara gedərsən.

Kənardan gələn ay bulanıq ada,
Çağırram, şahlar şahı yetsin dada;
Sandığımı salmagilən girdaba,
Tapşırram Həştərxana gedərsən.

Gəncə və Qazaxdan toplanmış variantları belədir:

Qanlı dərya, nə selavdan axarsan,
Axıb-axıb bir ümmana gedirsən.
Fələk vurdu, məni saldı zindana,
Ya Misirə, ya da Şama gedirsən!

Ax necə mən həsrət qaldım beş günə.
Fələk kəmənd atdı ömrüm köşkünə,
Adı bəlli Məhəmmədin eşqinə,
Mən bilirəm Süleymana gedirsən!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən Zöhrəyəm, gözü daim qan yaşlı,
Qələm qaşlı, qara göz, qara saşlı;
Yeniyetmə, on beş, on altı yaşlı,
Bilirəm Firəngistana gedirsən!

Aşıq Humaydan toplanmış variantda belədir:

Coş eləyib coşqun gedən dəryalar,
Axıb elə nə məkana gedərsən?
Qoymagilən sandıq düşə girdaba,
Götür apar hər bir yana gedərsən?

Tahirim yatıbdı şirin yuxuda,
Qorxuram sandığı naqqalar uda;
Sol yana ayrılan bulanıq ada,
Götür apar hər bir yana gedərsən?

Zöhrə dərd əlində gəldi amana,
Üzümü çöyürdüm sahib-zamana;
Sandığı tapşırdım, xudam, bir sana,
Götür apar Lənkərana, gedərsən!

Tovuzlu Aşıq Əbildən toplanmış variantda belədir:

Qanlı dərya, nə axarsan selavdan,
Axıb-axıb sən ümmana gedərsən.
Amanatdı, qərq eləmə sandığı,
Tapşırıram Süleymana, gedərsən.

Payız olcaq bağlar tökər xəzəli,
Boynum sınsın, söymüyeydim əzəli,
Yaxşı olar bu Qaraman gözəli,
Qəsd edərsən, Qaramana gedərsən.

Zöhrə necə dözsün bu ahu vaya,
Cavan ikən qəddim dönübdü yaya,
Qoyuban sandığa atdım dəryaya,
Dalğalanıb sən hər yana gedərsən.

1956-cı ildə Astraxanbazar rayonunun Bəcrəvan kəndində yaşayan Aşıq Ayışdan toplanmış variantda bu şerin iki bəndi belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qanlı dərya, nə axırsan qatı-qatı,
Sən oldun mənə İsgəndər zülmatı;
Səni and verirəm xəstə yarım amanatı,
Ya Şəkiyə, ya Şirvana gedərsən.

Zöhrə indi batıb bu dərdə, qəmə,
Get, sandıq, icazə verirəm sənə;
Xoş olsun haluva, ay Məleksuma;
Tahir kimi yarımı sən görərsən.

24. Tahirin sandıqda axıb gəldiyi yer müxtəlif variantlarda müxtəlif şəkillərdə göstərilir. Bunlardan ən məşhurları İsfahan, Həştərxan, Lənkəran, Əjdərhan və sairədir. Tahiri sudan çıxaran qızın adı, eləcə də qızların və Tahirin dedikləri qoşmalar da müxtəlif variantlarda müxtəlif şəkillərdədir. Ən çox fərqlənənləri burada verilir:

Bu şer dastanın əksər variantlarında aşağıdakı kimidir:

Axıb-axıb coşan dərya,
Xan Tahirim getdi səndə!
Vurmaginən onu daşa,
Xan Tahirim getdi səndə!

Bu dəryanın adasından,
Alım yarın qadasından;
Xan Tahirin bəlasından,
Xan Tahirim getdi səndə!

Zöhrəyəm, yaman çağlıyam,
Başa qaralar bağlıyam,
Sinəsi çarpaz dağlıyam,
Xan Tahirim getdi səndə!

Aşıq Humaydan toplanmış variantda bu şer belədir:

Axıb-axıb gedən dərya,
Getdi xan Tahirim səndə!
Dörd bir yanı bağ, səhra,
Getdi küllü varım səndə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gedibdi əlimdən yarım,
Artıbdı ahılən zarım.
İndi mən kimə yalvarım?
Getdi gözəl yarım səndə!

Zöhrəyəm qanlar ağlaram,
Sinəmi çarpaz dağlaram,
Yeddi il qara bağlaram,
Getdi ümidvarım səndə!

25. Aşıq Humaydan toplanmış variantda bu şer belədir:
Aldı vəzirin qızı:

Başına döndüyüm, gul üzlü oğlan,
Əcəm oğlan, sandığından dur, yeri!
Yunis kimi dəryaya qərq olubsan,
Əcəm oğlan, sandığından dur, yeri!

Aldı vəkilin qızı:

Əcəm ölkəlisən, nə məkanlısan?
Şirin dəhanlısan, xoş kəlamlısan.
Adam öldürübsən, yoxsa qanlısan,
Əcəm oğlan, sandığından dur, yeri!

Aldı paşanın qızı Banı xanım:

Ordan çıxdın, xarab qoydun xananı,
Tərk eylədin bacı, qardaş, ananı,
Gəl yandırma paşa qızı Banını,
Əcəm oğlan, sandığından dur, yeri!

Tovuzlu Aşıq Əbildən toplanmış variantda belədir:
Aldı Cuna:

Səbəb nədi bu sandıqda yatıbsan?
Oyan sandığından, var əcəm oğlu!
Nə səbəbdən qəm-qüssəyə batıbsan?
Oyan sandığından, var əcəm oğlu!

Aldı Sina:

Açıldı sandığın, göründü sinə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəmalın şövqünü oxşatdım günə,
Kim çəkib köksünü dağı-düyünə?
Oyan sandığından, var əcəm oğlu!

Aldı Maya:

Açıldı sandığın, göründü maya,
Rüxsarın bənzətdim günəşə, aya,
Söylə, səni kimlər atıb dəryaya?
Oyan sandığından, var əcəm oğlu!

Aldı Banı:

Saralıbdı, gül irəngin solubdu.
Qaynayıban gül peymanan dolubdu.
Kimdən sənə belə sitəm olubdu?
Oyan sandığından, var əcəm oğlu!

Səyyad olan öz oyunu tanıya,
Dursan gedək bizim dövlətxanıya.
Rəhmin gəlsin paşa qızı Banıya,
Oyan sandığından, var əcəm oğlu!

1937-ci ildə nəşr edilmiş «Dastanlar və nağıllar» kitabında getmiş variantda şerin hamısını paşa qızı Banı deyir.

Astraxanbazar rayonunun Bəcrəvan kəndində yaşayan Aşıq Ayışdan toplanmış variantda şer belədir:

Aldı Mələksuma:

Oğlan, haralısan, nə məkanlısan?
Cəvahir ölkəli dürr mədənlisən,
Dəryaya düşmüsən, yoxsa qanlısan,
Sandığından, əcəm oğlu, dur, yeri!

Açıldı sandığın göründü mina.
Cəmalın şövqünü oxşatdım günə.
Söylə, kimlər salmış səni bu günə?
Sandığından, əcəm oğlu, dur, yeri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Açıldı sandığın, göründü maya.
Cəmalın şövqünü oxşatdım aya;
Söylə, kimlər salmış səni dəryaya?
Sandığından, əcəm oğlu, dur, yeri!

Cənubi Azərbaycanda toplanmış varintda belədir:

Başına döndüyüm, ay əcəm oğlu,
Əcəm oğlu, sandığından dur, yeri!
Sizin dininiz bizimkindən doğru,
Əcəm oğlu, sandığından dur, yeri!

Oğlan, söylə görüm nə məkanlısan?
Dilin şirin, özün xoş göftarlısan.
Atıblar dərgaha, məgər qanlısan,
Əcəm oğlu, sandığından dur, yeri!

Dərin-dərin dərgahlara dolmuşsan,
Saralıbsan heyva kimi, solmuşsan;
Ara yerdə mən sərkəndar qalmışam,
Əcəm oğlu, sandığından dur, yeri!

Qazax, Tovuz və Borçalıdan toplanmış variantlarda isə belədir:

Başına döndüyüm, qurban olduğum,
Oyan sandığından, var əcəm oğlu!
Alışıb oduna büryan olduğum,
Oyan sandığından, var əcəm oğlu!

Dəri-dərin dəryalara dalmısan,
Şirin canım eşq oduna salmısan.
Nə müddətdən bu dəryada qalmısan?
Oyan sandığından, var əcəm oğlu!

Mən Banıyam, köysüm bəndin açaram,
Nə edim ki, mən bu işdə naçaram;
Yaxşı ilə yamanları seçərəm,
Oyan sandığından, var əcəm oğlu!

26. Şerin Qazax, Göyçə və Kəlbəcərdən toplanmış variantları belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərgə kənarına sehrə gələnlər,
Tanrı məni sizə qurban eyləsin!
Müjganından bağrım başın dələnlər,
Tanrı məni sizə qurban eyləsin!

Lap qabaqça gəlir, əli almalı,
Almasını alıb civə salmalı;
Gülgəz kəlağaylı, əyri çalmalı,
Tanrı öz yarıma qurban eyləsin!

Mən Tahir Mirzəyəm, gözləri yaşlı,
Görcəyin mənim meylim sizə düşdü.
Qızlar, bu dünyanın axırı puşdu,
Tanrı öz yarıma qurban eyləsin!

Tovuzlu Aşıq Əbildən toplanmış variantda şer belədir:

Pəncərədən hayıl-mayıl baxan yar,
Tanrı məni sizə qurban eyləsin!
Şirin canım eşq oduna yaxan yar,
Tanrı məni sizə qurban eyləsin!

Biz qəribik, siz atalı, analı.
Gözləri sürməli, əli xınalı.
Qolları bəzbətdi, başı cunalı.
Tanrı məni sizə qurban eyləsin!

Kimi al geyinib, kimi qırmızı,
Kimi gül döşürür, kimi nərgizi,
Nazınan yeriyən vəzirin qızı,
Tanrı məni sizə qurban eyləsin!

Adın Banı, özün xannar xanısan,
Gözəllər içində xoş avazlısan,
Biçara Tahirin şirin canısan,
Tanrı məni sizə qurban eyləsin!

Astraxanbazar rayonunun Bəcrəvan kəndində yaşayan Aşıq Ayışdan toplanmış variantda belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Biz yetimik, siz atalı, analı,
Tanrı öz yarıma qurban eyləsin!
Vəzirin qızının burnu tanalı,
Tanrı öz yarıma qurban eyləsin!

Bu necə ulusdu, bu necə eldi?
Mənim sirrim, qızlar, sizə bəllidi;
Vəkilin qızı da başdan keçəldi,
Tanrı öz yarıma qurban eyləsin!

Mələksuma, özün dərddən halısan,
Dediyim sözlərə sən də qanısan.
Bu cavan Tahirin şirin canısan,
Tanrı məni sənə qurban eyləsin!

27. Bir sıra variantlarda Tahir bu qoşmanı Xanverdinin bağında işləməyə məcbur olduğu zaman deyir.

28. Tovuzlu Aşıq Əbildən toplanmış variantda bu şer belədir:

Hatəm şahın qəzəbinə uğradım,
Atdırdı dəryaya, ümmana məni.
Şahım, mən qapına dada gəlmişəm,
Amandı, verməynən fərmana məni.

Gözəl tərlan idim dərd dağın aşdım.
Mən bir tifil ikən ağlımı çaşdım.
Oxudum, sinəmin dəftərin aşdım,
Cəlladlar yetirdi al qana məni.

İndi sana mən şikayət eyləyim,
Xəncər ilə bağrım başın teyləyim;
Dilim tutmur beş kəlməni söyləyim,
Apar Zöhrə ilə divana məni.

Uşaq ikən beşiyini yırğadım,
Çörəyimi zəhərlərə doğradım.
Hatəm Soltan qəzəbinə uğradım,
Atdı selavlara, ümmana məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahir deyər: özün mana bildirdi,
Ağladıban göz yaşımı sildirdi.
Nahaq yerə atam, anam öldürdü,
Təbibimsən, yetir dərmana məni.

Aşıq Humayda toplanmış variatda belədir:

Padşahım, qapına dada gəlmişəm,
Nə olan yetirsən canana məni.
Hatəm Soltan qəzəbinə uğradım,
Buyurdu cəlladı fərmana məni.

Bir ala gözlünün oduna düşdüm,
Oxuyub dəftərin, sinəsin açdım,
Bir zalımın nəzərinə sataşdım,
Atdı seldən-selə, ümmana məni.

Mən Tahirəm, Əhməd Vəzirdi atam,
Öldürdü atamı, qardaşı Hatam,
İstədi məni də qanıma batam.
Buyurdu Qasimə-cəllada məni.

Astraxanbazar rayonunun Bəcrəvan kəndində yaşayan Aşıq Ayışdan toplanmış variantda bu şer belədir:

Əzəl başdan mən də sevdaya düşdüm,
Fələk ayrı saldı yarımdan məni.
Bir huri-qılmanı, aldı əlimdən,
Avara salıbdı elimdən məni.

Atamla eylədi bir belə ilqar,
Verdirdi əziyyət, çəkdim ahu zar.
Atamı öldürdü məndən bixəbər,
Buyurdu cəllada fərmana məni.

Zöhrə ağlar, onun çarəsi yoxdu.
Hatəm Soltanın ona zülmü çoxdu,
Mən Tahirəm, mənə havadar yoxdu,
Əmim Hatəm atdı ümmana məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

29. Bəzi variantlarda, o cümlədən də Cənubi Azərbaycan variantında şer belədir:

Sandıq çıxdı bizim bağa,
Ovand oldu işin, Zöhrə!
Paşa qızıyam, adım Banı,
Gətirmişəm qoşun, Zöhrə!

Heç yerində eyib yoxdur,
İlla sənin qaşın, Zöhrə!
Tahir kimi yarın vardır,
Baxtavardı başın, Zöhrə!

Gətdim sana müjdə xəbər,
Qara bağrım oldu qabar.
Tahir yardan sana xəbər,
Ovand oldu işin, Zöhrə!

Qazax, Tovuz və Şəmkirdən toplanmış variantlarda belədir:

Sandıq gəldi bizim bağa,
Onda bitdi işin, Zöhrə!
Hörmət vacibdi qonağa,
Onda bitdi işin, Zöhrə!

Gözəllikdə sən əlasan,
İllahım ki, qaşın, Zöhrə!
Tahir kimi yarın varmış,
Baxtavardı başın, Zöhrə!

Banı deyər: gəl boylaşax!
Görək kimdi kimdən qoçax.
Gücün varsa gəl savaşax.
Gətirmişəm qoşun, Zöhrə!

Aşıq Humaydan toplanmış variantda belədir:

Aldı Banı:

Eşitmişəm çox qəşəngsən,
İlla sənin qaşın, Zöhrə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tahir kimi yarın vardır,
Baxtavardı başın, Zöhrə!

Aldı Zöhrə:

Başına döndüyüm Banı,
Bəs mənim Tahirim hanı?
Haqq saxlasın müdam səni,
Bəs mənim Tahirim hanı?

Aldı Banı:

Gəlin gedək tağ otağa,
Olum sirrivə sadağa;
Sandıq çıxdı bizim bağa,
İşin oldu avand, Zöhrə!

Aldı Zöhrə:

Ala gözün süzdürübsən.
Tellərivi kəsdiribsən,
Xan Tahiri küsdürübsən,
Bəs mənim Tahirim hanı?

Aldı Banı:

Banı deyər: gəl boylaşaq,
Görək kimdi kimdən qəşəng,
Hünərin var gəl dalaşaq,
Gətirmişəm qoşun, Zöhrə!

Tovuzlu Aşıq Əbildən toplanmış variantda belədir:

Gözlərində qüsur yoxdu,
İllah sənin qaşın, Zöhrə!
Dodağın yaquta bənzər,
İncidəndi dişin, Zöhrə!

Gəl duraq qabaq-qadağa,
Boyum boyuna sadağa!
Sandıq çıxdı bizim bağa,
Onda bitdi işin, Zöhrə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Uca dağın başı qardı,
Sinəndən baş verən nardı.
Tahir kimi yarın vardı,
Baxtavardı başın, Zöhrə!

Banı deyər: gəl dərdləşək,
Görək kimdən kimdi qəşəng,
Gücün varsa gəl güləşək,
Gətirmişəm qoşun, Zöhrə!

Astraxanbazar rayonunun Bəcrəvan kəndində yaşayan Aşıq Ayışdan toplanmış variantda belədir:

Gözlərində qüsur yoxdu,
Vallah sənin qaşın, Zöhrə!
Yaqut ilən dürrə bənzər,
İnci, sədəf dişin, Zöhrə!

Günü gündən ahu zardı,
Qoynundakı bir cüt nardı,
Tahir kimi yarın vardı,
Baxtavardı başın, Zöhrə!

Gəl bu otaqlarda yataq,
Mətləbin kamına çataq;
Bir yerdə ixtilat qataq,
Əgər varsa sazın, Zöhrə!

Mələksuma bəyənibdi,
Al yaşıla boyanıbdı.
Qoşunlarım dayanıbdı,
Əgər varsa gücün, Zöhrə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AŞIQ QƏRİB

Aşıq Qərib qədim və çox variantlı dastanlardandır. Bu dastan Orta Asiya, Ermənistan, Türkiyə və İranda geniş yayılmış və şöhrət qazanmışdır. «Aşıq Qərib» dastanının süjeti əsasında böyük rus şairi Lermontov eyni adlı əsərini yazmışdır. Bundan sonra, 1892-ci ildə dastanın bir variantının şe'rləri Tiflisdə nəşr edilən «Sbornik materialov dlə opisaniə mestnostey i plemen Kavkaza» («SMOMPK») adlı məcmuədə verilmişdir.

Bu kitabda gedən variant 1939-cu ildə Laçın rayonunun Əhmədli kəndində yaşayan Aşıq Məşədi Dadaşdan toplanmışdır. Dastanın başqa bir variantı da 1962-ci ildə Əhliman Axundov tərəfindən toplanıb tərtib edilmiş «Azərbaycan xalq dastanları» kitabında verilmişdir.

1. Adanada nəşr edilmiş «Haqiqi aşıq Qarib» dastanında bu şe'rin iki bəndi belədir:

Qadir haqdan dilek diledim,
Verdi muradımı tanrım benim.
Diledigim dilek haqa yaradı,
Önüme çıqardı namazgah benim.

Genc yaşımda gördüm dünya qamını,
Felegin her türlü esbabı-cefasını,
Ahı yüzlüm sundu aşqın camını,
Göründü gözüme doğru ruh benim.

«SMOMPK» məcmuəsində bu şe'rin iki bəndi belədir:

Qətrədim-qətrədim, aha yetirdim,
Özümü bir yüzü maha yetirdim,
Bir ərizə yazdım, şaha gətirdim,
Ərizəmə qol çəkdi gözəl şah mənim.

Ərənlər Qəribə əta verdilər,
Dolu doldurub, tuta verdilər,
Şahsənəmi ona buta verdilər,
Tiflis oldu doğru rah mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

1956-cı ildə Bolqarıstanın mərkəzi Sofyada nəşr edilmiş «Aşıq Qarip» kitabında bu şe'rin iki bəndi belədir:

Ben dilek diledim, mevlam yattı,
Muhabbet gülümü verdi ah benim!
Genc yaşımdan gördüm dünya malını…
Sundular yarımın qırqlar camını…

Diz çöküb de gəldim ustad önüne,
Kimseler öksüzün baqmaz halıne,
Könül quş qondurdu yarın gülüne,
Ötmekdedir feryadü zarım, ah, benim.

2. Bu şe'rin Qazax və Tovuzdan toplanmış variantında iki bənd belədir:

Bülbül həsrət çəkər, meyli güldədir,
Siyah zülfləri sağda, ya soldadır,
Sevgim həsrət çəkər, gözü yoldadır,
Ana, mən Tiflisə getməli oldum.

Göy örtübən üstdən qara bağlaram,
Sinəm başın düyünləyib dağlaram,
Qərib der: Şahsənəm deyib ağlaram,
Ana, mən Tiflisə getməli oldum.

«SMOMPK» məcmuəsində bu şe'r belə getmişdir:

Səninlə mən edərəm məhəbbət sazı,
Diləræm duadan, unutma bizi.
Tiflisdə görmüşəm bir alagözü,
Ana, mən Tiflisə varmalı oldum.

Rəqiblər var sağ və solda,
Sevdiyimin gözü qalıbdır yolda;
Necə aparım səni bu sovuqda?
Ana, mən Tiflisə varmalı oldum.

Qərib deyərlər mənim adıma,
Yetişməmişəm əsla mən muradıma,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahsənəm düşübdü indi yadıma,
Ana, mən Tiflisə varmalı oldum.

1332-ci ildə (hicri) İstanbulda nəşr edilmiş «Aşiq Qarip» dastanında bu şe'rin bir bəndi belədir:

Atəşimə dağlar, daşlar dayanmaz,
Dərdim çoxdur benim, kimsələr bilmez,
Şimdan geri bu yer bizə əl verməz,
Nənə, bən Tiflisə varmalı oldum.

Sofya variantında bu şe'rin bir bəndi belədir:

Beni köle eyledi bir peri qızı,
Perinin aşqi ile çalarım sazı,
Qayrı duandan unutma bizi,
Ben Tiflise varmalı oldum.

Yenə həmin variantda şe'rin iki bəndi belədir:

Başına döndügüm gül yüzlü Senem,
Nine, ben Tiflise varmalı oldum.
Bir cavanın aşqı düştü serime,
Nine, ben Tiflise varmalı oldum.

Tifliste, gördüm bir ela gözlü qız,
Şimdi odur yatan qalbimde yalnız,
Ana, ben duramam burda Senemsiz,
Nine, ben Tiflise varmalı oldum.

3. Sofya variantında bu şe'r belədir:

Bir qız gördüm ben dün gecə,
Ana, Tiflis diyarında.
Eşi yoqtur onun bence,
Ana, Tiflis diyarında.

Erenler gösterdi onu,
Tutmalıyım ben yolunu,
Qovuşmaqdır bunun sonu,
Ana, Tiflis diyarında.

Aşqı yaqar beni her dem,
Ölsem ondan vaz keçəməm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Beni bekler gözel Senem,
Ana, Tiflis diyarında.

4. 1935-ci ildə Səlman Mumtaz tərəfindən nəşrə hazırlanmış « El şairləri» kitabının II cildində bu şe’r belədir:

Gəlmiş ikən sizdən xəbər alayım,
Dediyiniz Tiflis şəhri budumu?
Ərinə, pirinə qurban olayım,
Dediyiniz Tiflis şəhri budumu?

Narınc munda, mürünc munda, nar munda,
Namus munda, qeyrət munda, ar munda,
Xoca Bəhrəm, bir qohumum var munda,
Dediyiniz Tiflis şəhri budumu?

Aşıq olan əldə içər hey tası,
Qızıl gülün var yanında butası,
Xoca Bəhrəm–Şahsənəmin atası,
Dediyiniz Tiflis şəhri budumu?

Bu şe’rin «SMOMPK» məcmuəsində nəşr edilmiş variantı belədir:

Axtara-axtara gəlib tapmışam,
Şəhri-Tiflis dedicəyim budurmu?
Gələndən, gedəndən xəbər bilmişəm,
Şəhri-Tiflis dedicəyim budurmu?

Bəncə bunda, heyva bunda, nar bunda,
Namus bunda, qeyrət bunda, ar bunda,
Bəhrəm deyən bir qohum var bunda,
Şəhri-Tiflis dedicəyim budurmu?

Qərib deyərlər adıma,
Yetməmişəm mən muradıma,
Şahsənəm düşüb yadıma,
Şəhri-Tiflis dedicəyim budurmu?

5. İstanbul variantında bu şe’rin 4, 5-ci bəndləri belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözəllər, bağlanır qara peçeyi,
Kimse bilmez bu bilmeçeyi.
Qarip-qarip hıçqırır sevdiceyi,
Hoca, ben bilirim halı Təbrizin.

Pirler dolusun içdim söylerim,
Enib aşqın dəryasını boylarım,
Aşıq Qaribin mədhin eylərəm,
Benəm şimdi Rüstəm-Zalı Tabrizin.

Respublika əlyazmaları fondunda mühafizə edilən B-1251 №-li cüngdə olan variantda bu şe'r belədir:

Ay ağalar, gəlin sizə söyləyim,
Güllü cəvahərdir malı Təbrizin.
Gözəllərin geyər toyda, bayramda,
Yaşıl zərbabı, alı Təbrizin.

Gözəlləri tamam tərsa becədir,
Heç hesaba gəlməz, bilməm neçədir,
Səksən min məhlədir, doxsan min küçədir,
Çarçısı, bazarı, eli Təbrizin.

Aşıq olan deyər beş xana bəndi,
Heç hesaba gəlməz məscidi, kəndi,
Hindustandan gələr şəkəri, qəndi,
Gürcüstandan gələr balı Təbrizin.

Başına qoyub buxara börkü,
Çiyninə salıb zənburdan kürkü,
Aşıq Qərib deyər beş xana türkü,
Xocam, siz bilirsiz halı Təbrizin.

Bu şe'rin 1944-cü ildə Laçında Aşıq Məşədi Dadaşdan toplanmış bir variantı belədir:

Şahım, Təbriz dediyin buca-bucadı,
Sanamadım sarayları neçədi?
Səksən min məhlə, doqsan min küçədi,
Küçəsi, dükanı, eli Təbrizin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Təbriz gözəlləri qəsridən baxar,
Keçən cavanları odlara yaxar,
Cümədən cüməyə seyrana çıxar,
Al geyinər gözəlləri Təbrizin.

Pəhlivanlar kisbənd geyər bağlanır,
Gələn bəzirganlar orda saxlanır,
Gündə üç yüz atmış altı yükü bağlanır,
Gedər al-Osmana malı Təbrizin.

Düyüsü Gilandan əkilir, gəlir,
Qoyunu Muğandan sökülür, gəlir,
Hindustandan tökülür gəlir
Darçını, mixəyi, hili Təbrizin.

Gözəllər seyrana çıxarlar bağa,
Sərinə sancallar əbrişin cığa,
Doxsan min pətəyi çıxar yaylağa,
Gəlir çöl mişoydan balı Təbrizin.

Aşıq Qərib ərzin sənə eyləsin,
Hər dəftərdən sənə bəyan eyləsin,
Dili tutmur bundan artıq söyləsin,
Əzizim, çoxdu vəsfi-halı Təbrizin.

Sofya variantında bu şe’rin iki bəndi belədir:

Üç yüz altmış yükü birden bağlanır,
Karvanı seherde qalqıp yollanır,
Qumaşı tezgahta iken peylenir,
Elden ele gezer malı Tebrizin.

İpligi ta Hintten bükülür gelir,
Buğdayı pirinci ekilir gelir,
Qoyunu Muğandan çekilir gelir,
Gürcüstandan gelir balı Tebrizin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

6. Adana variantında bu şe'rin 3 bəndi belədir:

Bir söz ile tuzağa tutuldum,
Qarip illerde yaqtı yar beni,
Hasretin narina yandim, kül oldum,
Ne haldeyim, ahu gözlüm, gör beni.

Ne sabırda taqat qaldi, ne dilde qarar,
Könül Məcnun olmuş, Leylasını arar,
Vaz keçəməm, seni yaban eller sarar,
Qara gözlüm, ne haldeyim, gör beni.

Gördüm yarı, oldum divane,
Geldim ki, dünya bir misafirhane,
Aşıq Qarip mum dibinde pervane,
Qara gözlüm, ne haldeyim, gör beni.

7. Bu şe'rin Gürcüstan arxivlərindən mühafizə edilən bir variantı belədir:

Bu gələn bir cüt sonaya,
Mən hansına qurban olum, heyran mən olum?!
Geyinmiş başdan ayağa,
Mən hansına qurban olum, heyran mən olum?!

Mineydim...... təngine,
Baxeydim hüsnün rənginə,
Düşdüm üç gözəl cənginə,
Mən hansına qurban olum, heyran mən olum?!

Göydə göyərçin saz eylər,
Yerdə qumru pərvaz eylər,
Üç gözəl bizə naz eylər,
Mən hansına qurban olum, heyran mən olum?!

Qərib deyər: hanı yarım,
Ərşə çıxma, ahu zarım,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu gələn vəfalı yarım,
Mən hansına qurban olum, heyran mən olum?!*

Qazax və Borçalıdan toplanmış variantda bu qoşmanın üçüncü bəndi belədir:

İkisi yad isə, biri qohumdu,
Birisi də kəsilməmiş qovundu,
Üçündən birisi, Qərib, ovundu,
Üç gözəlin birisinə mən qurban.

8. «SMOMPK» məcmuəsində nəşr edilmiş variantda bu şe’r belədir:

Pəncərədən ayıl-mayıl baxan yar,
Apardın ağlımı başdan elədin,
Şirin canımı eşq oduna yaxan yar,
Alışdırdın məni, cismi ataşdan elədin.

Boynuna taxmış heykəl bağını,
Mən əməm dilini, həm dodağını,
Bulud kimi kəsmiş ay qabağını,
Sevdiyim hörümçəyi saçdan elədin.

Qərib, gülünü dəstə-dəstə dərmişlər,
Dəribən sinə üstə sərmişlər,
Əcəb vaxtda ixtilata gəlmişlər,
Ayırdın çörəkdən, aşdan elədin.

9. Bu şe’rin «SMOMPK» məcmuəsində nəşr edilmiş variantı belədir:

Dinləyin, ağalar, tə’rif eləyim,
Söylənir cahanda şanı Ərzrumun.
Yeddi iqlim arasında tayı tapılmaz,
Söylənir cahanda şanı Ərzrumun.

-----------------------

* D. Əliyevanın «Azərbaycan-gürcü ədəbi əlaqələri tarixindən» adlı kitabından götürülmüşdür (səh. 162).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xoşdur qayətdə abi-havası,
Dörd yanından gəlir bülbül sədası,
Vardır ərənlərin onda duası,
Bənzər cənnətə hər yanı Ərzrumun.

Mən Qəribəm, gəlmişəm bu vətənə,
Qəriblik yaman olur baş yastığa yetəndə,
Yaxşı olur qərib bülbül ötəndə,
Gül-gülzardır hər yanı Ərzrumun.

10. Qazaxdan toplanmış variantda bu şe'rin 1, 2-ci bəndləri belədir:

Dərya kənarında balıq tutanlar,
Göründü gözümə maya qaşların;
Dəryanı, qaranı qapladı şövqün,
Bənzərdi üç günlük aya qaşların.

Hüsnün cahana vurubdu tuqi,
Yaz gəlincə artar bülbülün zövqi,
Çaqdı dərunumu camalın şövqi,
Əqlimi uğratdı zaya qaşların.

İstanbul variantında bu şe'rin iki bəndi belədir:

Dərya kənarında səmək tutarkən,
Göründü gözümə maya qaşların.
Dəryayı qarayı qıldı şövqün,
Bənzər üç günlük aya qaşların.

Hüsnün cahana verdi şövqü,
Yaz gəlincə artar bülbülün zövqü,
Yaxdı dərunumu cəmalın şövqü,
Ağlımı uğratdı zaya qaşların.

Adana variantında bu şe'r belədir:

Havuzun başında hayal qurarken,
Göründü gözüme qara qaşların.
Deryayı qarayı tutunca şarqın,
Benziyor üç günlük aya camalın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hüsnünle cihana şevq veren sensin,
Baharda bülbülün şevqini artıran sensin,
Degdi yüregime zehirli oqu,
Benzer bir qurulu yaya qaşların.

Qaşların qalemdir, gözlerin hece,
Baqışın gülüstan, benlerin nice,
Sevindir Qaribi barı bir gece,
Vermez mi düşgüne paye vücudun.

11. Bu şe'rin Göyçədən toplanmış variantı belədir:

Səhər-səhər çıxdın çəmən gəştinə,
Sənsən Sənəmlərin ağı, Ağcaqız!
Mən ki, elə səni Sənəm bilirdim,
Sənsən Sənəmlərin yağı, Ağcaqız!

Bağında bitən heyvadı, nardı,
Bizi xəlq eyləyən pərvərdigardı,
Gəzmə belə, burda naməhrəm vardı,
Açılıb göysünün bağı, Ağcaqız!

Aşıq Qərib badələrin içəndə,
Canından, başından onda keçəndə,
Şahsənəmlə sərxoş olub çökəndə,
Sənsən o məclisdə saqi, Ağcaqız!

Bu şe'r həm də «El şairləri» kitabında getmişdir.

Qazax və Borçalıdan toplanmış variantda bu qoşmanın 1-ci bəndi belədir:

Səni gördüm, oldu ağlım pərişan,
Əridi ürəyimin yağı, Ağcaqız!
Mən öz muradımı aldığım zaman,
Tanımazsan solu-sağı, Ağcaqız!

12. Türkmən «Şasenem-Qarip» dastanında bu şe'rin variantı belədir:

Boz dumanlı dağlar aşıp,
Ahu gözlüm maral geldi;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşqın sevdasına düşüp,
Ahu gözlüm maral geldi.

Avçılar avlarlar avı,
Yanında çağmağı, qovı,
Başda gelen serdarını,
Tutgıl, avçı, maral geldi.

Avçılar avlar dağında,
Balı şeker dodağında,
Günin günorta çağında,
Gözel avçı, maral gəldi.

Senem bilen akca gelin,
Dilin yürecigim dilin,
Şidde guşan ince belin,
Senem avçı, maral gəldi.

Talandı ömrim, talandı,
Çığ düşdi bağca suvlandı,
Çarbağı üç-dörd aylandı,
Zalım avçı, maral gəldi.

Halları vardır, lebinde,
Seni gören ğalar derde,
Dal dolanıp duran yerde,
Senem avçı, maral gəldi.

Eynine geyipdir ala,
Biri gülgün, biri lele,
Ağ qolların sala-sala,
Senem avçı, maral gəldi.

Ğadamları göz üstine,
Qurbanam çeşmi mestine,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mirevvet eyler dostuna,
Senem avçı, maral gəldi.

Qarip aşıq diymez yalan,
Ömrimize salma talan,
Servi ağacına dolan,
Senem avçı, maral gəldi.

«SMOMPK» məcmuəsində bu şe’r belə getmişdir:

Uca dağlar başından,
Avçı, avçı, maral gəldi, dur!
On dörd, on beş yaşında,
Avçı, avçı, maral gəldi, dur!

Dolan sərv ağacı, dolan,
Yoxdur sözümdə yalan,
Ala gözlü canımı alan,
Avçı, avçı, maral gəldi, dur!

Ağca qız bilir fəndini,
Aç sinəmin bəndini,
Əmə Sənəm dodaqlarım qəndini,
Avçı, avçı, maral gəldi, dur!

İstanbul variantında bu şe’rin 4-cü bəndi belədir:

Hovz başında oturur,
Dəstiyi suya batırır,
Görüncə ağlın şaşırır,
Uyan, avçı, avın gəldi.

13. İstanbul variantında bu şe’r belədir:

Nə hikmət, bən heyrətdə qalmışam,
Yar yanıma gəlmiş, necə duymadım?!
Bir əcayib qəflətlərə dalmışam,
Yar yanıma gəlmiş, necə duymadım?!

Anın üçün bənim burda qaldığım,
Ayıblama bənim məcnun olduğum,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir sevdadır düşdü qərib başıma,
Yar yanıma gəlmiş, necə duymadım?!

Qərib edər: dərdə çara bulaydım,
Yar ilə bən tənhaca qalaydım,
Əhd-imanımı icra qılaydım,
Yar yanıma gəlmiş, necə duymadım?!

14. Bu şe’rin «SMOMPK» məcmuəsində nəşr edilmiş variantı belədir:

Bir bəri bax, yüzün görəyim,
Gedəm, yar, əglənəm, bəlkə gəlmiyəm.
Urum diyarında səndən gözəli,
Sevəm, yar əylənəm, bəlkə gəlmiyəm.

Yaxşı olur hər igidin vətəni,
Qınamazlar dost kuyindən ötəni,
Qızıl gül yerinə qara tikanı,
Qucam, yar, əylənəm, bəlkə gəlmiyəm.

Qəza atdı mən Qəribin daşını,
Gözlərim axıtdı qanlı yaşını,
Əcəl yastığına qoyum başımı,
Öləm, yar, əylənəm, bəlkə gəlmiyəm.

Azərbaycan SSR EA Respublika Əlyazmaları fondunda mühafizə edilən B-1251 №-li cüngdə olan variantda bu şe’r belədir:

Qalxdı, köç eylədi könül karvanı,
Varam da, əylənəm, bəlkə gəlməyəm.
Urum diyarında dəli dövranı,
Sürəm də, əylənəm, bəlkə gəlməyəm.

Səni sevdim ol payızın bəhrində,
Üzün gördüm qızıl gülün təhrində,
Varid barı ol Hələbin şəhrində,
Qalam da, əylənəm, bəlkə gəlməyəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dön bəri, dön bəri, üzün görəyim,
Siyah zülfün mah üzünə hörəyim,
Bir əmanətim var, sənə verəyim,
Öləm də, əylənəm, bəlkə gəlməyəm.

Heç sevməzlər qəriblikdə itəni,
Hər kişiyə Bağdad imiş vətəni,
Qızıl gül yerinə qara tikanı,
Qucam da, əylənəm, bəlkə gəlməyəm.

Havaya uçurdum könül quşunu,
Movlam məni anar, gəl onun işini,
Əcəl yastığına mən də başımı
Qoyam da, əylənəm, bəlkə gəlməyəm.

Quba qazlar təki boynun uzat, say,
Yavrı sona təki üzün düzəlt, say,
Yeddi il Qəribin yolun gözət, say,
Gedəm də, əylənəm, bəlkə gəlməyəm.

İstanbul variantında bu şe'rin 5 bəndi belədir:

Aldı Qərib:

Qurbanın olduğum, gözəl yüzlü Sənəm,
Gedəm, yar, əglənəm, bəlkə gəlməyəm.
Bu ayrılıq bizə haqdan deyilmi?
Gedəm, yar, əglənəm, bəlkə gəlməyəm.

Aldı Sənəm:

Dəgmə, yigitlərdə olmaz həqiqət,
Var, Qəribim, sağlıq ilə gələsin.
Vardır, bilirəm, səndə məhəbbət,
Var, Qəribim, sağlıq ilə gələsin.

Aldı Qərib:

Yazılmış alnıma eşqin əzəli,
Güz gəlincə bağlar tökər ğəzəli;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bən Rum diyarında səndən gözəli,
Saram, dost, əglənəm, bəlkə gəlməyəm.

Aldı Sənəm:

Qərib, bu sözlərin haqqa yaramaz,
Sözündə durmayan yigit olamaz,
Eldə gözəl çoxdur, sana yaramaz,
Var, Qəribim, sağlıq ilə gələsin.

Aldı Qərib:

Qərib edər: bənim halım yamandır,
Yuca dağlar başı tozdur, dumandır,
Bu ayrılıq bizə xeyli zamandır,
Gedəm, dost, əglənəm, bəlkə gəlməyəm.

15. Bu şe’rin «SMOMPK» məcmuəsində nəşr edilmiş variantı belədir:

Başına döndüyüm, qurban olduğum,
Get, Qəribim, sağlıq ilə gələsən!
Oduna yandığım, biryan olduğum,
Get, Qəribim, sağlıq ilə gələsən!

Qərib olan ellərdə qalar,
Maral sərxoş olsa, çollərdə qalar,
Sən gedərsən, gözüm yollarda qalar,
Get, Qəribim, sağlıq ilə gələsən!

Şahsənəməm, belə yazlaram,
Kabab kimi bağrım başın duzlaram,
Ölənədək yolunu gözlərəm,
Get, Qəribim, sağlıq ilə gələsən!

Sofya variantında bu şe’rin birinci bəndi belədir:

Qurbanın olduğum, gün yüzlü Senem,
Gedirsem gelmeyem, belki eglenem.
Bu ayrılıq bize haqtan degilmi?
Gedirsem gelmeyem, belki eglenem.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Türkmən variantında bu şe'rin 4 bəndi belədir:

İndi köç eyledi kövün kervəni,
Göcende eglenem, belki gelmenem.
Menden ğayrı bilen sürgin dövranı,
Sürende eglenem, belki gelmenem.

Qarıpların bolmaz belli varanı,
Edemezler qarıplıqda yatanı,
Qızıl gülin degresinde biteni,
Tirende eglenem, belki gelmenem.

Bu ne avı erdı qoşdın aşıma,
Sen seversen gözden aqan yaşıma,
Acal yasdığını qoyup başıma,
Yatanda eglenem, belki gelmenem.

Bilmeyin ezimi saldım bu derde,
Hemra bolup senin deyin namarda,
Yar, yar diyip, gezer erdim hər yerdə,
Gezende eglenem, belki gelmenem.

16. İstanbul variantında bu deyişmənin 4 bəndi belədir:

Aldı Qərib:

Qurbanın ollam, aman, hey nənə,
Gedim qürbət ilən gəzim bir zaman.
Bir gözəlin sevdası var başımda,
Gedim qürbət ilən gəzim bir zaman.

Aldı validəsi (anası):

Sən yürəgim doldurdun bənim,
Qürbətə getməklə ağlatdın bizi.
Ağlımı başımdan aldırdın bənim,
Qürbətə getməklə ağlatdın bizi.

Aldı Qərib:

Canım ana, lütf et, ağlatma bəni,
Eylədim haqqa əmanət bən səni,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çağırın gəlsin ani də görəyim,
Qız qarındaşım gözüm nuri qəni.

Aldı validəsi:
Sana edəm, o qəm bulsun xudadan,
Qərib, validənin bağrı xun oldu.
Bir az bəlkə, o qəm həmşirən gələ,
Anın da gözləri qan ilə doldu.

«SMOMPK» variantında bu şe’rin 4 bəndi belədir:

Aldı Qərib:
Başına döndüyüm, gül üzlü ana,
Gedim, qürbət eli gəzim bir zaman.
Bir gözəlin sevdası var başımda,
Gedim, qürbət eli gəzim bir zaman.

Aldı Qəribin anası:
Oğul, yürəgimi deşdin mənim,
Qürbətə getməklə ağlatma məni.
Ağlımı başdan elədin,
Qürbətə getməklə ağlatma məni.

Aldı Qərib:
Rəhm elə, ana, qoy gedim məni,
Eylədim haqqa amanat səni,
Bacım Şəhrabanı bəs hanı,
Gedim, qürbət eli gəzim bir zaman.

Aldı Qəribin anası:
Oğul, mərhəmət sana xudadan gələ,
Ayrılığın qəmi ürəyim dələ,
Bir az gözlə, həmşirən gələ,
Qürbətə getməklə ağlatma məni.

17. «SMOMPK» məcmuəsində bu şe’rin 6 bəndi belədir:

Aldı Qərib:
Başına döndüyüm, gülüzlü Xoca,
Canım xoca, harda gördün Sənəmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə gündüzüm gündüz, nə gecəm gecə,
Aman Xoca, harda gördün Sənəmi?

Aldı Xoca Əhməd:

Axtara-axtara gəlib tapmışam,
Dur ayağa, vətən sarı sən yeri.
Könül tikmişəm, Kə'bə yapmışam,
Dur ayağa, vətən sarı sən yeri.

Aldı Qərib:

Bu sinəmdə dürlü-dürlü yaralar,
Təbib əl vurmasa dərdə nə çaralar?!
Sevdiyim qırmızı geymiş, yoxsa qaralar?!
Aman Xoca, harda gördün Sənəmi?

Aldı Xoca Əhməd:

Qayıb etmiş səni ararlar,
Ölmüş sanıb hər gələndən sorarlar,
Anan, bacın, Sənəm geymiş qaralar,
Dur ayağa, vətən sarı sən yeri.

Aldı Qərib:

Necə girdin Tiflis bağına,
Baxdınmı heç solu sağına?
İndi Qərib gedər dostun yoluna,
Aman Xoca, harda gördün Sənəmi?

Aldı Xoca Əhməd:

Xoca Əhmədəm, girməmişəm Tiflis bağına,
Baxmamışam orda solu sağına,
Kor olmuş anan ağlamaqdan oğluna,
Dur ayağa, vətən sarı sən yeri.

18. Bu şe'rin Qazaxdan toplanmış variantında 1, 2-ci bəndləri belədir:

Arzulayıb çıxdım diyar-qürbətə,
Ağlaram, sızlaram, kimsəm yox mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən yazıcaq düşdüm eldən ellərə,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

Gənc yaşımda tərk eylədim vətənim,
Çox-çox zəif oldu mənim bu tənim,
İndi belə olmuş qərib məskənim,
Ağlaram, sızlaram, kimsəm yox mənim.

19. Bu şe'rin türkmən variantı belədir:

Halapdan munda gelmişem,
Ene, men Qarıbam, Qarıp!
Terki vatan eylemişem,
Ene, men Qarıbam, Qarıp!

Men çekdim köp ahı-zarı,
Canım aldı derdin dağı,
Qarıp ussat, men şegirdi,
Ene, men Qarıbam, Qarıp!

Raqiplara qayıl bolma,
Qarıp diysem mayıl bolma,
Onın üçin sayıl bolma,
Ene, men Qarıbam, Qarıp!

Dili bağlıyem dünyəde,
Sever yarım gitdi yada,
Şahimerdan yetip dada,
Ene, men Qarıbam, Qarıp!

Biz hem çekdik cebru cepa,
Hiç kimden görmedik vepa,
Gözlerine verem şefa,
Ene, men Qarıbam, Qarıp!

Al çiçek geyinmiş dağlar,
Şkufte açılmış bağlar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dilim sayrar, diydəm ağlar,
Ene, men Qarıbam, Qarıp!

Qarıp Qara dağdan aşıp,
Sınasına çoh dert qoşup,
Gül yüzine perde düşüb,
Ene, men Qarıbam, Qarıp!

Qarıp aşıq içip camı,
Gezdi Halap, Rumı, Şamı,
Gəldi, alar Şasenemi,
Ene, men Qarıbam, Qarıp!

20. Sofya və İstanbul variantlarında bu şe'r belədir:

Dün gece, dostlar Halep şehrinde,
Aşqın dolusunu içtim de geldim.
Malı-melalı verib yoluna,
Serimden, canımdan keçdim de geldim.

Erzurumda oldum eyle biqerar,
Nəsib oldu Qarsta ilkindi bana,
Tiflisə o aqşam eyledim dua,
Hızırın atına bindim de geldim.

Aqşam namazında geldim haneme (xanama),
Duyurmadım sirrim bacım, anneme,
Aşqın hancerini vurdum sineme,
Türlü yaralarım açtım da geldim.

Hep ağalar, bekler bana gülüştü,
Diyarü qürbete cigerim pişti,
Hızır benim imdadıma irişdi,
Hızırın atına bindim de geldim.

Eger saçı Leyla beni ararsa,
Tel-tel edip zülflerin dararsa,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağalar doğrusun bena sorarsa,
Erzurum dağların aştım da geldim.

Erenlerin eli beni tutmuşlar,
Eşler, dostlar hep beni unutmuşlar,
Eşittim Senemi gelin etmişler,
Dügüne Halebtə şaştım da geldim.

Qurban olayım ben yarın huyuna,
Canım feda olsun qaşın yayına,
Bu alemde senin servi boyuna,
Türlü libaslar biçtim de geldim.

«SMOMPK» variantında bu şe’r belədir:

Dün gecə Hələb şəhrində
Misir piyaləsin içdim də gəldim.
Yeridim, yetişdim bir şəhsüvara,
Onun peşvazına düşdüm də gəldim.

Dalımı verdim bir daş qalaya,
Qədir allah əcəb yetdi haraya,
Fərat çayı düşdü araya,
Qır atın tərkinə mindim də gəldim.

Ərzurumda qıldım günortanı,
Əda eylədim Qarsda ikindini,
Tiflisdə qıldım axşam namazını,
Xizr atına mindim də gəldim.

Axşam qaralmamış gəldim xanama,
Duyurmadım sirrim anam, bacıma,
Eşq xəncərini urdum sinəmə,
Dürlü yaralarım açdım da gəldim.

Ərənlərin əli məni tutmuşlar,
Aşnalar, dostlar məni unutmuşlar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eşitdim Sənəmi gəlin etmişlər,
Toyun Hələbdə duydum da gəldim.

Bir əl vurun, aşıq girsin oyuna,
Mən qurbanam qamətinə, boyuna,
Mən Qəribəm, gəlmişəm Şahsənəmin toyuna,
Canımdan, başımdan keçdim də gəldim.

Bu şe'rin türkmən variantı belədir:

Ağalar, düyn gecə Halap şəhrinden,
Muhapbet şerabın içdim de geldim,
Ayın eylemən begler, munda geldi diyip,
Bir yar sövdasına düşdim de geldim.

Halapdan çıqmışam namazı erte,
Kerbela çölündən keçdim günorta,
Belentde yükürip, pes yerde yorta,
Köp beyik dağlardan aşdım da geldim.

Gün ortanlar geldim guyulı düze,
Öyle vaqtı geldim Soltan Tevrize,
Ağşam şam berdiler Diyarda bize,
Beyik-beyik dağlar aşdım da geldim.

Elimi vermişim merdan eline,
Sıçrayıb minmişem düldül biline,
Arasın mövc uran daşğın sılına,
Hızır necat berdi, uçdım da geldim.

Axşam çağı geldim bendi hanıma,
Sırımı bermedim bacım eneme,
Işğın hancarını çekib sınama,
Başımdan, canımdan keçdim de geldim.

Yüzini oqşatdım bahram ayına,
Qaşını menzetdim keman yayına,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Batıp erdim melamatın layına,
Dərya kibi dolup daşdım da geldim.

Atımı bağladım nar ağacına,
Bir kement taşladım dar ağacına,
Qurban bolsın başım yar ağacına,
Töhmet bilen sından qaçdım da geldim.

Egilsin, bükülsün raqıbın bili,
Dünyəde gör bolsın görmesin gezi,
Qara bolsın iki dünyəde yüzi,
Işğın belasından çaşdım da geldim.

Qurban olam yarın qaddı boyına,
Sazımı alıban girdim eyine,
Qarıp aşıq Şasenemin toyına,
Movlam qanat berdi, uçdım da geldim.

21. İstanbul və Sofya variantında bu şe'r belədir:

Qurbanın olayım, aman, yar Senem!
Nazlı-nazlı gel qarşımda dur Senem!
Bir-bir libasların tarif edeyim,
Geyin, qurşan, ver könlüme nur, Senem!

Senem ben sana eylerim dileyi,
Bine aldım şu bürümcek gömleyi,
Yedi yüze aldım şu şal yeleyi,
Servi boya layıq oldu, gey, Senem!

Beş binedir astarilə şalvarı,
On binedir şu mücevhər kemeri,
Üç binedir fəsi ilə çenberi,
İncileri dizdirmişem, gey, Senem!

Binedir Halebin çiçeklisi,
Şamın beş yüzedir qotnusu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dörd binedir Hindin zehurisi,
Sana bunlar yaqışır, gey, Senem!

Ben görmedim senin gibi nazlı,
Beş binedir işbu göhər yüzügü,
Üç binedir qolunun bilerzigi,
Ağ qollara yaqışır taq, Senem!

Xoş olur Tiflisin alması,
Yüz quruşdur saçının hörmesi,
Yar, sana getirdim Halep hanası,
Ağ ellere yaqışır, yaq, Senem!

Senem, getirmişem belin quşağı,
Bir quruşa feraca ile yaşmağı,
Üç yüzedir ağ topuğun başmağı,
Gözel vicuduna yaqışır, gey, Senem!

Pek hoş olur qürbet eli gezmesi,
Şeker ile badamının ezmesi,
İki yüze ayağının cızması,
Ağ topuğa oldu səza, gey, Senem!

Seni bana verdi cenabi-qəni,
Qırq kiseye aldım o gərdanlığı,
Kimselere eyleme nadanlığı,
Gülüşelim, oynaşalım, ay Senem!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## İRVAHIM

Bu dastanın nəsr hissəsi «Şəmi» nağılının variantına çox yaxındır. Bu kitabda gedən variantı Nurəddin Seyidov Qazağın Ağköynəkli kəndində yaşayan Aşıq Məmmədyardan toplamışdır.

Dastanın variantları 1937-ci ildə nəşr edilmiş «Dastanlar və nağıllar» kitabında və 1962-ci ildə isə «Azərbaycan xalq dastanları» kitabında getmişdir.

1. Dastanın Şamxor variantında bu qoşma belədir:

Qürbətdə qəribin halı necolar?
Gözüm yolda qaldı, gedən gəlmədi.
Arayı kəsdi ay qaranlıq gecələr,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Taqatım yox özümü sənə yetirim,
Hər nə desən mən müşkülünü bitirim,
Qardaş dedi: gedim taam gətirim,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Qardaş getdi gətirsin taam,
Gözü yolda qanlar ağlar, İrvahım,
Getdi gəlmədi o Aslan şahım,
Gözüm yolda qaldı, gedən gəlmədi.

«Azərbaycan xalq dastanları» kitabında bu qoşma belə getmişdir:

Qürbətdə pis olar qəribin halı,
Gözüm yolda qaldı, gedən gəlmədi.
Aranı kəsdi ay qaranlıq gecə,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Gedən, getmə, mən də gəlim yetirim,
Sən abdal ol, mən kəşgülün götürüm;
Qardaş dedi: gedim çörək gətirim,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Göydə bulud bulam-bulam bulanır,
Yaralarım göz-göz olur, sulanır,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qardaş gəlib gömbəzini dolanır,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Sən mənim soltanım, sən mənim şahım,
Ərşə dolanıbdı amanım, ahım;
Gömbəzdə qalıbdı yazıq İbrahim,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Dastanın Tovuz variantında bu qoşma belədir:

Başına döndüyüm, haramıbaşı,
Gözüm yolda qaldı, gedən gəlmədi.
Axır heç qurumaz gözümün yaşı,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Göz yaşınnan şəcarələr bitirəm,
Taqətim yox özümü sənə yetirəm.
Qardaşım gedibdi taam gətirə,
Gözüm yolda qaldı, gedən gəlmədi.

Saqi, məclisində dürlü badayam,
Dərdin yanında həddən ziyadayam,
İrvahımam, mən də bir şahzadayam,
Gözüm yolda qaldı, gedən gəlmədi.

2. «Azərbaycan xalq dastanları»nda bu qoşmanın 1, 2, 3-cü bəndləri belədir:

Başına döndüyüm, Ziyad haramı,
Öldürmə, çörəyə bağışla məni!
İtkin qardaş bağlamazmı yaramı,
Öldürmə, çörəyə bağışla məni!

Həmişə mən getdim ilqar düzüynən,
Yol tapmadım qaçam dünya üzüynən,
Bu beinsaf, bemürvətin sözüynən,
Öldürmə, çörəyə bağışla məni!

Yaman sözlər ürəyimi dağlayar,
Ürəyimin başı çarpaz bağlayar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qardaş gəlib qəbrim üstə ağlayar,
Öldürmə, çörəyə bağışla məni!

«Azərbaycan xalq dastanları»nda bu şe’r belədir:

Başına döndüyüm, haramı qardaş,
Sən gəl zülm eləyib öldürmə məni!
Ağlaram, didəmdən gedər qanlı yaş,
Sən gəl zülm eləyib öldürmə məni!

Bahar olar, göllərimiz bulanı,
Göz-göz olub yaralarım, sulanı,
Qardaş gəlib günbəz dibin dolanı,
Sən gəl zülm eləyib öldürmə məni!

Yazıq İbrahimin nədi günahı?
Onun ucalmışdı göylərə ahı;
Yoxdu kimsənəsi, yoxdu pənahı,
Sən gəl zülm eləyib öldürmə məni!

Bir variantda isə bu qoşmanın axırıncı bəndi belədir:

Qardaşım getdi gətirə taamı,
Oduna yandırram dili, dahanı,
Taqsırsız, günahsız bu İrvahımı,
Gəl zülm eyləyib öldürmə məni!

Dastanın aşıq Zülfüqardan toplanmış variantı belədir:

Başına döndüyüm, qurban olduğum,
Öldürmə, allaha bağışla məni!
Alışıb oduna büryan olduğum,
Öldürmə, allaha bağışla məni!

Bahar olcaq çeşmələrimiz bulanar,
Yaralarım göz-göz olub sulanar,
Qardaşım gələr, günbəzdibi dolanar,
Öldürmə, allaha bağışla məni!

Qulluğunuzda qolu bağlıyam,
Ata, anadan yaralı, ciyər dağlıyam,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İrvahımam, Zülal şahın oğluyam,
Öldürmə, allaha bağışla məni!

Dastanın Tovuz variantında bu qoşmanın axırıncı bəndi belədir:

İrvahım deyər: can Ziyad haramı,
İtkin qardaş bağlamadı yaramı,
Beyman qarı vurdu onla aramı,
Öldürmə, allaha bağışla məni!

3. Dastanın Tovuz variantında bu qoşmanın ikinci bəndi belədir:

Zalım fələk bizim üçün yağıdı,
Qoymadı bir çəkəm genə dərdimi.
Axırı bu ölkəni də dağıdı,
Çıxartmadım bir məkana dərdimi.

El yığılsa dərdim üçün verməərəm,
Bir gün gülsəm, yüz min şadlıq görmərəm;
Mən bu dərdi heç də çəkə bilmərəm,
Fələk versin bir çəkənə dərdimi.

«Azərbaycan xalq dastanları»nda bu qoşmanın iki bəndi belədir:

Qanlı fələk mənlə yaman yağıdı,
Gətiribdi həddi-sana dərdimi;
Bu ölkəni bir gün gələr dağıdı,
Çıxartmasam bir məkana dərdimi.

Bir gün gülsən, yüz gün hala gəlmərəm,
Özüm öz dərdimi çəkə bilmərəm;
Ölümü istərəm, ancaq ölmərəm,
Fələk versin bir çəkənə dərdimi.

4. Dastanın Tovuz variantında bu deyişmənin iki bəndi belədir:

İrvahım:

Başına döndüyüm gül üzlü xoca,
Xocam, bir yar deyim, ver nişan barı.
Nə günüm gündüzdü, nə gecəm gecə,
Xocam, bir yar deyim, ver nişan barı.

İrvahım:

Uca-uca dağların o qarıdı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baxçaların heyvasıdı, narıdı,
Hürnisədi–İrvahımın yarıdı,
Xocam, bir yar deyim, ver nişan barı.

«Dastanlar və nağıllar» kitabında bu qoşma belə getmişdir:

İbrahim:

Xocalar xocası, xocalar xası,
Xocam, bir yarımdan xəbər ver barı.
Silinsin, qalmasın könlümün pası,
Xocam, bir yarımdan xəbər ver barı.

Xoca Əziz:

Xoca baban alsın sənin qadanı,
Oğul, sən adın de, mən nişan verim.
Danışsan, eşidəm mən də sədanı,
Oğul, sən adın de, mən nişan verim.

İbrahim:

Dərin-dərin dəryalarda adadır,
Gözəllər dəstində dolu badadır,
Herat şəhrində bir şahzadadır,
Xocam, bir yarımdan xəbər ver barı.

Xoca Əziz:

Mən gələndə pəncərədə durmuşdu,
Ağ üzündə həlqə birçək burmuşdu,
Firəngi qayçılə telin vurmuşdu,
Oğul, sən adın de, mən nişan verim.

İbrahim:

İbrahiməm, şirin candan bezaram,
Özüm oxuduğum özüm yazaram,
Nə müddətdi itgin qardaş gəzərəm,
Xocam, bir yarımdan xəbər ver barı.

Xoca Əziz:

Xoca Əziz xocaların gözüdür,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sinəm üstündəki eşqin gözüdür,
Heratda Fətəli şahın qızıdır,
Oğul, sən adın de, mən nişan verim.

«Azərbaycan xalq dastanları» kitabında bu şe'r belədir:

İbrahim:

Xocalar xocası, xocalar xası,
Xocam, bir yar deyim, ver xəbər barı.
Silindi, qalmadı könlümün pası,
Xocam, bir yar deyim, ver xəbər barı.

Xoca Əziz:

Xoca baban alsın sənin qadanı,
Oğul, sən de adın, mən xəbər verim.
Bir de, danış, qoy eşidim sədanı,
Oğul, sən de adın, mən xəbər verim.

İbrahim:

Dərin-dərin dəryalarda adadı,
Gözəllər dəstində dolu badadı,
Herat şəhərində bir şahzadadı,
Xocam, bir yar deyim, ver xəbər barı.

Xoca Əziz:

Mən gələndə pəncərədə durmuşdu,
Ağ üzündə həlqə birçək vurmuşdu,
Firəngi qayçıynan telin burmuşdu,
Oğul, sən de adın, mən xəbər verim.

İbrahim:

İbrahiməm, şirin candan bezaram,
Dərsimi oxuyub, özüm yazaram,
Nə müddətdi yar dalınca gəzərəm,
Xocam, bir yar deyim, ver xəbər barı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xoca Əziz:

Xoca Əziz xocaların gözüdü,
Sinəmə vurulan eşqin gözüdü,
Sorduğun Fətəli xanın qızıdı,
Oğul, sən de adın, mən xəbər verim.

5. Dastanın Tovuz variantında bu deyişmə belədir:

Aldı qız:

Soltan oğlan, a xan oğlan,
Qayıt gəl bəri, gəl bəri!
Sən odiynən yanan oğlan,
Qayıt gəl bəri, gəl bəri!

Aldı İrvahım:

Hərcayı danışma, gözəl,
Qayıdıb gələ bilmərəm.
Bir yarım var səndən gözəl,
Qayıdıb gələ bilmərəm.

Aldı qız:

Gözəllərin gözü mənəm,
Aşıqların sözü mənəm,
Sevgilinin özü mənəm,
Qayıt gəl bəri, gəl bəri!

Aldı İrvahım:

Bir qıya baxışın qandı,
Od düşüb çəsədim yandı,
Yarımın adı Yaməndi,
Qayıdıb gələ bilmərəm.

Aldı qız:

Hürnisənin sözü haxdı,
Dünyadan könlüm toxdu,
Mənnən qeyri yarın yoxdu,
Qayıt gəl bəri, gəl bəri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı İrvahım:

İrvahımam, elim vardı,
Bağçalarda gülüm vardı,
Sinəm üstə yerim vardı,
Danışıb gülə bilmərəm.

«Azərbaycan xalq dastanları» kitabında bu deyişmənin variantı belədir:

Aldı Hürnisə:

Sallanıban gələn oğlan,
Oğlan, gəl bəri, gəl bəri!
Məni dərdə salan oğlan,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı oğlan:

Məni eyləmə yolumdan,
Get, pərim, gələ bilmərəm.
Bülbül ayrılmaz gülündən,
Get, pərim, gələ bilmərəm.

Aldı Hürnisə:

Çox işlər etdim irada,
Səninlə mən içdim bada,
İstərəm yetmək murada,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı oğlan:

Eşidəm söhbət-sazını,
Bir çəkəm işvə-nazını,
Fətəli xanın qızını;
Get, pərim, gələ bilmərəm.

Aldı Hürnisə:

Gözəllərin gözü mənəm,
Aşıqların sözü mənəm,
Yarının da özü mənəm,
Oğlan, gəl bəri, gəl bəri!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı oğlan:

Dağların başı dumandı,
Dindirmə, halım yamandı,
Yarımın adı Yəməndi,
Get, pərim, gələ bilmərəm.

Aldı Hürnisə:

Hürnisəyəm, çoxdu ahım,
Bilmirəm nədi günahım?
Can sənə qurban, İbrahim,
Oğlan, gəl bəri, gəl bəri!

Aldı oğlan:

İbrahiməm, gətirmişəm,
İşi bura yetirmişəm,
Aslan qardaş itirmişəm,
Get, pərim, gələ bilmərəm.

Bir variantda bu şe'rin son bəndi belədir:

Dalıncan ki, gəlmir fərman,
Mən ollam dərdinə dərman;
Hürnisə də sənə qurban,
Qayıt gəl bəri, gəl bəri!

6. «Azərbaycan xalq dastanları»nda bu deyişmə belə getmişdir:

Aldı İbrahim:

Xocalar xocası, xocalar başı,
Xoca, mən qəribəm axşam bazarı,
Ağlaram, eynimin qurumaz yaşı,
Xoca, mən qəribəm axşam bazarı.

Aldı Musa:

Mən xocayam, güclü dövlət-malım var,
Oğul, nədi sən qəribin güzarı?
Xoş gəlibsən, gözüm üstə yerin var,
Oğul, nədi sən qəribin güzarı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı İbrahim:

Aləm bilir, mən canımdan doymuşam,
Dərdi-qəmi eldən-elə yaymışam,
Mən İreydə taxtü tacı qoymuşam,
Xoca, mən qəribəm axşam bazarı.

Aldı Musa:

Söylə görüm, niyə candan doyubsan?
Dərdi-qəmi eldən-elə yayıbsan?
Taxtü tacı niyə İreydə qoyubsan?
Oğul, nədi sən qəribin güzarı?

Aldı İbrahim:

İbrahiməm, mən canımdan bezaram,
Qürbət eldə dərdə necə dözərəm,
Nə müddətdi qardaş deyə gəzərəm,
Xoca, mən qəribəm axşam bazarı.

Aldı Musa:

Neynərəm soltanı, neynərəm xanı,
Qanına qataram sənin bu qanı;
Sənə qurban olsun Musanın canı,
Bala, nədi sən qəribin güzarı?

7. «Azərbaycan xalq dastanları»nda bu deyişmə belə getmişdir:

Aldı Hürnisə:

Başına döndüyüm, qurban olduğum,
Sən gedirsən Dağıstana, İbrahim.
Ala gözlərə heyran olduğum,
Sən gedirsən Dağıstana, İbrahim.

Aldı İbrahim:

Badi-səba yuxusundan ayılmış,
Nə süzülür Dağıstana gözlərin,
Kirpiyin neştərdi, tökür qanımı,
Qəsd eləyir şirin cana gözlərin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı Hürnisə:

Əmib, əmib yar ləbindən nə qandıq,
Alışıban eşqin oduna yandıq,
O Şəmin boyuna bağladıb sandıq,
Sən gedirsən Dağıstana, İbrahim.

Aldı İbrahim:

Gəldi Şəmin tacir, yel kimi əsdi,
Gələni, gedəni sındırdı, kəsdi,
Məni səndən ayırmaqdı, bil, qəsdi,
Bir öpəydim qana-qana gözlərin.

Aldı Hürnisə:

Eşitmirsən Hürnisənin sözünü,
Sən saldın canıma eşqin közünü,
Mən deyirəm sənə sözün düzünü,
Sən gedirsən Dağıstana, İbrahim.

Aldı İbrahim:

Yəhudi Heratda bir qala yapdı,
Özü hiyləgərdi, sözləri lafdı,
Aradı, axtardı, tez məni tapdı,
Qoy ağlasın yana-yana gözlərin.

8. Dastanın Şamxor variantında bu şe'r belədir:

Şəmin cuhud, sən allahı sevərsən,
Ay yahudu, gəl aparma yarımı!
Zülm edibən mənə necə qıyırsan?
Ay yahudu, gəl aparma yarımı!

Gül istəsən on iki dənə gül verrəm,
Pul istəsən beş min tümən pul verrəm,
Ağ üzümdən bir cüt busa al, verrəm,
Ay yahudu, gəl aparma yarımı!

Hürniseyi dərdü qəmə doydurma,
Yarı məndən, məni yardan ayırma,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İrvahımı qul adına buyurma,
Ay yahudu, gəl aparma yarımı!

«Azərbaycan xalq dastanları»nda bu qoşma belə getmişdir:

Şəmin cuhud, sən allahı sevərsən,
Yalvarıram, gəl aparma yarımı!
Rəhmin gəlsin qəriblərin halına,
Şəmin cuhud, gəl aparma yarımı!

Bu nə işdi sən elədin irada,
Qoymadılar biz yetişək murada;
İnsaf elə, məni salma fəryada,
Şəmin cuhud, gəl aparma yarımı!

Yol istəsən, hər tərəfə yol verim,
Pul istəsən, özü ağırı pul verim,
Xələt verim, sənə dövlət-mal verim,
Şəmin cuhud, gəl aparma yarımı!

Ey tacir, görüm ki, qırılsın qolun,
Sənin hər tərəfdən bağlansın yolun,
Hürnisə deyir ki, lal olsun dilin,
Şəmin cuhud, gəl aparma yarımı!

9. «Azərbaycan xalq dastanları»nda bu qoşma belə vermişdir:

Gözəl qızlar, gəlin sizə söyləyim,
Əl-əldən üzüldü, İbrahim getdi.
Yar bir bağ salmışdı qəmu möhnətdən,
Əl-əldən üzüldü, İbrahim getdi.

Mən varmadım nazlı yarın elinə,
İnandım zalımın fitnə-felinə,
Əcəb düşdü bir namərdin əlinə,
Əl-əldən üzüldü, İbrahim getdi.

Hürnisə xanımın gözü süzülsün,
Düşmənlərin qara bağrı əzilsin,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yağlı yarasına piltə düzülsün,
Əl-əldən üzüldü, İbrahim getdi.

10. Dastanın aşıq Zülfüqardan toplanmış variantında bu qoşmanın iki bəndi belədir:

Xocalar xocası, xocalar xası,
Xoca, bəy babama deyinən versin,
Yetişsin dadına mərdin ağası,
Xoca, bəy babama deyinən versin.

Söydücəyim irafiyə dayanmış,
Gülgəz bicəhləri əlvan boyanmış,
Mən necə bəyənməyim, allah bəyənmiş,
Xoca, bəy babama deyinən versin.

Dastanın Tovuz variantında bu deyişmənin üç bəndi belədir:

Aldı qız:

Başına döndüyüm gül üzlü molla,
A molla, yazginən bəy babam versin,
Yaz bu naməni, tez atama yolla,
A molla, yazginən bəy babam versin.

Aldı İrvahım:

Mollalar mollası, alimlər xası,
Bizim ellər hamı eldən əzizdi.
Silinsin, qalmasın könlümün pası,
Bizim dinlər hamı dindən əzizdi.

Aldı qız:

Mənim ahım ərş üzünə dayanmış,
Gülgəz birçəklərim əlvan boyanmış.
Mən neçə bəyənməyim, allah bəyənmiş,
A molla, yazginən bəy babam versin.

11. Dastanın aşıq Zülfüqardan toplanmış variantında bu qoşma belədir:

Səhər olcaq durub gedər oyuna,
Ana, vallah, mən oğlana getmərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Öpüb qucmaq gəlməz onun eyninə,
Ana, vallah, mən oğlana getmərəm.

Buyur imirziyə bir gəlsin bizə,
Mən deyim dərdimi, imirzə yaza;
O qız, mən qız–heç gedərmi qız qıza?
Ana, vallah, mən oğlana getmərəm.

Eşqin şərbətiynən doldur ver qanım,
Sövdaya düşübdü bu şirin canım;
İlqarından dönür Xeyrənsə xanım,
Ana, vallah, mən oğlana getmərəm.

«Azərbaycan xalq dastanları»nda bu qoşma belə getmişdir:

Səhər-səhər durar gedər oynuna,
Ana, vallah, mən oğlana getmərəm.
Elə bil ki, mən gəlmirəm eyninə,
Ana, vallah, mən oğlana getmərəm.

Qoyun deyil, qoyunlara qatam mən,
Toğlu deyil, qassablara satam mən,
Çiçək deyil, qoxulayıb atam mən,
Ana, vallah, mən oğlana getmərəm.

Arı desən, arılardan arıyam,
Duru desən, çeşmələrdən duruyam.
Xeyrənsəyəm Məmmədbağır yarıyam,
Ana, vallah, mən oğlana getmərəm.

12. «Azərbaycan xalq dastanları»nda bu şe’r belə getmişdir:

Haqdan gələn dəftərimi yazardım,
Yaxam qalıb dilbilməzin əlində.
Öz-özümə səhralarda gəzərdim,
Yaxam qalıb dilbilməzin əlində.

Neyləmişəm nazlı yara, o küsər,
Ürəyim nazikdi, söz eylər əsər,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəlib xəlvətlərdə o qulaq asar,
Yaxam qalıb dilbilməzin əlində.

İbrahiməm, mən varmadım elimə,
Qeyri bülbül yar olmasın gülümə,
Yalan sözlər gəlməz mənim dilimə,
Yaxam qalıb dilbilməzin əlində.

Dastanın Şamxor variantında bu şe’rin iki bəndi belədir:

Nə deyirsən öz-özünə küsər,
Bu canımdı qulluğunda sərasər,
Gəlib xəlvətlərdən o qulaq asar,
Yaxam qalıb dilbilməzin əlində.

İrvahımam, mən varmadım elimə,
Qeyri bülbül göndərmərəm gülümə,
Nə əlin əlimə, nə dilin dilimə,
Yaxam qalıb dilbilməzin əlində.

13. «Azərbaycan xalq dastanları»nda bu qoşmanın variantı belədir:

Qoca Şəmin sənə yalan deyibdi,
Əlac sənə qalıb, Firəngin xanı!
Babam məni İbrahimə veribdi,
Əlac sənə qalıb, Firəngin xanı!

Canım qurban İbrahimin canına,
Öldürübən batma nahaq qanına,
Bir namə yaz Dağıstanın xanına,
Əlac sənə qalıb, Firəngin xanı!

Səhər-səhər doğan dan ulduzuyam,
Anadan ayrılmış əmlik quzuyam,
Xeyrənsəyəm, Süleyman xan qızıyam,
Əlac sənə qalıb, Firəngin xanı!

Dastanın aşıq Zülfüqardan toplanmış variantında bu şe’r belədir:

Ol yəhudu sənə yalan söylüyüb,
Əlac sənə qalıb, Firəngin xanı.
Babam məni İrvahıma veribdi,
Əlac sənə qalıb, Firəngin xanı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir namə naz Dağıstanın xanına,
Canım qurban olsun yarın canına;
Öldürüb batmaynan nahaq qanına,
Əlac sənə qalıb, Firəngin xanı.

Meydanda qalmışam naəlac, naçar,
Burda səndən qeyri mənim kimim var?!
Xeyransayam, ollam sənə qarabaş,
Əlac sənə qalıb, Firəngin xanı.

14. «Azərbaycan xalq dastanları»nda bu qoşmanın variantı belədir:

Şəmin cuhud, yaradanı sevərsən,
Doğru qoyub, əyri getmə yolları.
Zülm eyləyib mənə necə qıyarsan,
Doğru qoyub, əyri getmə yolları.

Bir xəbər çıxmadı bəy qardaşımnan,
Ölüb qurtarmadım tə'nə daşınnan,
Yar da sənin olsun, əl çək başımnan,
Doğru qoyub, əyri getmə yolları.

İbrahiməm, deyəmmərəm sözümü,
Yaş yerinə qan bürüyər üzümü,
Şah oğluyam, itirmişəm özümü,
Doğru qoyub, əyri getmə yolları.

Dastanın aşıq Zülfüqardan toplanmış variantında bu qoşmanın iki bəndi belədir:

Hər nə oldu mənə qiya baxandan,
Doğru qoyub, əyri getmə yolları.
Şirin canım eşq oduna yaxandan,
Doğru qoyub, əyri getmə yolları.

Qurtarmadım elin təhnə daşından,
Xəbər çıxmadı mənə bəy qardaşımdan,
Yarı sənə verdim, açıl başımdan,
Doğru qoyub, əyri getmə yolları.

15. Dastanın Tovuz variantında bu deyişmə belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldı İrvahım:

Sənə deyim, mələkzada,
Gəmim də qaldı dəryada.
Ya gələm, ya gedəm bada,
Gəmim də qaldı dəryada.

Aldı qız:

Sənə deyim, cavan yarım,
Qoymurlar düşəm dəryaya,
Artıbdı dərdim, azarım,
Qoymurlar düşəm dəryaya.

Aldı İrvahım:

Mənim bu dərdimi bilsən,
Əlini yad ələ versən,
Aslan addı bir şah görsən,
De qardaş qaldı dəryada.

Aldı qız:

İstəyirəm burdan keçəm,
Bu dərdimi kimə açam?!
Əlac budu–zəhər içəm,
Qoymurlar düşəm dəryaya.

Aldı İrvahım:

Biz də gördük Dağıstanı,
Uzundu onun dastanı.
Əgər görsən şah Aslanı,
De İrvahım qaldı dəryada.

Aldı qız:

Dəryanın üzü sərindi,
Baxdıqca dibi dərindi.
Qorxma, yar, allah kərimdi,
Qoymurlar düşəm dəryaya.

«Azərbaycan xalq dastanları»nda Xeyransanın sözləri belədir:

Qaldım cəlladlar əlində,
Qoymurlar düşəm dəryaya.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Adın əzbərdi dilimdə,
Qoymurlar düşəm dəryaya.

İstərəm fənadan köçəm,
Yaxşıynan yamanı seçəm,
Az qalıb ki, zəhər içəm,
Qoymurlar düşəm dəryaya.

Xeyrənsəyəm, oldum dəli,
Gedər qışın, yazı gəli,
Şəminə demərəm bəli,
Qoymurlar düşəm dəryaya.

16. «Azərbaycan xalq dastanları»nda bu qoşma belədir:

Çoban qardaş, çoban qardaş,
Mən səni deyə gəlmişəm.
Məskəni biyaban qardaş,
Mən səni deyə gəlmişəm.

Dizdən kəsilmiş dirəyim,
Acımnan gedir ürəyim,
Səlbi boy, huri mələyim,
Mən səni deyə gəlmişəm.

Eşit İbrahim sözünü,
Çəkə bilməzsən nazını,
Süleyman xanın qızını,
Dəryada qoya gəlmişəm.

Dastanın Tovuzdan toplanmış variantında bu gəraylı belədir:

Sənə deyim, çoban qardaş,
Mən sizi deyə gəlmişəm.
Əppəçiyi yuvan qardaş,
Mən sizi deyə gəlmişəm.

Tutulmadı, ay diləyim,
Acından gedir ürəyim,
Dəryada qaldı mələyim,
Mən sizi deyə gəlmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eşit İrvahımım sözün,
Eşq yandırır sizə gözün.
O Süleyman xanın qızın,
Dəryada itirib gəlmişəm.

17. «Azərbaycan xalq dastanları»nda bu qoşma belədir:

Başına döndüyüm, ay sallaq qardaş,
İnsafı unudub öldürmə məni!
Ağlaram, didəmdən gedər qanlı yaş,
İnsafı unudub öldürmə məni!

Anam yoxdu, gəlsin məni ağlasın,
Bacım yoxdu, yaralarım bağlasın,
Tanrı sənin övladını saxlasın,
İnsafı unudub öldürmə məni!

Yar əlindən düyünlüyəm, dağlıyam,
Qürbətlikdə gedib kimə ağlıyam,
İbrahiməm, Zülal şahın oğluyam,
İnsafı unudub öldürmə məni!

Dastanın Tovuz variantında bu qoşma belədir:

Başına döndüyüm, gül üzlü sallax,
Öldürmə, allaha bağışla məni!
Dadına yetişsin o bircə allah,
Öldürmə, allaha bağışla məni!

Arif olan mənim sözüm haxlasın,
Ağam gəlib öz qulunu yoxlasın,
Xalıq, görüm, o balanı saxlasın,
Öldürmə, allaha bağışla məni!

Yoxdur burda İrvahımın qardaşı,
Axar, heç qurumaz didəmin yaşı,
Zülal şah oğluyam, Aslan qardaşı,
Öldürmə, allaha bağışla məni!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MÜNDƏRİCAT

Qurbani.....................................................................3
Qurbani (Diri versiyası)...........................................87
Tahir və Zöhrə.......................................................108
Aşıq Qərib.............................................................161
İrvahım...................................................................226
**Qeydlər...................................................................273**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Azərbaycan folkloru külliyyatı,**
**XIX cild, Dastanlar (IX kitab),**
Bakı, "Nurlan" nəşriyyatı, 2010.

*Nəşriyyat direktoru:*
***Nadir Məmmədli***

Kompüterdə yığdı:
***Səadət Əliyeva***

**Korrektoru:**
***Güllər Qələndərli***

Kompüter tərtibçisi və
texniki redaktoru:
***Ramin Abdullayev***

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 24 ç/v
Tirajı: 500
Qiymәti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Nurlan" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com